AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

İKRAM AĞASİYEV

# QAFQAZIN ALMAN ƏHALİSİ

**(ictimai-siyasi həyatı)**

***1860-1921***

“Şərq-Qərb”
Bakı –2010

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının 7 iyun 2010-cu il tarixli iclasının qərarı ilə çap edilir (protokol №6).*

Layihənin rəhbəri: **Y.M.Mahmudov**
*əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru,*
*professor*

Elmi redaktor: **İ.S.Bağırova**
*tarix elmləri doktoru*

Rəyçilər: **Ə.İ.Muxtarova**
*tarix elmləri doktoru*
**S.İ.Əliyev**
*tarix elmləri namizədi*

**İkram Ağasiyev. Qafqazın alman əhalisi (ictimai-siyasi həyatı) 1860-1921.** Bakı, "Şərq-Qərb", 2010, 252 səh.

Monoqrafiyada XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Qafqazda mövcud olmuş 250-yə yaxın alman koloniyasının ictimai-siyasi həyatının bu günə qədər araşdırılmamış məsələləri işıqlandırılır.

Geniş arxiv sənədləri əsasında yazılmış bu əsərdə postsovet tarixşünaslığında ilk dəfə olaraq Qafqaz alman kolonistlərinin Birinci Dünya müharibəsi illərində, Fevral inqilabı, Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan Demokratik Respublikası, həmçinin Sovet Rusiyasında Vətəndaş müharibəsi dövründə siyasi həyatının mürəkkəb prosesləri əks olunmuşdur.

Dörd fəsildən ibarət olan monoqrafiya tarixçilər, müəllimlər, aspirantlar, magistrlər, tələbələr və ümumiyyətlə, Qafqaz tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-34-542-1**

© AMEA Tarix İnstitutu, 2010
© İ.K.Ağasiyev, 2010
© "Şərq-Qərb" Nəşriyyat evi, 2010

## REDAKTORDAN

Oxucuların nəzərinə təqdim olunan "Qafqazın alman əhalisi (ictimai-siyasi həyatı) 1860-1921" adlı monoqrafiya İkram Ağasiyevin illər boyu təhlil etdiyi mövzuya – almanların Qafqazda məskunlaşması və onların bu regionun ictimai-siyasi həyatında oynadığı rola həsr olunmuşdur.

Əvvəlki tədqiqatlarından fərqli olaraq bu əsərin xronoloji çərçivəsi XIX əsrin ikinci yarısını – XX əsrin birinci rübünü – yəni artıq almanların Cənubi və Şimalı Qafqazın sosial-iqtisadi həyatında mühüm rol oynadığı və müəyyən təsirə malik olduğu dövrü əhatə edir. Məhz həmin dövrdə, yəni XIX əsrin 60-cı illərində almanlar Rusiyanın və Qafqazın sənayesində geniş fəaliyyətə başlamışdılar. Mis mədənlərində işə başlayan məşhur Simens qardaşları Batumda misəritmə zavodunun əsasını qoydular. Artıq XX əsrin birinci onilliyində isə Cənubi Qafqazda istehsal olunan misin yarısından çoxu almanlara məxsus səhmdar cəmiyyətlərin payına düşürdü.

Simens qardaşları firması həmçinin Daşkəsəndə kobalt zavodu tikmişlər. Müəllifin yazdığına görə, hətta Nobel qardaşları Cənubi Qafqazda Almaniyanın bank dairələrinin maraqlarını təmsil edirdilər. Cənubi Qafqaz inkişafda olan Almaniya sənayesinin və siyasi dairələrin daima maraq dairəsində idi. Regionda mövcud olan spirt, konyak və şərab zavodlarının böyük əksəriyyəti almanlara məxsus idi.

Cənubi Qafqazdakı kapital yatırımlarından yüksək gəlir götürən Almaniyanın sənaye və maliyyə dairələri öz hökumətlərinin Qafqazda apardığı siyasətin məzmununa əhəmiyyətli təsir göstərməklə Almaniyanın Qafqazda mövqelərinin möhkəmlənməsinə çalışırdılar. İ.Ağasiyev bu əsərdə maraqlı faktları işıqlandırır. Məsələn, "Deutsche Keizer" polad konserninin kralı Tissen Almaniyanın İqtisad idarəsinə göndərdiyi memorandumun mətnində aşağıdakı sözlər diqqəti cəlb edir: "Təbii sərvətlərin ələ keçirilməsini nəzərdə tutsaq, onda Almaniyaya elə Qafqaz lazımdır...". Almanların bu planları məhz müəllifin tədqiq etdiyi dövrdə həm iqtisadi, həm də ictimai-siyasi fəaliyyətində reallaşmağa başlayır.

Dünyanın siyasi səhnəsində Almaniya XIX əsrin ikinci yarısından, yəni 1870-1871-ci illərdə baş vermiş frank-pruss müharibəsindən sonra mühüm rol oynamağa başlamışdır. Məhz bu müharibənin nəticəsində Vahid Almaniya dövləti yarandı və yeni beynəlxalq münasibətlər sisteminin təməlini

qoydu. Həmin dövrdən etibarən Almaniyanın və Rusiyanın siyasi maraqları bir-birilə toqquşmağa başladı. Təqdim olunmuş kitabda İ.Ağasiyev bu iki dövlət arasında olan əlaqələri təfərrüatı ilə izləyir və "alman məsələsini" Rusiyanın daxili və xarici siyasətində daimi müzakirə predmeti olmasını zəngin sənədlər əsasında işıqlandırır. Bu məsələ beynəlxalq vəziyyətin gərginləşməsi və ya normallaşmasından asılı olaraq dəfələrlə gah Rusiyanın Xarici İşlər Nazirliyi, gah Daxili İşlər Nazirliyi tərəfindən qaldırılırdı.

1885-ci ildə V.K.Plevenin başçılığı ilə birgə komissiya yaradıldı və iki qanun layihəsi hazırlandı ki, onlar da çar III Aleksandr tərəfindən təsdiqləndi.

14 mart 1887-ci ildə birinci qanun qəbul edildi, burada sərhədyanı quberniyalarda almanların məskunlaşmasının məhdudlaşdırılması öz əksini tapmışdı. Qanunun müddəaları Polşa, Baltik dənizindən Qara dənizə qədər bütün qərbi quberniyalara, Qafqaz, Mərkəzi Asiya, Sibir və hətta Uzaq Şərqin sərhədyanı quberniyalarına və vilayətlərinə də şamil edilirdi.

Bu siyasət XX əsrin əvvəllərində də davam etdirildi. Müəllifin göstərdiyinə görə, Rusiya ilə Almaniya arasında ziddiyyətlər XX əsrin əvvəllərindən kəskinləşdikcə alman kəşfiyyatı Cənubi Qafqazda fəallaşırdı. Bu fəallıq həmin dövrdə qanlı toqquşmalarla müşayiət olunan milli münasibətlərdə də mühüm yer tuturdu. İ.Ağasiyev bu kəşməkəşli zamana aid olan maraqlı faktlar əldə edib sübut edir ki, 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi zamanı almanlar, neytral mövqe tutmalarına baxmayaraq, çox vaxt özləri erməni terrorunun qurbanlarına çevrilirdilər. Ermənilər isə onları "tatarlarla (azərbaycanlılarla) birləşməkdə" günahlandırıb, həm azərbaycanlılara, həm də almanlara basqınlar edirdilər.

Qafqaz almanlarının Birinci Dünya müharibəsi illərində həyat və fəaliyyətləri böyük maraq kəsb edir. Bu mürəkkəb dövrə İ.Ağasiyev "Qafqazın alman əhalisi (ictimai-siyasi həyatı) 1860-1921" adlı monoqrafiyasında xüsusi yer ayırır. İllər boyu Rusiya və sovet tarixşünaslığında belə bir fikir hökm sürürdü ki, müharibə vaxtında Rusiya almanları casusluqla məşğul olmuş, öz dövlətlərinə hər vasitə ilə xidmət etmişlər. Təbii ki, belə hallar olmamış deyildi, lakin müəllif hərtərəfli şəkildə tədqiq olunmuş arxiv sənədləri əsasında "Rusiyaya xəyanət" haqqında fikirlərin qərəzliliyini ifşa etmişdir. Onun yazdığına görə, kolonistlərin böyük əksəriyyəti Rusiyanı özlərinin ikinci vətəni hesab edirdilər və çar hökumətinin apardığı "antialman kampaniyası"nı ədalətsiz akt kimi qəbul edirdilər.

Müəllifin 1918-1920-ci illərdə Azərbaycan və Gürcüstan Respublikaları dövründə Qafqaz alman kolonistlərinin ictimai-siyasi həyatını təhlil

etməsi də tarixşünaslığımızın yeni bir uğuru sayıla bilər. Əsərin müsbət xüsusiyyətlərindən biri də odur ki, bu vaxta qədər Azərbaycanda yazılan tədqiqatlardan fərqli olaraq, burada Şimalı Qafqazın alman koloniyalarının yeri və rolu araşdırılmışdır.

İ.Ağasiyevin "Qafqazın alman əhalisi (ictimai-siyasi həyatı) 1860-1921" kitabını zənginləşdirən əsas məqam Azərbaycan, Gürcüstan, Rusiya və Ukrayna arxivlərindən toplanmış zəngin sənədlərdir ki, onların əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə çıxarılmışdır.

Dəyərli oxucularımıza təqdim olunmuş bu fundamental əsər həm mütəxəssislərə, həm də Azərbaycan və Qafqaz tarixinə biganə olmayan hər bir vətəndaşa maraqlı olacağına şübhə etmirəm.

**İradə Bağırova**
*tarix elmləri doktoru*

# GİRİŞ

Bugünkü qloballaşan dünyada dövlətlərin xarici siyasətində, dövlətlərarası problemlərin həllində milli diaspor təşkilatları böyük təsirə malikdir. Bununla yanaşı, tarix sübut edir ki, bəzən milli azlıq dövlətlərarası münasibətlərin qurbanına çevrilə bilər. Qloballaşma dövründə, dünya ölkələrinin polietnik xüsusiyyətlərinin daha qabarıq şəkildə özünü büruzə verdiyi bir dövrdə bu, çox narahatedici simptom olardı. Əsasən də Azərbaycan üçün milli diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı məsələlər daha aktualdır. Belə ki, bu gün dünyanın 70-dən artıq ölkəsində 150-dən çox Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir və onlar öz ətraflarında 20 milyon soydaşlarımızı birləşdirirlər. Bu təşkiltların fəaliyyətinin effektivliyinin yüksəldilməsi, daha optimal metodların işlənib hazırlanması, onların siyasi təsir dairəsinin genişləndirilməsi, bu sahədə qazanılmış dünya təcrübəsindən səmərəli istifadə əsasında mümkündür. Bu baxımdan hələ XVIII əsrin ikinci yarısında Rusiya imperiyasında, o cümlədən XIX əsrin ikinci yarısı – XX əsrin ilk onillikərində Qafqazda məskunlaşmış alman əhalisinin ictimai-siyasi həyatının mühüm məsələlərinin tədqiq edilməsi çox böyük əhəmiyyət kəsb edir.

İlk alman məskənləri Rusiya imperiyası ərazisində hələ orta əsrlərdə yaransa da, onların məskunlaşma prosesi XVIII əsrin sonu – XIX əsrin əvvəllərində kütləvi xarakter aldı. XIX əsrin ikinci yarısında, xüsusən Şimali Qafqazda bu proses daha da geniş vüsət almışdır. Nəticədə, Rusiya imperiyasında almanların sayı iki milyona yaxınlaşdı və onlar sayına görə imperiyanın 6-cı xalqına çevrildilər. Almanların sayının sürətlə artması, onların iqtisadi mövqelərinin güclənməsi, eyni zamanda Avropada Vahid Almaniya dövlətinin yaranması fonunda alman milli ruhunun dirçəlməsi çar hökumətini alman elementinə qarşı sərt addımlar atmağa vadar etdi.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində çar hökumətinin qəbul etdiyi diskriminasiya xarakterli qanun ların tətbiqi nəticəsində alman əhalisi müəyyən siyasi və iqtisadi sıxıntılar keçirməyə məcbur oldular.

Birinci Dünya müharibəsi illəri Rusiya imperiyasında yaşayan alman əhalisinin tarixində ən mürəkkəb və dramatik dövrlərdən biri olmuşdur. Müharibəyə səfərbərliklə və müəyyən məhrumiyyətlələ yanaşı, alman əhalisi ona qarşı yönələn şovinist təpkilərə cavab verməli olmuşdur. Vəziyyətin faciəliliyi onda idi ki, bütün bu qeyri-qanuni fəaliyyət rus ura – vətənpərvərləri və onları şirnikləndirən rəsmi dövlət orqanları tərəfindən aparılırdı. Apardığımız tədqiqat nəticəsində belə bir reallıq üzə çıxarıldı ki,

Rusiya almanları Birinci Dünya müharibəsi illərində özlərini əsil vətəndaş kimi aparmış, var qüvvələri ilə özlərinə ikinci Vətən seçdikləri Rusiyaya xidmət etmişlər.

XIX əsrin ikinci yarısından başlayaraq Qafqaz almanlarının ictimai-siyasi həyatında baş verən mühüm hadisələr, onların Birinci Dünya müharibəsi illərində üzləşdikləri ayrı-seçkilik siyasəti, repressiyalar və sair problemlər istər Azərbaycan, istərsə də başqa Qafqaz dövlətlərinin tarixşünaslığında demək olar ki, tədqiq olunmamışdır. Bu problemin ayrı-ayrı aspektlərinə çar Rusiyası dövrü yaşayıb yaratmış tarixçilərin əsərlərində toxunulmuş, lakin bu mövzuya heç bir xüsusi tədqiqat əsəri həsr olunmamışdır. Halbuki, mövzunun aktuallığı dəfələrlə elmi konfranslarda, simpoziumlarda vurğulanmışdır[1]. Çünki, sovet rejimi dövründə Stalin və onun xələflərinin apardıqları cinayətkar siyasətin köklərini çarizmin qeyri-rus xalqlarına, o cümlədən almanlara qarşı apardığı mürtəce milli siyasətdə axtarmaq lazımdır.

Təqdim olunan monoqrafiyanın tədqiqat obyekti XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Qafqazda mövcud olmuş alman məskənlərinin sosial-siyasi, ictimai həyatının aktual məsələləridir.

Qafqazda almanlar kompakt şəkildə Kubanda, Şimali Osetiyada, Kabarda-Balkariyada, Şimali Dağıstanda, Çeçenistanda, Azərbaycan və Gürcüstanda məskunlaşmışlar. XX əsrin əvvəllərində əgər Azərbaycanda 8, Gürcüstanda 19 koloniya mövcud olmuşsa, Şimali Qafqazda koloniyaların sayı 220-yə çatırdı və bu koloniyalarda 120 minə yaxın əhali yaşayırdı.

Tədqiqat işinin xronoloji çərçivəsi XIX əsrin ikinci yarısından 1921-ci ilə qədərki dövrü əhatə edir. Xronoloji çərçivənin alt hüdudu XIX əsrin ortalarına təsadüf edir. Məhz 1870-ci illərdə çar Rusiyasının daxili və xarici siyasətində mühüm dəyişikliklər baş verdi. Beynəlxalq aləmdə baş verən hadisələrin təsiri ilə və ilk növbədə Vahid Almaniyanın yaranması, onun şərq istiqamətində təcavüzkar siyasəti nəticəsində Rusiya hökumətinin, ictimaiyyətin alman əhalisinə münasibətində əsaslı dəyişikliklər yarandı.

Xronoloji çərçivənin üst hüdudu 1921-ci illə məhdudlaşır, çünki 1920-1921-ci illərdə həm Şimali, həm də Cənubi Qafqazın siyasi həyatında mühüm dəyişikliklər baş verdi – 1921-ci ilin fevralında Gürcüstan Demokratik Respublikasının müstəqilliyinin ləğvi ilə Qafqazın sovetləşməsi prosesi başa çatdı və Qafqaz almanlarının tarixində məzmunca yeni bir dövr başladı.

Əsərdə Qafqaza daxil olan bütün regionlarda yaşayan alman əhalisinin ictimai-siyasi tarixi araşdırılmışdır. Qafqazın böyük hissəsini əhatə edən

Şimali Qafqaz bu gün Rusiya Federasiyasının tərkibinə daxil olan 9 federal subyektdən – Stavropol və Krasnodar diyarlarından, Adıgey, Qaraçay-Çərkəz, Kabarda-Balkariya, Şimali Osetiya, İnquşetiya, Çeçenistan və Dağıstan Respublikalarından ibarətdir. Araşdırdığımız dövrdə Şimali Qafqazın inzibati quruluşu bir neçə dəfə dəyişikliklərə məruz qalmış və XIX əsrin 70-ci illərindən bu regionda 4 böyük inzibati vahid – Stavropol quberniyası, Kuban, Terek və Dağıstan vilayətləri yaradılmışdır. Birinci Dünya müharibəsinin sonlarınadək bu inzibati bölgü dəyişməz qalmışdır.

Qafqazın ikinci hissəsi – Cənubi Qafqazda da inzibati quruluş qeyri-sabit olmuş və nəhayət XIX əsrin 70-ci illərində region ərazisi Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutais quberniyalarına və Suxumi dairəsinə bölündü. 1918-ci ildə Bakı, Yelizavetpol quberniyaları ərazisində Azərbaycan Xalq Cümhuriyyəti və Tiflis, Kutais, Suxumi inzibati vahidlərində Gürcüstan Demokratik Respublikası yaradıldı.

Monoqrafiyada Şimali və Cənubi Qafqaz almanlarının ictimai-siyasi həyatı ümumi Qafqaz kontekstində tədqiq edilmişdir

Qafqaz almanlarının ictimai-siyasi tarixi lazımi səviyyədə hələ tədqiq olunmamışdır və baxmayaraq ki, keçmiş Rusiya ərazisində almanların məskunlaşması problemi ilə məşğul olan müasir tədqiqatçılar bu məsələyə dəfələrlə diqqət yetirmişlər[2].

Rusiya almanlarının ictimai-siyasi tarixinə həsr olunmuş ilk əsərlərdən biri rus tədqiqatçısı A.A.Velitsına məxsusdur[3]. Əsasən Rusiyanın Cənub və Şərq quberniyalarında yaranan alman koloniyalarının tarixinə aid bu əsər müəllifin adı çəkilən regionlarda 200-dən artıq əcnəbi koloniyada apardığı müşahidələr əsasında yazılmışdır. Nəticədə, alman kolonistlərinin məskunlaşma tarixinə dair, onların iqtisadi, mədəni, dini həyatı, məişəti, adət-ənənələri, ruh və vərdişlərinin təzahürü – xilqəti haqqında qiymətli materiallar toplanmışdır. A.A.Velitsının adı çəkilən əsərinin çatışmayan cəhəti kimi müəllifin alman kolonistlərinin Rusiya tarixində oynadığı rola bir qədər qərəzli münasibət bəsləməsidi: onun fikrincə, alman əhalisinin Rusiyada məskunlaşmaqda əsas niyyəti, burada pangermanizm ideyalarını təbliğ etmək, Almaniyanın gələcək işğalları üçün əməliyyat meydanı yaratmaq olmuşdur

Birinci Dünya müharibəsi ərəfəsində və illərində şovinist konsepsiyanın nümayəndələri daha da fəallaşdılar və Rusiya ilə Almaniya arasında hərbi əməliyyatların aparıldığı bir şəraitdə alman kolonistlərinin tarixini qərəzli şəkildə ləkələyən əsərlər çapdan çıxdı[4]. Bu əsərlərdə, hələ XVIII əsrin əvvəllərindən Rusiyanı bürüyən alman məskunlaşmasının əsas səbəbi kimi

oranı silahsız işğal etmək, Rusiyanı Almaniyanın tərkib hissəsinə çevirmək planlarından doğan zərurət olması haqqıda qeyri-eimi fikirlər söylənilmişdir.

Aqranom və zooloq K.E.Lindeman XX əsrin əvvəllərində alman kolonistlərinin kənd təsərrüfatı sahəsində qazandıqları nailiyyətlər haqqında genişhəcmli material toplamış və bu materiallar əsasında bir neçə əsər yazmışdır. Tədqiq etdiyimiz mövzu üçün onun rus dilində yazdığı "02 fevral və 15 dekabr 1915-ci il qanunları (Rusiyada alman torpaq mülkiyyətçiliyinin məhdudlaşdırılması haqqında) və onların Cənubi Rusiyanın iqtisadi vəziyyətinə təsiri" adlı əsəri böyük əhəmiyyət kəsb edir[5]. Əsərdə adı çəkilən qanunların Rusiya, o cümlədən Qafqaz almanlarının təsərrüfatlarına vurduğu ziyanın miqyası göstərilir və Birinci Dünya müharibəsi illərində alman təsərrüfatlarında hökm sürən tənəzzülün səbəbləri araşdırılır.

Alman kolonistlərinin tarixşünaslığında Odessada S.P.Şe-luxinin və Y.Ştaxın əsərlərinin işıq üzü görməsi maraqlı hal kimi qəbul edilə bilər[6]. Bu əsərlərin dəyəri ondadır ki, onların müəllifləri kolonist kütləsinin nümayəndələri olmuşdur. Kolonist həyatının bütün sahələrini əks etdirən bu əsərlərdə müəlliflər ədalətli olaraq qeyd edirlər ki, çar hökuməti yerli kəndlilərlə müqayisədə alman kolonistləri üçün daha əlverişli şərait yaratmışdır.

Adını çəkdiyimiz müəlliflərin əsərlərinin heç biri xüsusi olaraq Qafqaz almanlarının tarixinə həsr olunmamışdır, bu əsərlərdə Ümumrusiya xarakterli proseslər əks olunmuşdur. Lakin bununla yanaşı, adı çəkilən bütün bu əsərlər Qafqaz alman əhalisinin siyasi həyatının ayri-ayrı məsələlərinin işıqlandırılmasında yardımçı rol oynaya bilərlər.

Ümumiyyətlə, çar Rusiyası dövründə almanların siyasi həyatı haqqında yazılan əsərlərin müəlliflərinin əksəriyyəti rus şovinizmi nöqteyi-nəzərindən çıxış etmişlər və bu əsərlərdən tarixi müqayisə məqsədilə istifadə etməklə yanaşı, onlarda göstərilən faktlara tənqidi yanaşmaq lazımdır.

1920–1940-cı illərdə sovet tarixşünaslığında çar Rusiyasının şovinist ruhlu tarixçiləri tərəfindən irəli sürülən "antialman" konsepsiyanın ənənələri davam etdirildi: XX əsrin 20-30-cu illərində SSRİ-də stalinizm repressiyalarının başlandığı və "daxili düşmən" axtarışı şəraitində yeni siyasi şablon yarandı və bu şablona görə SSRİ-də yaşayan hər hansı bir alman, xüsusən də almanmənşəli hərbçi dövlətin potensial düşməni, Almaniyanın casusu hesab olunurdu. Almanlara, o cümlədən xaricdən gələn əhaliyə bu cür münasibətin formalaşmasında sovet tarixşünaslığının "saxta marksist cərəyanı"nın banisi M.N.Pokrovskinin əsərlərinin böyük təsiri

olmuşdur. Rusiya tarixini təhlil etdikdən sonra M.N.Pokrovski belə bir qlobal nəticəyə gəlir ki, "Rusiya əcnəbilər tərəfindən kölə vəziyyətinə salınmışdır" və bu prosesdə o, xüsusən XVIII əsrin əvvəllərindən Rusiyada kök salmış almanmənşəli hərbçilərin, alimlərin, məmurların "tarixi rolunu" vurğulayır.

Repressiyaların tüğyan etdiyi 1930-cu illərdə formalaşan bu tarixşünaslıq şablonu sonralar İ.Nikitinskinin və P.Sofinovun əsərlərində davam etdirilmişdir[8]. Adı çəkilən müəlliflər əsərlərində Rusiya, o cümlədən Qafqaz alman kolonistlərinin simasında yalnız pangermanizmə xidmət edən "casus" görürdülər.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə, xüsusən də 1950-ci illərdən sovet almanlarına qarşı rəsmi orqanların münasibətlərində müəyyən yumşalma müşahidə olunsa da, "alman problematikası" hələ də arzuolunmaz sayılırdı. Hakimiyyət orqanları hər vasitə ilə Qafqazda 150 ildən artıq yaşamış alman əhalisinin tarixini unutdurmağa çalışırdılar. Məhz bunun nəticəsidir ki, müharibədən sonrakı illərdə də sovet tarixşünaslığında Qafqaz almanlarının tarixinin bütün məsələlərini kompleks şəkildə əks etdirən heç bir fundamental əsər yazılmamışdır

1970-ci illərdə, sovet tarixşünaslığında Qafqazın ayrı-ayrı regionlarında yaşamış alman əhalisinin tarixinə həsr olunmuş ilk tədqiqat əsərləri işıq üzü gördü.

Sovet dövründə almanlara "frist", "faşist", "casus" və s. kimi damğalar vurulmuşdu və sovet almanlarının tarixinin tədqiq olunması birbaşa siyasi məqsədli sifarişlərə xidmət edirdi. 1974-cü ildə işıq üzü görmüş Q.X.Mandjqaladzenin "Zaqafqaziyada alman kolonistləri (1817–1920-ci illər)" adlı əsəri məhz bu qəbildəndir[9]. Baxmayaraq ki, kitabda Gürcüstan və Azərbaycanda yaranan koloniyaların sosial-iqtisadi, mədəni həyatına dair maraqlı faktlara rast gəlinir, siyasi sifariş xarakteri daşıyan bu əsərdə almanların bütün həyat fəaliyyətinin pangermanizmin planlarına xidmət etdiyi vurğulanır, almanlara "casus", "təxribatçı" damğası vurulur.

Öz əsərində çarizmin Qafqaz almanlarına qarşı ayrı-seçkilik siyasətinin səbəblərini araşdıran gürcü tədqiqatçısı Q.X.Mandjqaladze araşdırdığımız problemə toxunaraq sübut etməyə çalışmışdır ki, çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı ayrı-seçkilik siyasəti almanların Rusiyanın maraqlarına zidd fəaliyyət aparması ilə izah oluna bilər. Q.X.Mandjqaladze Böyük Vətən müharibəsinin ən ağır çağlarında – 1942-ci ildə Xalq Daxili İşlər Komissarlığının əməkdaşları İ.Nikitinski və P.Sofinov tərəfindən sırf təbliğat məqsədilə yazılmış əsərlərə istinadən qeyd etmişdir ki, guya

Cənubi Qafqaz almanları hələ Birinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində Almaniya kəşfiyyatının tapşırıqlarını yerinə yetirirdilər, "rus ordusunda xidmətdən yayınır, bilərəkdən kənd təsərrüfatında, sənaye müəssisələrinin fəaliyyətində sabotaj yaradır, cəbhə üçün lazım olan əmlakı hökumət dairələrindən gizlədir və sair düşmənçilik aktlarında iştirak edirdilər"[10].

"Soyuq müharibə"nin qızğın dövründə yazılmış bu əsərdə alman kolonistlərinin tarixi təhrif olunmuş şəkildə əks etdirilir ki, bu da bu günün reallıqlarına cavab vermir.

1970-ci illərdə SSRİ və AFR arasında münasibətlərdə müəyyən "ılıqlaşma" müşahidə olunurdu: Qərbi Almaniya dövlətinin sosialist ölkələrinə münasibətində müsbət dəyişikliklər baş verdi. Lakin münasibətlərin normallaşması heç də maneəsiz getmirdi. Qərbi Almaniyanın revanşist qüvvələri keçmiş tarixi saxtalaşdırır, alman imperializminin XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərindəki siyasətini ideallaşdırmağa, ölkədə millətçi əhval-ruhiyyənin qızışdırılmasına çalışırdılar.

Bu dövrdə imperialist təbliğatına cavab kimi sovet tədqiqatçısı Q.V.Pipiyanın iki əsəri işıq üzü gördü. Bu əsərlərdən biri sırf sənədlər toplusu kimi Almaniyanın 1918-ci ildə Qafqazda apardığı siyasətin mahiyyətinin açıqlanmasında, bu siyasətin həyata keçirilməsində Qafqaz alman kolonist lərinin rolunun və sair mühüm məsələlərin işıqlandırılmasında çox dəyərli mənbə rolunu oynayır. Monoqrafiyanın hazırlanmasında müəllif adı çəkilən sənədlər toplusundan geniş istifadə etmişdir[11]. Q.V.Pipiya sonralar adı çəkilən sənədlər toplusu və başqa mənbələrə əsaslanaraq Almaniyanın 1910-1918-ci illərdə Cənubi Qafqazda apardığı siyasətə həsr olunmuş monoqrafiya çap etdirdi[12]. Bu əsərdə alman imperializminin Cənubi Qafqaza dair planlarının mahiyyəti açıqlanmaqla yanaşı, Qafqaz almanlarının sosial-siyasi həyatının bəzi məqamlarına da toxunulmuşdur.

Şimali Qafqaz regionuna gəldikdə, 1978-ci ildə tədqiqatçı S.Çekmenyevin çap etdirdiyi kiçik həcmli məqaləni çıxmaq şərtilə Şimali Qafqaz alman koloniyalarının tarixinə həsr olunmuş heç bir xüsusi tədqiqat işi nəşr edilməmişdir. S.Çekmenyevin məqaləsi yalnız Stavropol diyarı ərazisində gedən məskunlaşma prosesini əks etdirir, məzmun etibarı ilə çarizmin rus və sair slavyan xalqlarının maraqlarına zidd olaraq bu regionda apardığı almanların məskunlaşdırılması siyasətinin tənqidindən ibarətdir[13].

SSRİ dağıldıqdan sonra alman əhalisinin tarixinə aid uzun illər bağlı qalan arxiv fondları tədqiqatşıların üzünə açıldı və postsovet respublikalarının başqa xalqları kimi, almanların da ictimai-siyasi tarixinin qaranlıq

səhifələrinə işıq salan elmi məqalələr,oçerklər, monoqrafiyalar çapdan çıxdı. Bu baxımdan Azərbaycan tədqiqatçıları da fəallıq göstərmişlər.Onların arasında M.Cəfərlinin, T.Axundovanın, S.Zeynalovanın, T.Hümbətovanın, H.Verdiyevanın əsərlərini qeyd etmək olar.

T.Axundovanın "Немцы-колонисты Азербайджана XIX – нач. XX в." ("XIX–XX əsrin əvvəllərində Azərbaycanın alman kolonistləri") adlı monoqrafiyası üzərində dayanmaq vacibdir[15]. Bu əsər Azərbaycan almanlarının inqilaba qədərki dövrünə həsr olunmuş ilk geniş tədqiqat əsəridir. Bu kitabda T.Axundova almanların Azərbaycana köçməsi və yerləşməsi, alman koloniyalarında kənd təsərrüfatının, sənayenin inkişafı, alman əhalisinin mədəni həyatı, məişəti ilə bağlı bir sıra məsələləri işıqlandırmışdır. Ancaq əsərdə kolonistlərin ictimai-siyasi həyatı ilə bağlı məsələlərə ötəri toxunulmuş, müəllif alman kolonistlərinin tarixini kompleks şəkildə əhatə edə bilməmişdir və monoqrafiyasında o, özü də etiraf edir ki, Azərbaycan almanlarının tarixinin bir sıra problemlərinin tədqiq olunmasına böyük ehtiyac var.

Azərbaycan almanlarının stalinizm dövründə siyasi həyatı barədə M. Cəfərlinin apardığı tədqiqatlar çox dəyərlidir. Müəllifin "Политический террор и судьбы азербайджанских немцев" ("Siyasi terror və Azərbaycan almanlarının taleyi") adlı əsərində Azərbaycanda yaşayan alman kolonistlərinin 1920–1941-ci illərdə stalinizm repressiyalarına məruz qalması, onların kütləvi şəkildə Sibirə və Mərkəzi Asiyaya deportasiya edilməsi arxiv sənədləri əsasında mükəmməl şəkildə tədqiq edilmişdir[16].

Tədqiq etdiyimiz problemin xronoloji çərçivəsi nöqteyi-nəzərindən M.Cəfərlinin adı çəkilən əsərinin yalnız birinci fəsli müəyyən maraq doğurur. Belə ki, birinci fəsildə müəllif almanların Azərbaycanda, o cümlədən Cənubi Qafqazda məskunlaşması prosesini tarixi ekskurs şəklində işıqlandırmışdır.

2002-ci ildə S.M.Zeynalovanın "Немецкие колонии в Азербайджане. 1819–1941 гг." ("Azərbaycanın alman koloniyaları. 1919–1941-ci illər") adlı kitabı işıq üzü gördü[17]. Magistr dissertasiyasının əsasını təşkil edən bu kitabda müəllif səthi şəkildə almanların tarixinin bir sıra məsələlərinə toxunub, amma hadisələrin və faktların dərin tarixi təhlili verilməmişdir. Kitabın çox az hissəsi inqilaba qədərki, yəni tədqiqat apardıgımız dövrü əhatə edir və kitabda üzüm-çülüyün inkişafına, üzümçülüklə, şərabçılıqla bağlı kooperativlərin, müəssisələrin fəaliyyətinə daha çox yer verilmişdir. Bir çox vacib məsələlərə, məsələn almanların siyasi həyatına dair probemlərə ötəri toxunulur, bu məsələlərin mahiyyəti açılmamışdır. Müəllifin əsas tədqiqat obyekti Azərbaycan almanlarının 1920–1941-ci illərə aid tarixi olduğundan, sovet dövrünə həsr olunmuş hissənin yazılmasında daha çox

arxiv sənədlərindən istifadə monoqrafiyanın əhəmiyyətini bir qədər artırmışdır. Son illər Qafqazda baş verən hadisələr və bu regionun tarixinin kompleks şəkildə öyrənilməsinə marağın artmaşı fonunda S.M.Zeynalova "Немцы на Кавказе" ("Almanlar Qafqazda") adlı monoqrafiyasında Qafqaz almanlarının tarixinə kompleks yanaşmağa cəhd etmişdir[18]. Əsasən Azərbaycan almanlarının tarixini əks etdirən bu əsərdə Gürcüstan və Şimali Qafqaz almanlarının tarixinin bir çox məsələləri, o cümlədən onların ictimai-siyasi həyatı lazımi səviyyədə işıqlandırılmamış, tədqiqat zamanı daha çox məlum materiallardan istifadə edilmişdir.

T.F.Hümbətovanın da tədqiqatları, əsasən, Azərbaycan almanlarının ictimai-siyasi, dini, mədəni həyatına həsr olunmuşdur. Bu baxımdan, müəllifin nəşr etdirdiyi "Жизнь немцев-колонистов за Кавказом" ("Alman kolonistlərinin arxa Zaqafqaziyada həyatı") və "Немцы и Баку" ("Almanlar və Bakı") adlı əsərləri təqdirəlayiqdir[19].

Publisistik stildə yazılan bu əsərlərdə xronoloji ardıcıllıq və sistemli yanaşma prinsipinə riayət olunmasa da, müəllif Cənubi Qafqaz almanlarının tarixinə dair bəzi maraqlı faktları elmi dövriyyəyə buraxmışdır.

Xüsusilə, Azərbaycanda mövcud olmuş 2 əsas və 6 sonradan yaranan alman koloniyalarının Birinci Dünya müharibəsi illərində həyat və faliyyətini müəyyən dərəcədə əks etdirən əsər kimiH.Y.Verdiyevanın "Немцы в Северном Азербайджане" ("Almanlar Şimali Azərbaycanda") monoqrafiyasını göstərmək olar[20]. Müəllif geniş arxiv materialları əsasında Azərbaycanın alman əhalisinə qarşı çar hökumətinin yürütdüyü diskriminasiya siyasətinin mahiyyətini açmış, bu siyasətin ədalətsizliyini, almanların öz vətənləri – Rusiyaya sədaqətlə xidmət etdiyini göstərmişdir. Qeyd etdiyimiz kimi, monoqrafiya yalnız Azərbaycan almanlarının tarixini əks etdirir və Qafqaz almanlarının Birinci Dünya müharibəsi illərində ictimai-siyasi həyatındakı xüsusiyyətlərin araşdırılmasında müqayisəli mənbə rolunu oynaya bilər.

Gürcüstanda yaranan alman koloniyalarının tədqiq edilməsində müəyyən boşluqlar mövcuddur. N.Berdzeneşvilinin, Z.Çoğarqavanın, M.Noradzenin, T.Kvikreliyanın, V.Kurtişvilinin, A.Sonqulaşvilinin nəşr etdirdikləri kiçik həcmli qəzet və jurnal məqalələrində Gürcüstan almanlarının sosial-iqtisadi, siyasi və mədəni həyatının müxtəlif aspektlərinə ötəri şəkildə toxunulmuşdur[21]. Adı çəkilən müəlliflərin məqalələrində Gürcüstanda yaranmış alman koloniyalarının sosial-siyasi tarixinə dair fraqmentar faktlar verilmişdir ki, onlarla tanışlıq tədqiqat işinin daha da dolğunluğuna yardımçı olmuşdur.

Şimali Qafqaz regionunda mövcud olmuş alman koloniyalarının da siyasi tarixi lazımınca tədqiq edilməmişdir. Bu günə qədər Şimali Qafqaz almanları

haqqında yazılan ən dəyərli əsər T.N.Ploxotnyukun "Российские немцы на Северном Кавказе" ("Rusiya almanları Şimali Qafqazda") adlı monoqrafiyadır[22]. Əsərdə, əsasən Şimali Qafqazda alman koloniyalarının yaranması prosesi, onların təsərrüfat və dini həyatının aktual məsələləri əks olunmuşdur. Monoqrafiyada Şimali Qafqaz almanlarının siyasi və mədəni həyatı lazımınca işıqlandırılmamışdır. Əsasən, 1917–1941-ci illərin hadisələrini əks etdirən bu əsər tədqiqat zamanı müqayisə mənbəyi rolunu oynamışdır.

A.Susiyev, V.B.Vinoqradov, V.S.Belozyorov kimi Rusiya tarixçiləri Şimali Qafqaza həsr olunmuş ümumi xarakterli əsərlərində Qafqaz tarixi kontekstində alman kolonistlərinin də siyasi tarixinin bəzi məsələlərinə səthi şəkildə toxunulmuşdur[23.] Qafqaz almanlarının tarixinin öyrənilməsində Almaniya tədqiatçıları də öz töhfələrini vermişlər. Qərb tarixşünaslıqda Qafqaz almanları haqqında ilk əsərlər İkinci Dünya müharibəsindən sonra işıq üzü görmüşdür. Keçmiş Rusiya almanlarının Stutqartda yaratdığı "Rusiya almanlarının həmyerlilər cəmiyyəti"nin ("Die Landsmannschaft der Deutschen aus Russland") nəşr etdirdiyi "Heimatbuch der Deutschen aus Russland" ("Rusiya almanlarının Vətən kitabı") və Vizentheid şəhərində fəaliyyət göstərən "Volın" tarixi cəmiyyətinin mütəmadi çap etdirdiyi "Wolhynische Hefte"("Volın dəftərləri") adlı almanaxlarda Rusiyanın müxtəlif regionlarında, o cümlədən Qafqazda yaşamış alman əhalisinin tarixinə dair çox maraqlı və nadir materiallar dərc olunmuşdur. "Wolhynische Hefte" almanaxının müxtəlif nömrələrində çap olunan N.Arndtın, D.Neutatsın, B.Kantorun,V.Gizbrextin və başqa müəlliflərin məqalələrində Rusiya almanlarının sosial-iqtisadi, siyasi həyatına dair qiymətli məlumatlar verilir[24]. Adı çəkilən nəşrdə çap olunan kiçik həcmli məqalələr alman koloniyalarının ictimai-siyasi həyatı, onların Rusiya rəsmi dairələri ilə qarşılıqlı münasibətləri haqqında daha dolğun fikir yürütməkdə köməkçi material rolu oynamışdır.

Qafqaz almanlarının ictimai-siyasi tarixinin öyrənilmə səviyyəsinə nəzər saldıqdan sonra belə nəticəyə gələ bilərik ki, Qafqaz regionunda mövcud olmuş alman koloniyalarının sosial-iqtisadi tarixinin bir çox məsələləri ətraflı tədqiq olunmuş və bu baxımdan Azərbaycanda məskunlaşmış almanların tarixinin öyrənilməsində daha çox fəallıq nəzərə çarpır. Bununla yanaşı, Şimali Qafqazın bütün regionlarında – Kubanda, Kabarda-Balkariyada, İnquşetiyada, Çeçenistanda, Şimali Osetiyada, Dağıstanda mövcud olmuş alman koloniyalarının mürəkkəb tarixi kompleks və hərtərəfli şəkildə tədqiq edilməmişdir və həm Cənubi, həm də Şimai Qafqazda mövcud olmuş alman koloniyalarının tarixinin bir çox məsələlərinin, xüsusən

də “alman məsələsi”, onun yaranma səbəbləri və mahiyyəti, Qafqaz almanlarının milli muxtariyyət hərəkatı, onların 1917–1920-ci illərdə ictimai-siyasi həyatı və sair qaranlıq qalan aktual problemlərin araşdırılmasına böyük ehtiyac var.

Nəzərdən keçirdiyimiz problemin araşdırılma səviyyəsindən irəli gələrək tədqiqat işinin əsas məqsədi ayırd edilmişdir ki, bura XIX əsrin ikinci yarısından Şimali və Cənubi Qafqazda almanların məskunlaşmasının genişlənməsini və Qafqazda alman əhalisinin sayının artmasının etnososial situasiyaya təsirini qeyd etmək və Vahid Almaniyanın yaranmasından sonra Rusiyada “germaniyafobiya”nın və “alman məsələsi”nin yaranmasının rəsmi hökumət orqanları ilə alman kolonistləri arasındakı münasibətlərə təsiretmə dərəcəsini göstərmək, Qafqaz almanlarının Birinci Dünya müharibəsi illərində fəaliyyətini araşdırmaq və müharibə illərində çarizmin həyata keçirdiyi antialman kampaniya sının mahiyyətini açmaq və bu siyasətin Qafqazda həyata keçirilmə xüsusiyyətlərini müəyyənləşdirmək, çarizmin devrilməsindən sonra Qafqaz almanlarının milli muxtariyyət uğrunda mübarizəni işıqlandırmaq, bu hərəkatın Qafqazda mövcud regional xüsusiyyətlərini göstərmək, 1918–1920-ci illərdə Qafqaz uğrunda gedən geosiyasi mübarizəni və bu mübarizədə Almaniyanın məqsədlərini ayırd etmək, yeni siyasi şəraitdə Qafqaz almanları qarşısında duran problemləri işıqlandırmaq daxildir.

Monoqrafiyada tədqiqatın metodoloji və nəzəri əsası kimi elmilik, obyektivlik və tarixçilik prinsiplərindən istifadə edilmişdir. Bu, tədqiq edilən mövzunun təhlilinə tarixi-təkamül yanaşmanın tətbiq edilməsinə imkan vermiş, araşdırılan problemin Qafqaz xalqlarının sosial-siyasi inkişaf tarixinin ümumi axını ilə uzlaşdırmağı mümkün etmişdir. Eyni zamanda, bu cür yanaşma müəllifə Qafqaz almanlarının XIX əsrin yarısından 1921-ci ilə qədərki siyasi tarixini müstəqil elmi tədqiqat obyekti kimi araşdırmağa imkan vermişdir. Tədqiqat zamanı mənbələr və tədqiqata aid ədəbiyyat tənqidi cəhətdən təhlildən keçirilmişdir.

Qafqaz alman kolonistlərinin ictimai-siyasi tarixinin, onun regional xüsusiyyətlərinin araşdırılması üçün çoxsayda arxiv və sair yazılı mənbələr mövcuddur. Müəllif tədqiq etdiyi mövzu üzrə geniş mənbələrdən istifadə etmişdir ki, onların böyük əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir.

Tədqiqat işində daha çox aşağıda adı çəkilən arxivlərin fondlarının materiallarından istifadə olunmuşdur:

**Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi** – f.508 (“Yelenendorf kənd cəmiyyəti”) və f.46 (“Bakı Qradonaçalnikinin dəftərxanası ”);

**Gürcüstan Respublikasının Dövlət Tarix Arxivi** – f.13, "Qafqaz canişininin dəftərxanası"; f.17, "Tiflis Qubernatorunun dəftərxanası(1860–1917-ci illər)"; f.224, "Qafqaz diyarında alman torpaq mülkiyyətinin ləğvinin nəzarətçisi (1916–1917-ci illər)"; f.226, Zaqafqaziya alman koloniyalarının nəzarətçisi (1857–1917-ci illər)";

**Ukrayna Mərkəzi Dövlət Tarix Arxivi** – f.442, "Kiyev, Podolsk və Volın general-qubernatorunun dəftərxanası"; f. 1599, "Kiyev, Podolsk və Volın quberniyalarının Baş jandarm idarəsi";

**Jitomir Vilayət Dövlət Arxivi** – f. 58, "Volın Dövlət Əmlak Palatası"; f. 67, "Volın quberniya idarəsi"; f. 70, "Volın qubernatorunun dəftərxanası, Jitomir şəhəri, Volın quberniyası";

**Rusiya Federasiyasının Dövlət Tarix arxivi –** f.828, "Nazirliyin Baş Yevangelist-Lüteran konsistoriyası(1832–1918-ci illər)"; f.1090, Sinqaryov Andrey İvanoviçin fondu (1894–1917-ci illər)"; f.1276, "Nazirlər Şurası(1905–1917-ci illər)"; f. 1278, "Dövlət Dumasının fondu (1906–1917-ci illər)"; f. 1290, "Mərkəzi statistika komitəsinin fondu";

**Rusiya Dövlət Qədim Aktlar Arxivinin** – f. 248, "Ali Senatın dəftərxanası" və "Dövlət Arxivi fondları";

**Stavropol Diyar Dövlət Tarix Arxivi** – f.68, "Stavropol quberniya idarəsi (1847–1917-ci illər)"; f.101," Stavropol qubernatorunun dəftərxanası (1847–1919-cu illər"; f.132, "Stavropol Dövlət Əmlak palatası (1833–1868-ci illər)"; f.235, "Qafqaz canişini Baş idarəsinin dəftərxanasının rəisi (1845–1881-ci illər)"; f.299, "Stavropol quberniyası çertyoj idarəsi(1837–1920-ci illər)"; f.303, "Stavropol şəhərinin Yevangelist-Lüteran Şurası və lüteran kilsəsi (1876–1922-ci illər)"; f.404, "Qafqaz Vilayət Mülki qubernatorunun dəftərxanası(1822–1847-ci illər)".

**Krasnodar Diyar Dövlət Arxivi** – f.252, "Kuban kazak qoşunlarının hərbi idarəsi (1842–1888-ci illər)"; f.p-234, Kuban – Qaradəniz vilayəti statistika bürosu (1920–1923-cü illər)"; f. 449, "Kuban vilayət idarəsi (1870–1917-ci illər)"; f.454, "Kuban vilayətinin rəisi və Kuban kazak qoşunlarının atamanının dəftərxanası (1870–1917-ci illər)"; f.738, Kuban vilayətinin şöbələri atamanlarının idarəsi. Labinsk şöbəsinin atamanının idarəsi (1888–1914-cü illər)"; f.774, Kuban vilayət rəisinin köməkçisinin dağlıları idarə üzrə dəftərxanası (1862–1870-ci illər)".

**Rostov Vilayət dövlət arxivi** – f.46, "Atamanın dəftərxanası(1709–1919-cu illər)"; f.131, Rostov dairəsi xalq məktəbləri müfəttişliyi (1867–1919-cu illər)"; f.213, Kəndli məsələləri üzrə vilayət idarəsi (1861–1918-ci illər)";1806–1919-cu illər)"; f.301, Don Hərbi Dairəsinin vilayət

idarəsi(1835–1918-ci illər)"; f. 829, Don vilayət jandarm idarəsi(1839–1918-ci illər)".

**Şimali Osetiya Respublikasının Mərkəzi Dövlət arxivi –** f.11, "Terek vilayət idarəsi (1860–1919-cu illər)"; f.12, "Terek vilayət rəisinin dəftərxanası (1860–1915-ci illər)"; f.20, "Terek vilayət Sunja söbəsinin idarəsi (1888–1917-ci illər)"; f.24, "Vladiqafqaz dairə idarəsi (1896–1917-ci illər)"; f.199, "Terek vilayət cəmiyyətlər və ittifaqlar üzrə idarəsi (1906–1916-cı illər)".

Çap olunmuş mənbələr sırasında ən əhəmiyyətlisi çar hökumətinin qanunverici aktlarını özündə cəmləşdirən "Rusiya imperiyasının tam qanunlar toplusu"dur ("Полное Собрание законов Российской империи").

Rusiyada qanunların kodifikasiyası XIX əsrin 30-cu illərindən başlamışdı və bu feodal-təhkimçilik quruluşu və burjua münasibətlərinin inkişafı şəraitində imperiyanın dövlət və ictimai dayaqlarını möhkəmlətmək cəhdləri ilə bağlı idi. Çar Rusiyası dövründə adı çəkilən qanunlar toplusu üç nəşrdə çap etdirilmişdir.

Müəllif "Tam* qanunlar toplusu"nda nəşr edilən, alman kolonistlərinin sosial-iqtisadi, siyasi, mədəni həyatına birbaşa və dolayısı ilə aid olan qanunverici aktlardan (manifestlər, nizamnamələr, Dövlət Şurasının qərarları, reskriptlər, konvensiyalar və sair sənədlər) geniş istifadə etmişdir[25].

Çap olunmuş mənbələrdən Qafqaz canişinin arxivi əsasında hazırlanmış "Qafqaz arxeoqrafiya komissiyasının aktları"nın böyük əhəmiyyəti var[26]. Adı çəkilən mənbədə almanların Qafqaza köçməsi, onların iqtisadi və mədəni həyatının təşəkkülü, alman koloniyalarında gedən mürəkkəb konfessiyalararası mübarizə, koloniyaların məişəti, adət və ənənələri, almanların yerli xalqlarla münasibəti və sair maraqlı məsələlər haqqında dəyərli məlumatlar əks olunmuşdur.

Xüsusi mənbə növü kimi statistik məlumatlar toplularından da tədqiqat zamanı geniş istifadə olunmuşdur[27]. Rusiya imperiyasının müxtəlif regoinlarına həsr olunmuş bu toplularda Qafqaz almanlarınına da aid materiallara rast gəlinir və müəllif zərurət yarandıqda bu mənbələrdən də istifadə etmişdir.

Demoqrafiya, əhalinin konfessional tərkibi ilə bağlı məsələlərin tədqiqində vacib və əvəzolunmaz mənbə kii 1897-ci ildə keçirilmiş Ümumrusiya əhalisinin birinci siyahıya alınmasının nəticələridir[28]. Bu sənəddə Şimali və Cənubi Qafqazın quberniyaları, vilayətlərində yaşayan alman

---

* Qədim Romada: imperatora təqdim edilmiş məsələyə onun verdiyi qanun qüvvəsində olan cavab

əhalisinin sosial-iqtisadi, mənəvi həyatı, koloniyalarda əhalinin demoqrafik, sosial və professional vəziyyəti haqqında məlumatlar əldə etmək olar.

Çar Rusiyası dövründə nəşr edilmiş "Rusiya imperiyasının qanunlar külliyatı"nda ("Свод законов Российской империи") əks olunan sənədlər almanların siyasi tarixinin işıqlandırılmasında mühüm rol oynamışdır[29].

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Qafqaz alman koloniyalarının siyasi həyatı, kolonistlərə qarşı Almaniya və Rusiya hökumətlərinin apardığı siyasi kursun məzmunu haqqında ən dolğun məlumatlar Almaniyanın xarici siyasətinə, alman-rus münasibətlərinə dair sənədlər toplusunda cəmləşmişdir və müəllif bu qiymətli mənbələrdən geniş istifadə etmişdir[30].

Almanların Birinci Dünya müharibəsi illərindəki ictimai-siyasi həyat və fəaliyyətinin tədqiqində V.A.Auman və V.Q.Çebotaryovanın redaktorluğu ilə hazırlanmış "История Российских немцев в документах" ("Rusiya almanlarının tarixi sənədlərdə") adlı toplunun böyük əhəmiyyəti olmuşdur[31]. Bu topluda Qafqaz almanlarının XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində tarixinə aid qiymətli sənədlər vardır. Birinci Dünya müharibəsi illərində almanlara qarşı tətbiq edilən ayrı-seçkilik xarakterli tədbirlər haqqında sənədlər bu topluda xüsusi yer tutur.

XIX əsrin ikinci yarısından başlayaraq Rusiyada nəşr edilən məqalələr toplusunda "alman məsələsi"nin yaranması şərtlərinə, almanlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı münasibətlərinə həsr edilmiş kiçik həcmli məqalələr çap edilmişdir[32]. Materiallar toplusunda cap olunan məqalələrin əksəriyyəti rəsmi dövlət sənədləri əsasında yazıldıgından, onlara tənqidi yanaşmaq vacibdir.

Nəşr edilmiş mənbələr sırasında dövrü mətbuatın özünəməxsus yeri var[33]. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində qəzet və jurnallarda çap olunan məqalələrdə Qafqaz almanlarının ictimai həyatı haqqında məlumatlar verilir.

Qiymətli mənbələrdən biri də epistolyar materiallardır[34]. Epistolyar mənbələr sırasında alman kolonistlərinin qohumlarına yazdıqları məktubları, onların xatirələrini, oçerklərini, o cümlədən dövrün tanınmış siyasi xadimlərinin memuarlarını, xatirələrini göstərmək olar. Bu mənbələrdə Qafqaz almanlarına dair epizodik faktlara rast gəlinir.

Tədqiqat zamanı çar Rusiyası və SSRİ dövründə, həmçinin başqa ölkələrdə nəşr edilmlş təqvimlərdən, ensiklopedik lüğətlərdən geniş istifadə olunmuşdur[35].

Müəllif geniş və müxtəlif çeşidli mənbələr əsasında Qafqazın alman əhalisinin tarixinin aktual məsələlərini tədqiq etmiş və Azərbaycan tarix-

şünaslığında demək olar ki, tədqiq olunmayan Şimali Qafqaz və Gürcüstan alman koloniyalarının ictimai-siyasi tarixinə aid çoxlu sayda arxiv materiallarını elmi dövriyyəyə buraxmışdır. Təqdim olunan bu monoqrafiyada müəllifin Qafqaz almanlarının ictimai-siyasi tarixinin müxtəlif aspektlərinə dair çap olunmuş bütün elmi məqalələrində söylənilən müddəalar əks olunmuşdur[36].

Monoqrafiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ilk dəfə olaraq Qafqaz alman məskənlərinin XIX əsrin ikinci yarısından 1921-ci ilə qədərki ictimai-siyasi tarixi müstəqil tarixi tədqiqat obyekti kimi araşdırılmışdır;
- XIX əsrin ikinci yarısından Qafqazda alman məskunlaşmasının kütləvi xarakter alması və bununla bağlı regionda yaranan sosial-iqtisadi, siyasi, sosial-mədəni problemlər geniş təhlil edilmiş, Rusiyada "alman elementi"nin iqtisadi, siyasi dayaqlarının möhkəmlənməsində alman lobbisinin rolu tədqiq edilmişdir;
- Qafqaz almanlarının tarixinin ən qaranlıq səhifələrindən biri – "alman məsələsi"nin yaranması, mahiyyəti, əsas müzakirə mərhələləri tədqiq edilmiş, Rusiya – Almaniya dövlətlərarası münasibətlərə "alman məsələsi"nin təsiri göstə-rilmişdir;
- Qafqaz almanlarının tarixşünaslığında ilk dəfə olaraq alman missionerlərinin fəaliyyəti ilə qondarma "erməni məsələsi" arasında əlaqəlilik göstərilmiş, bu cür əməkdaşlığın erməni millərçilərinin türk xalqlarına və müsəlmanlara qarşı yönələn ərazi iddialarına xidmət etdiyi işıqlandırılmışdır;
- XIX əsrin ikinci yarısında Qafqazda alman məskənlərinin yaranmasının ilkin tarixi şərtləri, səbəbləri dolğun şəkildə göstərilmiş, bu məsələ ilə bağlı bu günə qədər Qafqaz almanlarının tarixşünaslığına məlum olmayan faktlar, hadisələr işıqlandırılmışdır;
- Qafqaz almanlarının Birinci Dünya müharibəsi illərində həyat və fəaliyyətləri arxiv sənədləri əsasında hərtərəfli şəkildə tədqiq olunmuş, uzun illər Rusiya və sovet tarixşünaslığında hökmranlıq edən "alman əhalisinin ucdantutma casusluğu, Rusiyaya xəyanəti" haqqında fikirlərin qərəzliliyi ifşa edilmiş, kolonistlərin böyük əksəriyyətinin özlərinin ikinci vətəni – Rusiyanın sadiq vətəndaşları olduğu və çar hökumətinin apardığı "antialman kampaniyası"nın ədalətsiz akt olduğu konkret sənədlər əsasında göstərilmişdir;
- Qafqaz almanlarının 1917–1918-ci illər ərzində milli muxtariyyət uğrunda apardığı mübarizəyə dair faktiki məlumatlar verilmiş, Şimali

və Cənubi Qafqazda bu siyasi hərəkatın regional xüsusiyyətləri vurğulanmışdır;

- 1918-1920-ci illər ərzində Sovet Rusiyası, müstəqil Azərbaycan və Gürcüstan Respublikaları dövründə Qafqaz alman kolonistlərinin ictimai-siyasi həyatı araşdırılmış, onların siyasi proseslərdə tutduğu mövqeyə və siyasi fəaliyyətlərinə qiymət verilmişdir;
- müəllif Rusiya Federasiyası, Gürcüstan, Ukrayna və Azərbaycan Respublikalarının arxiv fondlarında saxlanılan çoxsaylı və əvvəllər istifadə olunmamış dəyərli sənədləri, Azərbaycan, polyak, Ukrayna, rus, gürcü, alman dillərində nəşr edilən mətbuat, epistolyar və sair xarakterli faktiki materialları elmi dövriyyəyə daxil etmişdir.

Monoqrafiyanın əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilən faktiki mataeriallardan Qafqaz tarixinin yazılması, Qafqaz regionunda yaşayan milli azlıqların, millətlərarası münasibətlərin tarixinə dair ümumi elmi işlərin, Qafqaz və Qafqaz dövlətləri üzrə tarix dərsliklərinin, dərs vəsaitlərinin, metodik ədəbiyyatın, tədris proqramlarının hazırlanmasında istifadə edilə bilər.

Yuxarıda deyilənlərdən savayı, monoqrafiyanın göstərilən müddəalardan Qafqazda, o cümlədən Rusiya imperiyasında məskunlaşmış alman əhalisinin tarixini, çar hökumətinin mürtəce daxili siyasətini saxtalaşdıranlara qarşı tənqid zamanı da mühüm rol oynaya bilər.

Tədqiqat işinin materialları tarixçi alimlər, diyarşünaslar, ali və orta məktəb müəllimləri, xəritəçəkənlər, statistika işçiləri, Qafqazda fəaliyyət göstərən yerli və xarici müəssisələrdə, təşkilatlarda çalışan mütəxəssislər və başqa peşə sahibləri üçün də dəyərli ola bilər.

Monoqrafiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Qafqaz tarixi şöbəsində nəşrə hazırlanmışdır. Müəllif tədqiqat işi aparılan dövrdə verdiyi metodoloji məsləhətlərə görə AMEA-nın müxbir üzvü, Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Y.M.Mahmudova, institutun Qafqaz tarixi şöbəsinin müdiri,tarix elmləri doktoru İ.S.Bağırovaya təşəkkürünü bildirir.

# I FƏSİL
# XIX ƏSRİN II YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYANIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNDƏ "ALMAN MƏSƏLƏSİ"

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Cənubi Qafqaz Rusiyanın aqrar rayonlarından biri olsa da, Rusiyada kapitalist münasibətlərinin inkişafı nəticəsində bu region da dünya əmtəə təsərrüfatına cəlb olunmuşdu. 1908-ci ilin statistik məlumatlarına görə Cənubi Qafqazın iri sənaye müəssisələrinin buraxdığı məhsullar dəyərinə görə Rusiyada istehsal olunan sənaye məhsullarının 5,2%-i həcmində idi, baxmayaraq ki, ərazisinə görə Cənubi Qafqaz Rusiya İmperiyasının 1%-ni, əhalisinə görə isə 3%-ni təşkil edirdi[1]. Cənubi Qafqazda 1908-ci ildə 946 iri sənaye obyekti fəaliyyət göstərirdi[2]. Əgər bura yüzlərcə kiçik və orta sənaye müəssisələrini əlavə etsək, görərik ki, Cənubi Qafqaz başqa milli ucqarlarla müqayisədə, hətta Rusiyanın bəzi daxili quberniyaları ilə müqayisədə daha inkişaf etmiş sənayeyə malik idi.

Çar hökuməti ölkəyə sərmayə qoyuluşuna himayədarlıq edirdi, əcnəbi kompaniyalar və səhmdar cəmiyyətlərin fəaliyyəti üçün hər cür lazımi şərait yaradılırdı. Əcnəbi iş adamlarını Rusiyada daha çox cəlb edən regionlardan biri də Cənubi Qafqaz idi. Cənubi Qafqazın həm əlverişli coğrafi mövqeyi, həm də təbii sərvətləri bu regiona xarici kapital axınına şərait yaratdı. Cənubi Qafqaz iqtisadiyyatında qısa bir müddətdə ingilis, fransız və alman kapitalı möhkəm mövqe tutdular.

Almanların Cənubi Qafqazda ilk iri sənaye obyeklərinin yaranması XIX əsrin 60-cı illərinə təsadüf edir və ilk olaraq almanlar mis mədənlərinə böyük maraq göstərmişlər. XIX əsrin 60-cı illərində Simens qardaşları Batumda misəritmə zavodunun əsasını qoydular. Bu zavod ildə 44213 pud mis istehsal edirdi[3]. Simens qardaşları Cənubi Qafqazda öz fəaliyyətlərini genişləndirərək şotlandlara məxsus Gədəbəy mis mədənlərini də öz əllərinə keçirdilər. 1865-ci ildə Gədəbəydə almanlar misəridən zavod tikdilər.Sonralar Rusiyanın ən nəhəng misəritmə zavodlarından birinə çevrilən bu zavod Cənubi Qafqazda istehsal olunan misin 70%-ni verirdi[4].

1913-cü ilin məlumatlarına görə Cənubi Qafqazda istehsal olunan 19 mln. pud misin yarısından çoxu almanlara məxsus səhmdar cəmiyyətlərin payına düşürdü[5].

Qeyd edək ki, almanlar Cənubi Qafqazda mislə yanaşı, qızıl da istehsal edirdilər və uzun illər əldə edilən qızıl tozu çar hökumət dairələrinin nəzarəti olmadan gizli şəkildə Almaniyaya göndərilmişdi. Məhz Cənubi Qafqazda əldə edilən misin və qızılın sayəsində Simens konserni dünya elektrotexnika sənayesində hakim mövqeləri əldə etdi.

Simens qardaşları firması 1865-ci ildə, həmçinin Daşkəsən dəmir filizi mədənlərini ələ keçirmiş və burada kobalt zavodu tikmişlər. Eyni vaxtda, alman iş adamı fon Liyb Rustavi yaxınlığındakı, Çataxi kəndində kiçik metallurgiya zavodunun əsasını qoydu[6].

Cənubi Qafqazın iqtisadi əhəmiyyətini göstərən əsas iqtisadi amil – neft amili idi.

1879-cu ildə Nobel qardaşları neft hasilatı və satışı üzrə firma yaratdılar. XX əsrin əvvəllərinə "Nobel qardaşları birliyi" səhmdar cəmiyyəti dünyanın ən iri neft sənayeçiləri inhisar birliyinə çevrildi.

Nobel qardaşları İsveç vətəndaşı olsalar da, Cənubi Qafqazda onlar Almaniyanın bank dairələrinin maraqlarını təmsil edirdilər. Belə ki, firmanın səhmlərinin 40%-i "Diskonto Gesellschaft" ("Kredit cəmiyyəti") bankına məxsus idi[7]. I Dünya müharibəsi ərəfəsində Lianozovun firması alman iş adamları ilə birgə "Mineralimportaksien Gesellschaft" cəmiyyətini yaratdılar ki, onun əsas vəzifəsi Cənubi Qafqazdan aparılan neftin emal edilməsi və neft məhsullarının satışının təşkil olunması idi.

1901-ci ildə Bakı neft mədənləri 11,4 mln. ton neft vermişdilər ki, bu da Rusiya neftinin 90%-i, dünyada hasil edilən neftin 50%-i demək idi[8].

Bakı neftinin hasilində və emalında araşdırdığımız dövrdə əsas mövqelər xarici kapitalın əlində idi. Təkcə onu demək kifayətdir ki, XX əsrin ilk onilliyində neft məhsulları ilə ticarətin 75%-i xaricilərin əlində cəmləşmişdi[9].

Cənubi Qafqazın neft sənayesində olduğu kimi marqanes-neft mədənlərinin istismarında da xarici kapital aparıcı rol oynayırdı və onların sırasında alman kapitalı xüsusi çəkiyə malik idi.

Bakı neft sənaye rayonundan (“Diskonto Gesellschaft”) sonra Cənubi Qafqazda inkişaf etmiş ən vacib rayonlardan biri Çiaturi marqanes mədənləri idi. Bu rayon dünya iqtisadiyyatında mühüm rol oynayırdı, belə ki, təkcə dünyada hasil edilən marqanesin 30-40% Cənubi Qafqazın payına düşürdü[10].

Almaniyanın gələcək işğal planlarında Cənubi Qafqazın əsas yer tutması iri alman kapitalistlərinin maraqlarına cavab verirdi və onlar alman hökumətinin “Qafqaza”dair xarici siyasət kursunu hər vasitə ilə dəstəkləyirdilər. Məsələn, ”Deutsche Keizer”polad konserninin kralı Tissen Almaniyanın İqtisad idarəsinə göndərdiyi memorandumda yazırdı: ”Təbii sərvətlərin ələ keçirilməsini nəzərdə tutsaq, onda Almaniyaya elə Qafqaz lazımdır... Qafqaz elə bir diyardır ki, burada dünyada hasil edilən marqanesin böyük hissəsi əldə olunur, marqanessiz isə polad istehsal etmək mümkün deyil...[11]”

Cənubi Qafqazda marqanesin hasilatı ilə yerli – Rusiya şirkətləri məşğul olsalar da, hazır məhsul almanlara məxsus kompaniyalar tərəfindən alınır və Almaniyaya ixrac olunurdu. I Dünya müharibəsi ərəfəsində Tissenin “Deutsche Keizer”konserni və Helzenkirxen dağ-mədən səhmdar cəmiyyəti kimi metallurgiya nəhəngləri bütünlüklə Cənubi Qafqazdan gətirilən marqanes əsasında işləyirdilər. Alman kapitalına məxsus Qafqaz dağ-mədən cəmiyyəti və Helzenkirxen dağ-mədən cəmiyyətinin Cənubi Qafqadakı filialı 1914-cü ildə 4,8 mln. rubl dəyərində əmlaka məxsus idi və onların istehsalı genişləndirmək planları başlayan I Dünya müharibəsi nəticəsində yarımçıq qaldı[12].

Alman kapitalının fəallığı yalnız neft və dağ-mədən sənayesində deyil, Cənubi Qafqaz iqtisadiyyatının başqa sahələrində də nəzərə çarpırdı.

Yüngül və yeyinti sənayesinin çox mühüm müəssisələri almanların əlində cəmləşmişdi. Regionda mövcud olan spirt, konyak və şərab zavodlarının böyük əksəriyyəti almanlara məxsus idi. Onların istehsal gücü haqqında təsəvvür yaratmaq üçün bir neçə firmanın fəaliyyət dairəsi barədə rəqəmlərə müraciət etmək zəruri olardı. Məsələn, “Forer qardaşları ticarət evi” I Dünya mürharibəsi ərəfəsində hər il 350 min litr şərab ixrac edirdi. Təkcə, 1916-cı ildə bu firma şərab satışından 375 000 rubl təmiz gəlir götürmüşdü[13]. Baş-

qa bir müəssisə – "Hummel qardaşlarının ticarət evi" öz şərabçılıq məhsullarını Rusiyanın 39 quber-niyasına və xarici ölkələrə ixrac edirdi. Arxiv sənədlərindən göründüyü kimi, 1916-cı ildə firma 217 mln. rubl təmiz gəlir əldə etmişdi[14].

XX əsrin əvvəllərindən rus-alman ziddiyyətlərinin kəskinləşməsi, 20 ildən artıq bir dövrdə "alman məsələsi"nin Rusiyanın ictimai-siyasi həyatında qızğın mübahisələrə səbəb olması alman iş adamlarını ehtiyatlı tərpənməyə vadar edirdi. Belə ki, onlar müharibə ərəfəsində öz kapitallarını daha çox ruslara məxsus müəssisələrə yönəltməyi üstün tuturdular. Əgər I Dünya müharibəsi ərəfəsində Cənubi Qafqazda mövcud olan rus müəssisələrində xarici kapital qoyuluşu 325 mln. rubl təşkil edirdisə, onun 14 %- i – ingilislərə, 28% -i – fransızlara və 34,1%-i – almanlara məxsus idi[15].

Cənubi Qafqazdakı fəaliyyətlərindən yüksək gəlir götürən Almaniyanın sənaye və maliyyə dairələri alman hökumətinin Qafqazda apardığı siyasətin məzmununa əhəmiyyətli təsir göstərir, hər vasitə ilə Almaniyanın Qafqazda mövqelərinin möhkəmlənməsinə çalışırdılar.

Rusiyanın Krım müharibəsində (1853-1856) məğlubiyyəti və Paris sülh müqaviləsinin təhqiredici maddələrini qəbul etməsi imperiyada velikorus şovinizmi ilə qarışıqlı panslavizm əhval-ruhiyyəsinin güclənməsinə gətirdi.

1863–1864-cü illərin Polşa üsyanı imperiyanın ərazi bütövlüyünə və siyasi sabitliyinə qarşı yönəlmişdi və bu şovinizm əhval-ruhiyyəsinin daha geniş kütlələri bürüməsinə səbəb oldu. Polşa üsyanı Rusiya imperiyasının bütövlüyü üçün yaranan ilk təhlükə idi. Polşa milli-azadlıq hərəkatının radikal qolunun Polşanın müstəqilliyini bərpa etmək niyyətləri çar hökumətini bərk narahat etdi və tezliklə mütləqiyyət ölkənin strateji regionlarında apardığı milli siyasəti yenidən qurmağı qərara aldı.

Separatizmə daha çox meyilli olan Rusiyanın qərb və cənub regionlarında pravoslav kilsəsinin və velikorus elementinin mövqeləri o qədər də möhkəm deyildi və bununla bağlı regionlarda "ruslaşdırma" siyasətini fəal şəkildə həyata keçirmək xəttinin yürüdülməsi ideyası ortaya çıxdı. Bu siyasətin əsas məqsədi sərhədyanı geosiyasi ərazilərdən "qeyri-rus" elementini sıxışdırmaq, bu regionlarda rus dilinin, rus mədəniyyətinin dominantlığına nail olmaq, yer-

li qeyri-rus xalqlarında rus mentalitetinin formalaşmasına, onların mədəniyyətinin rus mədəniyyəti tərəfindən yox edilməsinə, qeyri-rusların ümumimperiya məhdud eyniləşdirmə qanun-qaydasına tabe etdirilməsinə nail olmaq idi.

Bütün bu məqsədlərə çatmaq üçün imperiyanın milli ucqarlarında güc strukturlarının nəzarətini artırmaq, dövlətin represiya funksiyalarını daha da sərtləşdirmək, uzunmüddətli "ruslaşdırma" siyasətini həyata keçirmək kimi vəzifələri yerinə yetirmək tələb olunurdu. Milli ucqarlarda etnik rusların sayını artırmaq məqsədilə çar hökuməti sərhədyanı ərazilərə müxtəlif ixtisaslar üzrə kadrların axını üçün münbit şərait yaradırdı. 13 iyun 1886-cı il fərmanına görə geosiyasi əhəmiyyət kəsb edən regionların dairəsi daha da genişləndi və ucqar ərazilərdə məskunlaşan rus mənşəli ixtisaslı kadrlara əlavə imtiyazlar və hüquqlar verilirdi[16].

Tarixən imperiyanın qərb quberniyalarında məskunlaşan və yerli ukraynalılara, beloruslara daha güclü mədəni təsir göstərən, təsərrüfat həyatında da ruslara nisbətən daha çox nüfuza malik olan polyaklar çarizmin "ruslaşdırma" siysətindən ilk zərər çəkən xalq oldu. Beləki, 1863-1864-cü illərin Polşa üsyanı yatırıldıqdan sonra çar hökuməti "polyak elementi"nin zəifləndilməsinə yönələn bir sıra tədbirlərə əl atdı. 10 dekabr 1865-ci il fərmanına görə Polşa milliyyətli şəxslərə Sağsahil Ukrayna və Qərbi Belorusiya quberniyalarında şəxsi mülkiyyətə torpaq almaq qadağan olundu[17]. 1869-cu ildə Varşava Universiteti bağlandı. Çarın fərmanı ilə Polşa bankı Varşava kontoruna çevrildi və Rusiyanın Dövlət bankına tabe etdirildi[18]. 27 dekabr 1884-cü il[19], 27 avqust 1885-ci il[20], 14 və 20 noyabr 1887-ci il tarixlərdə[21] imzalanmış çar fərmanları polyakların iqtisadi dayaqlarının zəiflədilməsinə yönəlmişdi. 3 iyun 1885-ci il tarixli qərarla Roma-katolik kilsəsinin xeyrinə yığılan 10 faizli ianə ləğv edildi[22] və bu qərarın qəbul edilməsində əsas məqsəd qərb quberniyalarında katolisizmin təsirinin zəiflədilməsindən ibarət idi.

Çar hökuməti "polyak elementi"nə qarşı mübarizədə alman kolonistlərini özünün müttəfiqi kimi görürdü. İmperiyanın milli rayonlarında almanları yerləşdirərək və protestantizmi dəstəkləməklə çar hökuməti polyak və katolik kilsəsinin təsirinin zəiflədilməsi məqsədləri güdürdü.

1860-cı illərin əvvəllərində Prussiyanın xarici siyasət xəttinin də çar hökumətinin alman əhalisinə müsbət münasibətinə əhəmiyyətli təsiri olmuşdu. Müstəqil Polşa dövlətinin yaranmasında maraqlı olmayan Prussiya 8 fevral 1863-cü il tarixdə üsyancı polyaklara qarşı birgə fəaliyyət haqqında Rusiya ilə konvensiya imzaladı[23]. Vurğulamaq lazımdır ki, sadə alman kolonistləri də Polşa üsyanına mənfi yanaşırdılar.

Katolik kilsəsinin, "polyak elementi"nin pravoslav əhaliyə təsirinin zəiflədilməsində çar hökuməti alman kolonistlərinə müəyyən ümidlər bəsləyirdı. Qafqazda isə almanlar yerli xalqlara təsərrüffat quruculuğunda nümunə göstərməli, protestant missionerlər xristian olmayan xalqlar arasında İsa Məsihin təliminin təbliği ilə məşğul olmalı, Qafqazın müsəlman, yəhudi və bütpərəst əhalisinin xristianlaşdırılma sına müəyyən töhfə verməli idilər. Bu səbəbdən XIX əsrin 60-cı illərində istər qərb quberniyalarında, istərsə də Qafqazda almanların kütləvi məskunlaşması yeni vüsət aldı.

Almaniya torpaqlarında milli hərəkatın oyandığı və alman xalqının milli özünüdərk səviyyəsinin getdikcə gücləndiyi bir şəraitdə Rusiyanı bürüyən almanların kütləvi məskunlaşma prosesi, rəsmi dairələrdən fərqli olaraq, o dövrün tanınmış ictimai xadimlərini narahat edirdi.

Hələ XIX əsrin ortalarında bəzi publisistlər Rusiyanın sərhədyanı regionlarında əcnəbi mənşəli mühacirlərin sayının artması ilə bağlı narahatlıq dolu yazılar dərc etməyə başladılar. Xüsusən, slavyanofilçiliyin nümayəndələri daha çox fəallıq göstərirdilər. 1866-cı ildə slavyanofilçiliyin görkəmli tərəfdarlarından biri N.Y.Danilevski Rusiyanın almanlara qarşı daxili siyasətinin yeni konsepsiyasını irəli sürdü. Onun fikrincə, 1863–1864-cü illərin Polşa üsyanı qərb dünyası tərəfindən Rusiyanın bütövlüyünə yönəldilən düşmənçilik aktı idi. Buna görə ruslar və polyaklar düşmənçilik etməməli, slavyan torpaqlarının germanlar tərəfindən "silahsız işğalına" sədd yaratmalıdırlar[24]. N.Y.Danilevski hesab edirdi ki, Rusiyanın sərhədyanı quberniyalarında alman kolonistlərinin kütləvi məskunlaşmasının əsas məqsədi – bu strateji ərazilərin hərb nöqteyi-nəzərindən öyrənilməsi və lazımi məlumatın Almaniyaya ötürülməsindən ibarətdir. Kütləvi informasiya vasitələrində almanların qərb və cənub quberniyaların-

da sayının artması ilə əlaqədar, onların Rusiyanın iqtisadi həyatında fəallıqları ilə bağlı məqalələr çap olunmağa başladı. Bu baxımdan sovinist mövqeyi ilə seçilən və əsasən də antisemitizm ruhunda materiallarla çıxış edən "Rus" qəzeti almanlar haqqında daha sərt məqalələr dərc edir, alman kolonistini "yəhudidən on qat ağır" istismarçı kimi xarakterizə edirdi[25]. Bəzi klerikal dairələrdə almanların Rusiyada kütləvi məskunlaşmasında Vatikanın, ümumiyyətlə katolik dünyasının əli olduğu söylənilirdi. Guya ki, onlar "alman elementi"nin köməyilə "rus xalqı"nın, pravoslav dininin bütövlüyünü parçalamaq kimi planlar qurmuşlar[26].

Vurğulamaq lazımdır ki, almanların məskunlaşması prosesinə qarşı çıxanların arasında slavyançılığa, pravoslav dininə aid olmayan şəxsiyyətlər də var idi. Məsələn, XIX əsrin tanınmış tatar maarifçisi İsmayıl bəy Qaspralı bütün yaradıcılığını rus-müsəlman, rus-türk münasibətlərinin perspektivlərinə həsr etsə də, "alman məsələsi"ndən yan keçə bilmədi. Bir sıra məqalələrində o, Avrasiyanın gələcəyinə toxunaraq qeyd edir ki, "qərbdən rus-türk dünyasına qarşı Avropanın ekspansiyası başlamışdır". İ.Qaspralının fikrincə, Rusiyanın cənub quberniyalarinda və hətta artıq Türkiyə hüdudlarında yaranan onlarla alman koloniyaları bu ekspansiyanın əlamətləridir. Müəllif hesab edir ki, "Rusiya ilə qonşu Avropa ölkələrində, əsasən də alman torpaqlarında əhalinin təbii artımı müşahidə edilir və yaxın gələcəkdə Almaniyadan əhalinin Rusiyaya mühaciratı daha geniş miqyas alacaqdır ki, bu da ölkə üçün sosial-siyasi, etnik, mədəni problemlər yarada bilər". İsmayıl bəy Qaspralı tövsiyə edir ki, "almanların Rusiyaya axınının qarşısı vaxtında alınmalıdır[27]".

Beləliklə, 1860-cı illərdə Rusiyanın ictimai fikrində almanların məskunlaşması, bu prosesin gələcək perspektivləri haqqında müxtəlif müzakirələr aparılmağa və panslavist dairələrin xüsusi fəallığı nəticəsində almanların məskunlaşması haqqında mənfi rəy təbliğ edilməyə başladı.

XIX əsrin 70-ci illərindən başlayaraq çar hökuməti alman əhalisinə qarşı daxili siyasətində bir sıra əsaslı dəyişikliklər etdi. Fikrimizcə bu, dəyişiklik ,birinci növbədə 1870–1871-ci illərin Fransa-Prussiya müharibəsindən və birləşmiş Almaniyanın yaranmasından sonra Avropada baş verən siyasi dəyişikliklərlə sıx bağlı

idi. Polşa üsyanı zamanı Prussiyanın Rusiya ilə müttəfiq kimi davranmasına baxmayaraq Rusiya siyasətçilərinin bir qismi Prussiyanın hərəkətlərində Polşa torpaqlarını bütövlükdə öz tərkibinə qatmaq niyyətlərinin gizləndiyini söyləyirdilər. Həqiqətən də Polşa üsyanın hələ başlanğıcında Otto Bismark tezliklə Polşa torpaqlarının Rusiyanın tərkibindən qopacağını proqnozlaşdırmışdı. "Elə o vaxt biz hərəkətə başlayacağıq, Polşanı ələ keçirəcəyik və üç ildən sonra orada hər şey germanlaşdırılacaqdır" deyə Otto Bismark Polşaya dair planlarını açıqlamışdı[28]. Ancaq o açıq ərazi iddiaları ilə çıxış etməkdən çəkinirdi, çünki Almaniyanın birləşdirilməsi uğrunda mübarizədə Prussiya Rusiyanın dəstəyinə ehtiyac hiss edirdi.

1870-1871-ci illərin Fransa-Prussiya müharibəsinin yekun nəticəsi Mərkəzi Avropada güclü, vahid Almaniyanın yaranması oldu. Gənc Almaniya artıq ənənəvi Avropa siyasəti ilə məşğul olmaq istəmir, fəal şəkildə dünya siyasətinə qoşulurdu. Yeni formalaşmış beynəlxalq münasibətlər sistemində Almaniyanın və Rusiyanın siyasi maraqları bir-birilə toqquşurdu. "Şərq məsələsi"nin həllində, Avstriya-Macarıstan, Polşanın gələcək taleyi, Balkan yarımadasının slavyan xalqlarının Osmanlı dövlətinə qarşı separat hərəkatı kimi məsələlərdə iki dövlət arasındakı ziddiyyətlər daha kəskin idi. Almaniya ilə Rusiya münasibətlərinin mürəkkəbləşməsi müharibə təhlükəsi yaradırdı və təsadüfi deyildir ki, Fransa - Prussiya müharibəsi başa çatdıqdan dərhal sonra general Moltkenin rəhbərliyi ilə Almaniya Baş qərargahı eyni vaxtda iki cəbhəyə – həm Fransaya, həm də Rusiyaya qarşı müharibə planının hazırlanmasına başladı [29].

Frank-pruss müharibəsindən sonrakı dövrdə "alman məsələsi"nin müzakirəsi qəzet səhifələrindən hökumət səviyyəsinə qaldırıldı. Çar hökumətinin bu məsələyə marağı beynəlxalq aləmdə baş verən hadisələrlə və ilk növbədə vahid Almaniya dövləti yarandıqdan sonra rus-alman münasibətlərində ziddiyyətlərin yaranması ilə bağlı idi. Qafqaz regionuna nisbətən qərb quberniyalarında "alman məsələsi" daha kəskin xarakter almışdı və bu məsələni hökumət səviyyəsinə qaldıranlardan biri də Kiyev general- qubernatoru Dondukov-Korsakov oldu. O, alman kolonistlərinin Rusiya iqtisadiyyatında oynadıqları müsbət rolu qeyd etməklə yanaşı, ölkəni "germanlaşdırma"dan xilas etməyin də zəruriliyini vurğuladı[30]. Problemi həll etmək üçün

Dondukov-Korsakov ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri sayırdı:

1) sərhədyanı quberniyalardan yalnız Rusiya təbəəliyini qəbul etmiş kolonistləri saxlamaqla xarici ölkə vətəndaşlarını uzaqlaşdırmaq;

2) Rusiya təbəəliyini qəbul etmiş kolonistlərin statusunu dəyişərək onları kəndli kateqoriyasına çevirmək ;

3) əcnəbi kolonistlərin daxili idarəetmə sistemini dəyişərək onların ümumi nahiyə və kəndli icmaları tərəfindən idarə olunmasını təmin etmək;

4) əvvəllər kolnistlərə verilən bütün imtiyazları ləğv etmək, onlar tərəfindən bütün vergilərin, mükəlləfiyyətlərin, o cümlədən hərbi xidmətin yerinə yetirilməsini mütləq etmək.

Xarici ölkə təbəələrinə gəldikdə, Dondukov-Korsakov təklif etdi ki, onlara 5 il müddət verilməlidir ki, əcnəbi kolonistlər bu vaxt ərzində Rusiya qanunları ilə tanış olsunlar və şüurlu şəkildə rus təbəəliyini qəbul etsinlər.

"Alman məsələsi"nin müzakirəsinə Rusiyanın Daxili İşlər Nazirliyi ilə yanaşı, Xarici İşlər Nazirliyi də diqqəti artırdı, belə ki, bu müzakirələrin intensivliyi Rusiya-Almaniya dövlətlərarası münasibətlərə nəzərəçarpacaq təsir göstərirdi. Xarici İşlər naziri Dondukov-Korsakovun təkliflərini bəyəndiyini bildirdi və müxtəlif nazirliklər arasında bir neçə il davam edən qızğın müzakirələrdən sonra 1874-cü ilin iyulunda Nazirlər Kabineti "alman məsələsi" ilə bağlı aşağıdakı məzmunda qərar qəbul etdi :[31]

1) yerli idarə orqanları üçün müəyyən çətinliklər yaratmasına baxmayaraq alman kolonistlərinin fəaliyyəti dövlət maraqları üçün əhəmiyyət kəsb edir;

2) beynəlxalq münasibətlərin mürəkkəbliyini nəzərə alaraq almanların Rusiyada məskunlaşmasına məhdudiyyət qoymaq olmaz, çünki bu addım Almaniya ilə münasibətlərin pisləşməsinə gətirə bilər. Bununla yanaşı, Nazirlər Kabinetində nəzərə alındı ki, almanların sərhədyanı quberniyalarda kütləvi məskunlaşması dövlət üçün siyasi təhlükə yarada bilər və bu halın qarşısını almaq məqsədi ilə alman kolonistlərinin assimilyasiyasına yönələn siyasət aparılmalıdır. Almanların yerli xalqlarla qaynayıb qarışmasına xidmət edəcək bu

tədbirlər yalnız qanuni yolla həyata keçirilməlidir ki, Almaniya ilə münasibətlərin kəskinləşmə sinə gətirməsin. Nazirlər Kabinetində belə bir fikir söylənildi ki, Rusiyanın 22 quberniyasında, o cümlədən Qafqaz quberniyalarında əcnəbiləri şəxsi mülkiyyətə torpaq almaq və yaxud torpağı icarəyə götürmək hüququndan məhrum edən qanun qəbul edilməlidir. Ancaq Nazirlər Kabinetinin yuxarıda göstərilən bütün proyektləri kağız üzərində qaldı.

"Alman məsələsi"nin ən qızğın müzakirə olunduğu dövlət orqanlarından biri də Daxili İşlər Nazirliyi idi. 1876-cı ildə qərb və cənub quberniyalarının başçılarının iştirakı ilə Daxili İşlər Nazirliyində "alman məsələsi" ilə bağlı yeni bir qanun layihəsinin hazılanmasına başlandı. Qanun layihəsinin məzmununa qərb regionunun nümayəndələri – Kiyev general-qubernatoru Dondukov-Korsakov və Vilno general-adyutantı Albedinski böyük təsir göstərirdilər[32]. Birtərəfli qərarın qəbul edilməsini istisna etmək üçün Daxili İşlər Nazirinin təklifi ilə geniştərkibli komissiya yaradıldı. Komissiyaya Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyinin məmurları, çarın şəxsi katibi daxil edildilər. Komissiyanın sədri Daxili İşlər Nazirliyinin nümayəndəsi Lubanov-Rostovski təyin olundu. Komissiyaya "alman məsələsi"nin həlli ilə bağlı qanunvericilik aktlarının proyektinin hazırlanması tapşırılmışdı, ancaq 1877-1878-ci illərin rus-türk müharibəsinin başlanması və "Üç İmperator ittifaqi"nın bərpası ilə əlaqədar "alman məsələsi" müvəqqəti olaraq donduruldu.

O.Bismarkın sədrliyi ilə keçirilən Berlin konqresindən sonra Rusiya ilə Almaniya arasında münasibətlərdə soyuqluq daha da artdı və 1879-cu ildə Otto Bismark Rusiyadan heyvandarlıq məhsullarının idxalına qadağa qoyduqdan sonra bu münasibətlər düşmənçilik xarakteri aldı. Təbii ki, Bismarkın bu addımı pruss yunkerlərinin təzyiqi altında atılmışdi və məqsəd daxili bazarı Rusiyadan gələn ucuz xammaldan qorumaq idi. Otto Bismarkın bu qərarı Rusiya iqtisadiyyatına ağır zərbə vurdu və Almaniyanın Peterburqdakı səfiri general Şvaynitsin yazdığına görə Otto Bismarkın Rusiyadan heyvandarlıq məhsullarının idxalına qoyduğu qadağa ixracatçı ölkənin ictimaiyyətində elə narazılıq dalğası yaratdı ki, heç bir xarici siyasət addımı, hətta Berlin konqresi bu cür vəziyyət yaratmamışdı. Gene-

ral Şvaynitsin qənaətinə görə “bu andan etibarən rusların almanlara qarşı mənfi münasibətinin başlanğıcı qoyuldu”[33]. Şübhəsiz, vahid Almaniyanın yaranması, Almaniya-Rusiya ziddiyyətlərinin daha da dərinləşməsi “alman məsələsi”nin meydana gəlməsinə böyük təsir göstərdi. Ancaq problemə bir qədər dərindən yanaşsaq görərik ki, XVIII əsrin ortalarından Rusiyada almanların kütləvi şəkildə məskunlaşması, bu prosesin siyasi, iqtisadi və kulturoloji nəticələri özü-özlüyündə “alman məsələsi”nin yaranmasının ilkin şərtlərini formalaşdırmışdı.

Yüzillik məskunlaşma nəticəsində Rusiyada alman əhalisinin sayı əhəmiyyətli dərəcədə artdı. 1870-ci illərdə imperiyada onların sayı 1,5 milyonu keçmişdi.1897-ci ilin statistik məlumatlrına görə Rusiyada artıq 1 mln. 813 min alman yaşayırdı[34]. Almanlar sayına görə imperiyanın 6-cı xalqına çevrildilər ki, bu da Rusiyanın siyasi dairələrini, o cümlədən geniş ictimaiyyəti narahat etməyə bilməzdi.

1881-ci ilin martında çar II Aleksandr terroçular tərəfindən qətlə yetirildi və bu hadisədən sonra Rusiya imperiasının, o cümlədən Qafqaz tarixində yeni mərhələ başladı. Bu mərhələdə çar hökuməti müzakirələrlə kifayətlənməyərək alman məskunlaşmasının məhdudlaşmasına yönələn bir sıra konkret addımlar atdı. Gənc çar III Aleksandr idarəetmə sisteminin bir qaydaya salınmasına və imperiya əhalisinin daha güclü şəkildə mədəni homogenliyinə yönələn siyasət yeritməyə başladı və bu siyasətin əsas məzmununu ilk növbədə “ruslaşdırma”, “rusçuluq” xətti təşkil edirdi. III Aleksandrın dövründə “rusçuluq” anlayışı yeni məzmun kəsb etdi. Əgər 1880-ci illərə qədər “rusçuluq” dedikdə, yalnız Rusiya təbəəliyini qəbul etmək başa düşülürdüsə, XIX əsrin 80-ci illərindən “rusçuluq” anlayışı etnik məna kəsb etdi. Bu o demək idi ki, özünüeyniləşdirmə çərçivəsi bir qədər də daraldıldı və qeyri-rus xalqları “rusçuluq” çərçivəsinə yalnız onların ruslaşması nəticəsində qayıda bilərdilər. Bu prosesi sürətləndirmək məqsədilə III Aleksandr qeyri-rus xalqlarına qarşı açıq diskriminasiya siyasəti yürütməyə başladı və “antialman” baxışları ilə tanınan çar III Aleksandrın tərəfdarları 1882-ci il, yəni “Üçlər ittifaqı” yarandıqdan sonra daha da çoxaldı. 1880-ci illərin xüsusiyyəti ondan ibarət idi ki,tarixən alman xalqı haqqında müsbət fikirlər söyləyən rus hərbi dairələri də “alman məsələsi”nin

müzakirəsinə qoşuldular[35]. Rus hərbçiləri də sərhədyanı ərazilərdə alman kolonistlərinin məskunlaşmasında Rusiyaya qarşı təhlükə görür və bu cür narahatçılıq Almaniyanın hərbi siyasəti fonunda ildən-ilə artırdı. Hətta, sərhədyanı quberniyalarda almanların məskunlaşması prosesini dərindən öyrənmək məqsədilə 1881-ci ildə qərb quberniyalarına general A.Kosıçin rəhbərlik etdiyi hərbi ekspedisiya göndərilmişdi. Ekspedisiyanın topladığı nəticələri təhlil etdikdən sonra Rusiyanın Müdafiə Nazirliyi bütün sərhədyanı ərazilərdə sərhəddən 25 verst* məsafədə əcnəbi koloniyaların başqa yerlərə köçürülməsi təklifini irəli sürdü.Bu tədbir strateji zonaların düşmən casuslarından, kəşfiyyatçılarından təmizlənməsinə xidmət etməli idi. Qeyd edək ki, Müdafiə Nazirliyinin mövqeyi, həmçinin rus ordusunun alman mənşəli zabit və generalları tərəfindən də dəstəklənirdi[36].

1885-ci ildə Almaniyada yaşayan yəhudi və polyak mənşəli Rusiya təbəələri ölkədən deportasiya edildilər. Buna cavab olaraq Rusiyanın Daxili İşlər Nazirliyi Almaniya təbəəliyində olan kolonistlərin ölkədən çıxarılmasını tələb etdi. Təbii ki, DİN-in hərəkətləri çar III Aleksandr ilə razılaşdırılmışdı[37].

Daxili İşlər Nazirinin təklifinə qarşı Xarici İşlər Nazirliyi çıxış etdi və hökumətin diqqətini bir fakta yönəltdi ki, 1885-ci ildə Almaniyadan deportasiya olunanlar 1863–1864-cü illərin Polşa üsyanında iştirak edən yəhudi və polyak mənşəli üsyançılardır. XİN-in fikrincə, Almaniya rus xalqına qarşı düşmənçilik etməmişdir və buna alman kolonistlərinin deportasiyası ilə cavab vermək dövlətlərarası münasibətlərə ciddi zərbə vura bilər.

Beləliklə, görürük ki, Rusiya Xarici İşlər Nazirliyi "alman məsələsi"ndə nisbətən liberal mövqe tuturdu və məsələnin elə həllinə çalışırdı ki, onun nəticələri beynəlxalq aləmdə ağır fəsadlar törətməsin. Yuxarıdada qeyd etmişdik ki, hökumət səviyyəsində bu məsələ ilə bağlı ən çox ziddiyyətlər DİN ilə XİN arasında yaranmışdı. İki nazirlik arasında ümumi razılıq əldə etmək məqsədi ilə Daxili İşlər Naziri Durnovo, Xarici İşlər Nazirinin müavini, mənşəcə alman V.K.Plevenin sədrliyi ilə birgə komissiya yaratmağı təklif etdi və bu

* Verst – 1,06 kilometrə bərabər rus uzunluq ölçüsü

təklif çar III Aleksandr tərəfindən bəyənildi. 19 sentyabr 1885-ci il tarixdə çar təklif olunan komissiyanın yaradılması haqqında göstəriş verdi[38]. 1880-ci illərin sonlarında çar hökumətinin almanların məskunlaşması ilə əlaqədar narahatçılığı daha da artdı ki, bu da Almaniya daxilində baş verən hadisələrlə izah olunur. "Kulturkampf" dövründə Otto Bismarkın apardığı mürtəce siyasət Almaniyada yaşayan milli azlıqların – polyakların, fransızların, danimarkalıların, lujitsk sorblarının və sair etnik qrupların milli xüsusiyyətlərinin məhv edilməsinə yönəlmişdi. Mürtəce daxili siyasət alman militarizminin beynəlxalq aləmdə artan aqressivliyi ilə müşayiət olunurdu.

Frankfurt sülhünə görə (10 may 1871-ci il) Fransadan Elzas və Lotaringiyanı qoparan alman hərbi siyasətinin "Dranq nach Osten", yəni "Şərqə təzyiq" doktrinasını yaratdılar və tezliklə, bu ideya pangermanist dairələr tərəfindən geniş şəkildə təbliğ edilməyə başladı[39]. Alman ekspansiyasının ideoloqlarının hesablamalarına görə bu siyasətin həyata keçirilməsi dünyanın bütün dövlətlərinə öz iradəsini qəbul etdirə biləcək "Böyük Almaniya"nın, ümumalman millətinin "Orta Avropa"adlı super dövlətinin yaranmasına gətirərdi, hansı ki, dünyanın bütün dövlətlərinə öz iradəsini qəbul etdirərdi[40]. Bütün bunların arxasında Almaniyanın Avropada hegemonluğuna nail olmaq məqsədi dururdu.

Almaniya tərəfindən özgə dövlətlərin ərazilərinin anneksiya edilməsi, qonşu dövlətlərlə diktat dili ilə danışmaqla onların hədələnməsi, hərbi blokların yaradılması istiqamətində fəaliyyətin artması ilə müşayiət olunurdu. 1883–1885-ci illərdən Almaniya müstəmləkələr ələ keçirməyə başladı ki, bu da klassik kapitalist ölkələri – İngiltərə, Fransa ilə ziddiyyətlərin gərginləşməsinə səbəb oldu.

Almaniyanın işğalçılıq planlarında İngiltərənin, Fransanın və başqa ölkələrin Asiya, Afrika, Latın Amerikasındakı müstəmləkələrinin ələ keçirilməsi, həmçinin Avstriyaya, Hollandiyaya, Danimarkaya, İsveçrəyə, Fransaya və sair dövlətlərə məxsus bəzi ərazilərin işğal edilməsi, Almaniyanın Avropadakı sərhədlərinin genişləndirilməsi nəzərdə tutulurdu. Otto Bismarkın mürtəce daxili siyasəti ilə əlaqəli xarici siyasət sahəsindədə etdiyi bəyanatlar Rusiya ictimaiyyətini narahat edən əsas məsələ idi. Belə ki, Otto Bismarka görə Alma-

niyanın ən başlıca ekspansiya obyekti uzaq ölkələr deyil, Avropa olmalıdır. Müstəmləkəçilik siyasətinin pərəstişkarlarından biri ilə söhbətində Otto Bismark müsahibinin Afrikada geniş ərazilər ələ keçirmək imkanlarının daha real olması fikrilə razılaşmayaraq demişdir: "Sizin Afrika xəritəniz çox yaxşıdır, ancaq mənim Afrika xəritəm Avropadadır. Burada Rusiya yerləşir, burada isə Fransa. Biz isə onların ortasındayıq. Mənim Afrika xəritəm belədir[41]." Bismark hökuməti işğalçı planlarını həyata keçirmək üçün ordu quruculuğuna böyük diqqət yetirirdi. 1881-ci ilin sonlarında Almaniya ordusunun sayı 401659 nəfərə çatmışdı və bundan savayı, hər il könüllülərin hərbi toplantısı çağırılırdı[42]. Qarşıya qoyulan hərbi vəzifələrin yerinə yetirilməsində, təbii ki, xaricdə yaşayan alman diasporlarına da müəyyən ümidlər edilirdi. Hökumətin göstərişi ilə 1886-cı ildə Almaniyada Məskunlaşma komissiyası yaradıldı ki, onun da əsas vəzifəsi Şərqi Avropa və Rusiyada yaşayan çoxsaylı alman kolonistlərinə maddi və mənəvi dəstək göstərməkdən ibarət idi[43].

Çar hökumətini "alman məsələsi"nə tam ciddiliklə yanaşmağa vadar edən səbəblərdən biri Almaniya hökumət dairələrinin xaricdəki soydaşlarından müəyyən siyasi məqsəd üçün istifadə etmək cəhdləri idi. Hökumət dairələri qarşısında iki əsas məsələnin həlli dururdu: birincisi, qərb və cənub quberniyalarda alman əhalisinin sayının artmasının qarşısını almaq; ikincisi, Rusiyanın alman əhalisinin Ümumrusiya ictimai və mədəni həyatına, ümumi idarəetmə sisteminə tam cəlb etmək üçün tədbirlər həyata keçirmək.

Yuxarıda qeyd etdik ki, 1885-ci ildə V.K.Plevenin başçılığı ilə bigə komissiya yaradıldı və komissiya hökumət qarşısında duran problemləri həll etmək məqsədilə müvafiq qanun layihələrinin hazırlanmasına başladı. Komissiyanın bir neçə illik fəaliyyətinin nəticəsi kimi iki qanun layihəsi hazırlandı və onlar III Aleksandr tərəfindən təsdiqləndi.

Birinci problemin – sərhədyanı quberniyalarda almanların məskunlaşmasının məhdudlaşdırılması vəzifə-sinin yerinə yetirilməsi üçün 14 mart 1887-ci ildə qanun qəbul edildi[44]. Bu qanun regional xarakter daşımırdı. Qanunun müddəaları Polşa çarlığındakı 10 quberniyaya, Baltik dənizindən Qara dənizə qədər bütün qərbi quberniyalara, Qara dənizin şimal sahillərindəki, Qafqazdakı, Mərkəzi Asiyanın, hətta Sibirin və Uzaq Şərqin sərhədyanı quberniyalarına

və vilayətlərinə şamil edilirdi. Qanuna görə xarici ölkə təbəələrinə yuxarıda adı çəkilən quberniyalarda və vilayətlərdə səxsi mülkiyyətə torpaq və yaxud başqa daşınmaz əmlak əldə etmək qadağan olunurdu. Qanunun qəbuluna qədər Rusiyada məskunlaşan və Rusiya təbəəliyini qəbul edən əcnəbilərə bu müddəa aid edilmirdi. Qanuna görə əcnəbi vətəndaş qanun dərc edildikdən sonra 3 il ərzində ona məxsus olan daşınmaz əmlakı Rusiya təbəəsinə satmalı idi. Əks halda onun əmlakı dövlətin xeyrinə müsadirə olunurdu. Əcnəbi kolonistin torpaq sahibi ilə bağladığı icarə haqqında müqavilə onun müddəti bitənə qədər qüvvədə qalırdı[45]. Xarici ölkə təbəələri yalnız Rusiya təbəəliyini qəbul etdikdən sonra daşınmaz əmlaka malik ola bilərdilər. Ümumiyyətlə götürdükdə, 14 mart 1887-ci il qanunu beynəlxalq münasibətlərə zərər gətirmədən iqtisadi metodlarla əcnəbilərin, o cümlədən almanların sərhədyanı quberniyalarda məskunlaşmasının qarşısının alınmasına yönəlmişdi.

Kolonistlərin Ümumimperiya həyatına cəlb edilməsi kimi vacib məsələnin həllinə yönələn əsas tədbirlər 15 iyun 1888-ci il qanununda öz əksini tapdı[46]. 1871-ci il 04 iyun tarixdə qəbul edilən qanuna görə kolonist statusu ləğv edilmiş və kolonistlərin kəndli kateqoriyasına keçirilməsi, onların Ümumrusiya kəndli idarələri tərəfindən idarə olunması məsələsi rəsmiləşdirilmişdi. Lakin bir çox regionlarda, o cümlədən Qafqazda hələ də kolonist statusu saxlanılırdı və koloniyaların istər daxili, istərsə də xarici idarə olunması məzmunca əsaslı dəyişikliyə uğramamışdı. Koloniyalar əvvəlki kimi yenə də starostalar* tərəfindən idarə olunurdular. Onlar yerli nahiyələrə tabe olmur, təcrid olunmuş, qapalı həyat sürməkdə davam edirdilər. Vergilərin, mükəlləfiyyətlərin, ictimai işlərin yerinə yetirilməsi ilə bağlı bütün ağırlıq yerli kəndli təbəqəsinin çiyninə düşürdü. Alman kolonistlərinin Ümumrusiya ictimai-siyasi həyatına cəlb edilməsi və onlar üzərində ictimai nəzarəti gücləndirməyə xidmət edən 15 iyun 1888-ci il qanunu aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu[47]:

– Rusiya təbəəliyini qəbul etmiş kolonistlərin şəhər və yaxud kənd silklərinə aid edilməsi, yəni kolonistlər meşşan və yaxud kəndli silkində qeydiyyata alınmalı idilər;

---

* Kətxuda, kovxa, başçı

– kəndli silkinə yazılmış kolonistlər kəndli icması yaratmalı və kənd nahiyələrinə tabe olmalı idilər;

– əgər kənddə əhali qarışıqdırsa, yəni burada həm almanlar, həm də başqa xalqlar yaşayırlarsa starosta və mirzə rus mənşəli şəxslərdən təyin olunmalıdırlar; xarici ölkələrin vətəndaşları olan kolonistlər, tutduqları vəzifələrdən və aid olduqları sosial statusdan asılı olmayaraq öz yaşayış yerlərində polis orqanlarında və vergi müfəttişliyində qeydiyyatdan keçməlidirlər. Qanuna görə onlar bütün zemstvo*, dövlət, nahiyə vergilərini ödəməli olsalar da, nahiyə iclaslarında səsvermə hüququna malik deyildilər.

Beləliklə, görürük ki, 15 iyun 1888-ci il qanunu alman əhalisinin özünüidarə hüququnun məhdudlaşdırılmasına yönəlmişdi. Sonralar Senat komissiyası bir daha bu problemə qayıtdı və alman koloniyalarının inzibati quruluşuna aid ayrı-seçkilik xarakterli qərarlar qəbul etdi. Nahiyələrin inzibati sərhədləri elə dəyişdirilirdi ki, bir nahiyə çərçivəsində alman əhalisi azlıqda qalsın və iclaslarda qəbul olunan qərarların xarakterinə təsir göstərə bilməsinlər. Çar hökumətinin bu addımları alman koloniyaları üzərində nəzarətin gücləndirilməsində vergi müfəttişliyinin işini xeyli yüngülləşdirdi.

14 mart 1887-ci və 15 iyun 1888-ci illərin qanunları "alman elementi"nin məhdudlaşdırılmasına yönələn tədbirlərin həyata keçirilməsində qubernatorlara geniş səlahiyyətlər verdi. Ayrı-seçkilik xarakterli tədbirlər almanların həm iqtisadi, həm də mədəni həyatına yönəlmişdi. Protestant din xadimlərinin kolonistlərin mədəni həyatına təsirinin zəiflədilməsinə yönələn addımlar atılır, bütün alman məktəblərində ümumi tədris rus dilinə keçirildi. Ümumiyyətlə, 1880-1890-cı illərdə çarizmin daxili, mürtəce siyasətinin əsas istiqamətlərindən biri, "qeyri-rus" xalqlarının ruslaşdırılmasına yönəlmişdi .

Rusiyada alman kolonistlərinə qarşı aparılan ayrı-seçkilik siyasəti haqqında məlumat alan Almaniya hökuməti də öz növbəsində bir sıra iqtisadi tədbirlərə əl atdı ki, bu da Almaniyaya Rusiyadan ixrac olunan malların payının azalmasına və Rusiya qiymətli kağızlarının devalvasiyasına gətirdi. Rusiya nəzərəçarpacaq dərəcədə iqtisadi itkilərə məruz qaldı[48].

---

* Tərkibinin çox hissəsi zadəganlardan ibarət olan seçkili yerli idarə

14 mart 1887 və 15 iyun 1888-ci illərin qanunları Rusiyanın alman əhalisi arasında Rusiya təbəəliyinə can atanların sayının artmasına səbəb oldu və onları bu addımı atmağa məcbur edən əsas səbəb olsa da, çar hökuməti alman kolonistlərinin kütləvi şəkildə Rusiya təbəəliyini qəbul etməsində maraqlı deyildi, çünki bu halda alman kolonisti muəyyən iqtisadi üstünlüklər əldə edirdi. Buna görə Almaniya təbəələrinin Rusiya təbəəliyinə qəbul edilməsi prosesi süni şəkildə yubadılırdı və nəticədə, ildən-ilə Rusiya təbəəliyinə qəbul edilənlərin sayı azalırdı, baxmayaraq ki, kolonistlərin rus təbəəliyini qəbul etmək haqqında ərizələrinin sayı ilbəil artırdı[49].

Əvvəlki dövrlərə baxanda 1880-cı illərin köçkünləri hüquqi cəhətdən daha hazılıqlı idilər.1887-1888-ci illər qanunları kolonistin Rusiya imperiyası ərazisində azad şəkildə yerdəyişməsi üçün şərait yaratdı. Əgər kolonistin əlində “azadolma haqqında şəhadətnamə” olarsa, o imperiyanın istənilən nöqtəsinə köçərək məskunlaşmaq hüququna malik idi.

Almaniyanın yeni kansleri, ehtiyatlı və bacarıqlı diplomat Kaprivinin səyləri nəticəsində 1890-cı ildən başlayaraq Rusiya ilə Almaniya arasında gərginlik nisbətən səngiməyə başladı.

Ancaq alman mətbuatı, müxtəlif pangermanist ruhlu publisistlər Rusiya haqqında qərəzli yazılarla çıxış etməkdə davam edir, Rusiya-Almaniya münasibətlərində gərginliyi artırırdılar. Onlar Rusiyanın parçalanması hesabına Almaniyanın güclənməsi planları qururdular və bu planların nəzəri əsasını tanınmış alman burjua nəzəriyyəçisi K.Fransın ideyaları təşkil edirdi. K.Frans hesab edirdi ki, İngiltərənin köməyi ilə Avropada almanların “Mərkəzi Avropa İttifaqını” yaratmaq mümkündür. Bunun üçün Rusiyanı Baltikyanı ərazilərdən, Qara dəniz sahili və Qafqazdan sıxışdırmaq, Rusiyanı “Pyotr dövrünün sərhədlərinə” qaytarmaq lazımdır. Rusiyadan qoparılan Baltik dənizindən tutmuş Qara dənizə və Xəzərə qədər geniş ərazilərdə “alman millətinin imperiyası” bərqərar olmalıdır[50].

K.Frans hesab edirdi ki, “Kiçik Almaniya ideyası” Otto Bismarkın fəaliyyəti illərində özünün məntiqi sonuna çatdı, buna görə “köhnə reyxin” bərpa edilməsi “federativ əsaslarda” həyata keçirilməlidir[51]. Təbii ki, bu planların həyata keçirilməsində Rusiya-

da yaşayan alman əhalisinə, əsasən də Rusiyanın sərhədyanı quberniyalarında məskunlaşan kolonistlərə müəyyən ümidlər bəslənilirdi.

"Kiçik Germaniya ideyası" 1894-cü ildə yaranan Pangerman İttifaqı (Alldeutscher Verband) və onun filialı – Ostmarkferein tərəfindən daha da inkişaf etdirilərək yeni tarixi şəraitə uyğunlaşdırıldı. Pangermanistlərin ideologiyasının əsasında prussakların və Qoqensollerlər sülaləsinin xüsusi "milli missiya" yerinə yetirməsi ideyası, dünyada ilahidən gələn qayda-qanunun bərpa edilməsində silahın və müharibənin gücünə pərəstiş, antisemitizm, kiçik xalqlara, əsasən də slavyan mənşəli xalqlara qarşı nifrət təbliğ edilməsi dururdu[52].

"Kiçik Germaniya ideyası"nın ideloqlarından biri Q.Treyçkenin baxışlarını əsas tutan pangermanistlər hesab edirdilər ki, dünya miqyaslı imperiyanın yaranması üçün Avropada mövcud olan german tipli dövlətlərin və "almanca danışan 300 mln. insanın birləşdirilməsi" zərurəti yaranmışdır[53]. Bu cür imperiyanın yaranmasında yeganə yolu müharibədə görən pangermanistlər onu yalnız müsbət cəhətdən qiymətləndirirdilər. Məsələn, pangermanistlərdən biri yazırdı: "almanlar məğlub olsalar belə, müharibə müalicəvi xüsusiyyətlərə malik olacaq, çünki ondan sonra xaos yaranacaq ki, bu da diktatorun gəlməsi ilə nəticələnəcək." Onların fikrincə, "yanız mərkəzi Avropada istila olunmuş xalqların kölə edilməsi və onların amansızcasına germanlaşdırılması hesabına yaranan "Böyük Almaniya", "dünya və kolonializm siyasətini" həyata keçirmək iqtidarında ola bilərdi[54]".

Beləliklə, görürük ki, K.Fransın simasında həm liberal-burjua, həm də pangermanizm ideoloqları Şərqdə yeni ərazilərin ələ keçirilməsinə təbii və zəruri bir hal kimi baxırdılar. Almaniya hökuməti bu "nəzəriyyələri" dəstəkləyirdi. Məsələn, II Vilhelm dəfələrlə, Almaniya imperiyasını "vaxtilə Roma imperiyası olduğu kimi" dünya imperiyasına çevirmək çağırışları ilə çıxış etmişdi[55].

Pangermanizm ideoloqlarının tarixi konsepsiyasına görə 1870-1871-ci illərin Fransa-Prussiya müharibəsi "Mərkəzi Avropanı Fransadan təmizlədi[56]".Onların fikrincə, Mərkəzi Avropanın Rusiyadan təmizlənməsi artıq 1876-cı ildə, yəni Avstriya-Rusiya müharibəsi başlayan halda Almaniyanın neytrallıqdan imtina edəcəyi haqqında bəyanatından sonra başlanmışdır. Birinci Dünya müharibəsi – alman

müharibəsi "Bismarkın işini başa çatdırmalı", "alman millətinin Müqəddəs Roma imperiyasını uzun yuxudan oyatmalıdır[57]."

XIX əsrin 90-cı illərində Almaniyanın ictimai-siyasi həyatında sərhədlərin şərq istiqamətində genişləndirilməsi ideyası geniş yayılmışdı. Pangermanizmin təbliğində yuxarıda adları çəkilən alman alimlərinin böyük təsiri vardı. Məsələn, professor V.Roşer "Milli iqtisadiyyatın inkişafının tarixi əsasları" əsərində belə bir fikir irəli sürür ki, alman mühacirlərinin Rusiyadansa daha çox Balkan yarımadasında və Türkiyədə məskunlaşması Almaniyanın geosiyasi maraqlarına cavab verərdi. Onun fikrincə, adı çəkilən əraziləri ələ keçirərək Almaniya möhtəşəm bir dövlətə çevrilərdi və Rusiyanın simasında hər hansı bir rusofilçiliyə, panslavizmə tutarlı zərbə vura bilərdi. V.Roşerin yetirməsi, Almaniyada tanınmış tarixçi Karl Entç "Böyük Almaniya harada yerləşir?" adlı əsərində pangermanizm ideyalarını daha da inkişaf etdirərək Rusiyanın müharibə yolu ilə parçalanmasının və onun Avropa hissəsində alman əhalisinin yerləşdirilməsinin zəruriliyi haqqında təkliflər irəli sürmüşdü. K.Entç bu zəruriliyi nədə görürdü? O, hesab edirdi ki, Almaniyanın Rusiyaya qarşı aparacağı müharibə təbii zərurətdən doğan müharibə olacaqdır və yalnız mədəni millətlər arasında aparılan müharibə cinayət hesab edilə bilər. K.Entçin fikrincə, "böyük" millətlərin "mədəniyyətsiz", "geridəqalmış" xalqlara qarşı müharibəsinin əsas məqsədi onlara inkişaf gətirməkdir və bu mənada Almaniyanın Rusiyaya qarşı müharibəsi daha çox missionerlik xarakteri daşıyacaqdır[58]. Bu "missiya"nın həyata keçirilməsində Rusiyada yaşayan almanların roluna gəldikdə, K.Entç hesab edirdi ki, Rusiyanın cinahlarında – Baltikyanı, Qara dəniz sahili və Qafqaz ərazilərində almanların məskunlaşmasını daha da intensivləşdirmək, onların iqtisadi, siyasi gücünü artırmaq və hər bir alman koloniyasını germanizmin forpostuna çevirmək lazımdır. Almaniyada tanınmış filosof Eduard fon Hartman 1891-ci ildə Rusiyanın gələcəkdə Almaniya və Avstriya arasında bölüşdürülməsinə həsr etdiyi məruzədə qeyd edirdi ki "hər iki dövlət bu addımı atmağa məcburdular, əks halda daha böyük bəla – Polşa dövlətinin bərpası ilə qarşılaşacaqlar[59]".

XIX əsrin sonlarında alman tarixçilərinin, filosoflarının, publisistlərinin Rusiyaya ərazi iddialarına cavab olaraq Rusiyada

da “alman məsələsi”nə həsr olunmuş bir sıra əsərlər nəşr edildi. Bu əsərlərin müəllifləri V.Roşerdən, E.Hartmandan, K.Entçdən və sair müəlliflərdən sitatlar gətirir və vurğulayırdılar ki, almanların Rusiyada məskunlaşmasının müəyyən siyasi məqsədləri var[60]. Deyilənlərin təsirini artırmaq üçün rus müəlliflər oxucunun dıqqətini kolonistlərin hərbi nöqteyi-nəzərdən əsasən strateji regionlara (Qərb quberniyalarına, Qara dənizin şimal sahillərinə və Qafqaza) can atdığını, onların daha çox magistral quru yollarının, strateji məntəqələrin yaxınlığında məskunlaşdığını, kolonistlərin tarixi vətənləri – Almaniya ilə daimi əlaqə saxladıqlarını, gənc kolonistlərin Almaniya hərbi qüvvələrində xidmətə meyilliliyini, kolonistlərin yerli xalqlara düşmən münasibətdə olduğunu və sair arqumentlər gətirirdilər[61]. Ümumiyyətlə, rus müəlliflərinin əsərləri müdafiə xarakteri daşıyırdı və ictimaiyyətin diqqətinin Rusiyada alman məskunlaşması ilə Almaniyanın hərbi planları arasında əlaqələrin mövcudluğu fikrinə yönəldilməsinə xidmət edirdi.

Rusiya mətbuatı ictimai həyatda almanlara qarşı narazılığın ildən-ilə artmasında böyük təsirə malik idi. Panslavist dairələrin təsirində olan qəzet və jurnallarda pangermanizm ruhlu əsərlərdən tərcümələr dərc edilir, alman məskunlaşmasının həqiqətən “təhlükəli Tevton yürüşü”olduğunu Rusiya oxucusuna çatdırmağa çalışır dılar[62]. Bu işdə onlara millətçi alman tarixçiləri, iqtisadçıları, publisistləri də yaxından “kömək” edirdilər. Məsələn, tanınmış alman tarixçisi, professor Karl Entç Rusiyaya 10 milyon kolonistin köçürülməsindən və guya ki, Rusiyanı silahsız ələ keçirmək planlarından yazırdı. Professor Roşer isə hesab edirdi ki, vaxtilə slavyanlar Elba və Oderdə ekspansiya həyata keçirdikləri kimi, indi də almanlar Rusiyada təzyiq edən tərəfə çevrilməlidirlər[63].

“Kiyevlyanin”, “St-Peterburqer Zeitunq”, “Kaukasische Post”, “Kaspi” kimi kütləvi informasiya vasitələri alman kolonistlərinin Rusiya üçün faydalı fəaliyyətini vurğulayır və onlara qarşı kəskin çıxışlara son qoyulmasını tələb edirdilər.[64] Ancaq alman kolonistlərinin hüquqlarını müdafiə edən bu cür mətbu orqanlar azlıq təşkil edirdilər. Görürük ki, həm kütləvi informasiya vasitələrində, həm də hökumət dairələrində “alman məsələsi”nə müxtəlif yanaşma mövcud idi.

Almaniyanın milliyətçi mətbuatında Rusiyaya, slavyanizmə qarşı yazıların dərc olunması çar Rusiyasının ictimai-siyasi həyatında narahatlıq yaratdı. Slavyanofil istiqamətli mətbu orqanlar, ayrı-ayrı publisistlər pangermanistlərin əsərlərinə həvəslə istinad edərək Rusiyanı "real Tevton təhlükəsi" gözlədiyini iddia edir, hökumətdən adekvat addımların atılmasını tələb edirdilər. 1890-cı illərdə "alman məsələsi"nin müzakirəsində panslavist yönümlü "Moskovskiye vedomosti", "Qrajdanin", "Yujnıy Krım", "Krımskiy vestnik" və sair qəzetlər daha fəal iştirak edirdilər[65].

Çar III Aleksandrın göstərişi ilə 1891-ci ildə Daxili İşlər Naziri Durnovo sərhədyanı quberniyalarda almanların məskunlaşmasına qarşı yönələn qanun layihəsi hazırladı və bu proyektə görə Rusiyada məskunlaşan əcnəbi kolonistlər 4 kateqoriyaya bölünürdülər. Qanun layihəsinə görə yalnız rus təbəəsinin ailəsində doğulan, rus təbəəliyini və pravoslav dinini qəbul edən kolonistlərə torpaqdan istifadə hüququ verilirdi. Qalan hallarda kolonistin torpağı satın almaq və yaxud icarəyə götürmək haqqında bütün müqavilələri etibarsız elan olunurdu[66].

Bəzi düzəlişlərdən sonra 14 mart 1892-ci il tarixdə çar III Aleksandr bu layihəni qanunlaşdırdı. Qubernatorların narazılığına baxmayaraq çar adı çəkilən qanunun yalnız Volın quberniyasına aid edilməsi haqqında göstəriş verdi[67].

Rusiya ictimaiyyətində alman kolonistlərinə qarşı mü-nasibətdə radikallıq durmadan artırdı. II Nikolayın hakimiyyətə gəlişi ilə almanlara qarşı münasibət liberallaşdı. Mətbuat səhifələrində "alman məsələsi"nin müzakirəsindəki gərginlik nisbətən səngidi.Bu dövrdə çap olunan yazıların məzmunu o fikirlə tamamlanırdı ki, "alman məsələsi"nin həllinin vaxtı hələ çatmamışdır və mübahisələr əsasən bu məsələnin hansı metodlarla həll edilməsi ətrafında aparılırdı. Bir sıra kütləvi informasiya vasitələri, məsələn, "Odesskiy listok", "St.Peterburqer Zeitunq", "Kiyevlyanin" və başqaları alman kolonistlərinin inkişaf etmiş təsərrüfat sistemindən yazır və bütün rus kəndlərinin alman koloniyalarının nümunəsində inkişaf etdirilməsini təklif edirdilər.

XIX əsrin sonlarında alman məskunlaşması probleminə diqqət yenidən artdı. Bu dəfə Qərb quberniyaları ilə yanaşı, həm də

Qaradənizin şimal sahili və Qafqazda məskunlaşan alman əhalisi hədəfə götürülmüşdü ki,bu da regionda baş verən siyasi hadisələrlə bağlı idi.

XIX əsrin 90-cı illərinin sonundan başlayaraq panslavist dairələrin çıxışları yenidən qızışdı və mətbuatda antialman məzmunlu məqalələr çap olunmağa başladı. "Alman məsələsi"nin yenidən gündəmə gəlməsi beynəlxalq aləmdə baş verən hadisələrlə birbaşa bağlı idi. Məlumdur ki, 27 noyabr 1899-cu il tarixdə Sultanın fərmanına görə Almaniya qabaqcadan Bosfordan Fars körfəzinədək dəmir yolunun çəkilişinə aid konsessiya aldı. Kolonial və asılı dövlətlərin ərazisində dəmir yolu tikintisi XIX əsrin sonu – XX əsrin əvvəllərində dünyanı yenidən bölüşdürmək uğrunda gedən mübarizədə əsas vasitələrdən biri idi. Almaniya bu amildən özünün Yaxın Şərqə dair siyasi planlarının həyata keçirilməsində istifadə etməyə çalışırdı. Hələ 1872-ci ildə mühəndis Pressel Bosfordan Fars körfəzinə qədər uzanan dəmiryol xəttinin və onun həm cənub, həm də simal istiqamətlərdə qollarının (köməkçi xətlərinin) çəkilişinə dair proyekt hazırlamışdı[68]. Bu proyektin həyata keçirilməsi uğrunda Almaniya hökuməti uzun illər diplomatik mübarizə aparırdı. Bağdad dəmir yolunun çəkilişi üzrə konsessiyaların Almaniyaya verilməsi xəbəri Rusiyada düşməncəsinə qarşılandı. Berlindəki rus səfiri Almaniyanın xarici işlər naziri fon Byulova bu proyektin həyata keçirilməsi ilə bağlı Rusiyanın cənub hüdudlarına və ilk növbədə Qafqaz üçün müəyyən siyasi problemlər yaradacağı haqqında Rusiya hökumətinin narahatlığını bildirdi. Fon Byulov cavabında Almaniyanın Kicik Asiyada yalnız iqtisadi maraqlar güddüyünü, heç bir halda Rusiyanın bu regionda siyasi məqsədlərinə əngəl törətmək niyyətində olmadığını söylədi.

Rusiya rəsmi dairələrində Almaniyanın Bağdad dəmiryol xəttinin çəkilişi proyektinə şübhə ilə yanaşırdılar və bununla əlaqədar Rusiyanın hərbi naziri general Kuropatkin demişdir: "Palangendən Ərzuruma qədər onlar (almanlar – *İ.A*). Rusiyanı aralığa almaq istəyirlər[69]."

Bağdad dəmir yolunun çəkilişi barədə konsessiyalar tam olaraq 1903-cü ilin martında tərtib olundu və bu proyektin həyata keçirilməsi Rusiyanın Şərqi Anadoluya aid planlarını alt-üst edirdi.Bundan sa-

vayı, Bağdad dəmir yolunun çəkilişi, Türkiyənin Qara dəniz və Qafqazla hüdudlarına qədər alman təsirinin yayılması demək idi. Bu baxımdan, proyektin müvəffəqiyyətlə həyata keçirilməsində Almaniya hökuməti müəyyən ümidləri Qafqaz almanları ilə bağlayırdı, belə ki, onları Qafqazın, ümumiyyətlə Şərqin biliciləri sayırdılar.

Çar hökuməti Almaniyanın Rusiya hüdudlarında təsirinin artırmasına təşvişlə baxır, bu işdə onlara yardımçı ola biləcək Qafqazın alman kolonistlərinə şübhə ilə yanaşırdı.

Cənubi Afrikada baş verən hadisələr – ingilis-bur müharibələri fonunda, "alman məsələsi" yenidən mətbuat orqanlarının səhifələrində ən diqqəti cəlb edən mövzulardan birinə çevrildi.

"Novoye vremya", "Moskovskie vedomosti" qəzetləri Cənubi Afrikada baş verən hadisələri işıqlandıraraq Afrika ilə Rusiya arasında paralel apararır, rus kəndlilərini zəncilərə, alman kolonistlərini isə kolonizator - burlara bənzədirdilər. Rusiya hüdudlarında almanların daxili miqrasiyasına siyasi don geyindirilir,buna "antirus" tədbiri məzmunu verilirdi. Bu planda M.Katkovun redaktoru olduğu "Moskovskie vedomosti" qəzeti daha "fəallıq" edirdi. Məsələn, 1901-1902-ci illərdə alman əhalisinin müəyyən sosial səbəblərdən imperiyanın ucqarlarına, əsasən də Baltikyanı ərazilərə, Qafqaza köçməsini qəzet "növbəti Tevton gedişi" adlandırırdı. Qəzetin yazdığına görə, guya almanlar bilərəkdən sərhədyanı, strateji regionlarda yerləşərək orada say çoxluğunu artırır və beləliklə, gələcəkdə bu ərazilərin alman militarizminin platsdarmına çevrilməsi üçün baza yaradırlar[70].

Qərbi Ukrayna ərazisində Avstriya casusunun orada yerləşən hərbi obyektlərin xəritəsi ilə tutulması xəbərindən sonra antialman məzmunlu yazıların sayı daha da artdı[71].

Rusiya ilə Almaniya arasında ziddiyyətlər XX əsrin əvvəllərindən kəskinləşdikcə alman kəşfiyyatının Cənubi Qafqazda fəaliyyəti məqsədyönlü və intensiv xarakter alırdı.

Almaniyanın Cənubi Qafqazda kəşfiyyat fəaliyyəti çoxşaxəli xarakter daşıyırdı. Əsas diqqət regionun müxtəlif rayonlarında və əhalinin müxtəlif sosial təbəqələri arasında casusların yerləşdirilməsinə və beləliklə, geniş casus şəbəkəsinin yaradılmasına yönəlmişdi. Almaniyanın hökumət dairələri ilə sıx təmasda fəaliyyət göstərən kəşfiyyat xidməti Cənubi Qafqazdakı casusluq şəbəkəsi

qarşısında müxtəlif vəzifələr qoymuşdu. Bura həm hərbi,həm iqtisadi, həm də siyasi xarakterli məlumatların toplanması daxil idi.Alman kəşfiyyatını ən çox maraqlandıran məsələlər Qafqazda rus ordu hissələrinin yerləşməsi və silahla təchizatı, dəniz yollarının yükdaşıma qabiliyyəti, şoselərin və torpaq yolların xəritəsi, yeni limanların, körpülərin inşası, sənayedə alman kapitalına rəqabət yarada biləcək firmaların maliyyə vəziyyəti, yeni təbii sərvətlərlə zəngin yataqların öyrənilməsi, müharibə başlayarsa, Cənubi Qafqazın cəbhəni ərzaqla təminetmə imkanları və s. məsələlər idi.

Regionun siyasi həyatında gedən proseslərin öyrənilməsinə də böyük önəm verilirdi. Rusiyanın Yaxın Şərq, İran və Türkiyə ilə münasibətlərinə, "erməni məsələsi"ndə apardığı siyasətə dair, həmçinin Qafqaz xalqlarının əhval ruhiyyəsi, onların çar hökumətinə münasibəti, Qafqaz xalqları arasında milli münasibətlərin məzmunu haqqında məlumatın toplanması da kəşfiyyatın prioritet vəzifələrindən biri idi. Bu işdə Cənubi Qafqazda yaşayan alman əhalisinin əməli köməklik göstərməsinə ümidlər bəslənilirdi. Həqiqətdə isə, arxiv sənədlərində almanların milli münaqişələrin daha da qızışdırılmasına yönələn addımları haqda məlumatlara, ikili oyun oynama faktlarına rast gəlinmir. Bu ona görədir ki, hökumətə qarşı hər hansı fəaliyyətdə günahlanmaqdan sığortalanaraq alman kolonistləri Qafqazda milli zəmində baş verən konfliktlərdə neytral mövqe tuturdular. Bu özünü 1905–1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi zamanı daha aydın göstərdi. Almanlar, məsələnin çox incə və zərif xarakter daşıdığından neytral mövqe tutmalarına baxmayaraq, çox vaxt özləri erməni terrorunun qurbanlarına çevrilirdilər. Bu haqda arxiv fondlarında çoxsaylı sənədlər saxlanılır[72]. Ermənilər hesab edirdilər ki, alman kolonistləri "tatarlarla birləşiblər və ermənilərə qarşı birgə çıxış edirlər[73]." Buna görə Yelizavetpol quberniyasında erməni silahlı dəstələri həm azərbaycanlılara, həm də almanlara basqınlar edirdilər. Bu tipli hadisələr haqqında kolonistlərin yerli hakimiyyət orqanlarına təkcə 1905-ci ilin iyun, iyul, sentyabr, dekabr aylarında şikayətnamələri daxil olmuşdur və şikayətnamələrdə kolonistlər "cinayətkarlara qarşı tədbirlərin görülməsini xahiş edirdilər[74]."

Erməni terrorçuları təkcə sadə kolonistlərə qarşı deyil, rəsmi dövlət nümayəndələrinə də hədə-qorxu gəlir, erməni terroruna qarşı

ictimaiyyəti mübarizəyə çağıranları fiziki cəhətdən məhv edirdilər. Məsələn, erməni terrorçularının qatı düşməni, Yelizavetpol quberniyasının vitse-qubernatoru Andrey Filimonoviç Andreyev 04 iyul 1904-cü ildə qətlə yetirilmişdi. Alman kolonistləri onun xatirəsini əziz tuturdular və dəfn mərasimində fəal iştirak etdiklərinə görə Yelizavetpol qubernatorunun vəzifələrini icra edən general-mayor Fleyşer tərəfindən onlara təşəkkürnamə elan edilmişdi[75]. Bu insansevərlik alman-lüteran əhalisinə baha başa gəldi: 26 sentyabr 1905-ci il tarixdə Cənubi Qafqazın alman koloniyalarının ober-pastoru Markus Miller Tiflisdə erməni terroçuları tərəfindən qətlə yetirildi[76].

Terror fəaliyyətini həyata keçirmək üçün "Daşnaksütyun" partiyasının maliyyə vəsaitlərinə ehtiyacı vardı və partiya üzvləri müxtəlif yollarla – şantajla, hədə-qorxu ilə imkanlı iş adamlarından pul ödənişləri tələb edirdilər. Hətta bu məqsədlə alman koloniyasında yaşayan və yaxud alman müəssisələrində çalışan erməniəsilli işçilərdən də istifadə olunurdu. Məsələn, Yakov Qurrun mineral sular istehsal edən müəssisəsində satış üzrə agent vəzifəsində Qukasov adlı erməni çalışırdı. Qukasovun Y.Qurrdan xəbərsiz "Daşnaksütyun" partiyası ilə sövdələşmə qurması axırıncının həyatı bahasına başa gəldi. Belə ki, "Daşnaksütyun" partiyasının Yelizavetpol komitəsindən borc götürən Qukasova görə Y.Qurr erməni terrorçularının hədələrinə məruz qaldı və nəhayət "Daşnaksütyun" partiyasının 4 avqust 1907-ci il tarixdə Y.Qurra göndərdiyi məktubda ona ölüm cəzasının kəsilməsi barədə hökm göndərildi. Partiyanın möhürü ilə təsdiqlənən bu hökm Y.Qurrun hökumət orqanlarına müraciətindən sonra çıxarılmışdı. Qurr "başqa millətin nümayəndəsi olduğuna görə ona çıxarılan ölüm hökmü "Daşnaksütyun" partiyasinin qərarı ilə 2000 rubl pul cəriməsi ilə əvəz edilmişdi[77]." Göstərilən məbləğ 7 gün ərzində Erməni Mərkəzi Komitəsinə ödənilməli idi. Əks halda Y.Qurru ölümlə hədələyirdilər. Ermənilərə pul ödəməkdən imtina edən Y.Qurr 14 avqust 1907-ci il tarixdə "erməni terrorçuları tərəfindən güllələndi"[78].

20 avqust 1907-ci il tarixdə Yelenendorf koloniyasının ümumi iclasında qeyd olunurdu ki, "Qurr, Erməni Komitəsinə aid terrorçular tərəfindən qətlə yetirilmişdir." İclasdakı çıxışlardan görünür ki, bu hadisə yeganə hal deyildir. Hələ 1904-cü ildə öz üzüm bağında

erməni terrorçuları tərəfindən kolonist Qotlib Digel qətlə yetirilmişdir. 1905-ci ildə, yenə öz üzüm bağında kolonist Yakov Andrisin oğlu ermənilər tərəfindən yaralanmışdır. Ermənilərə məxsus üzüm bağının yanındakı yolla gedən zaman kolonistlər Xristian İmmanuelə və Henrix Mauerə ermənilər tərəfindən atəş açılmış, başından güllə yarası alan Henrix Mauer ölmüşdür. 1906-cı ildə "öz üzüm bağından evinə qayıdan kolonist Qotlib Frik yolda ermənilər tərəfindən öldürülmüşdür[79]."

İclas iştirakçıları hökumət orqanlarına müraciət edərək "onların bu cür terror aktlarından qorunmasını", ümumiyyətlə erməni terroruna son qoyulmasını tələb edirdilər.

İclasda qəbul edilən qərar Yelizavetpol general-qubernatoruna göndərildi və bu sənəddə tələb olunur du ki, qısa müddətdə kolonistlərin xahişinə cavab verilsin. Qərara 224 təsərrüfat başçısı imza atmışdı[80].

Yuxarıda qeyd etdik ki, almanlar 1905-1907-ci illərin erməni-azərbaycanlı münaqişəsində neytral mövqe tutmuş, heç bir tərəfin silahlı dəstələrində iştirak etməmişlər. Ancaq bununla yanaşı, almanlar yaxşı başa düşürdülər ki, erməni quldur dəstələrinin özbaşınalığı çar hökumət dairələrinin gizli havadarlığı nəticəsində mümkün olmuşdur və bu münaqişədə almanlar, mənəvi cəhətdən siyasi oyunların günahsız qurbanlarına çevrilmiş azərbaycanlı əhalinin tərəfində idi. Məhz bu səbəbdən alman kolonistləri ermənilərin azərbaycanlılara qarşı törətdikləri zorakılıq halları haqqında rəsmi orqanlara məlumat verir, "özbaşınalıq edən ermənilərin cəzalandırılmasını" tələb edirdilər[81].

1905–1907-ci illərdə erməni - azərbaycanlı münaqişəsi zamanı Yelenendorf koloniyası ətrafında yaşayan azərbaycanlılar, erməni talanlarından qorumaq məqsədi ilə öz daşınan əmlaklarını müvəqqəti saxlamaq üçün alman kolonistlərinə vermişdilər. Yelenendorf koloniyasının şultsunun (başçısının) 15 aprel 1906-cı il tarixdə yazdığı raportdan görünür ki, erməni basqınları ərəfəsində Topal Həsənli kəndinin azərbaycanlı əhalisi öz əmlaklarının müvəqqəti saxlanılmasını alman kolonistlərinə etibar etmişdilər[82].

Arxiv sənədlərində Hacıkənd sakinləri Adil bəy Rəfibəyova, Mirzə bəy Rəfibəyova, Cəlil Məhəmməd oğluna 1907-ci ilin iyu-

nunda, yəni erməni-azərbaycanlı münaqişəsinin səngiməsindən sonra əşyalarının qaytarılması haqqında məlumat verilir[83].

Birinci rus inqilabının təsiri ilə çarizmin "qeyri-rus" xalqlarına, o cümlədən almanlara qarşı mürtəce siyasəti nisbətən yumşaldı.

Alman kolonistləri tarixən monarxiya tərəfdarları olmuşlar və 1905–1907-ci illərdə Qafqaz regionunda gedən siyasi proseslərə loyal münasibət bəsləyirdilər. Sol təmayüllü partiyaların onları sinfi mübarizəyə cəlb etmək cəhdləri heç bir nəticə vermədi. Kolonistlər, yalnız, onların konkret olaraq öz maraqlaqrına toxunulduğu halda mübarizəyə qoşulurdular. Bu cür çıxışlar, adətən qəza və yaxud nahiyə çərçivəsindən kənara çıxmırdı. Alman əhalisinin inqilabi hadisələrə loyal münasibəti, ölkədə tüğyan edən inqilabi hərəkatın təsiri ilə car hökumətinin kolonistlərə qarşı münasibəti bir qədər yumşaldı: 1905-ci ilin mayında 1 noyabr 1886-cı il qanunu ilə nəzərdə tutulan və kolonistlərə şəhərlərdə toxunulmaz əmlak əldə etməyi qadağan edən müddəa ləğv edildi[84].

1905–1907-ci illər inqilabından sonra həm Rusiya daxilində, həm də beynəlxalq aləmdə baş verən dəişikliklərlə bağlı "alman məsələsi"nin müzakirəsi öz yüksək nöqtəsinə çatdı.

Birinci rus inqilabı zamanı xalq kütlələrinin əzmkarlığı qarşısında çar hökuməti bir sıra güzəştlərə getməyə məcbur olmuşdu. Xalq kütlələrinə, Rusiyada yaşayan qeyri-rus xalqlarına, siyasi partiyalara bir sıra azadlıqlar verildi və onlardan biri 04 mart 1906-cı il tarixdə çar fərmanı ilə təsdiqlənən "Birliklər və cəmiyyətlər haqqında müvəqqəti qaydalar"olmuşdur[85].

1907-ci ilin yayına inqilabi hərəkat bir qədər səngidi və payızda əksinqilab hücuma keçdi, inqilab illərində xalqa verilən bir sıra azadlıqlar məhdudlaşdırılmağa başladı. 09 sentyabr 1907-ci il tarixdə Daxili İşlər naziri Stolıpin 30 saylı sərəncamı ilə 04 mart 1906-cı ildə qəbul edilən yuxarıda adını çəkdiyimiz "Müvəqqəti qaydaları" bir daha təhlil etməyi, qaydaların dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürməyi, həmin qanunun praktiki həyata keçirilməsində "üzə çıxan çatışmazlıqları göstərməyi" tələb edirdi. Eyni zamanda, nazir özü problem hesab etdiyi məsələləri göstərir və əsas diqqəti bunlara yönəltməyi məsləhət görürdü[86].

Tövsiyələrin məzmunu aşağıdakılardan ibarət idi:

1) cəmiyyətlər yaradılan zaman onların nə məqsədlə yaradılmasına diqqət yetirilsin;

2) professional cəmiyyətlərin ehtiyacları ödənilsin, onlara kütləvi yığıncaqlar, konsertlər, tamaşalar və sair tədbirlər keçirilməsinə icazə verilməsi əsaslandırılsın;

3) cəmiyyətin qeydə alınması qaydalarının dəyişdirilməsi və sair məsələlər haqqında təkliflər verilsin.

Sirkulyar 8 oktyabr 1908-ci il tarixdə Qafqaz canişini tərəfindən bütün qubernatorlara, hərbi qubernatorlara, vilayət və dairə rəislərinə, Bakı qradonaçalnikinə göndərilmişdi[87].

Bakıda almanlarla yanaşı, başqa millətlərə də məxsus yevangelist-lüteran prixodları* fəaliyyət göstərirdi. Belə prixodlardan biri I Dünya müharibəsi ərəfəsində Bakı qradonaçalnikinə müraciət edərək "Bakı şəhəri erməni yevangelist-lüteran prixodu nəzdində erməni yeniyetmələrinə qəyyumluq cəmiyyətinin" Nizamnaməsini təsdiqləməyi xahiş edirdilər[88].

Nizamnamədən görünür ki, erməni-yevangelist-lüteran prixodunun yaratmaq istədiyi bu cəmiyyət Qafqazda mövcud olan başqa yevangelist-lüteran prixodlarının qəyyumluq cəmiyyətlərindən məzmun etibarı ilə fərqlənirdi. Məsələn, cəmiyyətin Nizamnaməsindən görünür ki, yevangelist-lüteran dininə aid olan, cəmiyyətə maddi yardım göstərən istənilən erməni onun üzvü ola bilərdi. Cəmiyyətin məqsədi, guya ki, gənc, yeniyetmə nəsli ətraf eybəcərliklərdən qorumaq, onların mənəvi həyatını inkişaf etdirməkdən ibarət idi. Ancaq nədənsə cəmiyyət yalnız oğlanları cəmiyyətə qəbul edirdi, qızlar bu cür qəyyumluqdan kənarda qalırdılar. Yeniyetmələrin fiziki hazırlığına daha çox önəm verilir və yeniyetmə oğlanlar 15 yaşa çatdıqdan sonra cəmiyyətə qəbul edilirdilər. Erməni tarixinin, ədəbiyyatının, musiqisinin öyrənilməsinə daha çox önəm verilirdi. Maraqlıdır ki, 15 yaşa çatmayan və təhsil alan yeniyetmələr cəmiyyətə qəbul edilmirdilər. Cəmiyyət yalnız təhsil almağa imkanı olmayan yeniyetmələri birləşdirirdi. Əslində cəmiyyətin əsas məqsədi – yeniyetmə erməniləri həm fiziki, həm də mənəvi, psixoloji cəhətdən gələcək hadisələrə hazırlarmaqdan ibarət idi[89].

---

* Xristianlarda: aşağı kilsə təşkilatı və bu təşkilat üzvlərinin yaşadığı yer, məhəllə

Bakı qradonaçalniki Bakı erməni yevangelist-lüteran prixodunun pastoru Osip Mardinoviç Torotsyantsın müraciətini müzakirə edərək təsdiqlədi[90].

I Rus inqilabının məğlubiyyətlə başa çatmasından sonra Rusiyada əksinqilab hücuma keçdi: II Dövlət duması qovuldu, inqilabda iştirak edən fəallar həbs edildilər, ölkədə səhra məhkəmələri fəaliyyətə başladı. "Qaragüruhçuların" hücumları ictimai-siyasi həyatın bütün sahələrinə yönəlmişdi. Tezliklə inqilabın əldə etdiyi nailiyyətlərin ləğvi başlandı – bir çox qəzet və jurnalların nəşri qadağan olundu, inqilab illərində yaranan ictimai və siyasi təşkilatların, cəmiyyətlərin fəaliyyəti üzərində ciddi nəzarət qoyuldu. Bir çoxlarının fəaliyyəti qadağan edildi.

Beynəlxalq aləmdə baş verən hadisələr də Rusiya-Almaniya münasibətlərinin mürəkkəbləşməsinə gətirdi. İngiltərənin uzun illər Almaniya ilə apardığı danışıqlar uğursuzluqla nəticələndi və bundan sonra ingilis diplomatiyası Rusiya və Fransa ilə yaxınlaşmaq kursu götürdü.

Baxmayaraq ki, Rusiyanın siyasi maraqları onun Fransa və İngiltərə ilə yaxınlaşmasını zəruri edirdi, çarın ətrafında, Nazirlər Şurasında və diplomatik korpusda almanpərəst əhval-ruhiyyə çox güclü idi. Rusiya siyasi hakimiyyət dairələrində güclü mövqeyə malik olan "alman lobbisi" Fransa və İngiltərə ilə müqayisədə, Rusiyanın Almaniya ilə dostluğunu daha məqsədəuyğun sayırdılar. Ancaq Rusiya iri burjuaziyasının obyektiv maraqları ayrı-ayrı almanpərəstlərin siyasi rəğbətini üstələdi.

Bununla yanaşı, Almaniya antirus siyasətini davam etdirirdi. 1904-1905-illərin rus-yapon müharibəsində Rusiyanın məğlub olması Almaniyanın millətçi dairələrində Rusiyanın Almaniya tərəfindən darmadağın edilməsinə inamını daha da artırdı. Alman mətbuatında ölkədə tanınmış coğrafiyaçılar, tarixçilər, filosoflar məqalələrlə çıxış edir, Almaniyanın Rusiyani darmadağın etdikdən sonra onun necə yenidən qurulacağı,hansı ərazilərin almanların təbii məkanına çevriləcəyi haqqında məsləhətlər verirdilər. 1904–1907-ci illərdə ingilis-fransız-rus qarşılıqlı müqavilələrinin bağlanmasından sonra yeni hərbi blok – Antanta yarandı. Beləliklə, Avropa iki hərbi düşmən bloka ayrıldı və onların yaxın gələcəkdə toqquşması qaçılmaz idi.

Rus-alman ziddiyyətlərinin kəskinləşməsi fonunda çar hökuməti yenidən alman kolonistlərinə təzyiqi artırdı və 1895–1907-ci illərin liberalizm dövründə onlara verilən bir sıra azadlıq və hüquqların məhdudlaşmasına yönələn siyasət yeritməyə başladı.

Bu siyasətin aparıcı fiqurları Rusiyanın Nazirlər Şurasının sədri, həmçinin Daxili İşlər naziri vəzifəsini yerinə yetirən P.A.Stolıpin, Kiyev general-qubernatoru O.P.Trepov, Qafqaz canişini Vorontsov-Daşkov idi. P.A.Stolıpini, qubernatorları narahat edən əsas məsələ 1906-cı il aqrar islahatının həyata keçirilməsi ilə bağlı alman kolonistlərinə məxsus xüsusi mülkiyyət təsərrüfatlarının sayının sıçrayışla artması idi ki, bu işdə hələ 1 may 1905-ci il tarixdə qəbul edilən qanunla alman torpaq mülkiyyətçiliyinə qoyulan qadağaların ləğv olunmasının da böyük rolu olmuşdu[91].“Bosniya böhranı”dövründə Almaniya və Rusiya arasında ziddiyətlər son həddə çatdı və iki ölkə müharibə astanasında dayanmışdılar.

XX əsrin əvvəllərində Serbiyanın ruspərəst siyasət aparması, Avstriya-Macarıstanla Serbiya arasında münasibətlərin kəskinləşməsi, Avstriya-Macarıstanın Bosniya və Hersoqovinanı işğal etməsi rus-alman münasibətlərinin də kəskinləşməsinə, iki ölkə arasında müharibə təhlükəsinin artmasına gətirib çıxardı. İş ondadır ki, Berlin konqresinin (1878) qərarlarına əsasən Bosniya və Hersoqovina üzərində Avstriya-Macarıstanın protektoratı qoyulmuşdu və bu qərarın nə vaxta qədər qüvvədə qalacağı müəyyənləşdirilməmişdi.

XX əsrin əvvəllərində Serbiyanın rusiyapərəst siyasət yürütməsinə və Balkan slavyanları arasında qiyamçılığın və terrorçuluğun qarşısını almaq məqsədi ilə Avstriya-Macarıstan 1908-ci ildə hüquqi cəhətdən Osmanlı İmperiyasının ərazisi olan Bosniya-Hersoqovinanı özünə birləşdirdiyini elan etdi. Bu münaqişədə Rusiyanın Serbiyanı müdafiə etməsi Avstriya-Macarıstanın müttəfiqi Almaniyanın narazılığına səbəb oldu və 1909-cu ilin martında kansler Byülov Rusiyaya ultimatum göndərərək Bosniya-Hersoqovinanın Avstriya-Macarıstana birləşdirilməsinin tanınmasını Rusiyadan kəskin şəkildə tələb etdi. Tələb yerinə yetirilmədikdə, Almaniya Rusiyaya qarşı müharibəyə başlayacağı ilə hədələdi. Almaniyanın kansleri B.Byulovun dediyi kimi “alman qılıncı Avropa qərarları tərəzisinin üstünə atılmışdır[92]”.

Almaniyanın təzyiqləri qarşısında öz müttəfiqləri Fransa və İngiltərə tərəfindən diplomatik dəstək ala bilməyən Rusiya Bosniya və Hersoqovinanın anneksiyası ilə razılaşmalı oldu.Bu hadisədən sonra Rusiyada antialman əhval-ruhiyəsi o qədər gücləndi ki, hətta uzun illər alman kolonistlərini şovinist ruhlu yazılardan müdafiə etmiş mətbu orqanların əksəriyyəti, o cümlədən "Kiyevlyanin" qəzeti mürtəce qüvvələr düşərgəsinə keçdilər .

Şərqdə almanlar Rusiya İmperiyasını parçalamaq planları qururdular və Ukraynada, Baltikyanı regionda, Qafqazda öz hökmranlıqlarını bərqərar etmək niyyətləri güdürdülər.

Qafqazın ələ keçirilməsində və yaxud Qafqazda heç olmasa Almaniyanın iqtisadi mövqelərinin möhkəmləndirilməsində Almaniyanın Yaxın Şərq siyasətinin, Yaxın Şərqdə möhkəmlənməsinin böyük rolu var idi.Bu səbəbdən pangermanistlər hər vasitə ilə almanların müsəlmanlara dost olmasını təbliğ edir, hətta Kayzer Vilhelm Fələstinə səfəri zamanı bu məzmunda çıxışlar etmişdi[93].

Cənubi Qafqaza dair işğalçı planlarının həyata keçirilməsində Almaniya "Türkiyə" amilindən istifadəyə böyük əhəmiyyət verirdi. Buna görə almanların Qafqaz siyasətinin mahiyyətini açmaq üçün türk casusluq şəbəkəsi Qafqazda fəaliyyəti, çar hökumətinin Türkiyəyə, ümumiyyətlə, türk-müsəlman amilinə qarşı apardığı mürtəce siyasətə toxunmaq zəruri olardı.

Alman millətindən olan işçilər,onların əxlaqi, xidməti keyfiyyətləri polis orqanlarının nəzarətində idi və bu haqda gizli məlumat toplanırdı. Məsələn, Qafqaz canişininin Dəftərxanasının Müfəttişlik şöbəsi Bakı quberniyasının Baş fabrik müfəttişinə göndərdiyi sərəncamda "keçmiş fabrik müfəttişi cənab Littauerin adına ləkə gətirə biləcək hər hansı faktın verilməsi tələb olunurdu[94]". Əsas məqsəd Littauerə qarşı kompromat toplamaq və onun karyera nərdivanında irəliləməsinə əngəllər yaratmaqdan ibarət idi. Bakı quberniyası fabriklərinin Baş müfəttişinin 2 may 1909-cu il 482 saylı cavabından görünür ki,"o, Littauerin Bakı quberniyasının Baş fabrik müfəttişi işlədiyi dövrlərdə, onun fəaliyyətinin mənfi cəhətləri haqqında yuxarı instansiyalara dəfələrlə məlumat vermişdir[95]".

Bəzən alman əhalisi haqqında həqiqətə uyğun olmayan məlumatlar da verilirdi. Məsələn, 1908-ci ilin yayında Bakı Jandarm idarəsinə

daxil olan anonim məktubda Bakıda, Bayıl qəsəbəsində yaşayan "A.X.Kuqler adlı almanın hansısa bir cəmiyyət yaratması və hansısa naməlum, şübhəli şəxslərlə görüşlər keçirməsi "haqqında məlumat verilirdi. Məktubu yazan özünün şəxsən K.Kuqler üzərində nəzarət qoymasını vurğulayaraq, onun şübhəli şəxslərlə əlaqədə olduğunu, onun evində küllü miqdarda qadağan edilmiş ədəbiyyatın olmasından yazır və "tələb edir ki, yandarmeriya onun evində yoxlama aparsın, belə ki, oradan xeyli miqdarda təhlükəli şeylər tapmaq olar[96]".

Jandarm idarəsinin apardığı yoxlamadan sonra anonim məktubun müəllifinin A.X.Kuqlerlə qonşuluqda yaşayan Andrey Balabin olduğu üzə çıxır. Abşeronun neft mədənlərində baş hesabdar işləyən A.X.Kuqlerə qarşı onun yalan, böhtan xarakterli məktub yazmasının səbəbi Kuqlerə qarşı nifrəti olmuşdur. Bakı qradonaçalniki Bakı polismeysterinə 30 sentyabr 1908-ci il tarixdə göndərdiyi sərəncamda Kuqlerin "antihökumət partiyasına mənsubiyyəti və ziyankar siyasi fəaliyyəti haqqında" yazılanların böhtan olduğunu göstərməklə yanaşı, böhtançı A.A.Balabinin "yalan xəbərə görə inzibati qaydada cəzalandırılması" haqqında göstəriş verir[97]. A.X.Kuqler milliyyətcə alman idi, Bibi-Heybətdə dövlət torpaqlarında baş hesabdar işləyirdi və Bayılda Sidorov adlı birinin evində kirayədə qalırdı. Balabinin ona kini Kuqlerin milli məsubiyyəti ilə bağlı idi.

Rusiyanın sərhədyanı quberniyalarında almanların məskunlaşması ilə bağlı problemlər siyasi dairələrdə o qədər narahatlıq yaratdı ki, "alman məsələsi"nin müzakirəsi Dövlət Dumasının gündəliyinə çıxarıldı. Bu məsələ ilə bağlı Dövlət Dumasının 1909-cu il 14 mart iclasında çar ordusunun keçmiş generalı, Tula quberniyasında iri torpaq sahibi, qraf V.A.Bobrinski çıxış etdi[98]. Loyal sağtəmayüllü siyasi qüvvələri təmsil edən V.A.Bobrinski öz çıxışında ölkənin sərhədyanı regionlarında, o cümlədən Qafqazda alman ekspansiyasının güclənməsindən, Almaniya banklarının Rusiya almanları üçün kreditlər ayırmasından, Almaniyada məxfi qəbul edilən vətəndaşlıq haqqında qanundan və bu qanuna görə bütün Rusiya almanlarına Almaniya vətəndaşlığının verilməsindən və sair məsələlərdən danışdı. Bosniya və Hersoqovinanın anneksiyasında Almaniyanın Rusiyaya etdiyi təzyiqlərə toxunaraq deputat oxşar ssenarilərin Rusiyanın sərhədyanı əraziləri üçün də hazırlanması təhlükəsindən danış-

dı və bu cür halların baş verməməsi üçün hökumətdən sərhədyanı qərb və cənub quberniyalarda alman ekspansiyasına sədd qoymağı tələb etdi. İclasda V.A.Bobrinskinin çıxışı müzakirə olunmadı – Dövlət Dumasının deputatlarının böyük əksəriyyəti onun fikirləri ilə həmrəylik nümayiş etdirdilər. Dumada yalnız az sayda oktyabristlər fraksiyası və alman mənşəli deputatlar Rusiya almanlarının maraqlarını müdafiə edirdilər[99].

Qafqaz canişinliyinə nisbətən qərb quberniyalarının rəsmi dairələri "alman məsələsi"nin gündəmdə qalmasında daha çox fəallıq göstərirdilər və müxtəlif hesabatlar, statistik məlumatlar hazırlayaraq çarın, Nazirlər Şurasının diqqətini bu məsələyə yönəltməyə çalışırdılar ki, bu da müəyyən mənada öz bəhrəsini verirdi. Məsələn, 1909-cu ilin dekabrında Kiyev geneal-qubernatoru O.F.Trepov hazırladığı məruzədə ilin əvvəlindən general-qubernatorluqda yaşayan almanlara xüsusi mülkiyyətə torpaq almaq üçün 819 icazə kağızının verilməsi və nəticədə onların 17209 desyatin* torpaq əldə etdikləri göstərilirdi. Bu rəqəmlər hətta çar II Nikolayı şoka salmışdı və bununla əlaqədar qeyd etmişdi ki, "məsələ təhlükəli xarakter alır[100]".

1909-cu ilin sonlarında P.A.Stolıpin alman kolonistləri haqqında növbəti qanun layihəsi hazırladı. Daxili İşlər Nazirliyində müəyyən əlavələr və düzəlişlər edildikdən sonra 1910-cu ilin yanvarında qanun layihəsi Nazirlər Şurasında müzakirəyə qoyuldu. Əvvəlki illərdən fərqli olaraq alman məskunlaşmasının məhdudlaşdırılması məsələsində qızğın müzakirələr olmadı və nazirlər "alman elementi"nin məhdudlaşdırılmasına yönələn qanun layihəsini yekdilliklə qəbul etdilər. Antialman məzmunlu qanunun bu cür münaqişəsiz qəbulu həm yuxarıda araşdırdığımız beynəlxalq aləmdə baş verən dəyişikliklərlə (rus-alman ziddiyyətlərinin daha da kəskinləşməsi), həm də Rusiyanın iqtisadi həyatında baş verən mühüm dəyişikliklərlə bağlı idi.

Çar tərəfindən 1906-cı ilin noyabrında təsdiqlənən və 1910-cu ildən həyata keçirilməyə başlayan P.A.Stolıpinin aqrar islahatı kənd yerlərində tarixən bərqərar olmuş kəndli icmasını ləğv edir, əvəzində kəndlilərin pay torpaqlarında torpaq üzərində şəxsi

---

* Metr sistemindən qabaq tətbiq edilən 1,09 hektara bzrabər olan rus yer ölçüsü

mülkiyyətə əsaslanan xutor və kəsik* təsərrüfatların yaranmasına xidmət edirdi[101].

Rusiyanın mərkəzi quberniyalarında, o cümlədən Şimali Qafqazda Kəndli bankı kəndlilərə maliyyə yardımı göstərirdi və bank öz fondunda olan torpaqların 75%-ni xutor təsərrüfatları yaratmaq üçün kəndlilərə satmışdı və bankın satış qiyməti kəndliləri tamamilə qane edirdi. Beləliklə, Stolıpin aqrar islahatı həm kəndlilər, həm də kolonistlər arasında səxsi torpaq mülkiyyətçilərinin və səxsi mülkiyyətə satılan torpaqların miqdarının artmasına gətirdi. Nəticədə, mülkədar torpağında zülm çəkən kəndlilər xüsusi mülkiyyətçiyə çevrildilər. Kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişaf etdiyi bir şəraitdə alman kolonist təsərrüfatı yerli kəndli təsərrüfatlarının rəqabətçisinə çevrildi. Buna görə də Stolıpinin hazırladığı almanların torpaq mülkiyyətçiliyi və torpaqdan istifadə hüquqlarının məhdudlaşdırılmasına yönələn yeni qanun layihəsi məzmun etibarı ilə yerli kəndlilərin xarici rəqabətçilərdən qorunmasına xidmət etməli idi.

Müəyyən dəyişikliklərdən sonra Stolıpinin hazırladığı qanun layihəsi 28 sentyabr 1910-cu il tarixdə müzakirə üçün Dövlət Dumasına verildi. Bu qanun layihəsinə görə Rusiyanın qərb quberniyalarında alman mənşəli şəxslərə torpaq icarə götürmək, xüsusi mülkiyyətə torpaq almaq qadağan olunurdu. Yalnız pravoslav dininə aid almanlara bu müddəa aid edilməməli idi. Bundan savayı, qanun layihəsində qubernatorlara bu qanunun müddəalarına zidd olaraq məskunlaşan, istənilən əcnəbi kolonisti quberniya hüdudlarından sürgün etmək hüququ verilirdi.

Stolıpinin hazırladığı bu qanun layihəsi XIX əsrin ortalarından başlayaraq alman kolonistlərinə qarşı hazırlanan ən amansız, ən sərt qanun idi. Obyektivlik naminə bir faktı qeyd edək ki, bu cür sərt addım beynəlxalq vəziyyətin getdikcə gərginləşməsilə bağlı çar hökumətinin milli ucqarları mərkəzi hakimiyyətə daha möhkəm bağlamaq məqsədilə atılmışdı. Buna bənzər tədbirlər Uzaq Şərqdə çinlilərə və koreyalılara da qarşı həyata keçirilirdi. Finlandiyanın suverenliyi ləğv edildi, Polşada zemstvo sistemi tətbiq olunmağa başladı[102].

---

* Çar Rusiyasında 1861-ci ildə təhkimçilik hüququ ləğv edildikdən sonra kəndlilərə verilən kiçik torpaq sahəsi, nadel

1911-ci ildən başlayaraq beynəlxalq münasibətlərdə müharibə təhlükəsi daha da artdı. Bu təhlükə bir neçə istiqamətdə özünü daha açıq büruzə verirdi və əsasən də böyük dövlətlər arasında dünyanı bölmək uğrunda mübarizənin son həddə çatması bu təhlükənin əsas əlamətlərindən biri idi.

Belə gərgin vəziyyətdə "Üçlər İttifaqı" və "Antanta" dövlətləri sürətlə müharibəyə hazırlaşırdılar. İki hərbi blok, o cümlədən Rusiya-Almaniya ziddiyyətlərinin kəskinləşməsi fonunda çar hökuməti yenidən Rusiyada yaşayan Almaniya və Avstriya-Macarıstan təbəələrinə qarşı sərt tədbirlərə əl atdı. Bu tədbirlər almanların ictimai-siyasi həyatının bütün sahələrini əhatə edirdi və onlardan, çar hökumətinin fikrincə, ən vacibi Rusiyada fəaliyyət göstərən xarici ölkə təbəələrinə məxsus olan və yaxud əsas məqsədi xarici ölkə təbəələrinə yardım göstərmək olan təşkilatlar, cəmiyyətlər, birliklər və s. ictimai-siyasi qurumlar üzərində nəzarətin gücləndirilməsi idi.

Qeyd etməliyik ki, çarizmin xarici təbəələrlə bağlı ictimai təşkilatlara qarşı məhdudlaşdırma siyasəti heç də yalnız beynəlxalq münasibətlərin kəskinləşməsi ilə bağlı deyildi, çarizmin mürtəce daxili siyasət kursuna I Rus inqilabından sonra ölkədə əksinqilabın, qaragüruhçuların əks hücuma keçməsinin də müəyyən təsiri olmuşdur. Daxili İşlər Nazirinin 5 may 1911-ci il tarixli 14 saylı tövsiyəsində Qafqaz canişinindən tələb olunurdu ki, 1911-ci ilin 01 sentyabr tarixinədək regionda fəaliyyət göstərən və "əsas məqsədləri xarici ölkə təbəələrinə müxtəlif növ yardımlar göstərmək olan" cəmiyyət və müəssisələr haqqında məlumat göndərilsin[103]. Tövsiyədə qeyd olunurdu ki, "bu cür məlumatın toplanması zərurətdən yaranmışdır." Daxili İşlər Nazirliyinin tövsiyəyə əlavə etdiyi formadan onları hansı xarakterli məlumatın maraqlandırdığı görünür: cəmiyyətin yerləşdiyi yer, onun fəaliyyəti hansı regionları əhatə edir, cəmiyyət nə vaxt yaranmışdır? Hansı dövlətin təbəələrinə yardım edir və qarşısında hansı məqsədlər qoymuşdur? İllik gəliri və xərcləri nə qədərdir? və s. kimi suallar qoyulmuşdu. Bunlardan savayı, cəmiyyətin son 3 il ərzində fəaliyyəti haqqında hesabatın və onun Nizamnaməsinin Daxili İşlər Nazirliyinə çatdırılması tələb olunurdu[104].

Qafqaz canişinin əmri ilə DİN-nin tövsiyəsi Qafqazın bütün qubernatorlarına, hərbi qubernatorlarına, vilayət rəislərinə, o cümlədən Bakı qradonaçalnikinə göndərilmişdi.

Bakı qradonaçalnikinin təqdim etdiyi hesabatdan görünür ki, 1910-cu ilin sonuna olan məlumata görə yalnız Bakı şəhərində cəmi 2 xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi ki, onların da əsas məqsədi çətin maddi vəziyyətə düşmüş xarici ölkə təbəələrinə yardım göstərmək idi. Bu cəmiyyətlərdən biri 1906-cı ildə yaradılmış Persiya xeyriyyə cəmiyyəti, o biri isə müxtəlif ölkə təbəələrinə məxsus Yevangelist-lüteran Qadın Xeyriyyə Cəmiyyəti idi ki, onun da əsası 1907-ci ildə qoyulmuşdu[105].

İranlıların xeyriyyə cəmiyyətinin əsas məqsədi İran mənşəli şəxslərə maddi yardım göstərmək idisə, Yevanqelist-Lüteran cəmiyyəti milli əsaslarla deyil, dini əsaslarda yaranan bir cəmiyyət idi və onun tərkibinə almanlardan savayı, yevangelist-lüteran kilsəsinə aid olan başqa xalqların nümayəndələri də daxil idi. Bu Qadın cəmiyyəti yalnız yoxsullara maddi yardım göstərməklə kifayətlənmir, həmçinin qoca, yaşlılar üçün ev də açmışdı[106].

Bakı qradonaçalnikinin raportundan görünür ki, adı çəkilən cəmiyyətlərdən savayı, Bakı şəhərində xarici təbəələrə yadım edən başqa xeyriyyə cəmiyyətləri mövcud olmamışdır.

1911-ci ilin Potstam görüşləri və onlardan sonra alman- rus ziddiyyətlərinin kəskinləşməsi fonunda Almaniya kəşfiyyatı və təxribatı gücləndi. Arxiv sənədlərindən görünür ki, Birinci Dünya müharibəsi ərəfəsində Qafqaza və əsasən də, sərhədyanı bölgələrə xarici ölkə kəşfiyyatı, əsasən də hərbi kəşfiyyat böyük maraq göstərirdi. Qafqaz canişininin 25 fevral 1909-cu il tarixli sərəncamında Drezdendə yerləşən 2-ci Qrenader alayının leytenantı Erix Baringin Odessadan tutmuş Batumi, Tiflis, Bakı, Krasnovodsk, Mərv, Buxara, Daşkənd, Orenburqdan Krasnoyarska qədər sərhədyanı regionlara edəcəyi turist səfərindən və onun "təyin olunmuş" marşrutdan çıxaraq dövlət sərhədləri tərəfə maraq göstərməsi ehtimalından danışılır və Qafqazın bütün müvafiq strukturlarının rəhbərlərindən tələb olunur ki, E.Baringin üzərində güclü nəzarət qoyulsun[107]. Xüsusən də, xaricdən gələn turistlər və turist qiyafəsində gələn hərbçilər üzərində nəzarət gücləndirildi. Məsələn, Qafqaz Hərbi Dairəsinin Qərargahının kəşfiyyat şöbəsi 1908-ci ilin mayında Avstriya-Macarıstan Baş Qərargahının mayoru İosif Payçın casusluq məqsədi ilə Qafqaza və Türküstana səfər edəcəyi haq-

qında Qafqazın bütün rəsmi dairələrini xəbərdar etmişdi.Və yaxud Qafqaz canişininin 1908-ci il 15 oktyabr tarixli tövsiyəsində Qafqaz və Zakaspi vilayətinə səfərə çıxan Almaniya təbəəsi Maks Budding üzərində "gizli nəzarət qoyulması və nəzarətin nəticələri haqqında mütəmadi baş qərargaha xəbər verilməsi" xahiş olunurdu[108].

Sənəddən görünür ki, "Maks Buddingin səfərinin rəsmi səbəbi bu ərazilərdə ovçuluq etmək göstərilsə də" bunun kəşfiyyat xarakteri daşımasında Rusiya Baş Qərargahının heç bir şübhəsi yox idi.

Bakı polismeysterinin 03 iyul 1908-ci il tarixdə Bakı qradonaçalnikinin Dəftərxanasına göndərdiyi raportda Avstriya-Macarıstan Baş Qərargahının mayoru İosif fon Payçın 15 may 1908-ci il tarixdə Bakıya gəlməsi və buradan gəmi ilə Krasnovodska yola düşməsi haqqında məlumat verilir və qeyd olunur ki, "Bakıda olduğu müddətdə onun davranışında şübhə oyadacaq heç nə müşahidə olunmamışdır[109]."

Bosniya böhranından sonra həm Rusiyanın, həm də Almaniyanın xarici siyasət idarələrində kadr dəyişiklikləri baş verdi. 1910-cu ildə Rusiyanın Xarici İşlər Nazirliyinə Stolıpinin yaxın qohumu Sazonov təyin edildi. Almaniyanın siyasi rəhbərliyində də vacib dəyişikliklər oldu – fon Byulovun əvəzinə kansler vəzifəsinə Betman-Qoledveg təyin olundu. Qətiyyətsiz siyasətçi kimi tanınan yeni kanslerin dövründə xarici siyasət idarəsini faktiki olaraq stats-sekretar* Kiderlen-Vexter idarə edirdi. Betman-Qoledvegdən fərqli olaraq o, xarici siyasət sahəsində daha qətiyyətli addımlar atmağın tərəfdarı idi. Ancaq yaranmış beynəlxalq vəziyyət Almaniya rəsmilərini Rusiya ilə münasibətlərdə daha ehtiyatlı olmağı tələb edirdi.

Belə ki, Almaniyanın Bağdad dəmir yolu xəttinin çəkilişini reallaşdırması, Anadoluda və Şimali İranda Almaniyanın təsirinin artması Rusiya siyasi dairələrini, həmçinin rus iş adamlarını çox narahat edirdi[110]. Rusiya diplomatiyası Almaniya ilə münasibətləri normallaşdırmağa, Balkanlarda və Yaxın Şərqdə Almaniya ilə müştərək hərəkət etməyə ümid edirdi. 1910-cu ilin noyabrından başlayan rus-alman danışıqlarında Rusiya tərəfi Almaniyadan Balkanlarda, Yaxın Şərqdə və Qafqazda Rusiyanın maraqlarına zidd siasət aparmama-

---

* Çar Rusiyasında və bəzi Avropa ölkələrində nazirlərə və yüksək məmurlara verilən ad

ğı tələb edirdi. Almaniya adı çəkilən regionlarda rusların iştirakını qəbul edə bilərdi, ancaq bir şərtlə ki, Rusiya "Antanta" blokunu tərk etsin. Təbii ki, Rusiya üçün bu cür tələb qəbul edilməz idi. Beləliklə 1910–1911-ci illərdə davam edən Potsdam danışıqları uzun müddət Almaniya siyasi dairələrini və Rusiyanın "alman lobbisini" narahat edən bir məsələyə aydınlıq gətirdi və Rusiya antialman blokunda qalacağını qəti şəkildə təsdiqlədi[111] .

Potsdam danışıqlarından sonra Almaniya-Rusiya ziddiyyətləri daha da kəskinləşdi və hər iki ölkənin ictimaiyyəti üçün aydın oldu ki, bu dövlətlərin hərbi toqquşması qaçılmazdır.

Diplomatiyada baş verənlər istər rus, istərsə də alman kəşfiyyatının fəallaşması ilə müşahidə olunurdu.

Qafqazda alman kəşfiyyatının casusluq şəbəkəsini əsasən Cənubi Qafqazda əcnəbi firmalarda çalışanlar, alman mənşəli Rusiya təbəələri, alman kolonistləri, müxtəlif yollarla Almaniya kəşfiyyatına cəlb edilmiş yerli vətəndaşlar, həmçinin Cənubi Qafqaza casus kimi göndərilən Türkiyə, İngiltərə, İsveç və sair ölkələrin vətəndaşları təşkil edirdilər.

Bakı quberniyası Jandarm idarəsinin rəisi 23 iyul 1912-ci il tarixdə 128 saylı sərəncamında Bakı qradonaçalnikinə Avstriya təbəəsi Stanislav İvanoviç Danileviç üzərində gizli nəzarət qoyulması və onun Bakı quberniyası ərazisinə daxil olduqda Jandarm idarəsinə təcili xəbər verilməsi tələb olunur. Jandarm idarəsinin rəisinin məlumatına görə S.İ.Danileviç Avstriya hökuməti tərəfindən hazırlanaraq "Rusiyaya hərbi kəşfiyyat məqsədi ilə göndərilmişdir[112]." Sənəddən belə görünür ki, S.İ.Danileviç Kiyev quberniyasında yaşayır, Rusiya təbəəsidir, ancaq Avstriya hökuməti ondan casus kimi istifadə etmək niyyətindədir. Belə nəticə çıxır ki, Rusiyaya qarşı təkcə alman millətindən deyil, istənilən millətdən olan şəxsdən istifsdə etmək olardı və əkskəşfiyyat işi, jandarm nəzarəti öz funksiyasını yerinə yetirirdi.

Bəzən Rusiyaya düşmən ölkələrin casusları Qafqaza səfər zamanı başqa bir neytral ölkənin pasportundan istifadə edirdilər. 1909-cu ilin sentyabrında Qafqaz Hərbi Dairəsinin Baş Qərargahının verdiyi məlumata görə Türkiyənin və İngiltərə kəşfiyyatının casusu, İsveçrə vətəndaşı A.Laqranj İstanbulda məxfi olaraq "Əli bəy adı ilə

yaşayır, əslində isə Baş Qərargahın kapitanı kimi Rusiya əleyhinə casusluq edirdi. 1909-u ilin sentyabrında Qafqaz canişininin 1114 saylı tövsiyyəsində A.Lanqrajın 1909-cu il sentyabrın ikinci yarısında Odessaya, oradan Cənubi Qafqaza səfərinin gözlənildiyi haqqında məlumat verilir və qeyd olunur ki, "onun ezamiyyətinin əsas məqsədi – bizim sərhəd zolağı boyunca müşahidələr aparmaqdır[113]".

Qafqaz canişininin 27 oktyabr 1909-cu il tarixdə Qafqazın bütün dövlət rəsmilərinə ünvanladığı tövsiyədə Qafqaz Hərbi Dairəsinin Qərargahının məlumatına istinadən, Rusiyanın cənubunda türk ordusunun iki hərbi kəşfiyyatçısının – Yunber bəy və Nazim bəyin fəaliyyət göstərdiyi vurğulanır və onların üzərində lazımi nəzarətin qoyulması tələb olunur[114]. Qeyd edək ki, alman kəşfiyyatı Cənubi Qafqazda türk kəşfiyyatı ilə sıx əməkdaşlıq edir, türklərin köməyi ilə Cənubi Qafqazın müsəlman əhalisinə təsir göstərməyə çalışırdılar[115].

Zaqafqaziya dəniz yolları Jandarm idarəsinin rəisi, polkovnik knyaz Şetinin 28 fevral 1912-ci il tarixdə Qafqaz canişininin Dəftərxanasının xüsusi şöbəsinə göndərdiyi məlumatda gizli jandarm əməkdaşlarının xarici təbəələri üzərində nəzarətindən danışılır və belə müşahidələr zamanı Rusiyaya qarşı aparılan kəşfiyyat fəaliyyətinin qarşısının alındığı söylənilir[116]. Onun məlumatından görünür ki, müharibə ərəfəsində təkcə alman və Avstriya təbəələri üzərində deyil, Rusiyanın potensial rəqiblərindən biri, Türkiyə təbəələri üzərində də güclü nəzarət mövcud idi, baxmayaraq ki, 1912-ci ildə hələ Osmanlı dövləti heç bir hərbi blokun və əsasən də Rusiyaya düşmən olan"Üçlər ittifaqı"nın üzvü deyildi.

Sənəddə Yevlax stansiyasında iki Osmanlı təbəəsinin yerli "tatarlar" arasında təbliğat aparması," Rusiya ilə Türkiyə arasında müharibə olacağı təqdirdə, onların (tatarların) türklərə kömək etməsi" fikri söylənilir[117]. Daha sonra osmanlıların "tatarlardan daha çox (çox sayda) patron almağı xahiş etməsi "və" patronlara görə onlara yaxşı (çox məbləğdə) pul ödəyəcəklərinin vəd edilməsi" vurğulanır. Sonra bu casusların Türkiyə hökuməti tərəfindən göndərildiyi və əsasən Bakı, Tiflis və Batumda yerləşdirilən agentlərin sayının 10 nəfər olduğu göstərilir. Sənəddə Türkiyənin Almaniyanın potensial müttəfiqi olduğu qeyd olunur, tatarların (azərbaycanlıların – *İ.A.*) türk nümayəndələrinə hörmətlə yanaşdığı vurğulanır[118].

Bakı quberniyası Jandarm idarəsinin rəisi 27 oktyabr 1912-ci il tarixdə Bakı qradonaçalnikinə göndərdiyi məxfi teleqramda casusların topladığı məlumatlara əsasən göstərir ki, "gənc türklər və panislamistlər müsəlman əhalisinin yaşadığı bizim ərazilərə dini fanatizm və xristianlara qarşı düşmənçilik təbliğ etmək, Türkiyənin hərbi ehtiyacları üçün vəsait yığmaq üçün böyük sayda emissarlar göndərmişlər." Sənəddə "bu emissarların dilənçi dərvişlər və mollalar qiyafəsində daha çox kənd əhalisi arasında fəaliyyət göstərdiyi" vurğulanır[119].

Qafqazda çarizmə qarşı üsyanların, çıxışların, müharibə başlayacağı halda təxribatların həyata keçirilməsi məqsədi ilə Almaniya və Türkiyəyə meyilli insanlardan istifadə olunmasına, başqa millətlərdən olan şəxslərin bu işlərə cəlb edilməsinə diqqət yetirilirdi.

Gürcüstan Dövlət Tarix arxivində, başda konsul Edqar Anders olmaqla Ərzurumda fəaliyyət göstərən Almaniya konsulluğunun Acariya və Abxaziyada fəaliyyətinə dair çox sayda sənədlər saxlanılır. Sənədlərdən görünür ki, alman kəşfiyyatının əsas məqsədi adı çəkilən regionların müsəlman əhalisini çar hökumətinə qarşı qaldırmağa yönəlmişdi. Bu işdə onlara Abxaziyada fəaliyyət göstərən alman kolonistləri də yardım etməli idi[120].

Müharibə şəraitində Cənubi Qafqazın alman əhalisinə məxsus məntəqələrdən dayaq nöqtəsi kimi istifadə edilməsi nəzərdə tutulurdu.

1911-ci ildən başlayaraq Cənubi Qafqaza xaricdən silah gətirilməsi intensivləşir. Əsasən Avstriya və Almaniya istehsalı olan silahlar gətirilirdi və onların Qafqaza ötürülməsində Türkiyə ərazisindən istifadə olunurdu. Silahın gətirilməsi, əsasən, Poti, Suxumi, Batumi limanları vasitəsilə həyata keçirilirdi. Qafqazdakı rus qoşunlarının qərargah rəisi Qafqaz canişini Vorontsov-Daşkova göndərdiyi hesabatında yazırdı ki, "son zamanlar böyük həcmdə odlu silahın və sursatın gətirilməsi müşahidə olunur. Onun çox böyük bir hissəsi Batuminin müsəlman əhalisində qalır, qalan isə Qafqazın başqa rayonlarına göndərilir".

Silah gətirilməsinə qarşı yönələn tədbirlərin arzulanan nəticələr vermədiyini vurğulayan qərargah rəisi, reydlərə kreyserləri çıxartmaqla sahil mühafizəsinin gücləndirilməsi və yeni keşikçi postlarının təşkil edilməsini məsləhət görürdü."[121]

Qeyd edək ki, arxiv sənədlərində Qafqaz almanlarının gizli silahlandırılmasına aid faktlar tədqiqat zamanı aşkarlanmamışdır.Bu dövrdə Qafqaza gizli şəkildə çox sayda silah növlərinin gətirilməsi faktı sənədli şəkildə sübut edilir və bu sənədlərdən görünür ki, istehsal olunduğu ölkədən asılı olmayaraq bu silah-sursat Qafqazdakı erməni terrorçu təşkilatları tərəfindən əldə edilirdi. Məsələn, Bakı quberniyası Jandarm idarə rəisinin Bakı qradonaçalnikinə 24 yanvar 1912-ci il tarixli sərəncamında göstərilir ki, "bu yaxınlarda Konstantinopola (indiki İstanbul – *İ.A.*), "Daşnaksütyun" partiyasının sərəncamına 4 yeşik yeni sistemli bomba, iki yeşik patron və 140 mauzerlə yüklənmiş nəqliyyat gəlmişdir" və sənəddə hər yeşikdə 200 ədəd yumru bombanın olduğu vurğulanır[122]. Sərəncamda Jandarm idarəsinin rəisi bu təhlükəli yükün "Daşnaksütyun" partiyası tərəfindən "Rusiyaya, ehtimal var ki, Qafqaza göndəriləcəyini" göstərir və Bakı qradonaçalnikindən "bu nəqliyyata nəzarət edilməsi və onun zərərsizləşdirilməsi (saxlanılması, həbs edilməsi) üçün bütün lazımi tədbirlərin görülməsi tələb olunur[123].

Birinci Dünya müharibəsi ərəfəsində Rorbax, Ekk, Nidermayer, Qentinq, Oppengeym, Leverkyun və sair kimi Almaniyanın tanınmış siyasətçiləri, Yaxın Şərq üzrə ekspertləri Cənubi Qafqazda olmuşlar. Alman alimləri bu diyarın təbii sərvətlərinin öyrənilməsi onların istismar edilməsi perspektivlərini araşdırır, qarşılıqlı əlaqələrin qurulması üçün zəmin yaradırdılar.

"Sülh üsulu ilə daxilolma"ilə yanaşı, Almaniyanın ekspansionist dairələri Cənubi Qafqaz ərazisində kəşfiyyat fəaliyyətinin də təşkil olunmasına böyük önəm verirdilər[124].

1910-cu ildən alman kəşfiyyatı Qafqazda daha da fəallaşdı və bu, birbaşa Potstamda Bağdad dəmir yolunun çəkilişi və İranla bağlı rus-alman danışıqlarının başlanması ilə əlaqədar idi. Almaniya İranda rus-alman ziddiyyətlərini imitasiya edərək, sonradan bu regionu Rusiya maraqlarına qurban vermək, əvəzində isə Rusiyanın "Antanta"dan çıxmasına nail olmaq planları cızırdı. Bu planın həyata keçirilməsində Cənubi Qafqazda fəaliyyət göstərən Almaniya diplomatik korpusu, alman firmaları müəssisələri və sair təşkilatlar səfərbər olmalı idi. Şərqin yaxşı bələdçisi hesab olunan Cənubi Qafqazda yaşayan alman əhalisinə bu vəzifələrin həyata keçirilməsində böyük ümidlər bəslənilirdi.

Bununla əlaqədar Tiflisdəki Almaniya konsulluğunun qarşısında Rusiyanın İrana dair planları haqqında məlumat toplamaq vəzifəsi qoyulmuşdu[125].

Məlumdur ki, 1911-ci ilin Potsdam görüşündə Almaniya qarşıya qoyduğu əsas vəzifəni – Rusiyanın “Antanta”dan qoparılmasına nail ola bilməsə də, Bağdad dəmir yolunun İran ərazisində davam etdirilməsinə dair Rusiyanın razılığını ala bildi[126].

Bundan sonra Almaniya Cənubi Qafqazda və Şimali İranda mövqelərini daha da möhkəmlətmək məqsədilə adı çəkilən regionlarda kəşfiyyat fəaliyyətini daha da gücləndirdi.

Tiflisdə fəaliyyət göstərən Almaniya konsulluğuna 1911-ci ildən yeni konsul Fridrix Şulenberq başçılıq etməyə başladı. Qısa bir zamanda təcrübəli diplomat və kəşfiyyatçı casusluq şəbəkəsini genişləndirdi. 1912-ci ildə Tiflis alman konsulluğunun işçilərinin sayı iki dəfə artırıldı, Təbrizdə kəşfiyyat rezidenturası şəbəkəsi yaradıldı və o, Tiflisdəki konsulluqla sıx əlaqədə fəaliyyət göstərirdi.

Almaniyanın başqa bir konsulluğu Bakıda fəaliyyət göstərirdi və konsulluğa doktor Tideman başçılıq edirdi[127]. Bundan savayı, Bakıda Avstriya-Macarıstan imperiyasının, İsveçin, Niderlandın və sair ölkələrin konsulluqları fəaliyyət göstərirdilər[128]. Bu onu göstərir ki, Rusiya imperiyasının strateji regionu olan Qafqaza və regionun ən nəhəng sənaye mərkəzi Bakıya xarici ölkələr, əsasən də Avropa ölkələri böyük maraq göstərirdilər. Bu konsulluqlar diplomatik missiya ilə yanaşı, həm də kəşfiyyat şəbəkəsinin yaradılmasında mərkəzi rol oynayırdılar. Qafqazdakı Almaniya konsulluqlarının fəaliyyətinin ən vacib istiqamətlərindən biri Cənubi Qafqaz xalqlarının apardığı milli-azadlıq mübarizəsindən Almaniyanın maraqları üçün istifadə etməkdən ibarət idi. Alman casusları gürcü aristokrat ailələri arasında müstəqil Gürcüstan yaratmaq ideyasını atır və Almaniyanın bu işdə onlara yaxından köməklik göstərəcəyini vəd edirdilər. Tiflis konsulluğu xüsusən İstanbulda qərarlaşmış gürcü sosial-federalistlər partiyasının sağ millətçi qanadı ilə sıx əməkdaşlıq edirdi və konsulluğun dəstəyi ilə onlar Gürcüstanın Müstəqillik Komitəsini yaratdılar ki, Komitə 1914-cü ilin sonundan İstanbulda qərarlaşdı[129].

Almaniyada tanınmış pangermanist və “Dranq nach Osten” siyasətinin qızğın tərəfdarlarından biri Hüqo Qrote Almaniyanın

Şərq ölkələrində mövqelərinin möhkəmlənməsi yollarına dair belə bir fikir söyləmişdir ki, Şərq ölkələrində Almaniyanın iqtisadi, siyasi və mədəni təsirinin "sülh yolu ilə bərqərar olmasının" ən optimal yolu – "ilk növbədə bu müvafiq ölkələrdə elmi axtarışların və tədqiqatların həyata keçirilməsidir."[130]

H.Qrotenin söylədiyi bu fikir müəyyən dərəcədə Qafqaza da aid idi, çünki alman sənaye və ticarət kapitalının maraq dairəsinə düşən ən vacib regionlarından biri də Qafqaz idi. XIX əsrin sonları – əsasən də XX əsrin əvvəllərindən alman mənşəli geoloqların, coğrafiyaçıların, etnoqrafların, tarixçilərin və sair elm sahələrinə aid alimlərin, tədqiqatçıların səyahət adı ilə Qafqaza gəlişi intensivləşdi.

Müharibə ərəfəsində – 1913-cü ilin yazından Qafqaza gələn Almaniya, Avstriya-Macarıstan turistlərinin sayı xeyli artmışdı. 1913-cü ilin martında alman təbəəsi, fəlsəfə doktoru Fyodor Klyuge, az sonra Almaniya səfirliyinin katibi fon Pritvits, Qrats Universitetinin professoru Robert Daublevski de Şternek Qafqazın müxtəlif regionlarına baş çəkmiş, liman şəhərlərdə, sərhədyanı zonalarda fotoşəkillər çəkmiş, dənizin qabarması və çəkilməsi ilə bağlı müşahidələr aparmışlar[131]. Şübhəsiz ki, bu elmi araşdırmaların strateji liman şəhərləri – Batumida, Potidə, Novorossiyskdə aparılması elmı maraqla yanaşı, həm də hərbi məqsədlərə xidmət edirdi.

1913-cü ilin iyulunda Avstriya-Macarıstan təbəələri, fəlsəfə doktoru Yulius Komarek və Henrix Veseloy, fransa vətəndaşı doktor F.Tomas, Avstriya-Macaristan təbəəsi doktor Qanq Zild arvadı ilə, Almaniya əkinçilik cəmiyyətinin üzvü, professor Auqagen, Almaniya təbəəsi, "Frankfurter Zeitunq" qəzetinin müxbiri, incəsənət tarixi doktoru Valter Veybel, Avsriya-Macarıstan təbəəsi, Vyana İncəsənət Tarixi İnstitunun direktoru İosif Strjikovski, onun köməkçisi, Vyana Universitetinin dosenti Edmund Kütler və onların tələbələri Henrix Qlik, Leon Lisitsian və sair şəxslər müharibə ərəfəsində Qafqazın müxtəlif regionlarına səfər etmişlər[132].

Qafqaz canişinindən tövsiyələrində bütün adı çəkilən əcnəbi təbəələr üzərində ciddi nəzarətin qoyulması və bu zaman 1910-cu il 13 avqust tövsiyəsində göstərilən normalara riayət olunması tələb olunurdu[133].

Qafqaz canişininin 13 avqust 1910-cu il tarixdə Qafqazın bütün mülki və hərbi qubernatorlarına, vilayət və dairə rəislərinə, Bakı

qradonaçalnikinə, quberniya, vilayət və dəmir yolu jandarm idarələri rəislərinə, Tiflis və Bakı mühafizə şöbələrinin rəislərinə, Batumi və Yekaterinodar (Krasnodar) axtarış məntəqələrinin müdirlərinə göndərdiyi sirkulyarda Qafqaza gələn bütün şübhəli görünən əcnəbilər üzərində nəzarət və müşahidə qoyulması tələb olunurdu[134].

Qafqaz canişini əcnəbilərə icazə verməklə konkret olaraq onların fəaliyyət dairəsini aydınlaşdırırdı. Əcnəbilərə sərhədyanı ərazilərdə, hərbi obyeklər yaxınlığında, dəmir yolu xətlərinin şəklini çəkmək qadağan edilirdi. Hətta etnoqrafik tiplərin, torpağın landşaftının, yol qurğularının şəklinin çəkilməsi qadağan edilmişdi.

Birinci Dünya müharibəsi ərəfəsində "alman məsələsi" Dövlət Duması və hökumət dairələri səviyyəsində dəfələrlə müzakirə edilsə də konkret addımlar atılmadı. 1911-ci ilin noyabrında P.A.Stolıpinin terror nəticəsində öldürülməsindən sonra Daxili İşlər naziri vəzifəsinə təyin olunmuş Makarovun 1912-ci ildə hazırladığı qanun layihəsi 1915-ci ilin iyulunda, yəni artıq müharibə başladıqdan sonra qəbul edildi və məzmun etibarı ilə "rus torpaq mülkiyyətçiliyini alman və polyak torpaq sahibkarlarının təzyiqlərindən müdafiəsi üçün" nəzərdə tutulmuşdu.

Beləliklə, belə nəticəyə gələ bilərik ki, "alman məsələsi" XIX əsrin 60-cı illərində yaranmış və bu məsələnin müzakirəsi Birinci Dünya müharibəsinə qədər həm Almaniyada, həm də Rusiyada qızğın müzakirə obyekti olmuşdur. Əgər Almaniya üçün bu məsələ yalnız xarici siyasət sahəsini əhatə edirdisə, "alman məsələsi" Rusiyanın həm xarici, həm də daxili siyasət kursuna təsir edə biləcək amillərdən biri idi və bu məsələnin müzakirəsinin aktuallığı, intensivliyi birbaşa Rusiyanın daxili siyasətindəki dəyişikliklərdən, həm də Almaniya – Rusiya dövlətlərarası münasibətlərin vəziyyətindən asılı idi. "Alman məsələsi"nin müzakirəsinin xarakterinə, şübhəsiz yerli hökumət orqanları, publisistlər, ictimai xadimlər də nəzərəçarpacaq təsir göstərmişdilər.

Alman elementinə həqarətlə yanaşan çar III Aleksandrın Rusiyanı idarə etdiyi bu illərdə alman əhalisinin fəaliyyətinin məhdudlaşdırılmasına yönələn bir neçə ayrıseçkilik xarakterli qanunlar qəbul edildi. Ancaq mövcud sosial-iqtisadi reallığa uyğun olmayan bu qanunların bir çox müddəaları kağız üzərində qaldı. XX əsrin

əvvəllərində III Aleksandr tərəfindən imzalanan və antialman məzmunu ilə seçilən bir çox qanunların məzmunu yumşaldıldı, ən mürtəce qanunların tətbiqi dayandırıldı. Fikrimizcə, bu, həm Rusiyada inqilabi-demokratik hərəkatın başlanması, həm də çar II Nikolayın ətrafında "alman lobbisinin" mövqelərinin möhkəmlənməsi ilə izah edilirdi. Məlumdur ki, adı çəkilən lobbiyə çarın həyat yoldaşı, milliyətcə alman olan Aleksandra Fyodorovna başçılıq edirdi.

1907-1914-cü illərdə "alman məsələsi"nin müzakirəsinin kəskinliyi kulminasiya nöqtəsinə çatdı və məsələnin müzakirəsi Dövlət Dumasına çıxarıldı. Birinci Dünya müharibəsi ərəfəsində Rusiya almanlarına qarşı yeni daha sərt qanun layihəsi hazırlandı və onun həyata keçirilməsi müharibə illərində baş tutdu

# II FƏSİL
# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ ÇARİZMİN QAFQAZ ALMANLARINA QARŞI REPRESSİV TƏDBİRLƏRİ

Avstriya-Macarıstanın Serbiyaya hücumu ilə 1914-cü ilin iyulunda Birinci Dünya müharibəsi başladı. Serbiyanın müttəfiqi olan Rusiya avqustun 1-də Avstriya-Macarıstana müharibə elan etdi. Buna cavab olaraq Almaniya Rusiyaya qarşı müharibəyə başladı. Tezliklə Rusiyanın "Antanta" üzrə müttəfiqləri İngiltərə və Fransa da Almaniyaya qarşı çıxdılar.

Müharibənin başlanmasının səbəbkarları "Üçlər ittifaqı"na daxil olan Almaniya, Avstriya-Macarıstan və "Antanta" blokunun üzvləri İngiltərə, Fransa, Rusiya kimi aparıcı dövlətlər idi. Uzun illər bu, iki hərbi blok arasında gedən siyasi, iqtisadi, diplomatik çəkişmələr 38 ölkənin iştirak etdiyi qanlı müharibə ilə nəticələndi. Müharibədə iştirak edən aparıcı dövlətlərin hamısının işğalçı xarakterli planları olmasına baxmayaraq, İngiltərə, Rusiya və digər dövlətləri sıxışdıraraq, silah gücünə dünyanı yenidən bölüşdürməyə can atan Almaniya müharibənin başlanmasında əsas səbəbkar sayılırdı.

Müharibənin başlanmasının həlledici amili müstəmləkələr və təsir dairələri üstündə Almaniya və İngiltərə arasındakı barışmazlıq olsa da, digər iştirakçı dövlətlər arasında da kəskin ziddiyyətlər mövcud idi. Almaniya və Rusiyanın maraqlarının toqquşduğu regionlara İstanbul, Dardanell və Bosfor boğazları, Şərqi Prussiya, Baltikyanı ərazilər, Şərqi Anadolu, Qafqaz və ilk növbədə neft ehtiyatları ilə zəngin olan Azərbaycan aid idi. Müharibənin başlanması ilə Almaniya-Rusiya ziddiyyətləri dövlətlərarası münasibətlər çərçivəsindən çıxaraq iki xalq – ruslar və almanlar arasında milli münasibət xarakteri aldı və bu ilk növbədə Rusiyada yaşayan 2 milyona yaxın alman əhalisinə qarşı çar hökumətinin siyasətində əsaslı dəyişikliklərə gətirib çıxardı: ölkədə antialman kompaniyasına hazırlıq başladı.

Hələ müharibənin ilk günlərindən polis departamentinə göstəriş verilmişdi ki, alman mənşəli şəxslər üzərində nəzarət gücləndirilsin. Rusiyanın bir sıra regionlarında olduğu kimi Birinci Dünya

müharibəsinin başlanması ilə Qafqazda da alman əhalisi üzərində inzibati nəzarət gücləndirildi. Onların Almaniya ilə sıx əlaqələr yaratmaları Rusiyanın dövlət maraqları üçün potensial təhlükə sayılırdı. İctimaiyyəti narahat edən amillərdən biri də imperator sarayında almanpərəst qüvvələrin nəzərə çarpacaq dərəcədə güclü mövqeyə malik olması idi.Alman əhalisi üzərində nəzarəti gücləndirməklə çar hökuməti bir növ ictimaiyyəti sakitləşdirmək məqsədi güdürdü.

Çar sarayının Hofmeytseri Peterson 25 sentyabr 1914-cü il tarixində Qafqaz canişininə yazdığı gizli məktubda bildirirdi ki, "Qafqaz diyarında yaş həddi nəzərə alınaraq çox sayda Avstriya və Almaniya təəbələri öz yaşayış yerlərində saxlanılmışlar və onların Rusiyaya loyallığına yerli hakimiyyət orqanları tam əmin ola bilməzlər. Xahiş edirəm, dövlət təhlükəsizliyini nəzərə alaraq bütün bu şəxslər üzərində gizli, diqqətli və əhatəli müşahidə şəbəkəsi təşkil edəsiniz. Yaddan çıxarmayın ki, bu gün ən vacib məsələ xarici ölkə təəbələri üçün elə rejimin yaradılmasıdır ki, onlar bizim maraqlarımıza ziyan vura bilməsinlər: müşahidə yalnız alman kolonistləri üzərində deyil, həmçinin qadınlar, quvernantlar, bonnlar və bizimlə vuruşan dövlətlərin müxtəlif casus təşkilatları ilə əlaqəsi ola biləcək sair şəxslər üzərində təşkil edilməlidir[1].

Almanlara qarşı tətbiq edilən məhdudlaşdırma tədbirlərindən biri onların yaşayış məntəqələrinin adının dəyişdirilməsi oldu. Bu kompaniya Rusiya imperiyası üzrə almanların kompakt yaşadığı bütün regionlarda aparılırdı və hüquqi əsasını 15 oktyabr 1914-cü ildə qəbul edilmiş 55 saylı çar hökumətinin sərancamı təşkil edirdi.Bu sərəncamda alman adı daşıyan bütün kəndlərin və nahiyələrin adlarının dəyişdirilərək onlara rus adlarının verilməsi qeyd olunurdu[2]. Bu sərəncamdan sonra ilk adı dəyişdirilən Sankt-Reterburq şəhəri oldu və 1914-cü ilin oktyabrından paytaxt şəhər Petroqrad adlanmağa başladı.

Birinci Dünya müharibəsi illərində çar hökumətinin alman əhalisinə qarşı apardığı diskriminasiya siyasətinin səbəbləri, mahiyyəti, bu siyasi kursun qəbul edilməsində və həyata keçirilməsində içtimai rəyin təsiri, müharibə illərində millətlərarası, xüsusən də Rusiya almanlarının yerli xalqlarla münasibətlərinə dair məsələlər zəif öyrənilmişdir. 1914–1917-ci illərdə Rusiya almanlarına qarşı apa-

rılan diskirminasiya siyasətinin səbəblərini izah edən tədqiqatçılar əsas diqqəti sosial amillərə yönəltmiş, çar hökumətinin antialman kompaniyasını təşkil etməklə zəhmətkeşlərin diqqətinin "yerli rus mənşəli kapitalistlərdən, mülkədarlardan və sair istismarçılardan" almanlara yönəltmək kimi məqsədlər güddüyü vurğulanmışdır[3].

Şübhəsiz ki, antialman kompaniyası ilə çar höküməti müəyyən dərəcədə sosial və bəzi regionlarda isə (məsələn, Kurlyandiya və Liflyandiyada) milli münaqişələri nizama salmaq məqsədləri güdürdü. Lakin, fikirimizcə, 1914–1917-ci illərdə həyata keçirilən "antialman kompaniyası"nda çar Rusiyasının əsas məqsədi Almaniya ilə müharibədə "milli kart" amilindən istifadə etmək olmuşdur.

Təsadüfi deyil ki, antialman kompaniyasının başlanmasının ilk təşəbbüsçüləri məhz elə Rusiya hərbi dairələri oldular.

Çar hökumətinin alman əhalisinə qarşı repressiya xarakterli siyasəti və ictimaiyyətdə alman haqqında düşmən obrazının açıq-açığa təbliği 1914-cü ilin sonlarında rus ordusunun şimal-qərb cəbhəsində alman qoşunlarına qarşı uğursuz əməliyyatından sonra başladı.

1914-cü ilin sonlarında rus komandanlığının hazırladığı "Berlinə yürüş" baş tutmadı və 1915-ci ilin yanvar-fevral aylarında Şimali-Qərb cəbhəsinin ordularının hücumları almanların 10-cu ordusu tərəfindən dayandırıldı, əks-hücum nəticəsində rus qoşunları Qrodnı və Suvalki şəhərlərinə sıxışdırıldı. Rus generallarının fikirincə onların məğlubiyyətinin səbəbi mülki alman əhalinin alman ordusunu dəstəkləməsi və ruslara qarşı təxribat xarakterli əməliyyatlarda iştirak etmələri idi. Beləliklə, Rusiyanın Ali komandanlığında, generallar arasında antialman kompaniyası başladı və bu kompaniyanın başında kavaleriya generalı, knyaz Nikolay Nikolayeviç dururdu. O, 1914-cü ilin payızından başlayaraq, ümumiyyətlə bütün "alman millətinə" qarşı repressiyaların başlanmasının zəruriliyi haqqında məsələ qaldırırdı. Elə antialman kompaniyasının ilk qurbanları Almaniya-Rusiya cəbhələri radiusunda yaşayan Şərqi Prussiyanın, Qalitisiyanın, Bukovinanın alman əhalisi oldu. 1914-cü ilin sonu 1915-ci ildə yuxarıda adı çəkilən regionlarından Rusiyanın mərkəzi ərazilərinə, o cümlədən Qafqaza köçürülən alman mənşəli qaçqınlar zorakılığa məruz qaldılar.

Belə ki, müvəqqəti olaraq 1914–1915-ci illərdə bu əraziləri ələ keçirən ruslar burada "əhalisiz torpaq" prinsipini həyata keçirərək mülki alman əhalisini Rusiya ərazisinə sürgün edirdilər. Sürgün edilənlər üçün Simbirsk, Həştərxan və Sibir regionunun quberniyaları nəzərdə tutulurdu. Lakin Şərqi Prussiyadan adı çəkilən regionlara köçürülənlərin sayı olduqca az idi. Məsələn, 1915-ci ilin mayında Simbirskə cəmi 650 nəfər alman mənşəli qaçqın gəlmişdi-qalanları müxtəlif regionlara o cümlədən Qafqaza üz tutmuşdular. Alman tarixçilərinin göstərdiyinə görə sayı 10 minə çatan bu əhaliyə əvvəllər "girov götürülmüş", "qaçqın", sonralar isə "hərbi əsir" statusu verilmişdi[4].

Şərqi Prussiyadan almanların Rusiyanın mərkəzi quberniyalarına sürgün edilməsi rəqibə – yəni Almaniyaya iqtisadi zərbə vurmaq, onun məğlubiyyətini tezləşdirmək və müharibədən sonra Şərqi Prussiyanı Rusiyanın tərkibinə qatmaq planının bir hissəsi kimi qiymətləndirilirdi.Təsadüfi deyil ki, müharibə ərəfəsində və müharibənin ilk illərində müxtəlif publisistlər, siyasətçilər, tarixçilər Baş qərargaha və şəxsən II Nikolaya Almaniyanın necə parçalanmasına dair proyektlər göndərirdilər.Alman ordusunun işğal etdiyi ərazilərdə mülki slavyan əhalisinə qarşı törətdiyi vəhşiliklər haqqında müxtəlif şaiyələr yayılırdı.Bütün bunlar İmperiyada yaşayan slavyan mənşəli təəbələrdə – ruslarda, ukraynalılarda, belaruslarda, polyaklarda Rusiya almanlarına qarşı inamsızlıq, bəzən də nifrət hissi oyadırdı. Almandilli qəzetlərə qarşı təzyiqlər artdı və onların bir çoxu bağlandı. Şovinist ruhlu mətbuat orqanlarında Rusiya almanlarının ünvanına təhqiredici yazılar dərc edilirdi. Bu yazılarda əsassız olaraq almanları "rus xalqının istismarçısı" adlandırır, almanlara məxsus əmlakın talan edilməsi və rus əhalisi arasında paylaşdırılması kimi şüarlar səsləndirilirdi.

Şovinist istiqamətli qəzet və jurnallarda dərc olunan yazılarda rusları alman əhalisinə qarşı qaldırmaq cəhdləri artmağa başladı.1915-ci ildə Moskvada "Немецкое зло" ("Alman şəri") adlı məqalələr toplusu nəşr edilməyə başladı və məzmun etibarı ilə bu məqalələr "alman qara qüvvələrinə", "Rusiya daxilindəki Almaniyaya" qarşı necə mübarizə aparmaq məsələlərinə həsr olunmuşdu. Bu topluda çap edilmiş hər yazıda almanlar rus xalqına qarşı

vəhşiliklərdə təqsiləndirilir,sənayedə, kənd təsərrüfatında, təhsil sistemində mövcud olan “alman diktatına”, “alman zülmünə” son qoymaq üçün hamının səfərbər edilməsinə çağırışlar səslənirdi[5].

Rusiya hökumət dairələrinin fikrincə, millətçilik təbliğatı müharibə aparmaq üçün bütün qüvvələrin səfərbər edilməsi işinə xidmət etməli idi. Antialman kompaniyasının bu cür barışmaz düşmənçilik toxumları səpməsinin səbəblərindən biri də Rusiya əhalisində alman haqqında formalaşan müsbət stereotipləri alt-üst etməkdən ibarət idi. İş ondadır ki, Almaniya ilə Rusiya arasında müharibənin başlanması həm sadə ruslar, həm də almanlar üçün gözlənilməz olmuşdu.Belə ki, bu iki dövlət Yeddiillik müharibədən sonra qarşı-qarşıya gəlməmiş, iki xalq 150 ildən artıq bir dövr sülh şəraitində yaşamışdı.Bu səbəbdən siyasi rəhbərlik təbliğat və təşviqat maşınını bütün gücü ilə işə salmışdı ki, rus xalqında, ümumiyyətlə Rusiya əhalisində almanlar haqqında “düşmən” obrazı yaratsın.

Millətçi ruhda yazılan broşüralarda əsas diqqət bilərəkdən almanların mənəvi dəyərlərinin, hətta əqli qabiliyyətlərinin alçaldılmasına xidmət edir, nəşr edilən vərəqələrdə, plakatlarda “xarici” almanlar əcaib, qorxunc bir antixrist kimi, “daxili”, yəni Rusiya almanları isə casus, parazit, rus xalqının qanını soran müftəxor kimi təsvir edilirdilər.

Rusiya hökumətinin alman əhalisinə qarşı apardığı siyasətin formalaşmasına rus əhalisi arasında ksenofobiyanın artması böyük təsir göstərmişdir ki, bu səbəbdən də Rusiya dövlətinin alman mənşəli təəbələrə qarşı münasibəti sərtləşmiş, onların sosial-iqtisadi, siyasi, mədəni həyatının iflic olmasına yönələn tədbirlər görməyə sövq etmişdir. Müharibənin ilk günlərindən Rusiya imperiyasında geniş antialman kompaniyası başladı. Çar hökuməti dairələrində belə hesab edirdilər ki, Rusiyaya düşmən ölkələr və birinci növbədə “Üçlər İttifaqı”na daxil olan Almaniya, Avstriya-Macarıstan və İtaliya Rusiyanın daxili ictimai-siyasi həyatına mənfi təsir göstərməyə, onun iqtisadi dayaqlarını sarsıtmağa səy göstərirlər və müharibə şəraitində bu cəhdlər daha da intensivləşəcəkdir. Yüksək rütbəli çar məmurlarının qənaəti ilə düşmən dövlətlərin Rusiyaya qarşı hazırladıqları təxribatlar nəzəri cəhətdən Rusiyada yaşayan xarici vətəndaşlar tərəfindən həyata keçirilə bilərdi. Bu səbəbdən çar hökumətinin

ilk addımı Rusiyada yaşayan xarici ölkə vətəndaşlarının hüquqlarının məhdudlaşmasına yönələn qanunun qəbul edilməsi oldu: 22 sentyabr 1914-cü il tarixində çar II Nikolayın imzaladığı fərmanla düşmən dövlətlərin təbəələri daşınılmaz əmlak əldə etmək hüququndan məhrum edildilər[6].

Rusiyanın bir neçə cəbhələrdə hərbi əməliyyatlar aparması əhalinin onsuz da ağır olan sosial durumunu daha da mürəkkəbləşdirirdi. Müharibənin lap əvvəllərindən ərzaq məhsullarının qiymətləri sürətlə artdı.Fəhlələrin iş şəraiti son dərəcə pisləşmişdi, mövcud antisanitariya, adi əmək şəraitinin yaradılmaması, müharibənin tələblərini nəzərə alaraq iş gününün 14-15 saata çatması – bütün bunlar fəhlələr arasında narazılığın artmasına, əmək və kapital arasında ziddiyyətlərin daha da kəskinləşməsinə gətirib çıxarmışdı.İmperiya əhalisinin 70%-ni təşkil edən kəndlilərin vəziyyəti daha dözülməz idi. 1914-cü il 24 dekabr qanununa görə torpaq vergisinin məbləği 50 faiz artırılmışdı[7]. Mütəmadi rekvizisiyalar, arxa işlərinə səfərbərlik, bahalıq və möhtəkirlik, artırılmış vergilər və mükəlləfiyyətlər kəndlilərin üzərində ağır yük idi. Müharibə kənddəki sosial təbəqələşmə prosesini daha da gücləndirdi, kəndlilərlə iri torpaq sahibləri arasında ziddiyyətlər açıq sosial mübarizə formasına keçmək təhlükəsi qarşısındaydı. Milli ucqarlarda fraqmentar kəndli çıxışları aqrar məsələnin həllinin sürətləndirilməsini tələb edirdi. Çar hökuməti bu mürəkkəb məsələnin həllini elə həyata keçirmək istəyirdi ki, kəndlilər arasında mövcud sosial gərginlik aradan qaldırılsın, həm də çarizmə sadiq olan iri torpaq sahiblərinin maraqlarına zidd tədbirlər görülməsin.

Rusiya hakimiyyət dairələrini almanlara qarşı radikal addımlar atmağa məcbur edən amillərdən biri də sosial-iqtisadi sferada antaqonist ziddiyyətlərin getdikcə kəskinləşməsi olmuşdur. Alman kolonistlərinin və alman mənşəli iri torpaq sahiblərinin hesabına aqrar məsələni həll etməyi qərara alan Nazirlər Kabineti 02 fevral 1915-ci il tarixində xüsusi qanun qəbul etdi[8]. Çarın imzası ilə təsdiqlənən bu qanuna görə sərhədyanı ərazilərdə Avstriya-Macarıstan və Almaniya mənşəli əhali torpaqdan istifadə etmə və yaxud torpaq mülkiyyətinə sahib olmaq hüquqlarından məhrum edilirdilər. Almanpərəst nazirlərin etirazına baxmayaraq bu fərman çar

II Nikolay tərəfindən də dəstəkləndi. Bu fərmanda göstərilirdi ki, imperiyanın qərb və cənub quberniyalarında yaşayan alman, Avstriya, macar mənşəli şəxslərin daşınılmaz əmlakı tərəflərin könüllü razılığı ilə dövlət tərəfindən müsadirə (ekspropriasiya) olunur. Ekspropriasiya həm də alman, Avstriya və macar mənşəli şəhər əhalisinə də aid edilirdi. Rusiya və yaxud hansısa bir başqa dövlətin təbzəəliyinə məxsusluq əhəmiyyət kəsb etmirdi: qanunun müddəaları yalnız Rusiya təbəəliyini 1880-cı ilin 01 yanvar tarixinədək qəbul etmiş şəxslərə şamil edilmirdi.

Fərmanda həmçinin qanunun aid edildiyi coğrafi koordinatlar da göstərilirdi. Onlar aşağıdakılar idi:[9]

– Almaniya və Avstriya-Macarıstan sərhədlərindən 150 verst radiusda yerləşən quberniyalar;

– Finlandiya ilə sərhədlərdən 100 verst radiusda yerləşən quberniyalar;

– Qara dəniz, Azov və Xəzər dənizləri sahillərindən 100 verst radiusda yerləşən quberniyalar.

Fərmanın müddəaları aid deyildi:

– anadangəlmə pravoslav dininə mənsub olan və pravoslav dinini 01 yanvar 1914-ci ilədək qəbul edən əcnəbilərə;

– daşınmaz əmlak hədiyyə edilmiş ayı-ayrı şəxslərə və cəmiyyətlərə; slavyan mənşəli əcnəbilərə;

– rus ordusu və donanması tərkibində hərbi əməliyyatlarda iştirak etmiş, zabit rütbəsinə malik olan və yaxud orduya könüllü yazılanlara;

– Rusiya hərbi qüvvələrində vuruşmuş, valideynlərini və yaxud valideynlərindən, yaxın qohumlarından birini müharibədə itirənlərə;

– həyat yoldaşı rus hərbi qüvvələrində xidmət zamanı həlak olanlara[10].

Daşınmaz əmlakın təhvil verilməsi müddəti aşağıdakı kimi təyin edilmişdi:

– Almaniya və Avstriya-Macarıstan sərhədlərindən 150 verst radiusda yerləşən quberniyalar üçün – 10 ay;

– Rusiyanın cənub və şimal sərhədlərindən 100 verst radiusda yerləşən quberniyalar üçün müsadirə olunacaq təsərrüfatların siyahısı dərc olunduqdan 1 il 4 ay müddətində[11].

Əgər göstərilən müddət ərzində əmlak sahibi əmlakı könüllü şəkildə dövlətə satmazdısa, onun əmlakı məcburi şəkildə hərraca qoyulurdu və hərracda satılırdı. Qanuna görə müsadirə olunan əmlakın müqabilində əmlak sahiblərinə kiçik məbləğdə kompensasiya verilirdi.Qeyd etmək yerinə düşərdi ki, Rusiyanın Polşa hissəsində "ləğvetmə" prosesi hələ 1914-cü ilin yayından başlamışdı və Polşa almanları kütləvi şəkildə imperiyanın şərqinə köçürülürdülər[12]. 02 fevral 1915-ci il fərmanından sonra isə artıq iyun-iyul aylarında Volın, Podoliya, Kovno, Vilno və sair sərhədyanı qərb və şimali-qərb quberniyalarında alman kolonistlərinə məxsus təsərrüfatların "ləğv edilməsi", alman əhalisinin Rusiyanın içərilərinə köçürülməsi prosesi başladı. Professor K.Lindemanın tədqiqatlarında göstərilir ki, 1916-cı ilin sonuna Volın, Podoliya, Kiyev, Çerniqov və Bessarabiya quberniyalarından 120 min alman deportasiya olunmuşdur[13]. Fikrimizcə, K.Lindemanın göstərdiyi rəqəmlər əsil həqiqətin bütöv mənzərəisini əks etdirmir. Apardığımız tədqiqatlardan aydın olur ki, təkcə Volın quberniyasında 1915-ci ilin iyul-avqust ayları ərzində alman kolonistlərinə məxsus 10432 şəxsi, 10313 icarədar təsərrüfatları ləğv edilmiş, Volının 200 minlik alman əhalisinin 60% -dən artığı deportasiyaya məruz qalmış, Ural, Sibir, Mərkəzi Asiya ərazilərinə köçürülmüşlər[14].

Qafqaz almanları da tezliklə onlara qarşı repressiyaların başlaması təhlükəsi altında yaşayırdılar və onların narahatlığı əsassız deyildi. Şimali Qafqazda, rusların daha kompakt yaşadığı bölgələrdə yerli əhali almanların torpaqlarının onlara verilməsini, qərb quberniyalarında alman əhalisinə qarşı törədilən repressiyaların Şimali Qafqaz almanlarına da şamil edilməsini tələb edirdilər.

1915-ci ilin avqustunda "alman məsələsi" Dövlət Dumasında müzakirə edildi. Müxtəlif fraksiya üzvləri "alman təzyiqi" ilə bağlı "alovlu" çıxışlar etdilər və müzakirələrin yekununda Dövlət Dumasında "Rus həyatının bütün sahələrində "alman təzyiqinə" qarşı mübarizə komissiyası" yaradıldı. Komissiyanın sədri qatı şovinist A.S.Stişinski təyin olundu[15]. 1916-cı ilin əvvəllərində Daxili İşlər Nazirliyinin ümumi işlər departamenti yanında xarici ölkələrin təbəələri ilə iş üzrə xüsusi məsvərət yarandı və onun sədri məxfi məsləhətçi V.Q.Kondoidi təyin olundu[16]. Alman zülmünə qarşı

mübarizədə ictimai və hökumət təşkilatlarının, dövrü mətbuatın səylərini istiqamətləndirmək və ümumiləşmiş şəkildə idarə etmək məqsədilə 1916-cı ilin martında Nazirlər Soveti yanında "Alman təzyiqinə qarşı mübarizə aparmaq üçün Xüsusi komitə" yaradıldı. Əvvəlcə onun sədri general-adyutant Trepov, sonralar isə A.S.Stişinski olmuşlar. 01 iyun 1916-cı il tarixdə çarın imzası ilə "Alman təzyiqinə qarşı mübarizə aparan komitə həqqında müddəalar" təsdiqləndi[17]. Bu müddəalara görə "Xüsusi komitə"yə alman və sair düşmən ölkələrdən gəlmiş şəxslərlə bağlı istənilən məsələnin həllində fövqəladə səlahiyyətlər verilirdi.

Dövlət Dumasında yaranan "Rus həyatının bütün sahələrində "alman təzyiqinə" qarşı mübarizə komissiyası" 4 şöbəyə ayrılırdı: alman torpaq sahibliyi üzrə; ticarət, sənaye və bank işləri üzrə; Baltikyanı ərazilər üzrə və "alman təzyiqi" ilə bağlı tədbirlərin hazırlanması üzrə.Komissiya 2 fevral 1915-ci il qanununun həyata keçirilməsinə nəzarət etməli və qanun müddəalarının alman əhalisinin bütün kateqoriyalarına nəzərən obyektiv yerinə yetirilməsini təmin etməli idi. Komissiya Rusiyanın alman əhalisini ümumi təhlil etdikdən sonra onları 3 kateqoriyaya böldü:

a) Almaniya və Avstriya-Macarıstan təbəəliyini saxlayanlar;

b) bipatrid-almanlar (buraya əsasən XIX əsrin II yaısında Rusiyada məskunlaşan mühacirlər və onların nəsilləri aid idi);

c) Rusiya və yaxud etnik almanlar (bu kateqoriyaya Rusiyada XVIII əsrin II yarısı XIX əsrin əvvəllərində məskunlaşmış və Rusiya təbəəliyini qəbul etmiş almanların nəsilləri daxil idi).

Almanlara qarşı tədbirlərin hazırlanmasında komissiyanın üzvləri arasında fikir ayrılığı mövcud idi. Məsələn, Pepelyayev, Maslennikov, Nikolayev, Lüts kimi komissiya üzvləri alman kolonistlərinin təsərrüfatlarının ləğv edilməsinə qarşı çıxırdılar. Öz mövqelərini onlar belə izah edirdilər ki, Rusiya almanları ölkənin sadiq təbəələridir. Onlar kənd təsərrüfatının, emaledici sənayenin inkişafında mühüm rol oynayırlar və onların ruslarla qaynayıb-qarışmaması, mədəni cəhətdən təcrid olunmaları uzun illər Rusiya hökumətinin apardığı siyasətin nəticəsidir. Təkcə bəzi komissiya üzvləri deyil, qabaqcıl ziyalılar qəzet və jurnal səhifələrində çar hökumətinin alman əhalisinə qarşı ayrı-seçkilik siyasətini pisləyən yazılar dərc edirdilər. Bu ba-

xımdan Rusiya almanlarının maraqlarını ən fəal müdafiə edən mətbu orqanlar “Odesskiy listok”, “St. Peterburger Zeitung”, “Kiyevlyanın”, “Saratover Zeitung” və başqaları idi. Qeyd etməliyik ki, almanların hüquqlarını müdafiə edənlər azlıq təşkil edirdilər. İmperiya əhalisinin əksər çoxluğu, əsasən də slavyan dil qrupuna aid xalqlar açıq-açığına almanlara qarşı düşmən münasibət bəsləyirdilər. Sank-Peterburq şəhərinin ictimaiyyəti “1914-cü il cəmiyyəti” yaratdılar. Sonralar bu “Cəmiyyət” “Alman təzyiqinə qarşı mübarizə cəmiyyəti” adlandırıldı[19]. 1915-ci ilin may ayında Moskvada alman qırğını törədildi – minlərlə sadə insan təhqirə və fiziki zorakılığa məruz qaldı. Hətta, Rusiyanın velikorus quberniyalarından uzaqlarda, qərb quberniyalarında belə almanlara münasibət birmənalı deyildi. Məsələn, Volın quberniya jandarm idarəsinin unter-zabiti Kiyanişinin yuxarı instansiyalara göndərdiyi raportda göstərilirdi ki, alman əhalisinin rus ordusuna yardım etməsinə, hökumət orqanlarının tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirməsinə, Almaniyaya, imperator Vilhelmə mənfi münasibət bəsləməsinə baxmayaraq “yerli rus və polyak əhalisi hətta rus təbəəliyini qəbul etmiş alman kolonistlərinə artıq dərəcədə düşmən münasibət bəsləyirlər”[20].

Panslavist və şovinist dairələrin təsiri ilə 1915-ci ilin sonuna Rusiya almanlarının vəziyyətini daha da ağırlaşdıran yeni qanun layihələrinin hazırlanmasına başlandı. 13 dekabr 1915-ci il tarixdə qəbul edilən qanun məntiqi olaraq 02 fevral 1915-ci il qanununun davamı idi.[21] Yəni, qanuna görə 02 fevral 1915-ci il qanununun “yüngül maddələri” bir qədər sərtləşdirildi: yeni qanun əvvəlki qanununun 351-ci maddəsinin 3-cü bəndini ləğv etdi. Bu maddəyə görə ləğvetmə tədbirləri 01 yanvar 1880-cıilədək Rusiya təbəəliyini qəbul etmiş kolonistlərə də aid edilirdi. Qanunun müzakirəsi zamanı alman əhalisinə different (fərqli) yanaşma təklifləri rədd edildi və beləliklə qanunun müddəaları təbəəliyindən asılı olmayaraq bütün etnik almanlara – Bavariya, Vürtemberq, Pribaltika, Avstriya və sair german ərazilərindən gələn əhaliyə şamil edildi. “Alman təzyiqinə qarşı mübarizə komissiyası”nın rəyinə görə Rusiya dövlətinin maraqları ölkədə yaranmış siyasi vəziyyət mövcud alman torpaq sahibliyini ləğv edilməsini zəruri edir. Nəhəng bir imperiya çərçivəsində “ləğvetmə” qanunlarının həyata keçirilməsi minlərlə yeni kadr-

ların işə cəlb olunmasını tələb etməklə yanaşı, müharibə aparan ölkənin əsas nəqliyyat arteriyalarının da bu tədbirlərə cəlb olunmasını mütləq edirdi. Alman kolonistlərinin və iri torpaq sahiblərinin təsərrüfatlarının "ləğv edilməsi" Rusiyanın onsuz da mürəkkəb olan sosial-iqtisadi vəziyyətini daha da ağırlaşdıra bilərdi. Bu səbəbdən adı çəkilən komissiya qərara aldı ki, "ləğvetmə" qanunları Rusiya miqyasında mərhələ-mərhələ həyata keçirilməli, Rusiya bir neçə zonaya bölünməli, hər zonada bu qanunların keçirilməsi müddəti və repressiya tədbirlərinin sərtlik dərəcəsi müəyyən olunmalıdır. Komissiya üzvlərinin fikrincə "ləğvetmə" qanunlarının sərtlik dərəcəsi hər hansı bir zonanın geosiyasi vəziyyətindən asılı olmalıdır – zona nə qədər Almaniyaya və Rusiyaya düşmən olan başqa ölkələrə yaxın yerləşirsə, "ləğvetmə" qanunları bir o qədər sərt şəkildə həyata keçirilməli idi.

Beləliklə, Qafqaz ərazisində "ləğvetmə" qanunlarının tətbiqi ayrı-ayrı regionlarda müxtəlif vaxtlarda keçirildiyindən, almanlara məxsus təsərrüfatların ləğvində, onların əmlakının müsadirə edilməsində nisbətən müxtəlif yanaşma nəzərə çarpırdı.

Qafqaz regionunda 1915-ci ilin "ləğvetmə" qanunlarına ilk məruz qalan Don Hərbi Dairəsində yaşayan almanlar oldu. 1915-ci ilin sonuncu rübündən Donda yaşayan alman kolonistlərinə qarşı diskriminasiya siyasətinin tətbiq olunması Qara dənizdə və xüsusən Azov sahillərində Almaniya hərbi qüvvələrinin fəallaşması ilə bağlı idi.

"Ləğvetmə" qanunlarının tətbiqi ənənəvi olaraq Donda mövcud olan alman toponimikasının rus adları ilə əvəz olunmasından başladı. Bu məsələ ilə bağlı Daxili İşlər naziri 13 və 15 oktyabr 1915-ci il tarixdə müvafiq sərəncamlar imzaladı[22].

02 fevral və 13 dekabr 1915-ci il qanunları Don Hərbi Dairəsinə də şamil edilirdi. 02 fevral 1915-ci il qanununa görə Don ərazisi Azov və Qara dənizlərdən 100 verst radiusda yerləşən ərazilərə aid idi və bu səbəbdən Don almanları xüsusi mülkiyyətə torpaq almaq və icarəyə götürmək hüququndan məhrum oldular. Arxiv sənədlərində deyildiyi kimi, qanun elan olunandan 1 il sonra bütün cəmiyyətlərin, birliklərin və ayrı-ayrı şəxslərin daşınmaz əmlak əldə etmək hüququ ləğv edilirdi.Göstərilən dövrə qədərki müddətdə alman əhalisinin iştirakı ilə icarə və ya muzdlu iş haqqında bağlanan istənilən müqavilə

qanunsuz hesab edilirdi. Məlumdur ki, 02 fevral 1915-ci il qanununa görə pravoslav-almanlara, qanun çıxana qədər rus ordusu tərkibində müharibədə vuruşaraq həlak olan və yaxud mükafata layiq görülən almanlara qanunun müddəaları aid edilməməli idi. Çar məmurları qanunun müddəalarına dəqiqliklə əməl edir, alman əhalisinə heç bir vəchlə güzəştli yanaşmaya yol vermirdilər. Qəbul olunmuş qanunların müddəaları bəzən cəfəngiyat xarakter daşıyırdı: alman mənşəli zabitlər, əsgərlər rus ordusunda düşmənə qarşı vuruşduğu, həlak olduğu halda, arxada onların ailələrinə məxsus təsərrüfatlar ləğv edilir, onların əmlakı hərracda satışa çıxarılır, ailələri küçələrə atılırdı.

Qafqaz regionları ilə müqayisədə Don Hərbi Dairəsində yerli rus-kazak əhalisi almanlara pis münasibət bəsləyirdi. Əhalidə daimi qorxu hissinin formalaşmasında kütləvi informasiya vasitələrinin və o dövrdə bu sahədə şübhəsiz ki, liderliyə malik olan qəzet və jurnalların böyük "xidməti" vardı. Don ərazisində nəşr olunan və ümumiyyətlə Şimali Qafqaz regionunda nəşr olunan bütün regional qəzetlərdə geniş şəkildə antialman təbliğatı aparılır, Rusiya daxilində yaranan "Almaniya" ilə mübarizənin "vacibliyi" vurğulanırdı. Təəssüflər olsun ki, antialman təbliğatının aparıcı qüvvələrindən biri də rus pravoslav kilsəsi idi. 02 fevral 1915-ci il qanunu dərc edildikdən sonra Novonikolayevsk kilsə Xeyriyyə Cəmiyyəti sədrinin Don Hərbi Dairəsinin vilayət orqanlarına göndərdiyi məktubda qeyd olunurdu ki, 02 fevral 1915-ci il qanunu "böyük dövlət və pravoslav-kilsə əhəmiyyətli bir aktdır"[23]. Təşəkkür məzmunlu bu məktubda müəllif qeyd edir ki, alman kolonistləri "öz casusluğu, satqınlığı və strateji baxımdan əhəmiyyət kəsb edən sərhədyanı əraziləri ələ keçirərək bizim dövlətimiz üçün təhlükə yaradırlar. Bu cür lazımsız təbəələr canfəşanlıqla sektaçılıq və etinasızlıq, maraq göstərməmə ideyaları yayaraq bizim kilsəmizə böyük ziyan vurmuşlar". Məktub müəllifi "ləğvetmə" qanununun qəbuluna görə İmperatora minnətdarlığını bildirir və hesab edir ki, Rusiyada yaşayan almanların torpaq mülkiyyətinin ləğv edilməsi, onların torpaqlarının pravoslav əhaliyə paylanması rus xalqı üçün tarixin yaratdığı nadir şanslardan biridir. Onun fikirincə, rusların milli şüurunun yüksəliş vaxtı çatmışdır və artıq heç bir məhkəmə, heç bir hökumət orqanı, "təkəbbürlü almanın hüquqlarını müdafiə etməyəcəkdir"[24].

Dövlət komitələri, müxtəlif cəmiyyətlər, jurnalistlər, məmurlar və sair kateqoriyadan olan şəxslər antialman kampaniyasının hazırlanmasında və həyata keçirilməsində iştirak edirdilər. Almanların simasında "düşmən obrazı"nın yaradılmasında və ümumiyyətlə bu prosesin mexanizmlərinin təyin olunmasında Rusiyanın qabaqcıl ziyalılarının elmi, intellektual potensialından istifadə olunurdu. Ölkədə millətçilik əhval-ruhiyyəsini qızışdırmaq, Rusiyada alman kolonistləri haqqında əsrlər boyu formalaşan müsbət stereotipləri alt-üst etmək məqsədilə tarixçilərdən, etnoqraflardan Rusiya almanlarının Rusiyanın inkişafına verdikləri töhvələri danmaq və əksinə, onların cəmiyyət üçün zərərli bir element olmalarını təbliğ edən əsərlər tələb olunurdu. Bu hal təkcə "ləğvetmə" qanunlarının aid olduğu quberniyalara deyil, bütün İmperiya üçün səciyyəvi idi. Məsələn, 02 fevral 1915-ci il qanununun IV bölməsindəki müddəalara görə Stavropol quberniyası adı çəkilən qanunun təsir dairəsinə düşmürdü[25]. Lakin buna baxmayaraq artıq 1915-ci ilin yazından Stavropol ictimaiyyəti "alman məsələsini" qızğın şəkildə müzakirə etməyə başladı. Antialman əhval-ruhiyyəsinin qızışdırılmasında yerli diyarşunas-tarixçi Q.N.Prozritelevin alman kolonistləri haqqında elmi yazılarının böyük təsiri olmuşdu[26]. Təbii ki, Q.N.Prozritelevin alman kolonistləri haqqında fikirləri birtərəfli, qərəzli xarakter daşıyırdı, ölkədə baş alıb gedən antialman təbliğatının təsiri və rəsmi dairələrin siyasi sifarişi ilə yazılmışdı.

Stavropol quberniyasında məskunlaşan almanların təsərrüfatları yerli rus-kazakların təsərrüfatlarına nisbətən yüksək inkişaf etmişdi. Təkcə onu qeyd etmək yerinə düşərdi ki, bir Yohannesdorf koloniyası bütün Stavropol şəhərini heyvandarlıq məhsulları ilə təchiz edirdi[27]. Lakin antialman təbliğat maşını artıq öz işini görürdü və emosiyalar dərrakəni üstələyirdi. 1915-ci ilin baharında Stavropol quberniyasının Svyatokrestovski və Medvejenski qəzalarının koloniyalarının alman adları rus adları ilə əvəz edildi: Peterstal – Selivanovka, Libental – Brusilovka, Ruental – Radkovka, Ebental – Russovka, Nemetsko – Xagin-skaya – Xaginskaya, Velheym – Koltunovka, Qofnunqfeld–Kolontarovka və sair koloniyaların adları dəyişdirildi[28]. Əgər alman koloniyalarının yeni adlarına fikir versək görərik ki, bu adlar Birinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş rus ordusunun

sərkərdələrinin şərəfinə qoyulmuşdur ki, bu da həyata keçirilən toponimik dəyişikliklərin ideoloji xarakter daşıdığını göstərirdi.

Çar hökumət orqanları Şimali Qafqazda antialman təbliğatı təşkil etmək üçün müvafiq psixoloji iqlim yaratmaq istiqamətində iş aparırdılar, çünki müharibənin başlanğıcında rus əhalisi almanlara etinasız, laqeyd münasibət bəsləyirdi. 1915-ci ilin payızında Rusiyanın Daxili İşlər Nazirliyi bütün vilayət, quberniya, yerli hakimiyyət orqanlarına gizli sərəncam vermişdi ki, onlar tabeliklərində olan ərazilərdə yaşayan alman əhalisinin sayı, koloniyaların coğrafi mövqeyi, kolonistlərə məxsus torpaq sahəsinin miqdarı, almanların yerli əhaliyə, Birinci Dünya müharibəsində baş verən hadisələrə münasibəti haqqında tam və ətraflı məlumat toplasınlar[29].

Almanların yığcam yaşadığı qəzaların rəhbərləri artıq 1915-ci ilin noyabr-dekabr aylarında və 1916-cı ilin əvvəllərində rəsmi dairələrə müvafiq məzmunlu raportlar təqdim etdilər[30].

Birinci Dünya müharibəsi illərində alman kolonistlərinin Rusiyaya münasibəti məsələsi Rusiya almanlarının tarixşünaslığında ən çox mübahisə obyekti olan məsələlərdən biridir. Bu məsələdə tədqiqatçılar bir-birinə zidd olan fikirlər söyləmişlər və bu gün də adı çəkilən bu problem öz aktuallığını itirməmişdir. Müasir dövrdə Rusiya, o cümlədən Qafqaz almanlarının tarixşünaslığında qəbul edilən müddəa ondan ibarətdir ki, almanlar müharibə illərində Rusiyaya loyal münasibət göstərmişlər. Lakin bu loyallığın ölçü meyarı göstərilməmişdir, yəni hansı faktlar həqiqətən alman əhalisinin loyallığını təsdiqləyə bilərdi. Birtərəfliliyə yol verməmək məqsədilə qəza başçılarının Stavropol quberniya idarəsinə təqdim etdikləri raportların qısa məzmunu ilə tanış olmaq çox faydalı olardı. Məsələn, Stavropol quberniyasının Medvejenski qəzasının* ispravniki** 2 noyabr 1915-ci il tarixli raportunda yazırdı ki, “adı çəkilən qəzada Jukovski və Krasnopolyanski kəndləri arasında, knyaz Qaxayevin keçmiş torpaqlarında 37 ailədən ibarət alman koloniyası yerləşir. İspravnikin məlumatlarına görə bir nəfərdən savayı burada yaşayan almanların hamısı Rusiya təbəələridir və onlar qonşu Jukovski və Krasnopolyanski kəndlərinin rus əhalisindən heç nə ilə fərqlənmirlər.

* 1917-ci il rus inqilabından qabaq quberniya tərkibində inzibati-ərazi vahidi
** Çar Rusiyasında qəza polis rəisi

Nəzərəçarpacaq fərqlər varsa, o da dinə, dilə və torpaq becərməyin metodlarına aiddir. Qonşu kəndlərin əhalisi ilə daimi əlaqələr saxlayırlar və onlara loyal münasibət bəsləyirlər. Müharibədə baş verən hadisələrə biganə yanaşır və müharibə ehtiyaclarını ödəmək üçün övladlarını, atlarını orduya verirlər"[31].

Xaginskaya və Esto-Xaginskaya, həmçinin Kuturda xutorunu xarakterizə edərək ispravnik yazır ki, "bu məntəqələrdə yaşayan almanlar geniş torpaq sahələrinə məxsusdurlar və onların qonşuları rus və kalmık kəndliləridir. Adı çəkilən koloniyada almanlar əsasən əkinçiliklə məşğul olurlar. Müharibə başlayandan sonra özlərini bir qədər sakit aparmağa başlamışlar". Rus əhalisi ilə münasibətlərə toxunan ispravnik raportda göstərir ki, "əvvəlki illərə nisbətən ruslarla özlərini nəzakətli aparır, ancaq dostluq münasibətləri qurmağa can atmır, ruslara şübhə ilə yanaşırlar. Elə hallar olur ki, bəzi almanlar ruslara bəslədikləri nifrəti və hətta düşmənçilik hisslərini açıqca nümayiş etdirir, almanları müharibədə məğlubedilməz sayırlar. Bir halda nəzərdən qaçmır ki, Almaniya qoşunlarının nailiyyətləri haqqında qəzet məlumatları yerli almanların kefini açır, amma bizim qoşunlarımız alman ordusuna qalib gəldikdə, onlar qəmə batırlar"[32].

Stavropol quberniya idarəsinə Aleksandrovsk qəza ispravnikinin 6 noyabr 1915-ci il tarixdə yazdığı raport da məzmun etibarı ilə yuxarıdakından seçilmirdi[33]. İspravnik ona həvalə edilən qəzada mövcud olan 10 koloniya, 4 xutorun adını çəkdikdən və almanların ənənəvi təsərrüfat həyatı haqqında məlumat verdikdən sonra rəsmi dövlət orqanlarını maraqlandıran əsas məsələyə – alman kolonistlərinin rus əhalisi ilə münasibətləri, onların Birinci Dünya müharibəsinin hadisələrinə necə reaksiya verməsi məsələsinə toxunaraq qeyd edir ki, "yaşanan hadisələrə münasibətdə alman kolonistləri böyük təmkinlik göstərir, Almaniyaya açıq rəğbət nümayiş etdirilmir, orduya atların verilməsi və başqa mükəlləfiyyətləri könüllü yerinə yetirirlər". İspravnikin raportundan görünür ki, alman kolonistləri hətta rus ordusunda, "cəbhədə vuruşan rus əsgərlərinin ailələrinə təsərrüfat işlərində kömək edir, onlara maddi yardım göstərirlər" [34]

30 noyabr 1915-ci il tarixdə Svyatokrestovsk qəza ispravnikinin yazdığı raportda yerli ruslarla alman əhalisi arasında soyuq münasibətlər olduğu göstərilir və qeyd olunur ki, "alman kolonistlərinin Almani-

yaya mənfi münasibəti və rus ordusunu dəstəkləməsi, tərifləməsi belə ruslarda onlara qarşı inam yaratmır. İki xalq arasında "soyuq" münasibətlər sakit halda yaşanır və ruslarla almanlar arasında milli zəmində açıq-açığına heç bir münaqişə baş verməmişdir"[35].

Stavropol qəza ispravniki 27 fevral 1916-cı il tarixli raportunda almanların ruslara münasibətində müsbət dəyi- şikliklərin baş verdiyini, almanların ruslara daha hörmətlə yanaşdıqlarını vurğulayır. Stavropol ispravniki yazır ki, "müharibəyə qədər həm yaşlı almanlar, həm də onların uşaqları rusları "rus-axmaq", rus-donuz" kimi sözlərlə təhqir edirdilər. Müharibə başlayandan sonra rusların qələbələrini sevinclə, məğlubiyyətlərini isə təəssüflə qarşılayırlar. Ancaq bütün bunlar nə qədər səmimi edilir – demək çətindir. Hər halda ordu üçün qoşqu atlarının yığılmasında və orduya çağırışda bütün tələbləri vaxtlı-vaxtında yerinə yetirmişlər, rus əhalisi ilə çiyin-çiyinə rus qaçqınlarını qəbul etməyə hazır olduqlarını bildirmişlər"[36].

Stavropol qubernatoru qəzalardan alınan məlumatları öyrəndikdən sonra 29 dekabr 1915-cı il tarixdə Daxili İşlər Nazirliyinin Ümumi işlər Departamentinə raport göndərdi və bu sənəddə qeyd olunurdu ki, quberniyada 19 min alman əhalisi yaşayır və onlar yüksək təsərrüfatçılıq qabiliyyəti ilə yanaşı, öz dillərini, adət-ənənələrini, bir sözlə milli mədəniyyətlərini saxlamağa nail olmuşlar. Raportda müharibəyə qədərki dövrdə almanların ruslara qarşı təkəbbürlü münasibət göstərməsi və müharibə başlayandan sonra onların yerli əhalidən uzaqlaşması prosesinin daha da güclənməsi vurğulanır. Bununla yanaşı, raportda almanların Rusiyaya qarşı heç bir düşmənçilik hərəkətləri etmədikləri, Almaniyadakı həmvətənlərinə açıq şəkildə rəğbət bəslədikləri nəzərə çatdırılır[37].

Stavropol quberniyasının 4 qəzasından alınan raportların məzmunundan görünürdü ki, alman kolonistləri müharibə şəraitində özlərini loyal aparır, hər vəchlə sübut etməyə çalışırdılar ki, onlar Rusiya təbəələridir və etnik mənsubiyyətlərinə baxmayaraq öz tarixi vətənlərinin – Almaniyanın deyil, yaşadıqları və çalışdıqları ölkənin – Rusiyanın maraqlarını üstün tuturlar. Stavropol qubernatorunun Daxili İşlər Nazirliyinə təqdim etdiyi raport hökumətin almanlara qarşı apardığı diskriminasiya siyasəti ilə uyğunlaşmırdı. Təbii ki, Stavropol qubernatorunun raportu qəzalardan alınan faktlara əsaslanırdı.

Stavropol quberniyasının Medvejensk, Svyatokrestovsk, Aleksandrovsk, Stavropol qəzalarının ispravniklərinin yenidən alman kolonistləri haqqında Stavropol qubernatoruna göndərdikləri raportların məzmunu ilə tanışlıq bir daha sübut edir ki, qəza ispravikləri həm birinci, həm də təkrar raportlarında obyektiv olmağa çalışmışlar və alman kolonistləri haqqında real vəziyyəti əks etdirən raportlar hazırlamışlar. Son raportlardan görünür ki, rus və alman əhalisi arasındakı münasibətlərdə əsaslı dəyişikliklər baş verməmişdir: 1915-ci ildə olduğu kimi 1916-cı ildə də almanlar özlərini "sözəbaxan" kimi aparır, Rusiyaya sadiq təbəələr kimi münasibət bəsləyir, Almaniyanın siyasətini tənqid edir, lazım gəldikdə rus ordusuna ərzaqla, canlı qüvvə ilə yardım edir, yaxınlarını müharibədə itirən rus ailələrinə maddi köməklik göstərir, onların torpaqlarının becərilməsində iştirak edirlər[41]. Almanların loyallığına baxmayaraq bəzi raportlarda rus əhalisinin onlara inam bəsləməməsi, xarici ölkə təbəələrinin quberniyadan çıxarılması və ümumiyyətlə rusların almanlara düşmən münasibətdə olması göstərilir[42]. Bütün bu raportlarla tanış olan Stavropol qubernatoru 14 mart 1916-cı il tarixdə Daxili İşlər Nazirliyinin 13 yanvar 1916-cı il tarixli teleqramına cavab hazırlayır. Bu məktubda əks olunan faktlarla yerlərdən, yəni – qəza ispravniklərindən alınan məlumatlar bir-birinə zidd xarakter daşıyırdı. Stavropol kolonistlərinin siyasi əhval-ruhiyyəsinə toxunan qubernator yazır ki, "onlar (almanlar – *İ.A.*) şübhəli elementlərdir, dövlətə qarşı, ruslara qarşı düşmən münasibətdədirlər. Onlara xas olan pangermanizm hisslərini açıq-açığına biruzə verməsələr də, ancaq arada bizim (yəni Rusiyanın – *İ.A.*) məğlubiyyətlərini məsxərəyə qoyurlar"[43]. Birinci Dünya müharibəsi illərində alman kolonistlərinin tarlalarında əsir düşmüş alman əsgərlərindən işçi qüvvəsi kimi istifadə olunurdu. Daxili İşlər nazirinə göndərilən bu məktubda qubernator qeyd edir ki, "alman kolonistləri əsir alman əsgərlərinə nəvazişlə, qayğı ilə yanaşdıqları halda, rus mənşəli qaçqınlarla kobud davranırlar"[44]. Qubernator alman kolonistlərini dövlət üçün zərərli bir element kimi qələmə verərək onların rus əhalisi arasında baptizm* ideyalarını yaydıqlarını qeyd edir. Onun fikrincə, müharibə şəraitində sektantlığın yayılması həm yerli əhaliyə, həm də yerli qarnizonun zabit və əsgər

* Xristian məzhəblərindən biri

heyətinə dağıdıcı təsir göstərir, onlarda mənəvi cəhətdən düşgünlüyün yaranmasına səbəb olur.

İctimaiyyət adından çıxış edən qubernator qonşu Kuban və Terek vilayətlərində olduğu kimi, Stavropol quberniyasında da almanlara məxsus təsərrüfatların ləğv edilməsi təklifini irəli sürür və göstərir ki, əgər hökumət bu qərarı qəbul etməsə, onda rus əhalisi özbaşına, zorakılıq yolu ilə almanların mülkiyyətinə sahib olacaqlar. Şübhəsiz, sonuncu proqnoz çoxsaylı əsgər məktublarının məzmununa əsaslanırdı – cəbhədə vuruşan rus əsgərləri evə döndükdən sonra alman kolonistlərinin əmlakını ələ keçirəcəkləri haqqında yazırdılar və hətta bu barədə Qafqaz canişinliyinə məlumat verilmişdi.

Məktubun sonunda Stavropol qubernatoru alman kolonistlərinin əmlakının müsadirə edilməsi və almanların deportasiya olunması haqqında zemstvo yığıncaqlarının da xahişlərini, müraciətnamələrini Daxili İşlər nazirinin diqqətinə çatdırır[45], alman kolonistlərinin torpaq mülkiyyətinin ləğvinə yönələn 02 fevral və 13 dekabr 1915-ci il tarixli qanunların Stavropol quberniyasında yaşayan almanlara da şamil edilməsini tövsiyə edir. Qubernator öz mövqeyini aşağıdakı faktlarla əsaslandırırdı:

1) ictimaiyyət və ictimai təşkilatlar alman təsərrüfatlarının köçürülməsinin tərəfdarıdır;

2) alman kolonistləri qaba, kobud, mədəniyyətsiz işçilərdir, onlar torpağı və ətraf rus əhalisini kobudcasına istismar etməkdən başqa heç nə düşünmürlər;

3) alman təsərrüfatlarının ləğvi və onların torpaqlarının yerli rus əhalisinə verilməsi ədalətin bərqarar olması kimi qiymətləndirilməlidir, çünki "torpağın əsil sahibləri" rus əhalisidir;

4) nəhayət, alman təsərrüfatlarının ləğvi Rusiyanın geosiyasi dövlət maraqlarına cavab verir, belə ki I Dünya müharibəsi başladıqdan sonra 12 avqust 1914-cü il tarixli fərmanla Stavropol quberniyası da həm hərbi, həm də mülki nöqteyi-nəzərdən Qafqaz canişinliyinə tabe etdirilmişdir və deməli "hərbi əməliyyatlar teatrında yerləşdiyindən, yuxarıda adı çəkilən qanunların burada tətbiqi mütləq xarakter daşıyır"[46].

Beləliklə, Stavropol qubernatoru knyaz Obolenski hesab edirdi ki, istər coğrafi, istərsə də iqtisadi cəhətdən Stavropol ərazisi qonşu

Qafqaz regionlarından əsaslı şəkildə heç nə ilə fərqlənmir və bu quberniyada "ləğvetmə" qanunlarının tətbiq olunmaması rus əhalisinin bir hissəsində narazılıq yarada bilər. Bu səbəbdən o DİN-dən xahiş edir ki, 02 fevral 1915-ci il qanunu Stavropol quberniyasına da şamil edilsin[47]. 1916-ci ilin sonlarında etnik almanlara qarşı yönələn "ləğvetmə" qanunları artıq Şimali Qafqazın bütün regionlarında, o cümlədən Stavropol quberniyasında tətbiq olunmağa başladı. Nəticədə alman, Avstriya, macar mənşəli kolonistlərin, xüsusi mülkiyyətçilərin, onların yaratdıqları nahiyə, kənd, icma cəmiyyətlərinin, həmçinin düşmən ölkə təbəələrinin əmlakı müsadirə olunurdu[48].

02 fevral 1915-ci il qanunu elan olunduqdan 1 il sonra cəmiyyətlərin, kooperativlərin, ayrı-ayrı şəxslərin daşınmaz əmlakının satışı və ya icarəsi haqqında bağladıqları müqavilədən irəli gələn hüquqları ləğv edilirdi. 13 dekabr 1915-ci il qanunu dərc edildikdən iki ay sonra isə Donda mövcud olan Fideokomisslərin mülkiyyət, varislik və yaxud nəslə görə şəxsi mülkiyyətə dair qərarları ləğv edilirdi[49].

1915-ci ildə qəbul edilən "ləğvetmə" qanunlarının icrasının mexanizmi aşağıdakı kimi idi: qanuna görə mülkiyyəti ləğv ediləcək torpaq sahiblərinin, cəmiyyətlərin, kooperativlərin siyahısı tərtib edilir, yerli quberniya və yaxud vilayət mətbu orqanı olan "Vedomosti" qəzetində dərc olunurdu. Bununla mülkiyyət sahibinə onun əmlakının müsadirə olunacağı barədə bir növ rəsmi xəbərdarlıq edilirdi. Qəzetdə elan dərc olunandan sonra 6 ay ərzində xarici ölkə təbəələri və 10 ay ərzində etnik almanlar könüllü şəkildə öz mülklərini satmalı idilər. Əgər ləğv ediləcək mülklər siyahısına torpaq sahibinin adı səhvən düşərsə, iddiaçı Ali Senata şikayətlə müraciət edə bilərdi.

Siyahıların tərtib olunması ilə əsasən daxili işlər orqanları, zemsto rəisləri, icma vasitəçiləri və nahiyə rəhbərliyi məşğul olduğundan, qəzetlərdə dərc olunan siyahılarda gös-tərilən faktlarla həqiqi vəziyyət çox vaxt uyğun gəlmirdi. Siyahıyaalma zamanı notarial kitablara müraciət olunmurdu, çünki belə siyahıların bir neçə gün ərzində tərtib olunması haqqında göstərişlər verilirdi və onların vaxtında tərtib olunması tələb olunurdu.

Elə hallar olurdu ki, bir neçə yerdə mülkə malik kolonistin torpaqları ayrı-ayrı yox, bir sahə şəkilində qeydə alınırdı ki, bu da sonralar münaqişəyə səbəb olurdu. Bəzən torpaq sahəsinin miqdarı düz göstərilmir, torpağın girov qoyulması faktı nəzərə alınmırdı.

Bu cür səhlənkarlıqlar satışa çıxarılan əmlakın realizə olunmasına əngəl törədirdi, çünki alğı-satqı üçün əsas götürülən sənəd tərtib olunmuş siyahı sayılırdı. Əgər siyahıda hansısa dəqiqsizlik olarsa, alğı-satqı əməliyyatı baş tutmurdu: əsas məqsəd alıcının maraqlarının müdafiə olunması və ona hüquqi nöqteyi-nəzərdən düzgün tərtib olunmuş əmlakın satılmasından ibarət idi.

Geniş torpaq sahələrinə malik olan kolonistlərin əmlakının qısa bir müddətdə siyahıya alınması, qiymətləndirilməsi və satışa çıxarılması əlavə işçi qüvvəsinə ehtiyac yaradırdı. Əmlakın siyahıya alınması və yubadılmadan, vaxtlı-vaxtında satışını təşkil edilməsi üçün evakuasiya olunmuş quberniyaların kadrlarından istifadə olunmağa başladı[50]. Əlavə işçilərin dəvət olunması, onların əmək haqqının ödənilməsi və almanlaın əmlakının satışı ilə bağlı bütün məsələlərin həllini Kəndli Torpaq Bankı öz üzərinə götürmüşdü. Bank öz nizamnaməsinə uyğun olmayan əmlakın alınmasından imtina etmək hüququna malik idi. Bankın alacağı əmlakın dəqiq xarakteristikası, mövcud olduğu yer, sahibinin adı yerli "Vedomosti" qəzetində dərc edilirdi. Bu cür siyahıların tərtib olunması ilə Baş notarius məşğul olurdu. O, əmlak, onun sahibi barədə məlumat toplayır və Banka, həmçinin quberniya idarəsinə göndərirdi. Satışa qoyulan əmlak haqqında arayış Banka daxil olduqdan sonra 3 ay ərzində Bankın idarə heyəti Quberniya idarəsinə əmlakı alıb-almaması haqqında məlumat təqdim etməli idi. Bankın ala biləcəyi əmlakın siyahıya alınması, qiymətləndirilməsi və hərracda satılmasının təşkil olunması ilə Quberniya idarəsi məşğul olmurdu.

"Ləğvetmə" siyahısına düşən əmlakın qiymətləndirilməsinin öz prosedurları vardı. Qiymətləndirmə ilə bağlı Bank şöbəsi iclas çağırırdı və iclasın vaxtı yerli "Vedomosti" qəzetində iclas başlamağa 1 ay qalmış dərc edilirdi.Əmlakı satışa qoyulan şəxsə xüsusi yazılı xəbər göndərilirdi. Onlar qiymətləndirmə prosesində iştirak etməsələr də iclas keçirilə bilərdi. Əmlak satıldıqdan sonra əmlak sahibinə çatan pul vəsaiti Baş notarius tərəfindən təsdiqlənirdi. Bu vaxtdan etibarən daşınmaz əmlak Bankın mülkiyyətinə keçmiş hesab olunurdu[51]. Əgər ümumi mülkdən ayrılan hissə girov qoyulmuşsa və yaxud əvvəlki sahibin bu sahə ilə bağlı müəyyən borcları varsa, bütün münaqişə yaradacaq məsələlər məhkəmə yolu ilə həll

edilirdi. Qeyd edək ki, bu məsələnin həllində borc alan tərəfin razılığı soruşulmurdu.Bankın məhkəməyə təqdim etdiyi proyektdə yeni əldə ediləcək torpaq sahəsinin borclarının ödənilməsi mexanizmi öz əksini tapmalı idi. Əldə etdiyi torpaq sahəsinin borclarının vaxtından əvvəl ödənilməsini Bank yalnız borcun ödənilməsi üçün nəzərdə tutulan xüsusi günlərdə həyata keçirə bilərdi[52].

Bütün Qafqaz regionu, əsasən də Şimali Qafqaz üçün aktual məsələlərdən biri "ləğvetmə" qanunlarının torpaq mülkiyyətinin satılması haqqında müddəalarına görə bu torpaq üstündə mövcud olan müxtəlif obyektlər, onların qiymətləndirilməsi, satılması məsələsi idi. Bu regionda almanlara məxsus çoxsaylı sənaye müəssisələri fəaliyyət göstərirdi ki, onların əksəriyyəti kənd təsərrüfatı məhsullarının emalı və tikinti materiallarının istehsalı ilə məşğul olurdular. Kənd yerlərində, almanların mülklərində ət və süd emal edən, şərab istehsal edən zavodlar, unüyüdən, kərpic, sement istehsalı ilə məşğul olan müəssisələr fəaliyyət göstərirdilər. Torpaq mülkü satılan zaman onun üstündəki sənaye müəssisəsi ayrıca obyekt kimi nəzərə alınmırdı. Torpağın və sənaye obyektinin birlikdə satılması onlardan birinin qiymətinin düşməsinə gətirib çıxarırdı. Belə ki, torpağı əkinçilik məqsədilə əldə edən alıcı üçün sənaye obyekti o qədər də əhəmiyyət kəsb etmirdi. Bu səbəbdən, getdikcə sənaye obyekti istifadəsiz qalır, dağılır, sıradan çıxır və yaxud əksinə, torpağı sənaye müəssisəsinə görə alan şəxs əkinəyararlı sahəni yararsız hala salırdı.

"Ləğvetmə" qanunlarına görə ləğv edilən daşınmaz əmlaka torpaq mülkiyyətindən savayı, mal, alınacaq borclar, sənaye müəssisələrinin aksiyalarındakı pay, 500 rubldan yuxarı dəyərdə veksel, qiymətli kağız, nağd pul şəkilindəki maliyyə vəsaitləri də daxil idi. Əgər bütün bu adı çəkilən mallar və pul vəsaitləri qiymətli metal və yaxud daş-qaş, zinət əşyalarına çevrilərsə, xüsusi komitə onların müsadirə olunması haqqında qərar verirdi.Ləğvetmə qanunlarına görə kolonistə yalnız mebel əşyaları, ailəsi üçün ərzaq ehtiyatı saxlamağa icazə verilirdi[53].

1917-ci ilin baharına kimi almanların daşınmaz əmlakının ləğvini planlaşdıran "Alman təzyiqinə qarşı mübarizə aparan Xüsusi komitə" bu prosesin ləng gedişindən narahatlıq keçirirdi. Çünki, Şimali Qafqazın 3 subyektində 1916-cı il ərzində almanlara məxsus

1888 torpaq mülkü ləğv edilməli idi və həqiqətdə onlardan yalnız 65-i "ləğvetmə" prosesinə məruz qalmışdı. 1917-ci ilin əvvəlinə verilən məlumatlara görə daha 92 təsərrüfat ləğv edilməliydi, bu dövr ərzində 108 alman təsərrüfatı ləğv edilmişdir. 1916–1917-ci illər ərzində Şimali Qafqazda ləğv olunası 1980 təsərrüfat qeydə alınsa da onların təqribən 11,4 faizi ləğv edilmişdir[54].

Kəndli Torpaq Bankının yerli şöbələri Şimali Qafqazın heç bir bölgəsində alman kolonistlərinin siyahıya alınan torpaq mülklərinin satın alınmasını, nəticə etibarı ilə ləğv olunmasını təşkil edə bilmədilər. Bütün Stavropol diyarında mövcud olmuş alman təsərrüfatlarının ümumi siyahısı təşkil edilmədi, hansı torpaq sahələrinə "ləğvetmə" qanunlarının şamil edilməsi, torpaq mülklərindəki sənaye obyektlərinin siyahısı, onların ümumi torpaq mülkündən necə ayrılması, geniş yayılmış Fideokomisslərin sahibləri tam aydınlaşdırılmadı. Yuxarıdakı rəqəmlərdən aydın olur ki, Terek vilayətində 1916-cı ilin avqust-noyabr ayları ərzində cəmi 4 təsərrüfat ləğv edilmişdi. "Ləğvetmə" qanunlarının yerinə yetirilməməsinin əsas səbəbləri bundan ibarət idi ki, alman təsərrüfatları ləğv olunacaq təsərrüfatlar siyahısına düşsə də onların Kəndli Torpaq Bankı və yaxud ayrı-ayrı fiziki şəxslər tərəfindən satın alınması müəyyən maneələr ucbatından baş tutmurdu. "Ləğvetmə" prosesində Bank qarşısında duran ən birinci maneə baş notariuslar tərəfindən mülkün satış qiymətinin təsdiq olunmaması idi[55].

Apardığımız tədqiqatlar göstərir ki, Şimali Qafqazda təqribən 2000-ə yaxın alman təsərrüfatı ləğv edilməli idi. Yəni, artıq bu təsərrüfatların əmlakı siyahıya alınmış, qiymətləndirilmiş, açıq satışa çıxarılmış, amma alıcıların olmaması ucbatından satılmamışdır. Bunun da əsas səbəbi hüquqi-normativ sənədlərin qeyri-yetkin olması, ləğvetmə məqsədilə satışa çıxarılan əmlak haqqında müxtəlif əlavə tamamlayıcı və dəqiqləşdirici sənədlərin tələb olunması və sair kimi bürokratik maneələr idi.

Əmlak müsadirə edildikdən sonra kolonistlər mütləq öz yaşayış yerlərindən köçürülməli idi. Rusiyaya düşmən ölkələrdən gəlmiş və əmlakı müsadirə olunmuş kolonistlərə, ümumiyyətlə bütün xarici ölkə təbəələrinə region daxilində azad şəkildə yaşayış yerlərini dəyişməyə icazə verilmirdi. Ancaq Şimali Qafqaz almanlarının de-

portasiyası təqdirində, onların yerləşdiriləcəyi yeni regionlar təyin olunmamışdı. Qəza rəisləri alman ailələrini rus əhalisi arasında dispersiya* şəkilində yerləşdirməyi təklif edirdilər və onların fikrincə "bu tədbir ruslarla almanlar arasında rəqabətin güclənməsinə deyil, rus kəndlisini almanın mənfi təsirindən qorumaq məqsədinə, yəni bir növ almanları rusların nəzarətində saxlamaq işinə xidmət edəcəkdir"[56].

Kolonist kütlələrinin fikirincə, Rusiya dövləti öz alman mənşəli təbəələrinin maraqlarını həmişə müdafiə etmişdir, "ləğvetmə" qanunları isə anlaşılmazlıq kimi qəbul edilməlidir və inana bilmirdilər ki, Rusiya öz sadiq vətəndaşlarına qarşı bu cür düşmənçilik siyasəti yeridər[57].

Əmlakının müsadirəsini ədalətsizlik hesab edən kolonistlər fərdi və kollektiv şəkildə xahişnamələr yazırdılar[58]. Fərdi xahişlər İmperatorun adına göndərilə bilərdi. Bu məktub-xahişnamələrə çoxsaylı vəsiqələr, qəbzlər, təqdimatlar və sair sənədlər əlavə olunurdu. Rəsmi şəkildə Daxili İşlər Nazirliyi tərəfindən blank-anket tərtib olunmuşdu və bu anket "alman mənşəli şəxs haqqında məlumat" adlanırdı. Anketdə 22 sual qoyulurdu və sorğuya məruz qalan bu suallara cavab verməli idi. Bu anketi dolduran zaman reprospondet aşağıdakı məzmunlu suallara cavab verməli idi: "Harada və nə vaxt anadan olmuşdur?", "Hansı xalqa məxsusdur?", "Hansı dinə mənsubdur?", "Haradan və hansı səbəbə Rusiyaya gəlmişdir?", "Rusiya şəraitinə uyğunlaşmışdırmı?", "Ruslara münasibəti necədir?", "Rus dilində yazıb oxuya bilirmi?" və sair[59].

Yerli dövlət orqanlarına inamlarını itirdiklərindən, alman kolonistləri Rusiyanın qanunverici orqanı – Dövlət Dumasına müraciət etməyi üstün tuturdular. Don vilayətinin Rovnopol, Bişlerovka, Çepeliyevka, Petropavlovka, Novaya Nadejda, Novikovka, Jirovka, Rostovka koloniyalarının sakinləri Dövlət Dumasına məktub-xahişnamə göndərdilər. Bu məktubda deyilirdi: "Rus təbəəliyini və sadiqlik andını qəbul edərək, biz yerli əhali ilə çiyin-çiyinə hərbi mükəlləfiyyətləri yerinə yetiririk və Rus imperatoruna içdiyimiz anda qarşı çıxmaq heç vaxt ağlımıza belə gəlməmişdir. Əksinə, bizlərdən çoxu, xüsusən də indiki müharibədə fərqlənmiş, cəsurluq və igidliyə görə döyüş medalları ilə mükafatlandırılmışlar"[60]. Mək-

* Parçalanmış, dağılmış halda

tubda daha sonra qeyd olunurdu ki, alman kolonistləri Don vilayətində məskunlaşaraq bu diyarda kənd təsərrüfatının inkişafına müsbət təsir göstərdilər, yerli əhaliyə yeni təsərrüfatçılıq metodları aşıladılar, rus mədəniyyətinə, rus dilinə biganə qalmadılar və bunun nəticəsidir ki, artıq bir çox alman gəncləri hətta öz ana dili – alman dilini yaddan çıxarmışlar. Kolonistlər deputatlara müraciət edərək göstərirdilər ki, 02 fevral və 13 dekabr 1915-ci il qanunlarına görə onların daşınmaz əmlakı siyahıya alınır və ləğv edilir.Bu cür münasibətə layiq olmadıqlarını vurğulayan kolonistlər, "ləğvetmə" qanunlarının onların təsərrüfatlarında tətbiqinin sosial-iqtisadi nəticələrindən yazaraq, Dövlət Duma sının deputatlarından kömək diləyir və onlara layiq olmadıqları bu cəzadan qurtulmaqda dəstək olmağı xahiş edirlər[61].

Almanlara qarşı ayrı-seçkilik xarakterli tədbirlər Dövlət Dumasının iştirakı ilə həyata keçirilirdi və kolonistlərin Dövlət Dumasına müraciətləri cavabsız qalırdı. Müharibə illərində aybaya Rusiyanın alman əhalisinə qarşı yeni-yeni cəza tədbirləri tətbiq edilirdi. Jandarm və polis idarələri güman edilən gizli alman cəmiyyətlərinin, təşkilatlarının axtarışını daha da fəallaşdırırdı. Rəsmi dairələrin fikrincə, Rusiya ərazisində bu cür təşkilatlar yetərincə idi və onlar guya ki, daxildə, gizli şəkildə Rusiya hökumətinə qarşı mübarizə aparır, müharibədə Rusiyaya müttəfiq olan ölkələrdə rusların nüfuzdan salınmasına yönələn təbliğat aparırdılar. Bir sıra kütləvi informasiya vasitələrinin, Dövlət Dumasının deputatlarının, məmurların guya alman lobbisi tərəfindən satın alınması, onların təzyiqi ilə germanofil mövqeyə sürüşməsi haqqında rəylər söylənilir və ölkədə baş alıb gedən germanofil qüvvələr qarşısında sədd çəkilməsinin vacibliyi vurğulanırdı. Güc strukturlarının fikrincə, Rusiyada almanpərəst ideologiyanın daşıyıcıları, ən fəal təbliğatçıları yevangelist-lüteran kilsə təşkilatları və protestant din xadimləri idi. Belə bir fikrin yürüdülməsi ona əsaslanırdı ki, protestant din xadimləri Rusiya almanlarının bu faciəli günlərində xalqa mənəvi dayaq olan yeganə qüvvə idi və pastorlar koloniyadan-koloniyaya gəzərək kolonistlərə ürək-dirək verir, öz tərəfdarlarına səbirli olmağı tövsiyə edir, onların Rusiya dövlətinə qarşı heç bir satqınlıq etmədiklərini göstərir, lüteranlığa həmişə sadiq qalmağa çağırırdı[62].

Lüteran kilsəsinin fəaliyyəti çar hökumət dairələrinin siyasətinə uyğun gəlmirdi və tezliklə din xadimlərinə qarşı repressiyalar başladı[63]. Yevangelist-lüteran kilsəsinin Baş konsistoriyası protestant din xadimlərinin müdafiəsinə qalxdı. Onun yaydığı bəyanatda deyilirdi ki, lüteran kilsə xadimləri arasında bir nəfər də olsun xain yoxdur. Bu vaxta qədər heç bir lüteran din xadimi mülki və yaxud hərbi səhra məhkəməsinə cəlb olunmamış, yalnız bir neçə hallarda bəzi pastorlar inzibati qaydada Sibirə sürgün edilmişlər.

Lüteran din xadimləri ilə yanaşı, Şimali Qafqaz koloniyalarında yaşayan baptistlər, ştundistlər* və sair protestant dini cərəyanları təqiblərə məruz qalır, onların dini fəaliyyətinə siyasi don geyindirmək cəhdləri edilirdi. Ənənəvi olaraq başqa protestant təriqətlərinə nisbətən çar hökumət dairələri mennonitlərə loyal yanaşırdılar və bununda səbəbi mennonitlərin spesifik həyat tərzi, əxlaq etalonu, etnik mənsubiyyəti ilə bağlı idi.Almaniyada 1525-ci ilin Kəndli müharibəsi dövründə Simon Mennon tərəfindən əsası qoyulan mennonitlər icmasının üzvləri əsrlərlə təcrid şəkildə yaşamış və bu səbəbdən ümumi alman etnosundan həm adət və ənənə, həm də linqvinistik cəhətdən fərqləndirici xüsusiyyətlərə malik olmuşlar. XVIII əsrin II yarısından, yəni Rusiyaya köçdükləri vaxtdan rus çarları onlara xüsusi diqqətlə yanaşmış, onları yerdə qalan alman kolonistlərindən fərqləndirmişlər. Elə bu səbəbdən Birinci Dünya müharibəsinin ilk illərində “antialman kampaniyasının” tədbirləri mennonitlərə şamil edilmirdi.

Qaragühurçu mətbuat orqanlarının və ictimaiyyətin təzyiqləri nəticəsində 01 yanvar 1917-ci il tarixdə çar II Nikolay mennonit-kolonistlərin torpaq mülkiyyətinin ləğvi məsələsinə yenidən baxılması haqqında ədliyyə naziri N.A.Dobrovolskiyə göstəriş verdi. Beləliklə, Şimali Qafqazda mövcud olan mennonit koloniyalarında da “ləğvetmə” mexanizmi işə salındı[64].

“Antialman kampaniyası”nın həyata keçirilməsi mərhələli xarakter daşıyırdı və bu daha çox almanların yığcam yaşadığı regionların geosiyasi vacibliyi ilə sıx bağlı idi. İmperiyanın qərb quberniyalarında “ləğvetmə” tədbirlərinin hələ 1914-cü ilin ortalarından başlaması, şübhəsiz ki, bu ərazilərin müharibə teatrına çevrilməsi,

* Xristian məzhəblərindən biri

Avstriya-Macarıstan, Almaniya ordularının Rusiyanın qərb ərazilərini ələ keçirmək cəhdlərindən irəli gəlirdi. İmperiyanın cənub quberniyalarına münasibətdə çar hökumətinin "antialman" siyasəti bir qədər fərqli motivlərlə izah olunur. Qara dəniz sahili, Şimali Qafqaz, Cənubi Qafqaz quberniyalarında alman kolonistlərinə məxsus yüksək inkişaf etmiş kənd təsərrüfatı vardı və bu təsərrüfatları ləğv etməklə, alman təsərrüfatlarında cəbhədən qayıdan aztorpaqlı və torpaqsız kəndliləri yerləşdirməklə mövcud sosial gərginliyin nisbətən azaldılması planlaşdırılırdı.

Bu nöqteyi-nəzərdən Cənubi Qafqazda Birinci Dünya müharibəsi ərəfəsində mövcud olan 27 alman koloniyası müəyyən maraq doğurmaya bilməzdi. Müharibə illərində çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı ayrı-seçkilik siyasətinin səbəbləri haqqında müxtəlif fikirlər söylənilmişdir. Gürcü tədqiqatçısı Q.X.Mandjqaladze öz əsərlərində araşdırdığımız problemə toxunaraq sübut etməyə çalışmışdır ki, çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı ayrı-seçkilik siyasəti almanların Rusiyanın maraqlarına zidd fəaliyyət aparması ilə izah oluna bilər. Q.X.Mandjqaladze Böyük Vətən müharibəsinin ən ağır çağlarında – 1942-ci ildə Xalq Daxili İşlər Komissarlığının əməkdaşları İ.Nikitinski və P.Sofinov tərəfindən sırf təbliğat məqsədilə yazılmış əsərlərə istinadən qeyd etmişdir ki, guya Cənubi Qafqaz almanları hələ I Dünya müharibəsi ərəfəsində və müharibə illərində Almaniya kəşfiyyatının tapşırıqlarını yerinə yetirirdilər, "rus ordusunda xidmətdən yayınır, bilərəkdən kənd təsərrüfatında, sənaye müəssisələrinin fəaliyyətində sabotajlar yaradır, cəbhə üçün lazımi əmlakı hökumət dairələrindən gizlədir və sair düşmənçilik aktlarında iştirak edirdilər"[65].

Rusiyalı tədqiqatçılar almanlarının tarixinə həsr olunmuş məqalələrdə çarizmin "antialman" siyasətinin sırf iqtisadi amillərlə bağlılığı vurğulayırlar[66].

"Ləğvetmə" qanunlarının tətbiqi regionlarda müxtəlif xüsusiyyətlərə malik idi və bu spesiflik regionlara xas olan coğrafi, etnososial, konfessional və sair amillərlə izah olunurdu.

Bunun nəticəsidir ki, müharibənin ilk aylarında Cənubi Qafqaz almanlarına qarşı çar hökuməti tərəfindən ayrı-seçkilik xarakterli addımlar atılmamışdır. Hətta Qafqaz səfəri zamanı çar II Ni-

kolay alman kolonistlərinə də öz ehtiramını nümayiş etdirdi. Belə ki, 14 noyabr 1914-cü il tarixində çar II Nikolay Tiflisə gəldi və əhali qarşısında çıxış edərək bu ağır günlərdə çara sadiqlik nümayiş etdirdiklərinə görə öz təbəələrinə, əsasən də müsəlman əhalisinə minnətdarlığını bildirdi.

Rusiyanın Qərb, Baltikyanı, Qara dəniz sahili, Şimali Qafqaz quberniyalarına aid olan 02 fevral 1915-ci il "ləğvetmə" qanunu Cənubi Qafqaz almanlarından yan keçsə də qabaqlayıcı tədbir kimi burada da alman koloniyalarının adlarının dəyişdirilməsi məsələsi gündəmə gəldi. Quberniya rəsmi dairələrinə göstəriş verilmişdir ki, hər bir koloniyanın yaranma tarixi araşdırılsın və onların adları elə dəyişdirilsin ki, pangermanizm meyilləri ləğv edilməklə yanaşı, rus çar ailəsinə, İmperatora sədaqətlilik ənənələrinə zərbə vurulmasın. Bütün bunları nəzərə alaraq Qafqaz rəsmi dairələri 1914-cü il 15 oktyabr tarixli qanunun 115-ci, 242-ci, 243-cü və 345-ci maddələrinə və Qafqaz canişininin göstərişinə əsaslanaraq rəsmi qərar qəbul edirlər. 09 fevral 1915-ci il tarixdə qəbul edilmiş 261 saylı qərara görə Yelenendorf koloniyasının adı dəyişdirilərək Yeleneno, Annenfeld–Annino, Eygenfeld–Petrovka, Georqsfeld–Georgiyevskoye, Qrünfeld–Zelyonaya Polyana, Traubenfeld–Vinoqradnoye Pole adlandırıldılar[67].

Hələ 07 noyabr 1915-ci il tarixdə Qafqaz canişini 8505 saylı sərəncamı ilə bütün Qafqaz diyarının quberniyaları, vilayətləri və dairələrində mövcud olan alman koloniyalarına hökumət tərəfindən starşinaların və mirzələrin təyin olunması, onların koloniya əhalisi hesabına saxlanılması haqqında göstəriş vermişdi[68]. Artıq noyabrın ikinci yarısında Cənubi Qafqaz koloniyalarına hökumət starşinaları və mirzələr təyin olundular. Onların əsas vəzifəsi koloniya əhalisi üzərində nəzarət etmək, onların Rusiya hökumətinə qarşı hər hansı bir düşmənçilik hərəkətlərinin qarşısını almaq idi və əsasən bu vəzifələrə rus mənşəli şəxslər təyin olunurdular. 02 fevral 1915-ci il tarixdə qəbul edilən "ləğvetmə" qanunu Cənubi Qafqaza şamil edilsə də, 1916-cı ilin əvvəllərinə qədər bu regionda "ləğvetmə" qanunlarının tətbiqi ilə bağlı heç bir əməli tədbir həyata keçirilməmişdi. Yalnız 13 oktyabr 1915-ci il tarixdə 02 fevral 1915-ci il qanununa bəzi əlavələr və dəyişikliklər edildikdən sonra Cənubi Qafqazda da

alman kolonistlərinin təsərrüfatları siyahıya alınmağa başladı. Bu haqda Daxili İşlər nazirinin 03 yanvar 1916-cı il tarixdə imzaladığı 02 saylı sərəncamda qeyd olunurdu[69]. Bu sərəncamda göstərilirdi ki, 1915-ci il 02 fevral və həmin ilin 13 dekabr tarixdə qəbul edilmiş qanunlara görə Avstriya, alman və macar mənşəli təbəələrin daşınmaz əmlakı ləğv edilməlidir. 02 fevral 1915-ci il qanununun 4-cü maddəsi üzrə müəyyən hüquqlara malik olan hər hansı bir kolonistin torpaq sahəsi ümumi torpaq payına daxil idisə və bu sahənin sərhədləri dəqiq göstərilməmişdirsə, həmin şəxs öz sahəsini özününküləşdirə bilməzdi[70]. Kolonist mülklərinin siyahıya alınması ilə kənd icmalarının starşinaları məşğul olurdular. Onlara kömək məqsədilə yerli əhali arasından könüllülər seçilirdi və onlar ləğv ediləcək mülkün dəyərinin təyin olunması ilə məşğul olurdular. Siyahıyalma prosesi mütləq qəza rəisinin və yaxud müvafiq pristavların iştirakı ilə keçirilirdi. Siyahıyalma zamanı mülk sahibləri torpağın kupçası*, planı və sair sənədləri təqdim etməli idi. Koloniya starşinası torpaq sahəsində mövcud olan bütün canlı və cansız inventarı, yəni iribuynuzlu mal-qaranı, qoşqu atlarını, kənd təsərrüfatı alətlərini, emal obyektlərini, tədarük olunmuş məhsulu və sair əmlakı qeydə alırdı[71]. Ayrı-ayrı sahibkarların, cəmiyyətlərin, kooperativlərin, kolonistlərin əmlakı ayrılıqda göstərilməli idi. Əgər hər hansı bir şəxs bir neçə yerdə torpaq sahəsi, üzüm bağı, malikanə və yaxud bağ-evinə malik olardısa, onların hamısı ayrı-ayrılıqda qeydə alınırdı və qiymətləndirilirdi[72]. Bundan sonra ləğv ediləcək təsərrüfatların siyahısı yerli "Vedomosti" qəzetində dərc edilirdi. Azəbraycan Respublikasının Dövlət Tarix arxivində alman koloniyalarına qarşı "ləğvetmə" qanunlarının tətbiqi barədə şoxsaylı sənədlər saxlanılır. Məsələn, "Yelisavetpolskiye qubernskiye vedomosti" qəzetinin 04 mart 1916-cı il tarixdə çıxan 17 saylı nüsxəsində "Rusiya ilə vuruşan dövlətlərin təbəələrinin, həmçinin alman, Avstriya, macar mənşəli şəxslərin torpaq sahibliyi və torpaqdan istifadəsi haqqında 02 fevral 1915-ci il qanununa dəyişikliklərin və əlavələrin edilməsi haqqında" 13 dekabr 1915-ci il qanununu əsas tutaraq Yelizavetpol quberniyasının Georgiyevskoye koloniyası üzrə alman mənşəli şəxslərin ləğv ediləcək daşınmaz əmlakının siyahısı verilmişdi. Bu siyahıda

* Mülk kağızı

həyətyanı torpaq sahəsi, üzüm bağları, əkin sahələri və otlaq sahələri göstərilirdi. Sənəddən görünür ki, Georgiyevskoye koloniyasında pay torpaqlarının 3733 desyatini*, şəxsi mülkiyyətdə olan torpaqların isə 863 desyatini ləğvetmə siyahısına düşmüşdü[73]. Qəzetin həmin sayında Yeleneno (keçmiş Yelenendorf) koloniyasında yaşayan alman mənşəli kolonistlərin ləğv ediləcək daşınmaz əmlakının siyahısı verilmişdi. Siyahıya görə bütövlükdə koloniyada pay torpaqlarına aid olan 6695 desyatin 600 kv.sajen** və şəxsi mülkiyyətdə olan 2 desyatin 173 kv. sajen torpaq sahəsi ləğv edilməli idi[74]. Göstərilən qəzetdə ləğv ediləcək torpaq sahəsinin miqdarı və kateqoriyası verilsə də, torpaq sahiblərinin, cəmiyyətlərin adları verilməmişdi. Adını çəkdiyimiz qəzetin 1916-cı il 08 mart tarixində dərc edilən 20-ci nömrəsində Yeleneno koloniyasında daşınmaz əmlakı ləğv ediləcək torpaq sahiblərinin, ayrı-ayrı cəmiyyətlərin adları və ləğv ediləcək əmlakın miqdarı göstərilir. Sənəddən görünür ki, Yeleneno koloniyası üzrə ümumilikdə 3383 desyatin torpaq ləğv edilməli idi[75]. Torpaq əmlakı "ləğvetmə" siyahısına düşən şəxs bu haqda qəzetdə elan verildikdən sonra 10 ay müddətində könüllü olaraq əmlakını bu əmlakı əldə etmək hüququna malik şəxslərə sata bilərdi. Əgər bu müddət ərzində o, əmlakını satmazdısa, onda həmin əmlak məcburi şəkildə satılırdı.Yuxarıda qeyd etdiyimiz kimi kolonistlərin əmlakının potensial alıcısı rolunu Kəndli Torpaq Bankı oynayırdı. Yelizavetpol qubernatorunun 31 mart 1916-cı il tarixli sərəncamında Quberniya polis rəisinə göstəriş verilirdi ki, alman kolonistlərinin ləğv ediləcək mülklərinin siyahısı dərc olunan "Vedomosti" qəzetinin mart ayında çıxan bütün nömrələri əhalinin kütləvi toplaşdığı yerlərdə yayılsın ki, əhali planlaşdırılan alğı-satqı tədbirlərindən xəbərdar olsun[76]. Yelizavetpol quberniyasının rəsmi orqanlarının göstərişi ilə hərracın günü, saatı və keçiriləcəyi yer əvvəldən təyin olunurdu. Məsələn, Annino koloniyasında hərracın 1917-ci ilin martın 9-da, Georgiyevskoye koloniyasında isə martın 10-da saat $11^{00}$ keçirilməsi qərara alınmışdı[77]. Hərracın keçirilməsi qaydasına görə satışa çıxarılacaq əmlak haqqında hərtərəfli məlumatları əks etdirən sənədlər quberniya idarəsinə təqdim edilirdi. Burada əmlakın hara-

* 1,092 hektara bərabər yer ölçüsü

** 2,134 metrə bərabər uzunluq ölçüsü

da yerləşməsi, həqiqi sahibi, onun kim tərəfindən və nə vaxt əldə edilməsi, girova qoyulub qoyulmaması haqqında məlumat, girova qoyulubsa, məbləğin miqdarı, əmlakın dəyəri və əmlak haqqında sənədlərin tərtibinə çəkilən xərcin miqdarı, torpaq sahəsində hansı sənaye və sair xarakterli obyektlərin olması və qiyməti göstərilirdi. Bundan başqa torpaq sahəsinin torpaqdan və zemstvo vergisindən qalan ümumi borcu aydınlaşdırılırdı. Mülkü əldə etmək istəyən şəxs quberniya idarəsində bazar və bayram günlərindən savayı, hər gün saat $10^{00}$-$14^{00}$-dək mülkə aid sənədlərlə tanış ola bilərdi. Əgər mülk hərracda satılmazsa, iki həftə ərzində təkrar hərracın təşkil edilməsi nəzərdə tutulurdu.

Təyin olunmuş müddətdə satılmayan əmlakı əldə etmək məqsədilə Kəndli Torpaq Bankının Zaqafqaziya şöbəsi quberniya idarələrinə təqdim edilən sənədlərlə tanış olur və alğı-satqı əməliyyatı zamanı Bankın səlahiyyətli nümayəndəsinin iştirakı ilə bütün satışa çıxarılan mülklərin sənədlərini – kupçaları, planları və sair sənədləri bir daha yoxlamadan keçirirdi. Koloniyalara 1915-ci ilin payızından hökumət tərəfindən təyin edilən kənd starşinaları bu işdə Bank işçilərinə yaxından kömək edirdilər[78].

Elə hallar olurdu ki, "Vedomosti" qəzetində çap olunan siyahılara, haqqında bütün lazımi sənədlər hələ tam şəkildə toplanılmamış mülklər düşürdü.Bu səbəbdən Bank belə mülklərin satın alınmasından imtina edirdi. Kəndli Torpaq Bankının Zaqafqaziya şöbəsi sədrinin Yelizavetpol quberniyasının rəsmilərinə göndərdiyi məktubda satışa çıxarılan mülklərin çoxunun planının olmamasından şikayət edilirdi və bu səbəbdən bu tip mülklərin qiymətləndirilməsinin mümkün olmaması göstərilirdi[79]. "Ləğvetmə" qanunlarının ləng həyata keçirilməsinin səbəblərindən biri də yerlərdə kolonistlərin süni maneələr yaratması idi. Yüz ildən çox Rusiya təbəəliyində olan almanlara qarşı bu qanunların tətbiqini kolonistlər tarixi ədalətsizlik kimi qəbul etdilər və 1916-cı ilin iyununda Yeleneno koloniyasında bütün Cənubi Qafqaz almanlarının nümayəndələrinin iştirakı ilə gizli müşavirədə "ləğvetmə" tədbirlərinin həyata keçirilməsinə hər vasitə ilə maneəçilik törədilməsi qərara alındı.

Hüquqlarını pozulmuş hesab edən alman kolonistləri şikayət yazdılar və bu şikayət hələ 1912-ci ilin sentyabrında Yelenendorf

koloniyasının iclasında səsçoxluğu ilə koloniyanın müvəkkili seçilmiş Teodor Henrixoviç Hummel tərəfindən Ali Senata göndərildi[80]. Şikayətdə qeyd olunurdu ki, Rusiya ilə vuruşan dövlətlərin təbəələrinin, həmçinin Avstriya, macar və alman mənşəli şəxslərin torpaq sahibliyi və torpaqdan istifadəsi haqqında 02 fevral 1915-ci il qanununa dəyişikliklərin və əlavələrin edilməsi haqqında 13 dekabr 1915-ci il tarixdə təsdiq edilən, Nazirlər Sovetinin xüsusi jurnalında dərc olunan qərarın müddəaları Yeleneno koloniyasında yaşayan almanlara şamil edilməməlidir. Şikayətçilərin fikrincə,Yelenenoda yaşayan almanlar Rusiya imperiyasına Almaniya təbəələri kimi deyil, Vürtemberq krallığının sakinləri kimi imperator I Aleksandr tərəfindən şəxsən dəvət olunmuşlar. Rusiya hökumətinin çağırışı ilə Qafqaza köçən kolonistlər onların qarşısında qoyulan bütün vəzifələri ləyaqətlə yerinə yetirmiş, kənd təsərrüfatının inkişafında, yerli sənayedə nəzərəçarpacaq nəticələr əldə etmişlər. Şikayətnamədə vurğulanırdı ki, kolonistlər dövlət büdcəsinə ildə 1 milyon 600 min rubl vergi ödəyirlər, həmçinin müharibə şəraitində cəbhəyə maddi yardım göstərir, arxa cəbhədə xeyriyyəçiliklə məşğul olurlar. Kolonistlər hesab edirdilər ki, 02 fevral və 13 dekabr 1915-ci il qanunları onların koloniyasına şamil edilməməlidir, belə ki, onlar ikili təbəəliyə malik deyillər və artıq 100 ilə yaxındır ki, yalnız rus imperatoruna sadiqcəsinə xidmət edirlər. Şikayətnamənin sonunda kolonistlər ümid etdiklərini bildirirlər ki, onların torpaq mülkiyyətinin ləğvi haqqında Yelizavetpol quberniya idarəsinin elanları anlaşılmazlıqdır və Ali Senat bu məsələnin ədalətli həllində onlara kömək edəcək, onların daşınmaz əmlakı ləğv ediləcək torpaq mülklərinin siyahısın- dan çıxarılacaqdır. 12 mart 1916-cı ildə Ali Senata göndərilən bu şikayətnaməyə 200 kolonist ailəsinin nümayəndəsi imza atmışdır[81].

06 aprel 1916-cı il tarixində T.H.Hummelin adından Ali Senata arayış göndərilir və şikayətnaməyə daha 19 nəfərin qoşulduğu göstərilir[82].

1916-cı ilin 14 iyun tarixində kolonistlərin şikayətinə rəsmi cavab göndərildi. Cavabda deyilirdi ki, şikayətin Ali Senatda müzakirəsi senatın yaradılması və fəaliyyəti haqqında qanunun pozulması olardı. Belə ki, şikayətə əvvəlcə aşağı instansiyalar baxmalıdır və ondan sonra onun Ali Senata göndərilməsi mümkün ola bilər[83].

Üçüncü il davam edən müharibə iqtisadi həyatın pozulmasına, ərzaq qıtlığına, qiymətlərin 300-500 faiz artmasına gətirib çıxardı. 1916-cı ilin yayında İrandan Qafqaz ərazisinə çəyirtkə basqını bütün məhsulu məhv etmişdi ki, bu da ərzaq probleminin daha da kəskinləşməsinə səbəb oldu[84]. Nəticədə, quberniyalar və vilayətlər arasında mövcud ticarət əlaqələri zəiflədi, belə ki, nəinki quberniyalar arası, hətta qəzadan-qəzaya müəyyən malların aparılmasına əngəllər yarandı[85]. Qafqaz əhalisinin, o cümlədən, almanların maddi vəziyyəti ildən-ilə ağırlaşırdı.

Qafqaz cəbhəsində hərbi əməliyyatların aparılması ilə bağlı sənaye istehsalı, ticarətlə məşğul olan müəssisələrin fəaliyyətinə məhdudiyyətlər qoyuldu. Məsələn, Qafqaz Hərbi Dairəsindən kənara dəri xammalı aparan fiziki şəxsləri 3 ay həbs və yaxud 3000 rubl cərimə gözləyirdi[86]. Yuxarıda adı çəkilən "Ümumrusiya zemstvo ittifaqının" səlahiyyətləri o qədər böyük idi ki, Qafqaz Hərbi Dairəsində bir sıra strateji mallarla ticarət əməliyyatlarının aparılması hüquqlarına yalnız bu təşkilat layiq görülmüşdü[87]. Qafqazın alman koloniyalarının əsas məşğuliyyət və gəlir mənbələrindən biri üzümçülük və şərabçılıq idi. Müharibə şəraiti ilə bağlı koloniyadaxili spirtli içkilərin – arağın, konyakın və sair içki növlərinin azad satışı qadağan olunmuşdu ki, bu da şərabçılıqla, üzümçülüklə məşğul olan təsərrüfatların tənəzzülünə gətirib çıxarırdı[88].

Sənaye müəssisələrinin fəaliyyətində yaranan durğunluq yerli hakimiyyət orqanlarının diqqətini sənətkarlığın dirçəlməsinə yönəltməyə məcbur etdi[89]. Alman koloniyalarında mövcud olan sənətkarlıq sexləri, əsasən də furqon istehsal edən sənətkarlar dövlət sifarişlərini yerinə yetirərək cəbhə üçün müxtəlif funksiyalı arabalar hazırlayırdılar[90].

Alman "təzyiqinə" qarşı mübarizə nəinki nailiyyətlərə gətirdi, əksinə Rusiya iqtisadiyyatına, əsasən də kənd təsərrüfatına güclü zərbə vurdu. Artıq 1916-cı ilin yazında alman kolonistlərinin, "ləğv edilmiş" sahələrinin əksəriyyəti istifadəsiz qalmışdı.

Rəsmi orqanların hesablamalarına görə "ləğvetmə" qanunlarının həyata keçirilməsi nəticəsində Kəndli Torpaq Bankının fonduna 2 mln. desyatin torpaq sahəsi keçməli idi[91]. Nəticədə təqribən iki il əzində bütün Rusiya üzrə Kəndli Bankı cəmi 431 mülk aldı ki, onların sahəsi 144984 desyatin təşkil edirdi.Bu torpaqların əldə

edilməsinə Bank 22471533 rubl xərcləmişdi ki, bu da 1 desyatin torpağın 155 rubla başa gəldiyini göstərir. 726 mülkün alınmasından Bank imtina etmişdi ki, bunun da əsas səbəbləri torpaq mülkünün sənədlərinin qaydada olmaması, torpağın girov qoyulması, vergi borclarının möcudluğu və sair amillər idi[92].

Arxiv sənədlərindən görünür ki, istər Şimali, istərsə də Cənubi Qafqazda "ləğvetmə" qanunlarının tətbiqi alman təsərrüfatlarının inkişaf ritmini pozdu, siyasi sabitsizlik nəticəsində minlərlə təsərrüfatlar öz əkin sahələrini azaltdılar, almanlara məxsus əkin sahələri getdikcə yararsız hala düşdü.Müsadirə edilmiş alman torpaqlarına çoxsaylı müştərilərin tapılacağı barədə çar hökumətinin proqnozları özünü doğrultmadı.

Çarizmin apardığı antialman siyasəti, xüsusi komitənin fəaliyyəti alman torpaq sahiblərində qorxu və narahatçılıq yaratdı: onların çoxu Rusiyanı tərk etmək haqqında düşünürdülər. Bu dövrdə Avropa və Amerikada Rusiya almanlarının bu ərazilərə köçürülməsi ilə məşğul olan təşkilatlar fəallaşdılar. Onlardan ən fəalı "Kanada Sakit Okean Dəmir Yolu Cəmiyyəti" kompaniyası Rusiya almanları arasında təbliğata başladı.Kompaniyanın mülkiyyətində Kanadada 9 mln.desyatin boş, əhalisiz torpaq sahəsi var idi və onlar almanları bu torpaqlara köçməyə dəvət edirdilər. Ayrı-ayrı məmurlar almanların Kanadaya köçürülməsində vasitəçilik etməyə hazır olduqlarını bildirdilər və Nazirlər Sovetinə bu işi təşkil etmək üçün xüsusi kontorun yaradılmasını təklif edirdilər. Lakin Nazirlər Soveti almanların Rusiyadan köçürülməsi haqqında irəli sürülən təklifləri rədd etdi[93].

Çar hökumət dairələrində yaranmış vəziyyətdən çıxış yolu axtarılırdı və bu, ölkənin mövcud sosial-iqtisadi, siyasi durumundan irəli gəlirdi. Birinci Dünya müharibəsi illərində Rusiyanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Müharibə şəraitində strateji əhəmiyyət kəsb edən kənd təsərrüfatının vəziyyəti daha acınacaqlı idi. Müharibənin 3-cü ili – 1916-cı il Rusiya iqtisadiyyatı tamamilə dağılmaq ərəfəsində idi. Belə bir şəraitdə Rusiya hökuməti alman əhalisinə qarşı əvvəllər qəbul etdiyi qanun və qərarların həyata keçirilmə mexanizmində dəyişikliklər etməyə məcbur oldu. Alman təsərrüfatlarının ləğv edilməsi Rusiyanın iqtisadi durumunu daha da mürəkkəbləşdirirdi, belə ki, Rusiyada almanlara məxsus torpaq

sahəsi 1931337 desyatinə çatırdı[94]. Ölkədə yaranan ərzaq problemini bir qədər yüngülləşdirmək məqsədi ilə 1916-cı ilin martında Nazirlər Soveti kolonistlərə daha iki il ərzində öz torpaqlarını becərmək hüququnun verilməsi haqqında qərar qəbul etdi[95]. Kolonistlərə edilən bu güzəştli qərarın həyata keçirilməsi regionlarda müəyyən xüsusiyyətlərə malik idi. Məsələn, Yelizavetpol qubernatorunun 31 mart 1916-cı il tarixli 6955 saylı sərəncamında göstərilirdi ki, torpaq mülkiyyəti Kəndli Bankı tərəfindən satın alınan Avstriya, macar və alman mənşəli təəbələr məhsul yığımının sonuna qədər öz torpaqlarından istifadə edə bilərlər. Yelizavetpol qəza rəisinə tapşırılırdı ki, sərəncamın məzmunu Yelenino, Annino, Georgiyevskoye, Petrovka koloniyalarınının əhalisinə, həmçinin, Alabaşlı, Şamxor (indiki Şəmkir) və sair yerlərdə yaşayan alman əhalisinə[96].

18 iyun 1916-ci il tarixdə "Ləğv edilmiş kolonist torpaqlarında təsərrüfatların dirçəldilməsinin bəzi tədbirləri" haqqında qanuna əsaslanaraq Qafqaz diyarı üçün xüsusi qərar qəbul edildi. Bu qərara görə alman, Avstriya və macar mənşəli kolonistlərə və ayrı-ayrı iri torpaq sahiblərinə ləğv edilmiş torpaqlarda yaşamaq qadağan edilirdi. Amma təsərrüfatların ləğvi prosesi yaz-yay tarla işləri dövrünə təsadüf etdiyindən, Kəndli Torpaq Bankı və Quberniya idarəsi keçmiş təsərrüfat sahibinə ləğv edilmiş torpaqda işləməyə icazə verirdi. 24 iyun 1916-cı il tarixdə tərtib olunmuş və həmin ilin 10 iyul tarixində təsdiqlənmiş Qaydalara görə Bank yalnız bir il ərzində kolonistə təsərrüfatı davam etdirməyə icazə verə bilərdi[97].

Hökumət dairələri hədə-qorxu gələrək mülkləri ləğv edilmiş kolonistləri təsərrüfat işlərinə cəlb etməyə çalışırdılar. Kolonist mülklərində tarla işlərinin aparılmasına və təsərrüfatların dağıdılmasına görə mülklərin dəyərinin 5-10% aşağı salınması haqqında Kəndli Torpaq Bankına göstəriş verilmişdi.

Bank əldə etdiyi bu təsərrüfatlardan ziyana düşməmək məqsədilə onların dəyərini birdəfəlik ödəmirdi. Bankın icazəsi ilə təsərrüfat fəaliyyətini davam etdirən kolonist yüksək məhsuldarlıq əldə edərsə, Bank əldə etdiyi mülkün dəyərinə ümumi məbləğin 4,5 faizi qədər əlavə edirdi. Əgər kolonist ona etibar edilən təsərrüfatdan yüksək məhsul götürə bilməsə, müvafiq şəkildə təsərrüfatın ümumi alış dəyəri 4,5 faiz civarında azaldılırdı[98].

Hökumət inzibati metodlar tətbiq etməklə yanaşı, kənd təsərrüfatını canlandırmaq məqsədilə yerlərə müəyyən maddi köməklik də göstərirdi. Ancaq kolonistlərin rəsmi dairələrə inamı azaldığından bir çox yerlərdə bu yardımdan imtina edilirdi. 1916-cı il aprelin sonunda Goran stansiyasına hökumət tərəfindən göndərilən darı toxumunun alınmasına və istifadəsinə Yeleneno kolonistlərinin biganə yanaşması da elə bu səbəblə bağlı idi[99].

Ölkənin iqtisadi maraqları rəsmi dövlət orqanlarını təkrarən alman torpaq mülkiyyəti və torpaq istifadəsi məsələsinə qayıtmağa məcbur etdi. Belə ki, 20 iyun 1916-cı il tarixdə 12529 saylı sərəncamla Yelizavetpol qubernatoru eyni adlı qəza rəisinə göstəriş verirdi ki, 02 fevral və 13 dekabr 1915-ci il "ləğvetmə" qanunlarının tətbiqini davam etdirərək kolonistləri məlumatlandırmaq lazımdır ki, onların mülkləri Kəndli Torpaq Bankının fonduna keçsə də, torpaqlarından məhsulun tam yığılmasına qədər istifadə edə bilərlər[100]. Sərəncamda, həmçinin qeyd olunurdu ki, torpaqdan istifadə zamanı növbəti ilə zəruri hazırlıq işlərini yerinə yetimək şərtilə kolonistlər 1916-cı ildə səpilmiş payızlıq və 1917-ci ilin yazında səpiləcək yazlıq taxıl tarlalarından istifadə edə bilərlər. Ancaq yuxarıda qeyd etdiyimiz kimi, iki gün öncə, yəni 18 iyun 1916-cı il tarixdə Qafqaz dairəsinin baş rəisi qərar vermişdi və qərar 06 iyul 1916-cı il tarixində "Yelisavetpolskiye qubernskiye vedomosti" qəzetinin 54-cü nömrəsində dərc olunmuşdu. Qərarın məzmunundan görünür ki, alman kolonistlərinə, o cümlədən Avstriya, macar mənşəli kolonistlərə torpaq mülkləri ləğv edildikdən sonra hətta yeni mülk sahiblərinin razılığı olsa belə bu mülklərdə qalmağa icazə verilmirdi. Adı çəkilən qərarın müddəalarının Yelizavetpol quberniyasında tətbiqi barədə 06 avqust 1916-cı il tarixdə qubernator Kovalyov sərəncam verdi. Bu sərəncamda deyilirdi ki, "02 fevral və 13 dekabr 1915-ci il qanunlarına əsasən əmlakı ləğv edilmiş alman, Avstriya və macar mənşəli kolonistləri bu əmlakın yeni sahibləri qonaq qismində dəvət etsələr də belə, onların bu yerlərdə qalmasına icazə verilmir[101].

Yuxarıda adı çəkilən 18 iyun 1916-cı il tarixli qanunun müddəaları payız-təsərrüfat işlərinin yerinə yetirilməsi məqsədilə Bankın təsərrüfatlarda saxladığı ayrı-ayrı kolonistlərə və torpaq sahiblərinə şamil edilmirdi[102]. 1916-cı il 17 sentyabr tarixdə çar hö-

kuməti yeni normativ akt qəbul etdi və qəbul edilən qərar yalnız taxılçılıqla məşğul olan kolonist təsərrüfatlarına aid edildi, halbuki adı çəkilən qanunda bu haqda heç bir xüsusi qeyd edilməmişdi. Qərarın yalnız taxılçı təsərrüfatlara aid edilməsi təşəbbüsü "Xüsusi Komitə" tərəfindən irəli sürülmüşdü və bu onunla izah olunurdu ki, əkin sahələrinə daimi və təxirəsalınmaz qulluq göstərilməsi zərurəti yaranmışdı: onların boş qalması ölkənin iqtisadiyyatına dağıdıcı təsir göstərirdi. Yuxarıda göstərilən tədbirlər meyvə və üzüm bağlarının sahiblərinə şamil edilmirdi. "Xüsusi Komitə"nin fikrincə, taxıl istehsalından fərqli olaraq meyvə və üzüm bağlarında işlərin dayandırılması, istər ölkənin iqtisadi durumuna, istər əhalinin ərzaqla təminatına, istərsə də bu bağların dəyərinə elə bir mənfi təsir göstərmirdi.

Gördüyümüz kimi, alman əhalisi siyasi çaşqınlıq içində yaşayırdı: bir tərəfdən onlara müəyyən "güzəştlərin" edildiyi bəyan edilir, yəni onlara kənd təsərrüfatı işlərini davam etdirmək imkanı verilirdi, digər tərəfdən məzmunca buna əks qərarlar qəbul edilirdi. Bütün bunlar bir daha sübut edir ki, çar hökumətinin istər xarici, istərsə də daxili siyasət məsələlərində vahid konseptual xətti yox idi. Rusiya, o cümlədən Qafqaz almanlarına qarşı "ləğvetmə" qanunlarının həyata keçirilməsi bunu bir daha təsdiqləyir. "Ləğvetmə" qanunlarının Cənubi Qafqazda tətbiqinin zirvə nöqtəsi kolonist mülklərinin ictimai satışa çıxarılması oldu. 09 mart 1917-ci il tarixdə Yelizavetpol quberniyasının Yelizavetpol qəzasının Annino koloniyasında yaşayan Qotlib Şpilmanın və Qabriel Albekin əmlakı hərraca çıxarılırdı və əmlak 2110 rubl miqdarında dəyərləndirilmişdi[103]. Ertəsi gün, yəni 10 mart 1917-ci ildə həmin qəzanın Georgievskoye koloniyasının alman əhalisinə məxsus 689 desyatin torpaq sahəsi hərraca qoyulurdu və onların əmlakı 200 min rubl civarında dəyərləndirilirdi[104].

Çarizmin təşkil etdiyi antialman kampaniyası, alman kolonistlərinə, sənayeçilərə, ziyalılara, din xadimlərinə, ümumiyyətlə alman əhalisinə qarşı aparılan ayrı-seçkilik siyasəti Almaniyada güclü əks-sədaya səbəb oldu. Hökumət dairələrində Rusiyada yaşayan almanların və əsasən də qərb quberniyalarında yaşayan kolonistlərin Almaniyaya köçürülməsinin zəruriliyi vurğulanırdı. Tezliklə Almaniyanın təbliğat maşını Rusiya almanlarının vətənə qaytarılması

istiqamətində fəaliyyətə başladı. Almaniyaya qayıdacaq kolonistlərə torpaq, maliyyə yardımı, müxtəlif güzəştlər vəd edilirdi. Şübhəsiz, Almaniyanı bu addımlara vadar edən onun düşdüyü mürəkkəb sosial-iqtisadi və siyasi vəziyyət idi. İki cəbhədə müharibə aparan Almaniyanın arxa cəbhəsində vəziyyət get-gedə daha da ağırlaşıdı. Əhalinin orduya səfərbər olunması ilə əlaqədar müəssisələrdə işçi qüvvəsi çatışmırdı. Kəndlililərin və yük heyvanlarının (atların) müharibəyə cəlb edilməsi aqrar əhalinin sayının azalmasına gətirdi. Almaniyanın kənd təsərrüfatında çalışanların 79%-ni qadınlar və uşaqlar təşkil edirdilər[105]. Praqmatik hökumət məmurlarını ölkəni iqtisadi, siyasi böhrandan çıxarmaq düşündürürdü və bu səbəbdən almanların mümkün reemiqrasiyasına yalnız iqtisadiyyatı canlandıran bir faktor kimi yanaşırdılar. Ancaq bəzi radikal qüvvələr bu tədbirdə başqa məzmun axtarırdılar.

Millətçi ruhlu dairələrdə Rusiyadan "nümunə götürmək" və alman kolonistlərinin sıxışdırılmasına cavab olaraq Almaniyanın nəzarətində olan ərazilərdə polyak, yəhudi, belorus əhalisinə qarşı analoji siyasətin tətbiq edilməsi təklif olunurdu. Kayzerin adına ünvanlanmış memorandumlarda Rusiya ilə Almaniya arasında əhali mübadiləsi təklif olunurdu: Vilno, Kovno, Suvalki şəhərlərindən polyakları, belorusları, yəhudiləri Rusiyaya köçürmək, onların əvəzinə bu şəhərlərdə Volın almanlarının yerləşdirilməsi kimi fikirlər söylənilirdi. Prussiyadan polyakları Polşaya köçürmək və Polşa almanlarını Prussiada yerləşdirmək, Kurlyandiya və Liflyandiyanı əbədilik Almaniyanın bir hissəsinə çevirmək, burada yaşayan litvalıları isə "germanlaşdırmaq" kimi planlar cızılırdı.

Qeyd etmək yerinə düşərdi ki, bu yalnız müəyyən təkliflər planı idi. Onların arxasında ciddi fəaliyyət müşahidə olunmurdu. Almaniya hökuməti və ordu komandanlığı bu təkliflərlə tanış idi, ancaq onlar strateji vəzifələrin həll edilməsində elə də prinsipial təsirə malik olmamışlar. Təbii ki, yalnız Almaniyanın Rusiya üzərində qələbəsindən və yeni qaydaların bərqərar olmasından sonra yuxarıda göstərilən təkliflər hansısa bir rol oynaya bilərdi. Qeyd etməliyik ki, Almaniya rəsmi dairələrində Rusiya almanlarını siyasi yetkinlik və millilik baxımından bir neçə kateqoriyaya bölmüşdülər və təbii ki, ölkəyə yalnız kayzerə sadiq almanların qaytarılması arzu

olunurdu. Bu baxımdan Volqaboyu və Qafqaz almanlarına nisbətən qərb quberniyalarında yaşayan almanlara daha çox üstünlük verilirdi. Alman təbliğatı Rusiya almanları tərəfindən soyuq qarşılansa da, hər halda öz nəticəsini verdi. 1916–1917-ci illərdə təkcə Volın quberniyasından Almaniyaya 17 min alman əhalisi qayıtdı[106]. Qərb quberniyalarında yaşayan almanların Almaniyaya və sair Avropa ölkələrinə köçmək meyilləri Rusiyada başlayan antialman kompaniyası və "ləğvetmə" qanunlarının əməli işdə həyata keçirilməsi ilə izah olunur.

"Alman təzyiqinə qarşı mübarizə"dən ən çox əziyyət çəkən xarici ölkə təbəələri oldu. 16 iyun 1915-cı il tarixində çar alman əhalisinin hərbi əməliyyatlar gedən və onlara qonşu quberniyalardan evakuasiya edilməsi haqqında fərman imzaladı[107]. Bu fərmanda göstərilirdi ki, hərbi mükəlləfiyyətdən azad olunan xarici ölkə təəbələri Rusiyanı tərk edə bilərlər. Rusiyadan getmək istəməyən xarici ölkə təbəələrinin imperiyanın mərkəzi ərazilərinə köçürülməsi planlaşdırıldı və bu məqsədlə konkret ərazilər seçilmişdi: a) Almaniya və Avstriya-Macarıstan təbəələri üçün - Ufa quberniyası; b) Türkiyə təbəələri üçün isə Tambov quberniyası nəzərdə tutulmuşdu.

1916-cı ilin 7 may tarixdə Rusiyanın Nazirlər Soveti qərar qəbul etdi və bu qərara görə Rusiyada yaşayan xarici ölkə təbəələrinin Tobolsk, Tomsk,Yenisey, İrkutsk quberniyalarında və Yakutiya vilayətində yerləşdirilməsi nəzərdə tutulurdu. Bu tədbir 3 il ərzində həyata keçirilməli idi[108].

29 may 1916-cı il tarixində Daxili İşlər Nazirliyinin qəbul etdiyi qərara əsasən Rusiyanın Avropa hissəsində (Kazan quberniyasınadək ərazilərdə), Cənubi Qafqazda, Türküstanda, Kamçatkada və sair sərhədyanı quberniyalarda yaşayan xarici ölkə təbəələri öz yaşayış yerlərindən köçürülməli idilər[109]. Hər quberniya üçün xüsusi region ayrılmışdı. Qeyd etməliyik ki, ayrı-seçkilik siyasəti təkcə alman əhalisinə qarşı aparılmırdı. Rusiya ilə müharibə vəziyyətində olan istənilən ölkə vətəndaşı bu cür siyasətin qurbanı olmuşdu. Məsələn, Bolqarıstan "Üçlər İttifaqı"nın tərkibində Rusiyaya qarşı müharibəyə qoşulduqdan sonra (15 oktyabr 1915-ci ildə) Cənubi-Qərb Cəbhəsinin baş komandanı Almaniya, Avstriya-Macarıstan, Türkiyə təbəələrinə qarşı tətbiq edilən bütün ayrı-seçkili xarakter-

li qanunların bolqar mənşəli təbəələrə də şamil edilməsi haqqında göstəriş verdi. Sənəddə deyilirdi ki, "məhdudiyyət xarakterli qaydaların Bolqarıstan təbəələrinə qarşı tətbiq edilməməsi üçün onların slavyan dil qrupuna və pravoslav kilsəsinə aid olmaları əsas götürülə bilməz"[110].

Sürgündən və yaxud islah-əmək koloniyalarında cəzasını çəkib azadlığa çıxmış xarici ölkə təbəələri tamamilə hüquqsuz bir vəziyyətdə qalmışdılar. Belə ki, onları məcburi şəkildə təyin olunmuş ərazilərdə məskunlaşdırırdılar və bu yerdə güclü nəzarət altında 5 il yaşadıqdan sonra onlara Rusiya təbəəliyini qəbul etmək və "ümumi əsaslarla öz yaşayış yerlərini dəyişmək" hüququ verilirdi.

Rusiya ilə müharibə aparan ölkələrin təbəələrinə qarşı daha sərt siyasət yeridilirdi. Polis departamentinin təlimatında qubernatorlara tövsiyə edilirdi ki, onlara qarşı ayrı-seçkilik xarakterli tədbirlər daha ciddi, daha sərt şəkildə tətbiq edilsin, "əks halda onlar Rusiya təbəəliyini qəbul etmiş həmvətənlərinə nisbətən daha çox hüquqlara malik olarlar"[111].

Hətta 5 il keçdikdən sonra da xarici ölkə təbəələrinin müəyyən nahiyələrə və yaxud meşşan silkinə qəbul edilməsi üçün yerli dövlət orqanlarının xüsusi göstərişi və xarici təbəənin Rusiya təbəəliyinə qəbul olunması haqqında yazılı xahişi olmalı idi. Ümumiyyətlə, Birinci Dünya müharibəsi başladıqdan sonra xarici ölkə vətəndaşlarının Rusiya təbəəliyinə qəbulu şərtləri xeyli sərtləşdirilirdi. Daxili İşlər Nazirliyinin polis departamentinin və şəhər rəislərinə 12 avqust 1914-cü il tarixində göndərdiyi təlimatda Rusiya təbəəliyinə qəbul oluna biləcək şərtlərin kateqoriyaları sadalanırdı[112]. Onlar aşağıdakılardır:

– Rusiyada doğulan və daimi yaşayan;

– Rusiya təbəəliyində uşaqları və yaxud valideyni olan;

– yaxın adamlarından kimsə Rusiya ordusunda xidmət edənlər;

– o şəxslər ki, Rusiya dövlətinin maraqları üçün faydalı sayılanlar.

Rusiya təbəəliyini qəbul etmək istəyən xarici vətəndaş aşağıdakı sənədləri təqdim etməli idi:

– mütləq qaydada metrika;

– milli pasport;

– 12 yaşından yuxarı ailə üzvlərinin polis departamenti tərəfindən yoxlanılması haqqında sənəd.

Həmişə olduğu kimi təbəəliyi qəbul edən şəxs çara və Rusiya dövlətinə sədaqət andı içməli idi.

Yerli hakimiyyət orqanlarına göstəriş verilmişdi ki, Rusiya təbəəliyinə can atanların dəlilləri ciddi öyrənilsin: onlar Rusiya təbəəliyini əqidəyə görə qəbul etmək istəyirlər, yoxsa vəziyyətin mürəkkəbləşməsi səbəbindən. Vaxtilə Rusiyada yaşamış, rus təbəəliyini qəbul edib sonra ondan imtina edən şəxslərin Rusiyaya gəlişi qəti şəkildə qadağan edilirdi. Onlar Rusiyaya qayıtmaq hüququndan rus təbəəliyindən çıxdıqdan 5 il sonra istifadə edə bilərdilər. Bu haqda qaydalar hələ 1877-ci il 18 avqust tarixində qəbul edilmişdi[113] və Daxili İşlər Nazirliyinin təlimatında göstərilirdir ki, 5 illik qadağa müddətinin hesablanması bütün təbəəlikdən çıxanlar üçün eyni deyildir: "Rusiya ərazisində təəbəlikdən" çıxan və sonra Rusiyanı tərk edənlər üçün – Rusiyadan çıxdığı gündən və Rusiyanı rus təbəəsi kimi tərk edib xaricdə başqa ölkənin təbəəliyini qəbul edənlər üçün isə Rusiya təbəəliyindən çıxdığı gündən hesablanmalıdır[114].

Əldə edilən sənədlərdən və çap olunmuş mənbələrdən görünür ki, alman kolonistlərinə, o cümlədən xarici ölkə təbəələrinə aid hüquq normaları yerlərdə müxtəlif dəyişikliklərə məruz qalır, onların həyata keçirilməsində özfəaliyyətə yol verilirdi. Bütün qanun pozuntuları, Rusiya almanlarına qarşı törədilən ədalətsizliklər haqqında Volqaboyu almanlarının alman dilində çap etdirdikləri "Saratover zeitung" qəzetində mütəmadi olaraq materiallar nəşr edilirdi[115].

Çox az sayda kütləvi informasiya vasitələri alman kolonistlərini müdafiə edirdi və onların səhifələrində Rusiya almanlarının öz milli təbiətinə görə monarxizmin qızğın tərəfdarı olduğu və çar II Nikolaya sədaqətlə xidmət etdikləri, müharibə cəbhələrində alman zabit və əsgərlərinin qəhrəmanlığı, kolonistlərin arxa cəbhədə göstərdikləri fəaliyyətin böyük vətənpərvərlik məzmunu vurğulanırdı.

Birinci Dünya müharibəsinin başlanması Rusiyada xalq kütlələri arasında vətənpərvərlik əhval-ruhiyyəsinin görünməmiş miqyasda artmasına səbəb oldu. İmperiyanın bütün regionlarından çar hakimiyyətinin, şəxsən imperator II Nikolayın ünvanına minlərlə məktublar, teleqramlar gəlməyə başladı və onların müəllifləri ölkəyə,

çara həmişə sadiq olacaqlarına and içir, vətənin bu ağır günlərində hər vasitə ilə kömək göstərəcəkləri haqqında vədlər verirdilər.

İmperiyanın başqa təbəələri kimi almanlar da öz vətənləri – Rusiyanın müdafiəsinə qalxdılar.

Alman mənşəli təbəələrin I Dünya müharibəsi illərində rus ordusu sıralarında xidməti, onların öz tarixi vətəni olan Almaniyaya münasibətləri məsələsi Rusiya almanlarının tarixşünaslığında ən çox mübahisə doğuran məsələlərdən biri olmuşdur.

Müharibəyəqədərki dövrdə şovinist ruhda çap olunmuş əsərlərə[116] məxsus ənənəni davam etdirən sovet dövrünün tədqiqatçıları artıq I Dünya müharibəsi başa çatdıqdan sonra diktatlıq edən siyasi çoxluğun iradəsinə uyğun olaraq Almaniya və Rusiya arasındakı münaqişələrə bir-birilə barışmaz olan iki irqin – germanizmin və slavyançılığın əsrlərdən bəri davam edən qarşıdurması xarakteri verməyə çalışırdı. Belə bir şəraitdə siyasi şablon yaranır və bu şablona görə alman mənşəli hərbiçilərin simasında Rusiyaya düşmən casuslar görürdülər.

Bu cür yaradıcılığın "yüksək zirvəsi" kimi sovet tarixşünaslığının yalançı marksist cərəyanının "atası" M.N.Pokrovskinin əsərlərini misal gətirə bilərik.

Rusiya tarixçisi M.N.Pokrovski almanlarının 200 illik tarixini təhlil etdikdən sonra özünəməxsus qlobal nəticəyə gələrək yazır ki, "Rusiya xarici imperialistlər tərəfindən kölə vəziyyətinə salınmışdır" və bu prosesdə o, xüsusən rus ordusunda xidmət etmiş alman mənşəli hərbçilərinin "tarixi rolunu" vurğulayır[117].

XX əsrin 30-cu illərində formalaşan bu tarixşünaslıq şablonu sonralar İ.Nikitinskinin və P.Sofinovun əsərlərində davam etdirilmişdir[118].

Öz əsərlərində çarizmin Qafqaz almanlarına qarşı ayrı-seçkilik siyasətinin səbəblərini araşdıran gürcü tədqiqatçısı Q.X.Mandjqaladze araşdırdığımız problemə toxunaraq sübut etməyə çalışmışdır ki, çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı qeyri-seçkilik siyasəti almanların Rusiyanın maraqlarına zidd fəaliyyət aparması ilə izah oluna bilər. Q.X.Mandjqaladze[119] Böyük Vətən müharibəsinin ən ağır çağlarında – 1942-ci ildə Xalq Daxili İşlər Komissarlığının əməkdaşları İ.Nikitinski və P.Sofinov tərəfindən sırf təbliğat

məqsədilə yazılmış əsərlərə istinadən qeyd etmişdir ki, guya Cənubi Qafqaz almanları hələ I Dünya müharibəsi ərəfəsində və müharibə illərində Almaniya kəşfiyyatının tapşırıqlarını yerinə yetirirdilər.

Son illər Qafqaz almanlarının tarixinə həsr olunmuş məqalələrdə çarizmin "antialman" siyasətinin sırf iqtisadi amillərlə bağlılığı vurğulanır[120].

Çarizmin Cənubi Qafqaz almanlarına qarşı apardığı dikriminasiya siyasətinin səbəblərini, mahiyyətini, bu siyasətin həyata keçirilməsi mexanizmini, almanların müharibə illərində Rusiyaya münasibətini daha yetkin və obyektiv işıqlandırmaq üçün tədqiqatın I Dünya müharibəsi illərinə aid tarixi sənədlər əsasında qurulması çox vacibdir.

Araşdırılan məsələyə dair çoxsaylı çap olunmuş mənbələri və arxiv sənədlərini təhlil edərək belə fikir yürütmək olar ki, alman mənşəli hərbiçilər rus ordusunda hələ XVI–XVII əsrlərdən xidmət etməyə başlamışlar. Qeyd etmək lazımdır ki, XIX əsrin 70-ci illərinə qədər rus hərbi xidmətində almanlar əsasən zabitlər və generallarla təmsil olunmuşlar. Ümumi götürdükdə, onlar heç vaxt xidmət etdikləri ölkənin mənafeyinə, adət və ənənələrinə, maraqlarına zidd hərəkətlər etməmiş, öz talelərini vətən seçdikləri Rusiyanın taleyindən ayırmamışlar.

XIX əsrin 70-ci illərində Rusiyada hərbi islahatlar keçirildi və 1874-cü il qanununa görə ölkədə ümumi hərbi mükəlləfiyyət həyata keçirilməyə başlandı[121]. Nəticədə, Rusiyanın Volqaboyu, Şimali-Qərb ölkəsi, Cənubi-Qərb ölkəsi, Qafqaz və sair bölgələrində yaşayan minlərlə alman mənşəli təbəələrə aid olan bu qanunun tətbiqi nəticəsində rus ordusunda alman zabitləri, generalları ilə yanaşı, alman mənşəli minlərlə sıravi əsgərlər xidmət etməyə başladılar.

İlk dəfə olaraq alman mənşəli əsgərlər başqaları ilə bərabər 1877-1878-ci illərin rus-türk və 1904-1905-ci illərin rus-yapon müharibəsində Rusiyanın şərəfini qorudular, Rusiyanın vətənpərvəri olduqlarını və ən azı ona loyal münasibət bəslədiklərini nümayiş etdirdilər. Zabit korpusundan fərqli olaraq alman mənşəli əsgərlər ordunun inkişafına heç bir təsir göstərmək imkanına malik deyildilər. Dövlət təhlükəsizliyi nöqteyi-nəzərindən alman mənşəli əsgərlər

rus ordusu üçün təhlükə də yarada bilməzdilər, çünki Rusiyada mövcud olan hərbi-dairə sistemi yerli çağırışlar prinsipi əsasında komplektləşdirilmirdi: bir bölgədən olan çağırışçılar müxtəlif hərbi dairələrə bölüşdürülürdülər, yəni alman kolonistlərinin kompakt şəkildə xidmət göstərməsi mümkün deyildi.

Ancaq XIX əsrin sonunda həm Rusiyada, həm də Almaniyada millətçilik dalğasının gücləndiyi bir vaxtda alman mənşəli əsgərlərin içində Qərbi Avropaya, Almaniyaya rəğbətlə yanaşan, onların simasında düşmən görməyə alışmayanlara rast gəlinirdi ki, bu fakt Rusiyanın hərbi dairələrində narahatçılıq yaradan amillərdən biri idi[122].

Müəyyən dərəcədə Qərb quberniyalarında yaşayan almanlar həm Almaniyanı, həm də Rusiyanı öz vətənləri hesab edirdilər, bir çoxları hətta Rusiyada yaşaya-yaşaya Almaniya hərbi qüvvələrində xidmət etməyi üstün tuturdular[123]. Lakin başqa regionda, o cümlədən Qafqazda yaşayan almanlara bunu aid etmək olmazdı – onlar yeni vətənləri ilə o qədər qaynayıb qarışmışdılar ki, özləri ilə başqa millətlərdən olan Rusiya təbəələri arasında fərq görmürdülər.

Şimali və Cənubi Qafqazın arxivlərində saxlanılan sənədlərdən görünür ki, alman əhalisi müharibənin ilk günlərindən çara, Rusiyaya sədaqətlərini sübut etməyə can atmışlar. Söylənilən fikirin təsirini artırmaq üçün konkret faktlara müraciət etmək yerinə düşərdi. Məsələn, Stavropol quberniyasının Svyatokrestovsk qəza ispravnikinin raportuna görə müharibə başlayandan qəzada yaşayan almanlar bütün bu bədbəxtliklərdə Almaniyanı günahlandırır, "Rusiya haqqında onun sədaqətli övladları kimi" danışırlar[124].

Stavropol quberniyasının Medvejensk qəzasının Qaxayevka, Xaginskoye, Kuturda, Esto-Xaginskoye koloniyalarında yaşayan alman kolonistləri müharibənin ilk günlərindən oğullarını cəbhəyə göndərdilər, döyüşən ordu üçün qoşqu atlarının yığılmasında hökümət orqanlarına yaxından köməklik göstərdilər[125].

Həmin quberniyanın Aleksandrovsk qəza ispravnikinin raportundan görünür ki, qəzada yerləşən Velikoknyajeskaya – Dolina, Nikolayevskaya Step, Areval, Lavrovo, Svetopol, Taşenak, Marini Kolodsı, Sarona, Tempelqof koloniyalarında və Kanqlı, Sablinsk nahiyələrindəki xutorlarda yaşayan alman əhalisi vaxtlı-vaxtında müxtəlif pul mükəlləfiyyətlərini yerinə yetirirdilər. Adı

çəkilən qəzada yaşayan kolonistlər cəbhə üçün atların və sair qoşqu qüvvəsinin səfərbər edilməsində də fəal iştirak etmişdilər[126].

Eyniylə, Cənubi Qafqaz koloniyalarında da hərbi səfərbərlik başlamışdı və alman əhalisi özünəməxsus pedantlıqla* bütün hökümət göstərişlərini yerinə yetirirdilər.

02 fevral 1916-cı il tarixdə Yeleneno starşinası koloniyada növbəti çağırışın həyata keçirilməsi barədə sərəncam aldı və bu sənədə görə 1903-cü ildən sonra həqiqi hərbi xidmətdən təxris olunan koloniya sakinləri yenidən ordu sıralarına çağırılırdılıar[127]. Koloniya starşinasının 27 mart 1916-cı il tarixdə Yelizavetpol qəzasının 2-ci sahə pristavına 112 nəfər çağrışçının siyahısını təqdim etdi ki, onlardan da 74-ü milliyyətcə alman idi[128].

Onu demək yerinə düşərdi ki, 1916-cı ilin martına olan məlumata görə təkcə Yeleneno koloniyasından alman mənşəli 179 əsgər və 8 zabit rus ordusunda xidmət edirdi[129]. 1916-cı ilin sentyabrında Yeleneno koloniyasından daha 67 sakin orduya çağrılmışdı[130].

Qeyd edək ki, Qafqaz almanları müvafiq olaraq Qafqaz cəbhəsinin quru qoşunlarında, həmçinin Hərbi Dəniz Donanmasınında xidmət edirdilər[131].

Mövcud qanunvericiliyə görə həqiqi hərbi xidmətdən azad olunanlar Yelizavetpol qubernatorunun sərəncamı ilə arxa cəbhəyə cəlb edilirdilər[132].

Arxiv sənədlərində Cənubi Qafqaz almanlarının fərariliyi haqqında faktlara rast gəlinməmişdir. Lakin bu o demək deyil ki, Qafqaz almanları arasında hərbi xidmətdən yayınanlar olmamışdır. Məsələn, təkcə Yeleneno koloniyasında 1915–1916-cı illər ərzində 24 nəfər kolonist obyektiv səbəblərə görə hərbi xidməti yerinə yetirə bilməmişlər: bu kateqoriyaya həbsxanada cəza çəkənlər və yaşayış yerini dəyişənlər aid idi[133].

Qeyd etmək lazımdır ki, Rusiya ictimaiyyəti I Dünya müharibəsi illərində cəbhəyə, döyüşən hərbi hissələrə nəzərəçarpacaq dərəcədə yardım etmişlər. Bütün imperiya ərazisində cəbhəyə iqtisadi yardım məqsədilə təşkil edilən bu ümumi kampaniyada Rusiya almanları, o cümlədən Qafqaz almanları da fəallıq göstərmişlər.

---

* Hər şeydə həddindən artıq xırdaçılıq göstərmə

Qafqaz almanlarının cəbhəyə iqtisadi yardım kampaniyasında iştirakı mürəkkəb və çoxtərəfli proses olsa da, o əsasən iki istiqamətdə həyata keçirilirdi. Birinci istiqamətin mahiyyəti ondan ibarət idi ki, rəsmi hökumət dairələri tərəfindən cəbhəyə iqtisadi yardım göstərilməsi haqqında sərəncam verilirdi və belə sərəncamlar Qafqaz almanlarına bütün müharibə boyu göndərilirdi. Məsələn, Ticarət və Sənaye nazirinin 17 noyabr 1916-cı il sərəncamında göstərilir ki, müharibənin əvvəlindən Baş Qərargahın Baş İdarəsinin Səfərbərlik şöbəsinin sərən camlarına uyğun olaraq qoşqu atları, həmçinin furqonlar rus ordusunun ehtiyacları üçün cəlb edilməlidir. Sərəncamda qeyd olunur ki, Ticarət və Sənaye Nazirliyinin Hərbi və Dəniz Donanmasının sifarişlərini yerinə yetirən müəssisələrdə qoşqu atlarından istifadəyə icazə verilir və bu zaman xidmət atlarının boyu 2 arşından* yuxarı olmamalıdır. Əks halda bu parametrə cavab verən və istənilən cinsə aid olan atlar mütləq şəkildə ordunun ehtiyacları üçün səfərbər edilməlidirlər. Yelizavetpol qubernatorunun 29 sentyabr 1916-cı il tarixdə quberniya pristavlarına göndərdiyi sərəncamda isə (№ 9194) kənd starşinalarına və yerli polis orqanlarına cəbhə üçün qoşqu atlarının, arabaların, furqonların və sair nəqliyyat vasitələrinin vaxtlı-vaxtında səfərbər edilib cəbhəyə göndərilməsində köməklik göstərilməsi əmr edilirdi.[134]

Bir faktı nəzərdən qaçırmaq olmaz ki, istər alman koloniyalarında, istərsə də yerli kəndli təsərrüfatlarında əsas işçi qüvvəsi və nəqliyyat vasitəsi kimi atlardan, arabalardan, furqonlardan istifadə olunurdu. Bu səbəbdən kolonistlər qoşqu atlarının, arabaların, furqonların səfərbər edilməsini narazılıqla qarşılayırdılar ki, bu da hökumət dairələri tərəfindən əhaliyə təzyiq göstərilməsi ilə nəticələnirdi. Bəzən, döyüşən ordudan hərbçilər birbaşa koloniyaya gəlir, burada ordu üçün qoşqu atları və furqonların əldə edilməsi məqsədilə iş aparırdılar. Yelizavetpol qəza rəisinin 28 aprel 1916-cı il tarixli sərəncamı ilə kənd starşinalarına göstəriş verilirdi ki, mövcud olan bütün atların siyahısı tərtib edilib ona təqdim olunsun. Sərəncama əməl etməyənlər məhkəmə qarşısında cavab verməliydilər.

---

* Metrik ölçü sistemi qəbul olunanadək, 0,71 metrə bərabər işlədilən uzunluq ölçüsü

Koloniyalar üzərində nəzarəti daha da gücləndirmək, hökumət tərəfindən qoyulan tapşırıqların ləngimədən yerinə yetirilməsi üçün Qafqaz canişininin sərəncamına əsasən, Qafqazda mövcud olan bütün alman koloniyalarına hökumət tərəfindən starşinalar və mirzələr təyin edilirdi. Onların təminatı müvafiq koloniya əhalisinin hesabına həyata keçirilirdi və starşinalara kömək məqsədi ilə polis strajnikləri də təhkim olunmuşdu. Yeleneno koloniyasının dövlət starşinası Baxış bəy Məlik-Osipov təyin edilmişdi. Dövlət starşinalarına kolonistlər etimadsız yanaşdıq larından Yelizavetpol qubernatorunun əmri ilə hər koloniyada rekvizisiya* komissiyası yaradıldı ki, bu komissiyalara dövlət starşinaları ilə yanaşı, koloniya nümayəndələri də daxil edilirdilər[135].

Komissiya üzvləri koloniyalarda mövcud olan qoşqu qüvvəsinin, onların sahiblərinin siyahısını hazırlayırdılar və ümumi baxış keçirildikdən sonra cəbhə üçün yararlı hesab olunan atların, arabaların, furqonların "könüllü olaraq" dövlətə satılmasını tələb edirdilər.

1916-cı ilin yazında həmçinin Yelenenoda olan furqonların, kəllərin, hətta ulaqların rekvizisiyası keçirildi. Siyahıda təqdim olunan müxtəlif tipli 22 arabanın sahiblərindən heç kəs könüllü olaraq onları dövlətə satmaq niyyətində deyildi.

Qeyd edək ki, dövlət minik atına görə 450 rubl, I dərəcəli qoşqu atına – 255, II dərəcəli qoşqu atına – 186, ulaq və ya qatırın 1 başına 225 rubl pul ödəyirdi. I Dünya müharibəsi illərində 2140 nəfər əhalisi olan Yeleneno koloniyası ordunu 580 atla və 230 dördatlı furqonla təhciz etmişdi[136]. Gətirdiyimiz bu misallar bütün imperiya əhalisinə şamil edilirdi, yəni cəbhəyə məcburi şəkildə göndərilən təchizatlar ümumi vergi ağırlığının bariz nümunəsi idi və bu tipli iqtisadi məhrumiyyətlərə təkcə almanlar deyil, bütün Rusiya əhalisi düçar edilmişdir. Tədqiqat nöqteyi-nəzərindən bu fakt məsələyə iqtisadi proseslər müstəvisindən baxılmasını zəruri edir və bu xüsusi tədqiqat obyekti ola bilər.

Qafqaz almanlarının cəbhəyə iqtisadi yardımının ikinci istiqaməti sistemli şəkildə xeyriyyəçilik yardımının göstərilməsindən ibarət idi. Birinci istiqamətdən fərqli olaraq xeyriyyəçilik məcburi xa-

---

* Müsadirə

rakter daşımırdı, mükəlləfiyyət sayılmırdı, kolonistlər tərəfindən könüllü şəkildə yerinə yetirilirdi. Qafqaz almanlarının cəbhəyə yardım məqsədilə təşkil etdikləri xeyriyyəçilik aktları öz təşkilatçılıq xüsusiyyətlərinə görə bir neçə mərhələyə bölünür.

Birinci mərhələdə xeyriyyəçiliyin təşkili məsələlərində dominatlıq* rolunu lüteran-kilsə təşkilatları yerinə yetirmişlər. Müharibənin ilk günlərindən Rusiyanın yevangelist-lüteran konsistoriyası, "Rus ordusuna lazımi maddi kömək" şüarı altında başlanan Ümumrusiya hərəkatına qoşuldu. Bu ideya Qafqaz almanlarının yığcam, sıx yaşadığı regionlarda da səmimi-qəlbdən qəbul edildi və kolonistlər lüteran pastorlarının**, katolik ksendzlərinin*** "Evimizdə otura-otura öz vətənimizə öz vəsaitimizlə xidmət edək" çağırışına qoşuldular.

Qafqaz almanları müxtəlif formalarda maliyyə yardımı göstərirdilər. Maliyyə yardımının ən geniş yayılmış forması – nağd pul vəsaitinin toplanması idi və onun miqdarı haqqında qərar kənd və yaxud nahiyə yığıncaqlarında qəbul edilirdi.

18 oktyabr 1914-cü il tarixdə Soçi dairəsinin Novaginka kəndinin lüteran icması keçirdikləri dua məraisimi zamanı müharibədə yaralanan əsgərlərin müalicəsi üçün pul vəsaitinin yığılması və yığılan məbləğin Novorossiysk yevangelist-lüteran pastoruna göndərilməsi haqqında qərar qəbul etdi. Kolonistlər Soçi dairəsinin rəisinə yazdıqları aktda göstərirdilər ki, Novorossiysk pastoru öz növbəsində pul yardımını Moskva yevangelist-lüteran konsistoriyasına, orada təşkil olunan yaralılar üçün lazaretlərə kömək fonduna göndərəcəkdir. Aktın sonunda kolonistlər tərəfindən 38 rubl 50 qəpik pul vəsaitinin yığıldığı göstərilir[137].

Kolonistlər dövlət mükəlləfiyyətlərini yerinə yetirməklə yanaşı, xeyriyyəçiliklə də məşğul olurdular. Onlar qonşu rus kəndlərinin əhalisinə, əsasən də müharibədən şikəst kimi qayıdan, yaxud ailə başçısı cəbhədə olan ailələrə, dul qadınlara maddi yardım göstərir, onların evlərinin təmirində, torpaq sahələrinin əkilməsində, becərilməsində, məhsulun yığılmasında kömək edirdilər. Stavropol qəza ispravnikinin məlumatında qəzada mövcud olan alman koloniyala-

* Qeyri-məhdud hakimiyyət rejimi

** Protestant keşişi

*** Polyak katolik keşişi

rında əsasən rus mənşəli qaçqınların yerləşdirildiyi və kolonistlərin onlara hərtərəfli yardım etməsi haqqında danışılır[138].

Şovinist baxışlı ura-vətənpərvər qüvvələr alman kolonistlərinin ordu naminə xeyriyyəçilik tədbirlərinə kölgə salmağa çalışır, həqiqətə uyğun olmayan şaiyələr yayırdılar. Yekaterinoqrad şəhərində müharibə haqqında yayılan vərəqələrin birində ictimaiyyətə yanlış məlumat verən fakt dərc olunmuşdu. Burada göstərilirdi ki, alman qoşunları artıq Qara dəniz sahillərindədirlər və Soçi yaxınlığındakı Novagınka adlı alman koloniyasında “loyal” kolonistlər Almaniyaya kömək məqsədilə artıq 5000 rubl vəsait toplamışlar. Vərəqədə göstərilirdi ki, pul vəsaitinin toplanmasını almanlar xeyriyyəçilik pərdəsi altında həyata keçirirlər. Bu məzmunda məlumat tezliklə “Russkoye slovo” qəzetinin 16 dekabr tarixli nömrəsində çap olundu. Bütün bu təzyiqlərə cavab olaraq Novaginka koloniyasının sakinləri 23 dekabr 1914-cü il tarixdə iclas keçirərək “Russkoye slovo” qəzetində dərc olunan məlumatların uydurma olduğunu təsdiqləyən qərar qəbul etdilər və almanların ünvanına böhtanlar yazan “Russkoye slovo” qəzetinin cəzalandırılması haqqında yuxarı instansiyalar qarşısında vəsatət qaldırdılar[139].

Kolonistinin siyasi əhval-ruhiyyəsi haqqında Daxili İşlər Nazirliyinə məlumat verən Stavropol qubernatoru qəza ispravniklərinin topladığı məlumatlara əsaslanmayan, uydurma fikirlərlə kolonistlərin fəaliyyətinə ləkə yaxmağa cəhd edərək yazır ki, “kolonistlər rus mənşəli qaçqınlara düşməncəsinə yanaşır, onlara sığınacaq verməkdən boyun qaçırır, əksinə öz təsərrüfatlarında alman mənşəli hərbi əsirlərə, köçkünlərə işləmək imkanı yaradır, onlara böyük qayğı ilə yanaşırlar.” Qubernatorun fikrincə, bu pangermanizmin əsil ifadəsi kimi qiymətləndirilməlidir[140].

Hərbi hissələrə yığılan yardımların həcminin artması gündəliyə yeni bir məsələnin həllinin zəruriliyini gətirdi: kolonistlərin xeyriyyəçilik hərəkatını istiqamətləndirmək və yığılan yardımı vaxtında, itkisiz öz ünvanına çatdırmağı təşkil edən lokal təşkilatların (orqanların) yaradılmasına ehtiyac hiss olunurdu. Əvvəllər, bu funksiyanı kənd və nahiyə idarələri yerinə yetirirdilər. Lakin onların vəzifələri həddən artıq olduğundan, çox vaxt xeyriyyəçiliklə bağlı məsələlərin həlli yubadılırdı. Bu səbəbdən, artıq 1914-cü ilin sent-

yabrından quberniya və qəza zemstvoları məqsədyönlü şəkildə xüsusi komitələrin və qəyyum təşkilatların yaradılması prosesinə başladılar. Beləliklə, hər bir nahiyədə bu cür təşkilatlar yaradıldı və qısa bir müddət ərzində ərazi, professional və konfessional prinsiplərə əsaslanan çoxsaylı xeyriyyə təşkilatları meydana gəldi.

Ancaq bütün bu müxtəlif xeyriyyəçi təşkilatlar sırasında əsas rol, şübhəsiz "Xəstə və yaralı döyüşçülərə kömək üçün Ümumrusiya zemstvo ittifaqına" məxsus idi. Bu "İttifaq"ın fəaliyyət mexanizmi ierarxiya-tabeçilik nərdivanı üzrə klassik şaquli hakimiyyət sisteminə əsaslanırdı: mərkəz – quberniya – qəza – rayon – kənd və bu sistemdə ən əhəmiyyətli yer bilavasitə koloniyalarda yerləşən rayon və yerli komitələrə məxsus idi. Rayon komitələrinin fəaliyyəti milli amil nəzərə alınmadan sırf ərazi prinsipinə əsaslanırdı.

Bu orqanların əsas vəzifəsi təkcə xeyriyyəçilik aksiyalarında iştirak deyil, öz rayonlarında yerli komitələr şəbəkəsinin yaradılmasından və onların fəaliyyətinin koordinasiya edilməsindən ibarət idi.

Adı çəkilən komitələr bütün koloniyalarda yaradıldı. Hətta əhalisi 100 nəfərədək olan xutorlarda belə komitələr yaradılmışdı. Yerli komitələrin tərkibinə gəldikdə onlar rayon komitələrinin prinsipi üzrə yaradılırdılar və komitələrin tərkibinin sayı reqlamentasiya olunmurdu hər koloniyada yerli şəraiti nəzərə alaraq yaradılırdı. Zemstvo ittifaqının yerli komitələri əsas işi yerinə yetirirdilər: onlar həm cəbhəyə, həm də müharibədən zərər çəkən əhaliyə maddi yardım göstərir, deportasiya və evakuasiya olunmuş əhalinin yerləşdirilməsi ilə məşğul olurdular. Qeyd edək ki, bu məqsədlə qəza büdcəsindən zemstvo komitələrinə pul vəsaiti ayrılırdı.

1915-1916-cı illər ərzində cəbhəyə maddi yardım sistemində bir sıra dəyişikliklər baş verdi və bu dəyişikliklər maddi yardımın istiqamətinin dəyişməsi ilə deyil, xeyriyyəçilikdə yeni sxemlərin tətbiqi ilə bağlı idi. Yeni sxemin mahiyyəti ondan ibarət idi ki, yığılan vəsait əvvəlki kimi ümumi kassaya daxil olmurdu və yardım ünvanlı, məqsəd-yönlü xarakter daşıyırdı.

Buna misal olaraq Yeleneno koloniyasının sakinlərinin koloniyada yerləşdirilən hərbi hissələrə etdiyi yardımı göstərə bilərik. Burada 1854-cü ildən başlayaraq növbə ilə Don kazak batareyası, Draqun alayı, Piyada artilleriyası, Dağlı-Mozdok, Poltava, Xopyor alayları,

Kazak batareyası, 1887-ci ildən 1914-cü ilədək isə general Zassın komandanlıq etdiyi Birinci Laba alayı yerləşdirilmişdilər. Birinci Dünya müharibəsi başladıqdan sonra koloniyada bir-birinin ardınca Birinci Kuban toplu alayı, üçüncü Qafqaz kazak alayı, Zabaykalsk Arqun alayı, tərkibində 1800 at və 3400 öküz olan və cəbhə üçün yığılmış qoşqu qüvvə ehtiyyatları yerləşdirilmişdilər və onların bütün təchizatı kolonistlərin hesabına ödənilirdi[141].

Kolonistlər burada qərarlaşmış hərbi hissələrə müxtəlif yardım göstərirdilər: onlara paltar və ərzaqla köməklik edir, hərbiçilərə xidmət etmək üçün arabalar, arabaçılar və furqonlar ayırırdılar. Alman kolonistləri müharibədə yaralananlara da çox böyük yardım edirdilər – onlar üçün koloniyalarda lazaretlər açırdılar. Lazaretlərin təşkili təşəbbüsü ilə ilk dəfə şəhərdə yaşayan alman icmaları çıxış etdilər. Bu işdə almanların ənənəvi olaraq mənsub olduqları lüteran və katolik kilsələri təşkilatçılıq funksiyasını yerinə yetirirdilər. 1914-cü ildə, hələ müharibənin başlanğıcında Yeleneno koloniyasının sakinləri müharibədə yaralananların xeyrinə 54000 rubl pul vəsaiti topladılar və tezliklə koloniyada Ümumrusiya şəhərlər ittifaqının Qafqaz komitəsi və Rusiyanın Qırmızı Xaç Cəmiyyətinin lazaretləri təşkil edildi[142]. Lazaretdən savayı, koloniyalarda mövcud olan sanatoriyalar və tibb ocaqlarında məqsədli şəkildə əlavə çarpayı – yerlər təşkil edilir və burada müalicəyə ehtiyacı olan hərbçilər yerləşdirilirdilər. Yaralıların müalicəsi, həlak olan hərbçilərin dəfni üçün lazım olan vəsait alman kolonistləri tərfindən təmin edilirdi.

Qeyd etmək lazımdır ki, tibbi yardım təkcə yaralı hərbçilərə deyil, həm də Qafqaza pənah gətirmiş qaçqınlara və məcburi köçkünlərə göstərilirdi. Onların əksəriyyəti ağır infeksiyon xəstəliklərə yoluxmuşdular. Yaranmış vəziyyət xəstəliyə tutulmuş qaçqın və köçkünlərin xəstəxana şəraitində müalicə olunmasını tələb edirdi və onlar üçün əlavə yerlər hazırlandı.

Birinci Dünya müharibəsi illərində Rusiya ərazisində müxtəlif xeyriyyə cəmiyyətləri fəaliyyət göstərirdilər və onların əksəriyyəti çar ailəsinin üzvlərinin şərəfinə yaranmışdı. Məsələn, "İmperator əlahəzrətlərinin qərargahı nəzdində bütün orduya yardım üçün xeyriyyə təşkilatı", "Aleksandr komitəsi", "Skobelev komitəsi", "Knyajna Tatyana Nikolayevna adına komitə" və sairləri göstərmək

olar. Kolonistlərin yardımı cəbhəylə yanaşı, həm də Rusiya miqyasında fəaliyyət göstərən müxtəlif xeyriyyə cəmiyyətlərinə ünvanlanırdı və yardım həm pul vəsaiti kimi, həm də kənd təsərrüfatı məhsulları ilə ifadə olunurdu. Pul vəsaitinin toplanması üçün müxtəlif tədbirlər keçirilirdi. Məsələn, Volqaboyu koloniyalarında xeyriyyəçilik məqsədilə lotereya oyunları təşkil edilir və əldə edilən pul vəsaiti orduya yardım fonduna keçirilirdi. Qafqazda da buna oxşar tədbirlər təşkil edilirdi. Yelizavetpol qubernatorunun quberniya polis rəisinə ünvanladığı 03 may 1916-cı il tarixli sərəncamında qeyd olunurdu ki, knyaginya Yelizaveta Mavrikiyevna imkansız və xəstə uşaqlara qəyyumluq cəmiyyəti yaratmışdır və bununla da, ola bilsin, cəbhədə vuruşaraq həlak olmuş on minlərlə rus döyüşçüsünün yetim qalmış övladlarına qayğı göstərərək dövlətə böyük yardım edir. Maddi vəsait əldə etmək üçün cəmiyyət imperator II Nikolayın şəkli əks olunmuş breloklarınn[*] satış yarmarkası keçirir. Sərəncamda polis orqanlarına əmr edilirdi ki, onlar tədbirin həyata keçirilməsində Yelizaveta Mavrikiyevnaya yaxından dəstək versinlər. Bu xeyriyyəçilik tədbirində Yelizavetpol almanları da fəal iştirak etmişlər. Təkcə Yeleneno koloniyasında yaşayan almanlar müharibə illərində Rusiya Qırmızı Xaç Cəmiyyətinin fonduna könüllü olaraq 24000 rubl pul köçürmüşlər[143].

Qeyd etmək lazımdır ki, cəbhəyə maddi yardım yalnız nağd pul yığılması formasında deyil, həm də kənd təsərrüfatı məhsullarının döyüşən ordu hissələrinə göndərilməsi formasında da göstərilirdi. Cəbhəyə göndərilən ərzağın miqdarı və növü koloniya əhalisinin sayından və təsərrüfat məşğuliyyətinin xüsusiyyətlərindən asılı idi. Cənubi Qafqaz almanlarının təsərrüfat həyatında əsas forma üzümçülük və şərabçılıq, Gürcüstanda həmçinin heyvandarlıq olduğundan, kolonistlər cəbhəyə müalicə əhəmiyyətli şərab, pendir və sair kənd təsərrüfatı məhsulları göndərmişlər. Təkcə Yeleneno kolonistləri döyüşən ordunun ehtiyacları üçün 12000 şüşə müalicə əhəmiyyətli şərab, 540 şüşə konyak və sair kənd təsərrüfatı məhsulları hədiyyə etmişlər[144].

Stavropol quberniyasının Aleksandrovsk qəzasında yaşayan almanlar müharibənin ilk günlərində, heç bir kənar təzyiq olmadan

[*] Saat zəncirlərindən və ya bilərzikdən asılan bəzək

könüllü şəkildə rus ordusu üçün 2 vaqon yulaf göndərdilər. Medvejensk, Svyatokrestovsk qəzalarında, həmçinin Kuban, Terek, Don vilayətlərində yaşayan almanlar cəbhəyə süd, pendir, şərab, taxıl və sair ərzaq məhsulları yollamışlar[145].

Müharibənin başlanğıcından fərqli olaraq, sonrakı illərdə yardımetmə prosesində müəyyən dəyişikliklər edildi ki, bu da yardıma ehtiyacı olan kateqoriyanın sayının artması ilə bağlı idi. Qafqaz cəbhəsində vəziyyətin gərginləşməsi ilə bağlı və əsasən də Sarıqamış əməliyyatından sonra Cənubi Qafqaz ərazisində çoxsaylı erməni və aysor mənşəli qaçqınlar yerləşdirildilər. Şimali Qafqaz regionunda Rusiyanın qərb quberniyalarından gəlmiş slavyan mənşəli qaçqınlar yerləşdirilmişdilər. Beləliklə, qaçqın düşmüş əhali ordu ilə birlikdə, yardıma ehtiyacı olan əsas sosial qruplardan birinə çevrildilər. Məsələn, 1915-ci ilin avqustundan başlayaraq Yeleneno koloniyasında Şərqi Anadoludan gəlmiş aysor (assuriyalı) mənşəli qaçqınlar yerləşdirilirdi.

Yelizavetpol qəza rəisinin 30 avqust 1915-ci il tarixli teleqrafında Yeleneno kənd cəmiyyətinin qaçqınlara yardım qəyyumluğunun sədrindən koloniyada məskunlaşan qaçqınlar haqqında məlumat verilməsi tələb olunur.

Yeleneno koloniyasının şultsu İ.Breytmeyer Yelizavetpol qəzası 2-ci sahə pristavına 1915-ci ilin sentyabrında göndərdiyi raportda koloniyada 628 aysor mənşəli qaçqın ların məskunlaşdığını göstərir. Raportdan aydın olur ki, onlar 1915-ci ilin avqustunda gəlmişlər və onlardan 136 nəfər əməkqabiliyyətli olsa da, işlə təmin olunmamışdır. Qaçqınların saxlanılması dövlətə baha başa gəlirdi. Məsələn, Yeleneno koloniyasında məskunlaşan aysor qaçqınlara "Qaçqınlara kömək üzrə qəyyumluq təşkilatı"ndan sentyabr-oktyabr aylarında təqribən 4243 rubl vəsait xərclənmişdi. Bundan savayı, Əkinçilik Departamentinin Baş mütəxəssisi tərəfindən qaçqınların tələbatını ödəmək məqsədi ilə 4320 rubl əlavə vəsait ayrılmışdır[146].

Arxiv sənədlərindən görünür ki, bu məbləğin hamısı vaxtlı-vaxtında ödənilmirdi.

Rusiyanın başqa regionları ilə müqayisədə Yeleneno qaçqınlarına ayrılan pulun məbləği nisbətən aşağı idi – hər qaçqına gündəlik 10 qəpiklik ərzaq nəzərdə tutulurdu. Hökumətin çiyninə düşən yükü

azaltmaq məqsədilə 28 oktyabr 1915-ci il tarixdə Yelizavetpol qubernatorunun 10060 saylı sərəncamı ilə Türkiyədən gələn, əksəriyyətini ermənilər təşkil edən qaçqınlara, Bakıya iş dalınca getməyə icazə verilirdi[147].

Qaçqınlar Yelenenoda, imkanlı kolonistlərin evlərində yerləşdirilmişdilər. Sənədlərdən görünür ki, Y.Bretmeyr – 81, Albert Kox – 65, Q. Vakenqut – 31, Albert Hummel – 40, Yohannes Hummel III – 27, F.Andris – 67, Qotlib Hummel – 58, F.Reytenbax III – 96, Xr. Ştrobel 43 və Y.Ongemax – 96 qaçqın qəbul etmişdilər[148].

Qaçqınları evlərində yerləşdirən kolonistlər Yeleneno "Qaçqınlara yardım qəyyumluğunun" fondundan maliyyə vəsaiti alırdılar. Yelizavetpol qubernatoru 20 noyabr 1915-ci il tarixdə qaçqınlara tibbi-sanitariya və ərzaq yardımının göstərilməsi haqqında sərəncam vermişdi. Bu işlə əvvəllər kənd qəyyumluqları, o cümlədən Yeleneno qəyyumluğu məşğul olurdu. Qubernatorun yuxarıda adı çəkilən sərəncamından sonra bu vəzifə kənd qəyyumluqlarından "Ümumrusiya şəhərlər ittifaqı"nın səlahiyyətinə verildi və bu işlə birbaşa "Şəhərlər ittifaqının Qafqaz komitəsi" məşğul olmağa başladı. Bu dəyişiklik "Yeleneno koloniya qəyyumluğu"nun çiyninə düşən yükü bir qədər azaltmalı idi. Belə ki, koloniyaya 1915-ci ilin avqustunda gəlmiş aysor mənşəli qaçqınların sayında əsaslı dəyişiklik olmamışdı – 28 avqust 1916-cı il tarixdə koloniyada 613 nəfər qaçqın yaşayırdı və onlardan heç kəs işlə təmin olunmamışdı[149].

Alman kolonistləri üçün ən böyük zərbə koloniya və onun ətraflarında 3 minə qədər erməni qaçqınının yerləşdirilməsi oldu. Onların ərzaqla və işlə təminatı, yerləşdirilməsi ilə bağlı məsələlərin həll edilməsi üçün hökumət dairələri alman kolonistlərinin qarşısına yeni-yeni tapşırıqlar qoyurdular.

Kolonistlər dünyasını dəyişmiş qaçqınların dəfn olunmasını da öz hesablarına təşkil edirdilər və bu haqda şults yuxarı instansiyalara hesabat verirdi. Bu hesabatlar 2-ci polis sahəsinin pristavına göndərilirdi və hesabatlardan vəfat edən qaçqınların əksəriyyətinin kolonistlərin evlərində yaşamış uşaq və yeniyetmələrdən ibarət olduğu görünür[150].

Yelizavetpol qəza rəisinin Yeleneno kənd qəyyumluğuna göndərdiyi sərəncamda qeyd olunurdu ki, yazın gəlişi və kənd-tarla işlərinin

başlanması ilə əlaqədar əməkqabiliyyətli qaçqınlar kənd təsərrüfatı işlərinə cəlb edilsinlər. Əgər kimsə işləməkdən boyun qaçırsa, ona dövlət yardımının dayandırılması haqqında qərar çıxarılsın.

Qaçqınların təminatında mənfi halları aradan qaldırmaq üçün 1916-cı ilin avqustundan hər qaçqın ailəsinin başçısına kitabçalar verildi. Bu kitabçalarda qaçqın ailəsinin üzvləri, onlara verilən yardımın miqdarı əks olunurdu. Əgər qaçqın ailəsinin tərkibində dəyişiklik olarsa, ailə yaşayış yerini dəyişərdisə və sair hallar bu kitabçada qeyd olunurdu.

Qaçqınlar kolonist ailələrində məskunlaşsalar da, onlar yerli hakimiyyət orqanlarının ciddi nəzarətində idilər. "Ümumrusiya şəhərlər ittifaqı"nın Qafqaz komitəsinin xəstəxanası koloniyadakı qaçqınların yaşayış şəraitini nəzarətdə saxlayır və əgər məişət şəraiti lazımi səviyyədə olmazsa, onların lazaretə və yaxud başqa yerə köçürülməsi haqqında koloniya starşınasına təqdimat verirdi.

Qaçqınlar üçün dövlət tərəfindən ayrılan və ictimaiyyətin topladığı yardımın ünvanlı çatdırılmasına nəzarəti gücləndirmək məqsədilə 1916-cı ilin avqustundan hər koloniya qaçqınlarından iki nəfərin Yelizavetpol quberniya "Müharibədən zərər çəkənlərə yardım komitəsi"nə üzv seçilməsinə icazə verildi. Qaçqınlar tərəfindən seçilən bu şəxslərin əsas vəzifəsi quberniya orqanları tərəfindən qaçqınlara ayrılan ərzaq və maliyyə vəsaitinin qəbul edilməsinə, ədalətli paylanmasına nəzarət etməkdən ibarət idi[151].

Qaçqın nümayəndələri dövlət tərəfindən ayrılan pul vəsaitini Yeleneno kolonist cəmiyyətinə köçürür və əvəzində kolonistlər qaçqınların yaşayışını təmin edirdilər.

Cənubi Qafqazın alman koloniyalarında yerləşdirilən qaçqınlar Qafqaz cəbhəsi bölgəsindən gəlmişdilərsə, Şimali Qafqazın koloniyalarında əsasən Qərb quberniyalarından (Polşa, Qərbi Belorusiya, Qərbi Ukrayna, Baltikyani ərazilər), Şərqi Prussiyadan, Qalitsiyadan, Bukovinadan gəlmiş qaçqın və köçkünlər yerləşdirilmişdilər. Onların arasında slavyan mənşəli əhaliyə rast gəlinsə də, almanlar üstünlük təşkil edirdilər.

Şimali Qafqazda yerləşdirilən alman köçkünlərinin vəziyyəti başqa regionlara nisbətən daha əlverişli idi. Çünki Şimali Qafqazda, xüsusən də Don ərazisində çoxsaylı alman koloniyaları mövcud idi.

Baxmayaraq ki, köçkünləri həm rus kəndlərində, həm də alman koloniyalarında yerləşdirilirdilər, getdikcə köçkünlərin yerləşdirilməsi siyasətində dəyişikliklər baş verdi və onları daha çox alman koloniyalarında yerləşdirməyə başladılar.

Cənubi Qafqazda olduğu kimi Şimali Qafqazda da qaçqın və köçkün məsələləri ilə Ümumrusiya Zemstvo İttifaqı və onun yerlərdəki təşkilatları məşğul olurdular.

Köçkünlər dəmiryol stansiyasına gətirildikdən sonra orada təşkil olunan komissiyalar köçkünləri qəbul edib zemstvo komitələrinə təhvil verirdilər.

Cənubi Qafqazdan fərqli olaraq Şimali Qafqazda yerləşdirilən köçkünlərlə kolonistlər arasında dil problemi yaranmırdı. Bu isə onların yeni şəraitə daha tez uyğunlaşmasına təsir edən amillərdən biri idi.

Köçkünlərin yerləşdirilməsi zamanı konfessional amilə o qədər də diqqət yetirilmirdi. Qərb quberniyalarından gələnlər əsasən lüteran etiqadına ibadət edənlər olsa da, onlar həm lüteran, həm də katolik koloniyalarında məskunlaşdırılırdılar. Bu isə yalnız ibadət zamanı müəyyən çətinliklər yaradırdı.

Köçkünlər əsasən yerli əhalinin evlərində, ictimai binalarda və müvəqqəti olaraq məktəblərdə yerləşdirilirdilər. Bu cür məktəblərdə məşğələlər dayandırılırdı və məktəb binası mühafizə olunurdu ki, köçkünlər burada yanğın törətməsinlər. Demək olmazdı ki, köçkünlər bütünlüklə kolonistlərin hesabına yaşayırdılar. Köçkünlərin təminatı üçün dövlət xüsusi maliyyə vəsaiti ayırırdı. Onun miqdarı və verilmə prinsiplərinə müharibə illərində bir neçə dəfə dəyişiklik edilmişdi. Şimali Qafqaz qaçqınlarına adambaşına gündə 8.5, Cənubi Qafqazda yerləşən qaçqınlara isə müvafiq olaraq 10 qəpik vəsait ayrılırdı[152].

Yaşlı, əlil, çoxuşaqlı dul qadınlar üçün bu vəsaitə yaşamaq daha çətin idi, çünki əmək qabiliyyətinə malik olmayan bu kateqoriyaların əlavə qazanc yeri yox idi. Bu kateqoriyaya aid köçkünlər kolonistlərin yardımı sayəsində yaşayırdılar.

Dövlətin ayırdığı maliyyə yadımı vaxtlı-vaxtında çatdırılmırdı. Yardımın verilməsində yaranan fasilələr bəzən bir neçə aylar davam edirdi. Bütün bu dövr ərzində qaçqınlar kolonistlərin büdcəsindən maliyyələşdirilirdilər. Ədalət naminə qeyd etməliyik ki, qaçqınlara

yardım etmiş kolonistlər dövlət orqanlarından kompensasiya alırdılar. Arxiv sənədlərindən görünür ki, kompensasiyanın alınması kolonistlər üçün dövlət orqanları ilə uzun-uzadı yazışmalara səbəb olurdu və çox vaxt kolonistlər üçün nəticəsiz qalırdı.

Ən mürəkkəb məsələlərdən biri qaçqınların işlə təmin olunması idi. Onların böyük əksəriyyəti əkinçiliklə məşğul olmuşdu, yalnız aralarında tək-tək sənətkarlara rast gəlinirdi. Bunlar əsasən çəkməçilər, səbət hörənlər, toxucular idi və onlar da yerli kustar istehsalına uyğunlaşa bilməyərək işsiz qalırdılar[153].

Qaçqınların böyük əksəriyyəti kənd təssərüfatı ilə məşğul olmuşdular və yeni yaşayış yerində onların müstəqil şəkildə, heç olmasa, icarədar kimi fəaliyyət göstərməsi üçün şərait yaradılmırdı. Kənd təsərrüfatı alətləri, qoşqu qüvvəsi (heyvan və ya at almaq üçün) maddi vəsait yox idi. Yaxşı halda tarla işləri zamanı qaçqınlar yerli kolonistlərin təsərrüfatlarında muzdlu fəhləliklə məşğul olurdular. Hətta kənd təsərrüfatı işlərinin ən qızğın çağında qaçqınlar işsiz qalırdılar. Onların çoxu gündəlik, müvəqqəti işlərlə məşğul idilər.

Qaçqınların işlə təmin olunmasında yaranan problem həm Birinci Dünya müharibəsi illərində ümumi istehsalın aşağı düşməsi, həm də qaçqınların psixoloji durumu ilə izah oluna bilər. Müharibə ilə bağlı bütün ölkədə, o cümlədən alman koloniyalarında iqtisadi vəziyyət mürəkkəbləşmişdi.

Rekvizisiyalar, ordunun tələbatı üçün ərzaq məhsullarının cəbhəyə göndərilməsi ilə bağlı dövlət tərəfindən kənd təsərrüfatı məhsullarına vahid qiymətlərin qoyulması, vergilərin artırılması və ən əsası isə ləğvetmə qanunlarının tətbiqi – bütün bunlar təsərrüfatların gəlirinin aşağı düşməsinə, səpilmiş sahələrin miqdarının azalmasına gətirib çıxarmışdı. Bu səbəbdən koloniyalarda işin həcmi azalır, əlavə işçi qüvvəsinə ehtiyac qalmırdı. Baltikyani, Cənubi-Qərb və Şimali-Qərb quberniyalarından gəlmiş çoxlu ukraynalı, litvalı, polyak qaçqınları və həmçinin Birinci Dünya müharibəsində əsir alınmış düşmən əsgər və zabitləri də Şimali Qafqazda yerləşdirilmişdilər[154]. Avstriya-Macarıstan, Almaniya mənşəli hərbi əsirlərin əməyi Rusiya tabeliyində olan qaçqın və köçkünlərin əməyindən 3 dəfə ucuz qiymətləndirilirdi. Buna görə yerli kolonistlər üçün təsərrüfat işlərində hərbi əsirlərdən istifadə daha sərfəli idi.

Koloniyadaxili sosial vəziyyət amilini də nəzərdən qaçırmaq olmaz. Şimali və Cənubi Qafqazın alman koloniyalarına xas olan xüsusiyyətlərdən biri də işçi qüvvəsinə nisbətən torpaq sarıdan çatışmamazlığın yaranması idi: əhalinin təbii artımı sarıdan bu regionun koloniyalarında hələ XIX əsrin II yarısından işçi qüvvəsi artıqlıq təşkil edirdi və "törəmə" koloniyaların yaranmasına ehtiyac duyulurdu. Nəhayət, psixoloji amilləri də nəzərə almaya bilmərik. Müvəqqəti olaraq hansısa bir yerdə məskunlaşan və dövlətdən yardım alan qaçqınlar psixoloji cəhətdən öz doğma yerlərinə qayıtmağa ümüd edirdilər və bu səbəbdən yad təsərrüfatlarda çalışmağa o qədər də həvəsli deyildilər.

Yaşayış şəraitinin ağırlığı bir çox qaçqınları geri – öz yurdlarına qayıtmağa vadar edirdi. Bu proses kütləvi xarakter daşımasa da tək-tək hallarda belə hadisələrə təsadüf edilirdi.

1916-cı ilin avqustundan etibarən Volqaboyunda, Qafqazda yerləşdirilən alman-qaçqınlar inzibati-köçürülənlər statusuna endirildilər və onlara yardım verilməsi dayandırıldı. Hökumət daha çox rus və yaxud slavyan mənşəli qaçqınların şəraitinin yaxşılaşdırılması ilə ciddi məşğul olmağa başladı. Alman qaçqınları üzərində nəzarət getdikcə gücləndirilirdi. Hökumətin bu addımları antialman kampaniyasının bir hissəsi kimi qiymətləndirilə bilər, çünki qeyri-rus mənşəli başqa qaçqınlar – latışlar, polyaklar, assuriyalılar rus qaçqınlarla eyni hüquqa malik idilər və onlara qarşı heç bir ayrı-seçkilik siyasəti aparılmırdı.

Beləliklə, bu nəticəyə gələ bilərik ki, xeyriyyəçilik tədbirlərində kolonist cəmiyyətinin müxtəlif təbəqələri iştirak edirdilər və bu iştirakın miqyası kolonistin əmlak, sosial, təhsil və sair amillərlə şərtlənən vəziyyətindən asılı idi.

Sonda qeyd edə bilərik ki, Birinci Dünya müharibəsi Rusiya imperyasında, o cümlədən Qafqazda yaşayan almanların tarixində ən mürəkkəb və dramatik dövr olmuşdur. Onlar ümumi səfərbərliyə cəlb edilmiş, orduya maliyyə və ərzaq yardımı göstərmiş və bütün bunlarla yanaşı, Rusiyanın şovinist ruhlu dairələrinin ittihamlarına, hücumlarına, təpkilərinə cavab verməli olmuşlar. Situasiyanın faciəliyi bir də onda idi ki, almanlara qarşı irəli sürülən əsassız ittihamların təşəbbüskarı və ilhamçısı Rusiyanın hökumət dairələri olmuşlar.

1915-ci il 02 fevral qanunu Qafqaz almanlarına şamil edilməsə də, 1916-cı ilin əvvəllərindən bu qanuna əsasən onların da təsərrüfatları siyahıya alınmalı və ləğv edilməli idi. 1916-cı ilin sentyabrında artıq alman təsərrüfatlarının ləğvi prosesinin ardınca Qafqaz almanlarının kütləvi depor- tasiyasının hüquqi əsaslarının, müvafiq qanunverici aktların hazırlanmasına başlanıldı. Antialman kampaniyasının mexanizmləri son həddə qədər açıq-açığına işə salındı. Jandarm və polis idarələri hətta 1917-ci ilin fevralın sonuna qədər alman kolonistləri haqqında məlumatların toplanılmasını davam etdirirdilər.

1917-ci ilin fevralın 23-də Petroqradda xalq kütlələrinin tətil və nümayişləri ilə başlanan demokratik inqilab fevralın 27-də özünün ən yüksək zirvəsinə çatdı. Rusiyada burjua-demokratik inqilabı qələbə çaldı, bütün hökumət funksiyaları Dövlət Dumasının Müvəqqəti Komitəsinə keçdi.

1917-ci ilin martın 2-də çar II Nikolay Rusiya mütləqiyyəti tarixində son, lakin taxt-tacı tərk etmək haqqında ilk manifesti imzaladı. Elə həmin gün Müvəqqəti hökumət təşkil olundu. Hökumətin qarşısına qoyduğu əsas vəzifələrdən biri ölkədə qayda-qanun yaratmaq, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşunu bərqərar etməkdən ibarət idi.

Fevral burjua inqilabı Rusiyanın yeni hökumət dairələrini "alman məsələsinə" fərqli, yəni demokratik prizmadan yanaşmağa məcbur etdi.

Hakimiyyətə gələn Müvəqqəti hökumət "Avstriya, macar və alman mənşəli şəxslərə məxsus torpaq mülkiyyəti və torpaqdan istifadə qaydalarına aid qanunların yerinə yetirilməsinin dayandırılması" haqqında qərar qəbul etdi[155]. Qərara Müvəqqəti hökumətin sədri knyaz Lvov, Əkinçilik naziri A.Şinqaryov, Xarici İşlər naziri P.Milyukov, Maliyyə naziri M.Tereşenko və Xalq Maarifi naziri A.Manuilov imza atdılar. Qərarın kollektiv şəkildə qəbulu onun nə qədər əhəmiyyət kəsb etdiyini və hökumətdən məsuliyyət tələb olunduğunu sübut edirdi. Qərara görə 1915–1917-ci illər ərzində Rusiya almanlarına və ayrı-ayrı bölgələrdə yaşayan almanlara qarşı qəbul olunmuş 15 qanun aktının fəaliyyəti dayandırılırdı.

Bu "Alman təzyiqinə qarşı Xüsusi Mübarizə Komitəsi"nin səlahiyyətlərinin daralmasına gətirdi. Fevral inqilabından sonra

bu komitənin heç bir iclası keçirilməmişdi. Dövlət Şurasının sədri A.S.Steşinski, onun müavini, Ədliyyə naziri İ.E.İlyaşenko və xüsusi komitənin digər üzvləri tutduqları vəzifələrdən azad edildilər. 1917-ci ilin martında Xüsusi Komitənin İşlər İdarəsinin rəisi Çernyavski Müvəqqəti hökumətə müraciət etdi və hökumət tərəfindən xüsusi komissarın təyin olunması təklifini irəli sürdü. Bu, Xüsusi Komitənin fəaliyyətinin yenidən canlanmasına müsbət təsir göstərməli idi. Lakin Müvəqqəti hökumət artıq Xüsusi Komitənin fəaliyyətində maraqlı deyildi və Komitənin gələcək taleyi məsələsi açıq qaldı[156].

Yalnız 01 iyul 1917-ci il tarixli qərarla Müvəqqəti hökumət "Alman təzyiqinə qarşı Xüsusi Mübarizə Komitəsini" ləğv etdi.Ancaq bu akt antialman kampaniyasının sonu demək deyildi. Xüsusi Komitəni ləğv edən qərarda, həmçinin Müvəqqəti hökumət yeni bir qurumun – İdarələrarası Müşavirə yaratdı. Bu təşkilat Maliyyə Nazirliyinin nəzdində yaradılmışdı və tərkibi Bank, Daxili İşlər Nazirliyi və Əkinçilik Nazirliyinin nümayəndələrindən ibarət idi[157]. Bu təşkilatın yaradılması alman torpaq sahibliyinin ləğvi nəticəsində yaranmış mürəkkəb problemlərin həll edilməsi zərurətindən irəli gəlirdi. İdarələrarası Müşavirə geniş fəaliyyətə başlayınca Rusiyada baş verən siyasi hadisələr nəticəsində antialman kampaniyasına son qoyuldu.

## III FƏSİL
## ŞIMALİ QAFQAZ VƏ GÜRCÜSTAN ALMANLARININ MUXTARİYYAT HƏRƏKATI VƏ ONUN NƏTİCƏLƏRİ (1917-ci ilin martı- 1918-ci ilin mayı)

1917-ci ilin fevralın 23-də Petroqradda fəhlələrin tətil və nümayişləri ilə başlayan demokratik inqilab fevralın 28-də qələbə ilə başa çatdı. 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu və Dövlət Dumasının Müvəqqəti Komitəsi hökumətin funksiyalarını öz üzərinə götürdüyü barədə bəyanat verdi. Eyni zamanda Petroqrad Fəhlə Deputatları Soveti İcraiyyə Komitəsi fəaliyyətə başladı.

Yaranmış siyasi vəziyyətdə çar II Nikolay 1917-ci il 2 mart tarixdə Rusiya taxt-tacını tərk etməsi haqqında manifest imzalamağa məcbur oldu. Elə həmin gün Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin dəstəyi ilə Müvəqqəti hökumət təşkil edildi. Hökumətin əsas vəzifəsi ölkədə qayda-qanun yaratmaq və yeni, demokratik Rusiyanın konstitusiya quruluşunu qanunlaşdırmaq üçün Müəssislər Məclisinə seçkilər keçirilməsini təmin etməkdən ibarət idi.

Martın 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə – OZAKOM-a verildi. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. Qeyd edək ki, OZAKOM-da Cənubi Qafqaz xalqları bərabər təmsil olunmamışdılar ki, bu da yerlərdə Komitəyə qarşı narazılığın yaranmasına səbəb olurdu.

OZAKOM-a qarşı narazılıq yaradan ikinci bir amil Komitənin Rusiya, o cümlədən Qafqaz kəndliləri üçün həyati məsələ olan aqrar məsələdə konkret mövqedə durmaması oldu.

Yeni hakimiyyət orqanlarının təşkili məsələsində siyasi partiyalar və ictimai təşkilatlar müxtəlif mövqelərdə dayanırdılar. Bolşeviklər və eserlər Müvəqqəti hökumət orqanlarının nəzarətdə saxlanılması fikrini müdafiə edirdilər. Bununla yanaşı, Fəhlə Deputatları Sovetləri və İctimai Təşkilatlar İcraiyyə Komitələrinin eyni vaxtda yaradılması məhz onunla izah olunur ki, həm fəhlə, həm də kəndli kütlələrinin bir qismi Müvəqqəti hökumətə etimad göstərirdi. Bütün bunlar Rusiyanın başqa regionlarında olduğu kimi Qafqazda da ikihakimiyyətliliyin olduğunu göstərirdi.

Fevral inqilabı Rusiyanın bütün xalqları kimi alman əhalisinin də siyasi fəallığını artırdı. Gündəlikdə duran ən vacib məsələlərdən biri təkcə Qafqazda deyil, ümumiyyətlə Rusiyada yaşayan bütün alman əhalisinin eyni bir məqsəd ətrafında birləşdirmək, onlar arasında siyasi pərakəndəliyi aradan qaldırmaq və onları təsirə malik siyasi qüvvəyə çevrilməkdən ibarət idi.

Fevral inqilabının qələbəsindən sonra ölkədə demokratikləşməyə böyük ümid vardı. Alman əhalisi çar hakimiyyəti dövründə onlara qarşı qəbul edilən ayrı-seçkilik xarakterli qanunların ləğv edilməsini səbirsizliklə gözləyirdilər. 11 mart 1917-ci il tarixdə Müvəqqəti hökumətin qərarı ilə alman kolonistlərinə qarşı qəbul edilmiş ayrı-seçkilik xarakterli bütün qanunların və qərarların həyata keçirilməsi dayandırıldı[1].

Rusiyada fevral inqilabından sonra siyasi həyatda canlanma müşahidə olunurdu və Rusiya almanları da bu prosesdən kənarda qalmamışdılar.

Rusiya ictimai həyatında müzakirə olunan ən vacib məsələlərdən biri Rusiyanın gələcək siyasi quruluşu və milli məsələnin hansı formada həll edilməsi məsələsi idi. Rusiya kimi çoxmillətli ölkə üçün bu taleyüklü məsələnin hansı formada həll edilməsi dövlətin gələcəyini təyin edirdi.

XX əsrin əvvəllərindən və əsasən də çar hakimiyyəti devrildikdən sonra keçmiş Rusiya imperiyası ərazisində öz həllini gözləyən ən vacib məsələlərdən biri milli məsələ idi. Rusiyada mövcud olan bütün siyasi partiyalar, ictimai təşkilatların proqramlarında bu vacib məsələnin həllinə dair müddəalar öz əksini tapmışdı. Qeyd edək ki, milli məsələnin həllinə dair müxtəlif baxışlar mövcud idi və əsas mübahisə obyekti milli məsələnin hansı formada həll edilməsi ətrafında aparılırdı. Radikal monarxiyaçılar və bolşeviklər, o cümlədən Rusiyanın milli ucqarlarını təmsil edən bəzi siyasi qüvvələr ("Müsavat" partiyası, Türk Federalistlər Partiyası və s.) milli məsələnin milli-ərazi muxtariyyəti əsasında həlli variantına üstünlük verirdilər.

Ümumrusiya miqyaslı, həm də milli siyasi partiyaların əksəriyyəti Rusiyada yaşayan qeyri-rus xalqlarına, o cümlədən Rusiya almanlarına mədəni muxtariyyətin verilməsini tələb edir, bu ideyanın həyata keçirilməsi uğrunda mübarizə aparırdılar.

Rusiyanın bütün qeyri-rus xalqları kimi alman əhalisi də milli muxtariyyəti milli məsələnin və Rusiyanın gələcək siyasi quruluşunun təyin olunmasının bir variantı kimi görürdülər və əsas mübarizə milli muxtariyyətin forması ətrafında gedirdi: Qafqaz almanları milli-ərazi və yaxud milli-mədəni muxtariyyət formasından birini seçməliydilər.

Apardığımız tədqiqatlar belə bir fikir söyləməyə imkan verir ki, Qafqaz almanları daha çox milli-mədəni muxtariyyət uğrunda mübarizə aparmışlar[2].

Rusiya imperiyasına Habsburqlar imperiyasından gələn milli-personal muxtariyyət nəzəriyyəsinin baniləri, Avstriya sosial-demokratları K.Renner və O.Bauyer hesab edirdilər ki, vətəndaş hüquqlarının və azadlıqlarının bəyan edilməsi, milli bərabəriyin konstitutsiyada əks olunması konkret olaraq milli hüquqların subyektini təyin etmədiyindən, onların heç biri milli azadlığın təmin olunmasına zəmanət vermir. Ərazi muxtariyyəti də milli hüquqların təmin olunmasına zəmanət vermir, belə ki, bu halda hüququn subyekti rolunda etnos yox, müəyyən ərazi çıxış edir[3].

Avstriya marksistlərinin fikrincə, milli birliklər əvəzinə, ərazi subyektinə milli hüquq daşıyıcısı statusunun verilməsi milli münaqişələrin yaranmasının əsas səbəbidir.

K.Renner və O.Bauyerin konsepsiyasının mahiyyəti ondan ibarət idi ki, milli hüququn mənbəyi və daşıyıcısı əksər milli münaqişələr zamanı mübarizə obyekti olan müəyyən ərazi deyil, insanların könüllü şəkildə yaratdığı milli birliklər olmalıdır.

Vətəndaşların bu və ya digər milli birliyə şəxsi aidiyyatı kadastr institutunun (siyahıyalma) köməyi ilə həyata keçirilməlidir. Milli-personal muxtariyyət şəraitində kadastrın ictimai-hüquqi əhəmiyyəti, hansısa milli-ərazi vahidinin əhəmiyyətindən az deyil. Kadastr əsasında yaradılan milli birliklər kollektiv hüquqi şəxs statusu alırlar, millətin mədəni tələbatlarının ödənilməsi və onların hüquqlarının müdafiə olunması vəzifəsini öz üzərinə götürürlər, müvafiq dövlətin konstitutsiyası çərçivəsində qanunverici və icraedici orqanlar vasitəsi ilə öz qanunlarını qəbul etdirirlər. Lazımi maliyyə vəsaitlərinin toplanması üçün milli özünüidarə qurumları milli birliyin üzvlərindən vergi toplanmasını təşkil edirlər. Beləliklə, milli

münasibətlər sferasında deetatizasiya prosesi gedir və milli-mədəni muxtariyyət vətəndaş cəmiyyətinin formalaşmasında mühüm elementə çevrilir. Hər hansı şəxsin belə milli-mədəni birliyə daxil olması könüllülük prinsipinə arxalandığı üçün ona "milli-personal" və yaxud bu cür muxtariyyətin heç bir ərazi çərçivəsinə sığmadığı üçün ona "eksterritorial"* muxtariyyət deyilir. Bu muxtariyyət forması funksiyalarının daha çox mədəni sahəyə aid olduğundan, onu tarixi ədəbiyyatda daha çox milli-mədəni muxtariyyət kimi adlandırmışlar.

Beləliklə, Qafqaz almanlarının mübarizə apardığı milli-mədəni muxtariyyət konsepsiyasını xarakterizə edən 3 əsas əlamət görürük:

a) personalizm – yəni könüllü etnik identifikasiya prinsipi;

b) eksterritoriallıq – yəni dövlətin mövcud ərazi quruluşunu, ərazi status-kvonu pozmadan milli maraqların və hüquqların təmin olunması;

c) milli birliklərin, təşkilatların kollektiv hüquq subyekti kimi tanınması, bu birliklərə, spesfik milli maraqlarını müdafiə etmək və milli birliyi təmsil etmək səlahiyyətlərinin verilməsi.

Siyasi partiyaların böyük əksəriyyəti və əsasən də alman əhalisi arasında daha çox populyar olan eserlər, kadetlər, trudoviklər, menşeviklər, milli ucqarlardakı bir çox milli partiyalar milli-mədəni muxtariyyət modelinə səpələnmiş, dispers** halda yaşayan etnosların və milli azlıqların problemlərinin həllinin optimal variantı kimi baxırdılar. Rusiyada vətəndaş müharibəsi və inqilablar dövrünün siyasi praktikasında eksterritorial, milli-personal muxtariyyət milli azlıqların maraqlarını təmin edən zəruri forma kimi qəbul edildi.

Çar hakimiyyəti devrildikdən sonra Qafqaz almanlarının özünüidarə sistemini yaratmaq uğrunda mübarizəsi belə bir tarixi kontekstdə davam etmişdir.

Fevral inqilabı demokratik azadlıqlar elan etdikdən sonra Rusiyanı qurultaylar, konqreslər, yığıncaqlar dalğası bürüdü. Onların əksəriyyəti milli xarakter daşıyırdı və əsas məqsədləri milli idarəetmə sisteminin yaradılması idi. Bu baxımdan Rusiyanın bütün bölgələrində, o cümlədən Qafqazda yaşayan alman əhalisi istisna

* Toxunulmaz

** Parçalanmış, dağılmış, ayrılmış, səpələnmiş

deyildi. Fevral inqilabının ilk günlərindən "Burqer Deutsche – orqaniezirt Euch!" ("Alman vətəndaşlar – təşkil olunun!") şüarı altında "Alman və mennonitlərin Ümumrusiya İttifaqı"nın yaradılması prosesi başladı[4]. Tezliklə yerlərdə bu "İttifaq"in şəbəkəsinin yaradılması gündəmə gəldi və bu prosesdə Volqaboyu və Şimali Qafqaz almanları xüsusi fəallıq göstərirdilər. Adı çəkilən İttifaq"ın yaradılmasında əsas məqsəd Rusiyanın ayrı-ayrı regionlarında yaşayan alman əhalisinin sosial-mədəni maraqlarını müdafiə etməkdən ibarət idi.

12 mart 1917-ci il tarixdə K.Lindemanın başçılıq etdiyi milli-liberal qrupun Moskvada keçirdiyi yığıncaqda Rusiya almanlarının milli-mədəni muxtariyyət hərəkatının başlanğıcı qoyuldu. Elə həmin il 18 mart tarixdə Odessada kadet partiyasının mövqelərində dayanan Cənubi Rusiya almanlarının yığıncağı keçirildi[5]. Beləliklə, 1917-ci ilin yazında Rusiyada alman milli hərəkatının mərkəzinə çevrilmək uğrunda Moskva və Odessa arasında iddialıq mübarizəsi başladı.

20-22 aprel 1917-ci il tarixdə Moskvada Rusiya alman kolonistlərinin Nümayəndələr qurultayı oldu. Bu qurultayda Rusiyanın 15 quberniyasından 86 nümayəndə iştirak edirdi. Kuban, Don, Terek vilayətlərinin, həmçinin Bakı, Yelizavetpol və Tiflis quberniyalarında yaşayan alman əhalisinin nümayəndələri də bu qurultayda iştirak edirdilər. Cənubi Qafqaz alman nümayəndələrinə yelenendorflu Teodor Hummel başçılıq edirdi[6].

Qurultayda Rusiya almanlarının Müəssislər Məclisinə seçkilərdə iştirakına hazırlığı məsələsi, həmçinin alman hərəkatında mövcud olan müxtəlif siyasi platformalara malik partiyaları, təşkilatları, müxtəlif baxışları birləşdirə biləcək vahid siyasi platformanın formalaşdırılması üstünlük təşkil edən məsələlərdən idi. Çünki almanları inteqrasiya etmək, onları nüfuzlu siyasi qüvvəyə çevirmək zərurəti yaranmışdı. Qurultayın gündəliyində, mədəni və dini özünütəyinetmə, kilsənin islah ediməsi, alman torpaq mülkiyyətinə yönələn çar hökumətinin qəbul etdiyi "ləğvetmə" qanunlarının ləğv edilməsi məsələləri dururdu. Qurultayda bütün alman millətindən olan Rusiya vətəndaşlarının ümumi mədəni və mənəvi maraqlara malik olan Ümumrusiya təşkilatında birləşdirilməsi zərurəti haqqında yekdilliklə qərar qəbul edildi. Qurultayda həmçinin qərara alındı ki, Rusiyada alman əhalisinin yığcam, sıx yaşadığı ərazilərdə özünüi

darəetmə sistemləri yaradılsın. Yerlərdə – koloniyalarda, qəzalarda, vilayətlərdə komitələr yaradılmalı və onların hamısı iyerarxik şəkildə Petroqradda yerləşəcəyi planlaşdırılan Mərkəzi Komitəyə tabe olmalı idi. Bütün komitələrdə statistika və hüquq bürolarının yaradılması nəzərdə tutulurdu[7].

Mərkəzi Komitə bütün Rusiya almanlarının və mennonitlərinin nümayəndələr toplantısı kimi yaradılmışdı və ona aşağıdakı səlahiyyətlər verilirdi:

1) alman və mennonit əhalisinin maraqlarının müdafiəsi;

2) ayrı-ayrı qruplar arasında yaranacaq münaqişələrin, fikirayrılığının həll edilməsi;

3) alman və mennonit cəmiyyətləri arasında birləşdirici (kommunikativ) funksiyanı yerinə yetirmək;

4) dövlət orqanları ilə alman milli təşkilatları, birlikləri arasında əlaqə yaratmaq;

5) dövlət orqanları ilə alman mətbuatı arasında əlaqələrin yaradılması.

Mərkəzi Komitəyə fəaliyyət üçün çox geniş səlahiyyətlər verilmişdi. Mərkəzi Komitənin formalaşması yalnız yerlərdə yerli komitələrin yaranmasından və onların nümayəndələrinin Mərkəzi Komitəyə göndərilməsindən sonra mümkün olduğundan, Moskva qurultayında müvəqqəti Mərkəzi Komitə yaradıldı. Onun tərkibinə Dövlət Dumasının keçmiş deputatları İ.Q.Lüts, A.F.Meyendorf, P.P.Şreder, həmçinin professorlar K.E.Lindeman, Y.F.Propp, A.A.Hübertuş daxil edildilər[8].

Qurultayda qərara alındı ki, Rusiya almanlarının müxtəlif siyasi partiyalara meylini, bu partiyaların proqramlarını kənara qoyaraq bütün Rusiya almanlarının maraqlarını ifadə edən və bütün kolonistlər üçün mütləq olan vahid siyasi platforma hazırlanmalıdır. Bu qərarın qəbul edilməsində əsas məqsəd müxtəlif siyasi partiyalara meyil göstərən kolonist kütlələri arasında siyasi mübarizənin qızışmasına yol verməmək, yəni Müəssislər Məclisinə seçki zamanı kolonistlərin parçalanmasının qarşısını almaqdan ibarət idi.

Qurultayda müzakirə olunan ən vacib məsələlərdən biri də Rusiyanın gələcək siyasi quruluşu məsələsi idi. Ənənəvi olaraq həmişə monarxiyanı dəstəkləyən almanlar qurultayında konstitutsiyalı

monarxistlərə güclü müqavimət göstərərək Rusiyanın dövlət quruluşunun federativ respublika olmasına səs verdilər.

Alman kolonistlərini narahat edən məsələlərdən biri də aqrar məsələ idi. Məliumdur ki, Birinci Dünya müharibəsi illərində minlərlə alman kolonisti öz xüsusi torpaq sahəsindən məhrum edilmişdi və bu səbəbdən sadə kolonist kütlələri qurultaydan torpaq məsələsində ədalətli qərar gözləyirdilər.

Qurultayda, ümumiyyətlə, xüsusi mülkiyyət prinsipləri mövcud olduğu şəraitdə torpaq üzərində xüsusi mülkiyyətin saxlanması prinsipi qəbul edildi. Bununla yanaşı, sahibinə torpağın dəyərinin ödənilməsi şərtilə bəzi xüsusi mülkiyyətdə olan torpaqların dövlət ehtiyacları üçün xəzinə tərəfindən əldə edilməsi hüququ da bəyənildi. Qurultayda sağ alman liberalları mədəni-milli muxtariyyət formulunu irəli sürdülər və bu formul qurultay tərəfindən dəstəkləndi. Bu formula görə, Rusiya almanlarına istənilən tədris müəssisəsinin açılması işində geniş şəxsi və ictimai təşəbbüs hüququ, o cümlədən, bu tədris müəssisələrində rus dilinin mütləq fənn kimi tədris olunması ilə yanaşı, tədrisin alman dilində aparılması hüququ və tədris personalının müəssisə tərəfindən müstəqil seçmək hüququ nəzərdə tuturdu. Qurultayın sonunda "Alman milliyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya İttifaqı"nın yaradıldığı elan edildi və 1917-ci ilin avqustun ortalarında Rusiya alman kolonistlərinin və azad mülkiyyətçilərin II qurultayının keçirilməsi qərara alındı[9]. Göründüyü kimi, Moskvada keçirilən Rusiya almanlarının və mennonitlərin I qurultayı alman əhalisini narahat edən bir çox siyasi və iqtisadi, mədəni məsələlərə öz münasibətini bildirdi, alman əhalisinin gələcək fəaliyyət istiqamətlərinə müəyyən aydınlıq gətirdi. Almanların aprel qurultayında qaldırdıqları məsələlər sırasında yerli özünüidarəetmə sisteminin yaradılması təxirə salınmadan öz həllini gözləyən məsələ idi. Qurultay başa çatdıqdan sonra bir neçə gün sonra 27 aprel 1917-ci il tarixdə Zaqafqaziya Xüsusi Komitəsi Zaqafqaziya hüdudlarında yerli hakimiyyət orqanlarının yenidən təşkili haqqında qərar qəbul etdi[10]. Qərarda Zaqafqaziyada yerli hakimiyyət orqanlarının yenidən təşkil olunmasının qaydaları göstərilirdi. Qaydalarda qeyd olunurdu ki, Zaqafqaziya diyarında yeni inzibati qaydaların bərqərar olunmasına qədər müvəqqəti olaraq hakimiyyət ümumi, açıq və gizli səs-

vermə yolu ilə seçilmiş icraiyyə komitələrinə həvalə edilir. İcraiyyə komitələri ierarxiya şəklində bir-birindən tabeçilikdə olmalı idi: kənd icraiyyə komitəsi rayon komitəsinə, rayon icraiyyə komitəsi qəza icraiyyə komitəsinə, o da öz növbəsində quberniya (vilayət) icraiyyə komitəsinə tabe olmalı idi[11].

Hər icraiyyə komitəsinin başında yerli əhali tərəfindən seçilmiş komissar dururdu. Zaqafqaziyada mövcud olan alman koloniyaları kənd icma statusuna malik olduqları üçün adı çəkilən qərara görə hər koloniyada seçkilər keçirilirdi və koloniyanın icraiyyə komitəsi və komissarı seçilirdi. İcraiyyə komitəsinin üzvlərinin sayı koloniyada yaşayan əhalinin sayına görə təyin edilirdi. Qaydalara görə hər 100 nəfər seçici icraiyyə komitəsinə 1 nəfər nümayəndəsini seçə bilərdi. Əgər koloniyanın əhalisinin sayı 100-dən az olarsa, onda həmin koloniya qonşu koloniyaya birləşərək İcraiyyə komitəsinin yaradılmasında iştirak edə bilərdi. Qərarın imzalandığı dövrdə Gürcüstanda, istərsə də Azərbaycanda əhalisinin sayi 100-dən az olan koloniya qeydə alınmamışdı[12].

İcraiyyə komitəsinə seçkilərdə cinsindən, milliyyətindən, dini mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq koloniyada yaşayan və 20 yaşına çatmış hər bir sakin iştirak edirdi. Yalnız xarici ölkə təbəələri, müxtəlif cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunanlar, oğurluğa və dələduzluğa görə həbsdə olanlar seçkilərdə iştirak etmək hüququndan məhrum olmuşdular.

İcraiyyə komitəsi seçildikdən sonra onun üzvləri öz aralarından icraiyyə komitəsinin sədrini,onun müavinlərini və katibi seçirdilər[13].

Koloniya icraiyyə komitəsinin əsas vəzifələri qayda-qanun, əmin-amanlığın bərqərar edilməsi və möhkəmləndirilməsi, koloniya cəmiyyəti daxilində kənd milisinin yaradılması, koloniya sakinlərindən və yaxud kənar şəxslərdən koloniya komissarını, vergi müfəttişini və sair vəzifəli şəxslərin seçilməsindən, ərzaq, yol, məktəb işlərinin qaydaya salınması, vergi və müxtəlif ödəmələrin qanuni yığılması üçün tədbirlər tökmək kimi işlərin yerinə yetirilməsindən ibarət idi. Yerdə qalan bütün məsələlərin müzakirəsi üçün koloniya icmasının yığıncağı çağırılırdı və qeyd edək ki, yığıncaq komissar və yaxud onun köməkçisi tərəfindən çağırılırdı. Hər koloniyada komissara bir nəfər köməkçi seçilirdi[14].

Koloniyalarda starşinalar, onların köməkçiləri vəzifələri ləğv edildi, onların səlahiyyətləri və vəzifələri kənd komissarlarına həvalə edildi.

İcraiyyə komitələrinə hətta koloniyalarda yaşamayan səxslər də seçilə bilərdi. Bundan savayı, hər koloniyanın icraiyyə komitəsi yuxarı instansiyalar (rayon komitələrinə) öz namizədlərini seçə bilərdi. İcraiyyə komitələri rayon dairələrində zemsto-təsərrüfat və inzibati-polizey (polis) funksiyalarını yerinə yetirirdilər. İcraiyyə komitələrində qərarlar səsvermə yolu ilə – səs çoxluğu ilə qəbul edilirdi.

Kənd komissarı və onun köməkçisi rayon komissarı tərəfindən təsdiqlənirdi. Rayon komissarları, şəhər milis rəisi, qəza milis rəisi isə quberniya komissarı tərəfindən təsdiqlənirdi. Komissarlar icraiyyə komitələrinə tabe idilər və onların fəaliyyəti daim icraiyyə komitələrinin nəzarətində idi.

Zaqafqaziya Xüsusi Komitəsinin sədri V.A. Xarlamov və işlər müdiri əvəzi Q.Sarkisov olmuşdur[15].

Tezliklə Cənubi Qafqazın bütün alman koloniyalarında Müvəqqəti hökumətin təsdiq etdiyi komissarlar fəaliyyətə başladılar. Qafqazda ən böyük alman koloniyası – Yelenendorfun komissarı Xristian Sayzer təyin olundu. Alman koloniyalarının ictimai-siyasi həyatının mühüm məsələlərini həll etmək üçün yeni orqanlar – alman milli komitələri yaradıldı.

Qafqaz almanlarının siyasi fəaliyyətinə çaşqınlıq gətirən əsas amil Ümumrusiya alman hərəkatında nəzərə çarpan siyasi dağınıqlıq idi.

Volqaboyunda, Cənubi Ukraynada, Qərbi Sibirdə, Altayda və Almanların kütləvi məskunlaşdıqları başqa regionlarda alman milli hərəkatı müəyyən xüsusiyyətlərə məxsus idi və əsasən regionların coğrafi, demoqrafik, sosial-iqtisadi xüsusiyyətlərindən doğan bu müxtəliflik vahid Ümumrusiya alman hərəkatının formalaşmasına əngəllər törədirdi. Məsələn, almanların ilk məskunlaşdığı və regionda əhalinin böyük çoxluğunu təşkil etdiyi Volqaboyu regionunda hələ 1917-ci il martın 9-da yerli komitələr yaranmışdı. Moskva qurultayından bir neçə gün sonra – 25-27 aprel 1917-ci il tarixdə Saratovda Volqaboyu almanlarının I konqresi keçirildi[16]. Əgər Moskvada oktyabristlər dominantlıq edirdilərsə, Volqaboyu almanlarının konqresində sol sentrislər üstünlük təşkil edirdilər. Saratov

konqresində Volqaboyu almanlarının iqtisadi, siyasi, sosial maraqlarının ziddiyyətli xarakteri üzə çıxdı. Məsələn, Qafqaz almanlarından və ümumiyyətlə Rusiyanın bir sıra regionlarından fərqli olaraq Volqaboyu almanları muxtariyyət məsələsində daha çox solmeyilli partiyaların və sosial-demokratların mövqeyini müdafiə edir, Volqaboyunda almanların milli-mədəni deyil, milli-ərazi muxtariyyətinin əldə edilməsi süarını irəli sürürdülər. Volqaboyu almanları arasında sosialistlərə və ilk növbədə bolşeviklərə rəğbətlə yanaşanların da sayı az deyildi. Qafqazla müqayisədə Volqaboyu almanlarının siyasi meyillərinin aralıq xarakter daşıması, burada regional maraqları müdafiə edəcək bir partiyanın yaradılmasını zəruri etmişdi və konqresdə bu partiyanı "Volqaboyu almanları" ("Die Wolqadeutschen") adlandırmaq qərara alındı[17].

Saratovda konqres keçirildiyi vaxt, paralel olaraq Volqaboyu almanlarının sosialistlərə meyil edən qüvvələri öz qurultaylarını çağırdılar və burada "Alman sosialist ittifaqı"nın yarandığı elan edildi. Həm Moskva qurultayının, oktyabrist və kadetlərin, həm də soltəmayüllü qüvvələrin Saratov konqresinin qərarlarına əks çıxaraq sosialistlər Petroqrad sovetini dəstəkləyərək bütün iqtisadi, siyasi məsələlərdə rus əsgər, fəhlə, kəndli sovetləri ilə əməkdaşlıq etməyi, kapital və iri burjuaziyanın maraqlarını müdafiə edən alman oktyabrist-kadet qruplarına qarşı mübarizə aparmağı qərara aldılar[18].

Ancaq Moskva üçün ən təhlükəlisi Ukraynanın cənubunda gedən proseslər idi. Burada Odessa şəhəri Ümumrusiya almanlarının siyasi mərkəzinə çevrilmək uğrunda Moskva ilə ciddi rəqabət aparırdı. Odessada fəaliyyət göstərən Cənubi Rusiya almanları Komitəsi 1917-ci ilin aprelindən rus dilində nəşr etdirdiyi "Yejenedelnik" ("Еженедельник") qəzeti vasitəsi ilə Odessa mərkəz olmaqla Ümumrusiya almanlarının birliyinin yaradılması istiqamətində geniş təbliğat işi aparırdı[19].

14-17 may 1917-ci il tarixdə Odessada Ümumrusiya almanlarının konqesi keçirildi və burada Rusiyanın bütün bölgələrindən, o cümlədən Qafqaz regionundan gəlmiş 2 min nümayəndə iştirak edirdi. Konqresin gündəliyində duran əsas məsələ Rusiya almanlarının təşkilatlanması məsələsinə aydınlıq gətirmək və alman əhalisinin siyasi platformasının formalaşdırılması idi. Demək olar ki, Odessa

konqresi Moskva qurultayında müzakirə olunan məsələləri yenidən Rusiya almanlarının müzakirəsinə çıxartdı və Moskva qurultayından fərqli qərarlar qəbul etdi. Məsələn, Rusiyanın gələcək siyasi quruluşu məsələsində konqres iştirakçıları Rusiyanı parlamentli demokratik respublika kimi görmək arzularını ifadə etdilər və xalqların öz müqəddəratını təyinetmə hüququnu alqışladılar. Bununla yanaşı, qeyd olundu ki, azad, demokratik Rusiyanın birliyi, ərazi bütövlüyünü poza biləcək hər hansı bir separatizmin qarşısı qəti şəkildə alınmalıdır[20].

Cənubi Rusiya alman ittifaqı Moskva qurultayında təklif olunan Rusiyanın federativ respublikaya çevrilməsi variantına qarşı çıxaraq federativ quruluşun Rusiya almanlarının maraqlarına zidd olduğunu bəyan etdi. Nümayəndələrin fikrincə, federasiya şəraitində müxtəlif muxtar qurumlarda yaşayan alman əhalisinin milli, mədəni birliyini təmin etmək mümkün olmayacaqdır. Qeyd etmişdik ki, Moskva qurultayında alman və mennonitlərin Ümumrusiya ittifaqının yaradılması haqqında proyekt müzakirə edilmişdi və Odessa konqresi daha konkret addım ataraq "Alman və mennonitlərin Ümumrusiya ittifaqı"nın yarandığını elan etdi. "İttifaq"ın tərkibində 4 seksiyanın – təşkilati, siyasi, kənd təsərrüfatı-iqtisadi və mədəni-maarif seksiyalarının yaradılması nəzərdə tutulurdu[21].

Odessa konqresinin 1917-ci ilin aprelində keçirilən Moskva qurultayının qərarlarına zidd qərarlar qəbul etməsi, Rusiya almanlarının və mennonitlərinin Ümumrusiya ittifaqını yaratmaq və sair məsələlərin həllində Moskvanı qabaqlamaq cəhdləri onu göstərirdi ki, Odessa Rusiyanın cənubunu Ümumrusiya alman hərəkatının təşkilati mərkəzinə çevirmək iddialarını güdürdü. Sonralar da Moskva ilə Odessa arasında gizli qarşıdurma davam etmişdi, lakin Müvəqqəti hökumət dövründə bu qarşıdurma açıq münaqişə xarakteri almamışdı[22].

Odessa, Moskva, Petroqrad arasında gedən siyasi mübarizə Qafqaz almanlarının milli hərəkatına müəyyən çaşqınlıq gətirdi. Əgər Cənubi Qafqaz almanları nisbətən monolit qüvvə kimi çıxış edirdilərsə, Şimali Qafqaz haqqında bunu demək olmazdı. Məsələn, Şimali Qafqazın Kuban, Terek vilayətlərində, həmçinin Stavropol quberniyasında yaşayan mennonitlər xüsusi mövqe nümayiş

etdirirdilər. “Alman və mennonitlərin Ümumrusiya ittifaqı”nın yaradılmasına, protestant və katolik konfessiyasına aid almanlarla birləşməyə razılıq verən mennonitlər, bununla yanaşı, öz “dini muxtariyyətlərinin qorunması” şərtini irəli sürdülər. 1917-ci il 27 iyul tarixdə Georgiyevskdə (Stavropol quberniyası) Şimali Qafqaz mennonitlərinin yığıncağı baş tutdu və burada “Ümumrusiya alman ittifaqı”na birləşmək haqqında qərar çıxarıldı[23]. 1917-ci ilin 14-18 avqust tarixdə Oryol şəhərində Mennonitlərin Ümumi konqresi keçirildi və mennonitlərin “dini muxtariyyətinin saxlanması” şərtilə Rusiyada yaşayan bütün mennonitlərin “Alman və mennonitlərin Ümumrusiya ittifaqı”na birləşməsi qərarı yekdilliklə qəbul edildi[24].

Hələ Fevral inqilabının ilk günlərində Tiflisdə də almanların müvəqqəti komitəsi yaradıldı. Bu müvəqqəti komitənin əsas vəzifəsi Cənubi Qafqaz quberniyalarında yaşayan alman əhalisinin nümayəndələr qurultayına hazırlıq işlərinin görülməsindən ibarət idi. Keçiriləcək qurultayda, həmçinin, mərkəzi Tiflis olmaqla daimi komitənin yaradılması nəzərdə tutulmuşdu. 14 may 1917-ci il tarixdə Tiflisdə Cənubi Qafqazda yaşayan “Alman millətindən olan Rusiya vətəndaşları”nın qurultayı keçirildi. Qurultaya Gürcüstanda mövcud olan bütün alman koloniyalarının, Azərbaycandan isə Yelenendorf, Annenfeld və Georqsfeld koloniyasının nümayəndələri dəvət olunmuşdular[25]. Qurultaya Tiflis almanlarının lideri, professor Bernşteyn sədrlik edirdi. Qurultayda bütün alman koloniyalarının nümayəndələri çıxış etdilər və koloniyalardakı vəziyyət haqqında məlumat verdilər. Qurultay iştirakçıları “Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya ittifaqı”nın yaradılmasının zəruri olduğunu vurğuladılar[26].

“İttifaq”ın yaradılmasının ən ümdə vəzifələrindən biri I Dünya müharibəsi zamanı Sibirə və sair ucqar ərazilərə sürgün edilmiş alman əhalisinə yardım etməkdən ibarət idi.

Cənubi Qafqaz almanlarının qurultayında mərkəzi Tiflisdə olmaqla Zaqafqaziya diyar alman komitəsi seçildi və hər koloniyada yerli alman komitəsinin yaradılması qərara alındı. Bu komitələr qarşısında koloniyalar haqqında statistik məlumatın toplanması, koloniyalarda baş verən proseslər haqqında qurultaya hesabatın hazırlanması və sair vəzifələr qoyulmuşdu. Bütün bunlar qurultayda

proqram kimi qəbul edildi. Yerli komitələrin fəaliyyəti koloniyaların öz hesabına həyata keçirilməli idi. Qurultayda, həmçinin, koloniyaların mövcud sosial-iqtisadi vəziyyəti, koloniya sakinlərinin şəxsi həyatının və əmlakının cinayətkar hərəkətlərdən qorunması, yetim və kimsəsizlərə qəyyumluq şuralarının yaradılması, Münsiflər (Tretey) məhkəməsi, cəbhədə vuruşanların ailələrinin maddi vəziyyəti və sair məsələlər müzakirə edildi[27].

Yeri düşmüşkən qeyd edək ki, koloniyalarda yaradılan komitələr Cənubi Qafqazda müstəqil dövlətlərin yaranmasına qədər, yəni 1918-ci ilin mayına qədər fəaliyyət göstərmiş və alman koloniyalarının həyatında mühüm rol oynamışlar.

Birinci Dünya müharibəsi illərində çarizmin almanlara qarşı apardığı ayrı-seçkilik siyasəti nəticəsində kolonist təsərrüfatlarına dəyən ziyanın aradan qaldırılması alman milli komitələrini narahat edən ən mühüm məsələlərdən biri idi.

Müharibənin ən ağır nəticələrindən biri koloniyalarda əsas təsərrüfat sahəsi olan üzümçülüyün və şərabçılığın tənəzzülü idi. İqtisadi böhranın qarşısını almaq üçün Cənubi Qafqazın alman kolonistləri mərkəzi Tiflis olmaqla Zaqafqaziya diyar Üzümçülər və Şərabçılar Şurası yaratdılar. Müvafiq şuralar Cənubi Qafqazın üzümçülük koloniyalarında da yaradıldı ki, onlardan ən nüfuzlusu 22 iyun 1917-ci il tarixdə Yeleneno koloniyasında yaradılan Üzümçülər və Şərabçılar Şurası oldu. Onun tərkibinə T.Hummel, X.Forer, Q.Reytenbax, İ.Breytmeyer, Q.Sayzer və başqa tanınmış kolonistlər daxil oldu[28].

1917-ci il 25 mart tarixdə Müvəqqəti hökumət yerlərdə ərzaq komitələrinin yaradılması haqqında qərar verdi. Komitələrin əsas funksiyası sabit qiymət əsasında taxılın toplanması, bölgüsü və satışına dövlət inhisarını həyata keçirməkdən ibarət idi. 1917-ci il mayın 21-də Bakı Ərzaq Komitəsinə keçirilən seçkilər zamanı müsəlman bloku daha çox səs toplayaraq seçkilərdə lider mövqe tutdu. "Kaspi" qəzetinin yazdığı kimi, müsəlman əhalisi bu seçkilərdə görünməmiş mütəşəkkillik göstərdilər və "ictimai-siyasi kamillik imtahanından uğurla çıxdılar[29]."

Cənubi Qafqazın alman koloniyalarında yayın əvvəllərinə ərzaq komitələri hələ yaradılmamışdı və bu səbəbdən əhaliyə ərzaq

bölüşdürülməsində müəyyən problemlər ortaya çıxırdı. 1917-ci ilin iyununda Yelenendorfda almanlardan savayı, 720 nəfər erməni və tatar (azərbaycanlı) yaşayırdı. Onlar da un və qəndi koloniya anbarlarından alırdılar, ancaq iyun ayından onlara ərzaq verilməsi dayandırıldı. Yelizavetpol qəza Ərzaq Komitəsinə yazdıqları şikayətdə erməni və tatar (azərbaycanlı) əhalisi almanların ayrıseçkilik etməsi, kolonistlərin "özlərinin ərzaq alaraq onlara ərzaq ayırmamasından" yazırdılar[30]. Şikayətnamədə 720 nəfərin un sarıdan əziyyət çəkməsi və onlara təcili un ayrılması tələb olunurdu.

7 iyun 1917-ci il tarixdə Yelizavetpol qəza Ərzaq Komitəsi "Yardım" kənd təsərrüfat birliyinə erməni və tatarlara (azərbaycanlılara) ərzaq verilməməsinin səbəbini araşdırmağı tapşırdı[31].

Yelenendorf İcraiyyə Komitəsi sədrinin 11 iyun 1917-ci il tarixli cavabında göstərilir ki, "koloniyaya çoxdan qənd və un gətirilməmişdir. Koloniya əhalisi köhnə rezerv ehtiyat fondu hesabına may ayında un və şəkər almışlar, ancaq iyun ayının hesabına ərzaq daxil olmadığına görə hələlik, nə yerliləri, nə də müvəqqəti yaşayan sakinləri şəkər və unla təchiz etmək imkanımız yoxdur"[32]. Beləliklə görürük ki, qeyri-alman sakinlərə ərzaq verilməməsi koloniya rəhbərliyinin apardığı siyasətin nəticəsi deyildi. Sadəcə olaraq əhalinin ərzaqla təminatı gündən-günə pisləşirdi.

Yeleneno koloniyasında ilk ərzaq komitəsi 10 avqust 1917-ci il tarixdə yaradıldı və bu komitəyə əsasən ermənilər seçildilər. Məsələ onda idi ki, bu dövrdə artıq Yeleneno koloniyasında və onun ətrafında 3000-ə yaxın erməni qaçqını məskunlaşmışdı ki, onlar da komitələrə keçirilən seçkilərdə iştirak etmək hüququndan istifadə edirdilər[33].

1917-ci ilin yazı ölkədə ərzaq məsələsi ən mühüm problemlərdən idi. Bu məsələ siyasi dairələri çox narahat edirdi. Bu səbəbdən 1917-ci ilin avqustundan Ərzaq Nazirliyi kənd əhalisi arasında sorğu keçirməyi qərara aldı. Sorğu blankları (vərəqələri) həmçinin alman koloniyalarına da göndərilmişdi. Sorğunun keçirilməsində əsas məqsəd payız səpini ərəfəsində əkinçilərin "əkin sahələrinin hazırlığı ilə bağlı üzə çıxan problemlərini öyrənməkdən və onların aradan qaldırılması üçün lazımi tədbirlər tökməkdən ibarət idi"[34].

4 avqust 1917-ci ildə keçirilən sorğunun təşkili ilə yerli qəza ərzaq komitələri məşğul olurdular.

Sosial-iqtisadi vəziyyətin ağır olmasına baxmayaraq Qafqaz koloniyalarındakı yerli komitələr müharibədən əziyyət çəkmiş alman mənşəli qaçqınlara və alman mənşəli hərbi əsirlərə yardım göstərirdi. Sonuncuların sayı Şimali Qafqazda xüsusilə çox idi və onlardan müxtəlif təsərrüfat sahələrində istifadə olunurdu. Cənubi Qafqazda bu sarıdan Yelenendorf koloniyası aparıcı rol oynayırdı. Yelenendorf koloniyasında "Müharibədən zərər çəkmiş qaçqın və sair alman milliyyətindən olan digər rus vətəndaşlarına yardım cəmiyyəti" fəaliyyət göstərirdi. 9 iyul 1917-ci il tarixdə keçirilən növbəti iclasda Teodor Hummel cəmiyyətin sədri seçildi[35].

17 iyul 1917-ci il tarixdə keçirilən iclasın qərarında göstərilirdi ki, Yeleneno kolonist cəmiyyəti "qaçqın almanlara yardım kimi 200 çalışan kişini və 150 qadını daimi iş yeri, əmək haqqı ilə təmin edə bilər" və daha çox sayda qaçqın haqqında məlumat toplamaq və onların yaxınlarına arayış vermək məqsədi ilə Moskvada, Mərkəzi Komitədə məlumat bürosunun yaradılması təklifi irəli sürüldü[36].

Gördüyümüz kimi, "Müharibədən zərər çəkmiş qaçqın və alman milliyyətindən olan digər rus vətəndaşlarına yardım cəmiyyəti" yalnız alman milliyyətindən olan qaçqınlara yardım edirdi və bundan savayı, bu qaçqınların və hərbi əsirlərin birləşdirilməsi və qüvvətlənməsinin siyasi əhəmiyyəti də vardı. Gələcək proseslərdə, yəni Almaniyanın Qafqaza gəlişi zamanı alman əhalisi yararlı bir amilə çevrilə bilərdi.

Tarix bu nəticənin doğruluğunu sonralar sübut etdi. Belə ki, 1918-cu ildə alman qoşunları Gürcüstana daxil olduqdan sonra Qafqazdakı əsirlərdən ibarət ordu yaradılması məsələsi gündəmə gətirilmişdi.

İmkanlı kolonistlər adı çəkilən cəmiyyətin kassasına pul vəsaiti köçürürdülər. Məsələn, pastor F.Engelqartdan 1917-ci ilin mayında cəmiyyətin xəzinəsinə 2788 rubl 30 qəpik, Forer qardaşlarından – 500 rubl, adi kolonistlərdən 5978 rubl 20 qəpik daxil olmuşdu. 17 iyul 1917-ci il tarixdə cəmiyyətin xəzinəsində ümumilikdə 14067 rubl 25 qəpik vəsait var idi ki, ondan 13681 rubl Moskvaya, Mərkəzi Komitənin hesabına köçürülmüşdü[37].

"Alman milliyyətli vətəndaşlar ittifaqı"nın Yeleneno Komitəsinin 21 iyul tarixli iclasında "cəmiyyətin üzvü olan və müharibədə iştirak

edən əsgərlərin ailələrinə təcili yardım göstərilməsi" qərara alındı. İclas kolonistlər İmmanuel Ongemaxa və Yohannes III Hummelə ehtiyacı olan ailələrin siyahısının tutulmasını həvalə etdi[38].

1917-ci ilin mart-iyun aylarında Cənubi Qafqazın ictimai-siyasi həyatında gərginlik var idi.Hakimiyyətin qətiyyətsizliyi ucbatından müxtəlif yönümlü terror və milliyyətçi təşkilatlar öz fəaliyyətini gücləndirmişdilər. Ölkədə hökm sürən sosial-iqtisadi, siyasi özbaşınalıq milli münasibətlərin də kəskinləşməsinə təsir göstərirdi. İlk öncə regionda cəmləşən Osmanlı dövlətindən gəlmiş erməni əhalisinin yerli xalqlara qarşı təcavüzü artmışdı. Alman əhalisi də bu təcavüzkar hərəkətlərin hədəfinə çevrilirdilər. Məsələn, 1917-ci ilin 11 aprel tarixdə koloniya komissarına ermənilərin Yelenenoya hücumu haqqında məlumat çatdırıldı. Bu zaman koloniyada 2200 nəfər alman, 800 aysor mənşəli qaçqın yaşayırdı. Bundan savayı, koloniyada Qafqaz süvari diviziyasının atıcı alayı qərarlaşmışdı. Bu alayın əsgərlərinin yerli kolonistlərlə münasibətləri heç də birmənalı deyildi. Yerli sakinlər hərbçilərə hörmətlə yanaşsalar da, arxiv sənədlərindən görünür ki, adı çəkilən alayın əsgərləri kolonistlərin təsərrüffatlarına ziyan vurur, "koloniyada özlərini ədəbsiz aparırdılar."[40]

16 iyun 1917-ci il tarixli əmrlə Qafqaz süvari diviziyasının atıcı alayının komandiri hərbçilərə kolonistlərə aid ərazilərdən ot çalmağı qadağan edir, hər vasitə ilə "sakinlərin maraqlarını müdafiə etməyə" çağırırdı[41].

Koloniyalarda yaşayan və hətta başqa yerlərdən gələn ermənilər hərbçilərlə kolonistlər arasındakı münasibətlərin korlanmasına çalışır, kolonistləri rusların düşməni kimi göstərməyə can atırdılar. Qafqaz süvari diviziyasının atıcı alayının əsgərləri arasında təbliğat aparan, İran təbəəsi, Arşak Vartazaroviç Arutyunov alman kolonistləri tatarlarla (azərbaycanlılarla) birləşmişlər və ruslara, ermənilərə qarşı fəaliyyət göstərirlər" deyə, əsgərləri almanlara qarşı zor tətbiq etməyə çağırırdı[42].

07 iyul 1917-ci il tarixdə Yeleneno kənd komissarı Xristian Sayzerin yazdığı aktdan görünür ki, Bakı şəhər sakinləri Aqbel Ohancanyans arvadı və atıcı alayının əsgəri Ribalko ilə birlikdə kənd icraiyyə komitəsinə girərək guya ki, bir nəfər tatar (azərbaycanlı) tərəfindən rus əsgərinin öldürülməsi faktını söyləmişlər. Kənd ko-

missarı azərbaycanlılara böhtan atan bu sərxoş şəxsləri icraiyyə komitəsinin binasından bayıra atdıqdan sonra Ohancanyansın arvadı küçədəki əsgərlərə müraciət edərək “almanların şərab çəlləklərini dağıtmağa, almanlara qarşı qırğın törətməyə çağırmışdır[43]”.

Özlərini azğın əsgərlərdən qorumaq məqsədilə koloniyada kolonistlərdən ibarət silahlı mühafizə dəstəsi yaradılmışdı. Yeleneno komissarının Tatar (Azərbaycan) süvari alayının komandirinə ünvanladığı 7 dekabr 1917-ci il tarixli şikayətnaməsində adı çəkilən alayın əsgərlərinin “yerli mühafizə dəstələrini tərksilah etmək cəhdlərindən” və bu cür hadisələrin faciə ilə nəticələnəcəyindən narahatlıq ifadə olunurdu.

Kolonistlərlə koloniyada məskunlaşan ordu hissələri arasında münasibətlər getdikcə mürəkkəbləşirdi. Artıq mənəvi cəhətdən pozulmuş olan rus ordusunun əsgər və zabitləri kolonistlərə qarşı əxlaqsız hərəkət edir, onların təsərrüffatlarına ziyan vururdular. Yeleneno sakinləri Qafqaz cüvari diviziyasının atıcı alayının koloniyadan uzaqlaşdırılmasını, onların cəbhəyə göndərilməsini rəsmi orqanlardan xahiş edirdilər[44].

Erməni quldur dəstələrinin basqınları nəticəsində Qafqazın alman koloniyalarına xeyli ziyan dəydi, alman əhalisi üçün real təhlükə yarandı. Bir çox koloniyalarda iclaslar keçirildi və yekdilliklə razılığa gəlindi ki, “kolonistlərdə odlu silahın olmaması vəziyyəti daha təhlükəli etmişdir[45].” İclaslarda 1916–1917-ci illərdə çar hökumət orqanlarının kolonistlərdən müsadirə etdiyi odlu silahların qaytarılması məsələsi də qaldırıldı. İkihakimiyyətliliyin ləğvindən sonrarakı dövrdə alman koloniyaları ətrafında yaranan vəziyyəti geniş müzakirə etmək üçün 23 iyul 1917-ci il tarixdə Tiflisdə Qafqaz almanlarının Qafqaz diyar nümayəndələr qurultayı keçirildi. Yelenendorf koloniyası bu qurultayda pastor baron fon Engelqart və Teodor Henrixoviç Hummellə təmsil olunmuşdu[46]. Cənubi Qafqaz almanları üçün ən vacib məsələlərdən biri qarşıdan gələn Müəssislər Məclisinə seçkilərdə iştirak məsələsi idi. Alman komitələri çalışırdılar ki, gələcək Müəssislər Məclisində almanların proporsional* şəkildə təmsil olunmasına nail olsunlar. Ümumrusiya alman milli hərəkatında baş verən parçalanma hallarını və bu parçalanma-

* Mütənasib, uyğun

nın əsasən siyasi motivlərə görə baş verməsini nəzərə alaraq Qafqaz alman komitələri hamılıqla "Alman milliyyətli Rusiya vətəndaşlarının Ümumrusiya ittifaqı"na daxil olmaq haqqında qərarlar verdilər[47]. Bu məzmunlu qərarların qəbul edilməsi onunla bağlı idi ki, yerlərdə buna oxşar cəmiyyətlərin yaradılması zamanı əhali arasında fikir ayrılığı yaranırdı və əhalinin siyasi müstəvidə parçalanması baş verirdi.Yeleneno kənd cəmiyyətinin bu qərarı seçki qabağı əhalinin parlanmasının qarşısının alınmasına və əhalinin bir siyasi mövqedən çıxışının təmin edilməsinə yönəlmişdi.

1917-ci ilin yayında Cənubi Qafqazda qanunsuz erməni silahlı dəstələrinin sayı durmadan artırdı. Onların silahla təchizatında dövlət orqanlarında çalışan erməni mənşəli məmurlar da müəyyən rol oynayırdılar. Arxiv sənədlərindən görünür ki, təkcə Yelenendorfda 1914–1916-cı illər ərzində 50 nəfər alman kolonistinin silahı müsadirə olunmuşdu və bu tədbir erməni mənşəli hökumət starşinası B.Məlik-Osipyanın rəhbərliyi ilə həyata keçirilmişdir[48]. Kolonistlərin silahların qaytarılması haqqında ərizələri araşdırılan zaman məlim oldu ki, müsadirə olunan silahın yalnız bir hissəsi Yelizavetpol qəza idarəsinin arxivinə verilmişdi, qalan silahın harada olduğu məlum olmadı. Bu məsələ ilə bağlı Yelizavetpol qəza komissarına göstəriş verilmişdi ki, "bu iş üzrə ətraflı axtarış aparsın və nəticəsi haqqında Yelizavetpol İcraiyyə Komitəsinə məlumat versin[49].

Müxtəlif silahlı quldur dəstələrinin azğınlığı Rusiyada 1917-ci ilin avqustunda başlayan növbəti hakimiyyət böhranı zamanı daha da artdı. Alman kolonistlərinin təsərrüfatlarına basqınlar edilir, onların torpaqlarının və sair əmlaklarının ələ keçirilməsinə cəhdlər edilirdi[50].

Rusiyada iqtisadi-siyasi qarma-qarışıqlığın, özbaşınalığın daha da artması Qafqaz almanları qarşısında şəxsi və ictimai təhlükəsizliyi təmin etmək məqsədi ilə silahlı özünümühafizə dəstələrinin yaradılması zərurəti yaratdı. Qeyd edək ki, bu cür mühafizə dəstələrinin yaradılması hələ 27 aprel 1917-ci il tarixdə Zaqafqaziya Xüsusi Komitəsinin "Zaqafqaziya hüdudlarında yerli hakimiyyət orqanlarının yenidən təşkili haqqında" qərarında nəzərdə tutulmuşdu[51]. 10-12 avqust 1917-ci il tarixdə Moskvada Rusiya almanlarının II qurultayı keçirildi və bu qurultayda, həmçinin Qafqaz almanlarının və mennonitlərinin nümayəndələri iştirak edirdilər. Cənubi Rusiya

almanlarının nümayəndələri ilə mövcud olan müəyyən fikir ayrılığına baxmayaraq Rusiya almanlarını təmsil edən bütün qruplar, o cümlədən Qafqaz almanları və mennonitləri təsərrüfat və mədəni sahədə milli muxtariyyət prinsipini müdafiə etdilər[52]. Bu isə I Dünya müharibəsi illərində müsadirə olunmuş alman torpaqlarının və sair təsərrüfat obyektlərinin, müəssisələrin sahiblərinə qaytarılması, alman təsərrüfatlarının azad inkişafını təmin edən hüququ bazanın yaradılması, mədəni sahədə alman dilindən istifadəyə azadlıq verilməsi, alman təhsil sisteminin bərqərar olması, məktəblərdə tədrisin alman dilində aparılmasına icazə verilməsi demək idi.

Moskva qurultayında Rusiyada yaranan siyasi duruma qiymət verildi və yerlərdə alman əhalisinin mühafizə dəstələrinin yaradılması prosesini gücləndirmək tövsiyə olundu[53].

1917-ci il avqustun ikinci yarısında Qafqaz koloniyalarında yerli özünümüdafiə dəstələrinin yaradılması prosesi başladı. Bu iş Cənubi Qafqazda daha mütəşəkkil gedirdi. Qeyd etməliyik ki, müvəqqəti hökumət almanların bu tədbirinə bir qədər laqeyd yanaşırdı. Bunun səbəbidir ki, alman özünümüdafiə dəstələrinin yaradılması, rəsmi status alması, silahlandırılması prosesləri bəzən bir neçə ay davam etmişdir. Məsələn Cənubi Qafqazın ən apaıcı koloniyası – Yelenenoda hələ 10 avqust 1917-ci il tarixli iclasda “inqilabi işə sadiq şəxslərdən ibarət xalq milisinin yaradılması haqqında qərar qəbul edildi[54]. Sənəddə göstərilirdi ki, “xalq milisinin yaradılmasının əsas məqsədi koonistlərin şəxsi və əmlak təhlükəsizliyini təmin etməkdir[55].”

Mövcud problemlərdən biri kadr çatışmazlığı idi. Bu məsələni həll etmək üçün kolonistlərin orduda xidmət edən həmyerlilərindən 30 nəfərinin hərbi xidmətdən təxris olunaraq yeni yaradılan xalq milisinə göndərilməsi xahişləri də bir nəticə vermədi[56]. Bu səbəbdən Yeleneno kolonistləri 24 avqust 1917-ci il tarixdə növbəti iclas keçirərək “öz hesablarına xalq milisi təsis etmək” və kolonistlər sırasından 14 nəfərin milisioner vəzifəsinə təyin olunması haqqında qətnamə qəbul etdilər. 24 avqust 1917-ci il tarixli iclasda adı çəkilən koloniya cəmiyyəti yuxarı dövlət instansiyalarına müraciət edərək xalq milisinə namizədlərin təstiqlənməsini xahiş etdilər. Sənəddən görünür ki, siyahıda 14 yox, 30 nəfərin familiyası göstərilmişdi[57].

17 oktyabr 1917-ci il tarixdə Yeleneno koloniya iclasında təsdiq olunan və Zaqafqaziya Xüsusi Komitəsinə göndərilən xahişnamədə Yeleneno milis mühafizə dəstəsi üçün lazımi sayda silah ayrılması xahiş olunurdu. Silahların qəbul edilməsi və koloniyaya çatdırılması Albert Sayzerə həvalə edilmişdi[58].

Gördüyümüz kimi, 1917-ci ilin oktyabrın ortalarına qədər, yəni son günlərinə qədər Müvəqqəti hökumət təkcə Qafqazda deyil, həmçinin bütün Rusiya miqyasında almanların tələsik olaraq yaratdıqları yerli və dairə komitələrini, onların öz təşəbbüsləri ilə yaratdıqları hərbi birləşmələri tanımamışdır[59].

1917-ci il 16 dekabr tarixdə, yəni artıq Müvəqqəti hökumət devridikdən sonra,Yeleneno kolonistlərinin ümumi yığıncağında "koloniyanı müdaxilələrdən qorumaq məqsədi ilə hərbi mühafizə dəstələrinin yaradılması haqqında" qərarın qəbul edilməsi və mühafizə dəstələrinin üzvlərinin siyahısının göstərilməsi yuxarıda göstərilənləri bir daha təsdiqləyir[60].

"Duxaborlar, molokanlar, müsəlmanlar və kolonistlər arasında münasibətlərin tənzimlənməsi üzrə Zaqafqaziya komissarlığının"nın nümayəndələri sədrinə göndərilən müraciətdə koloniyanın yerli mühafizə dəstəsi üçün "lazımi sayda tüfənglərin və hər tüfəngə 250 patronun ayrılması haqqında sərəncam verilməsi" xahiş olunurdu[61].

Mühafizə dəstəsi üçün ayrılan silahın qəbul edilməsi və koloniyaya çatdırılması kolonistlər Otto Vuxrer və Qotlib Kuna tapşırılmışdı.

Almanların milli hərəkatında irəli sürülən tələblərdən biri də məktəblərdə tədrisin alman dilində aparılması tələbi idi. 1917-ci ilin sentyabrında Zaqafqaziya Xüsusi Komitəsi "Tədris müəssisələrinin milliləşdirilməsi haqqında əsasnamə" qəbul etdi. Tədris dairə komissarları bu qərarın həyata keçirilməsini təmin etmək üçün müvafiq sərəncamlar verdilər. Zaqafqaziya Xüsusi Komitəsinin sədr əvəzləyicisi Q.Şahtaxtinski 14 oktyabr 1917-ci il tarixli sərəncamında icraiyyə komitələrindən "bu əsasnamənin həyata keçirilməsi üçün hansı işlərin görüldüyü haqqında" məlumat verilməsini tələb edirdi[62].

1917-ci ilin birinci yarısında Qafqaz almanlarının mədəni həyatında müəyyən canlanma müşahidə olunurdu. Koloniyalarda mövcud olan 2 sinifli ibtidai alman məktəblərində tədris, əsasən ana

dilində aparılırdı. Bir çox koloniyalarda realnı məktəbləri fəaliyyətə başlamışdı. Bu məktəblərdə kolonist uşaqları o dövrün qabaqcıl alman maarifçilərindən dərs alırdılar[63].

Ölkədə baş verən mürəkkəb iqtisadi-siyasi vəziyyətin təsiri ilə almanların dini müxtəlifliyinə baxışlar dəyişdi. Qafqaz almanlarının dini konsolidasiyasında 18 oktyabar 1918-ci ildə bütün dünya lüteranları tərəfindən təntənəli şəkildə Reformasiya hərəkatının 400-illik yubileyinin qeyd edilməsi mühüm rol oynamalı idi. Lakin bir həftə sonra – 25 oktyabr 1917-ci il tarixdə Petroqradda baş verən dövlət çevrilişi və bolşeviklərin hakimiyyəti zorla ələ alması Rusiyada yeni siyasi qarma-qarışıqlığın başlanğıcını qoydu.

1917-ci il 26 oktyabr (8 noyabr) tarixdə II Ümumrusiya Sovetlərinin qurultayında Sovet hökuməti – Xalq Komissarları Soveti yaradıldı və V.İ.Lenin hökumətin başçısı təyin olundu. Xalq Komissarları Sovetinin tərkibində Milli məsələlər üzrə Xalq Komissarlığı təsis edildi. Rusiyanın tarixində ilk dəfə milli məsələləri həll etmək məqsədi ilə belə yüksək səviyyədə dövlət qurumu yaradılmışdı.

İ.V.Stalin milli məsələlər üzrə Xalq Komissarı təyin olundu. Tezliklə komissarlığın daxilində milli komissarlıqlar yaradıldı və müvafiq komissarlar təyin olundu. Rusiya almanlarının komissarı Qustav Kasparoviç Klinger təyin olunmuşdu[64].

Milli məsələlər üzrə Xalq Komissarlığı və onun yaratdığı Alman komissarlığı 1920-ci ilin yazına qədər Şimali Qafqazda praktiki olaraq fəaliyyət göstərə bilmədi. Belə ki, Müəssislər Məclisinə seçkilərin nəticələri elan olunduqdan sonra bolşeviklər öz mövqelərini gücləndirmək üçün əyalətlərdə, o cümlədən Şimali Qafqazda konkret addımlar atmağa başladılar. Burjuaziyaya və siyasi müxalifətə aid, həmçinin almanlara məxsus qəzet və jurnallar bağlandı. Bolşeviklərlə xalq tərəfindən qanuni seçilmiş yerli nahiyə, qəza və quberniya zemstvo yığıncaqları arasında münaqişələr yaranmağa başladı. Müəssislər Məclisinə və yerli zemstvo orqanlarına seçkilərin nəticələri bolşevikləri qane etmirdi və bu səbəbdən onlar xalq tərəfindən demokratik yolla seçilən orqanların fəaliyyətini zor gücünə dayandırdılar. Rusiyada vətəndaş müharibəsi təhlükəsi yarandı.

1917-ci ilin son aylarında Şimali Qafqazın şəhər və kəndlərində tədricən Sovet hakimiyyəti bərqərar oldu. Kubanda, Donda, Terek

vilayətində Sovet hakimiyyətinin elan olunması Qırmızı qvardiya dəstələri ilə Kuban radasının və Don Hərbi hökumətinin hissələri ilə toqquşmaya səbəb oldu. 1918-ci il 8 yanvar tarixdə Qanunverici rada Yekaterinodarda (indiki Krasnodar – *İ.A.*) Kuban vilayətini Kuban Respublikası elan etdi. Həmin ilin 17 yanvar tarixdə Krımskaya stanitsasında bolşeviklər Kuban vilayət hərbi-inqilab komitəsi yaratdılar. 18 fevral 1918-ci il tarixdə Armavirdə Kuban vilayəti sovetlərinin I qurultayında bütün Kuban ərazisində Sovet hakimiyyəti elan olundu[65]. Kubanda vətəndaş müharibəsinin qızğın çağında Rostovdan çar generalı L.Q.Kornilovun rəhbərlik etdiyi "Könüllü ordu" öz tarixi "buz" yürüşünə başladı, nəticədə Kubanda yenə ağqvardiyaçıların hakimiyyəti bərqərar oldu. Lakin 1918-ci ilin mart-aprel aylarında yenidən bolşeviklər Kubanda və bütün Qara dənizin şərq sahili ərazilərində öz hakimiyyətlərini bərpa etdilər.

Şimali Qafqazda qalan alman əhalisinin əksəriyyəti, əsasən də mennonitlər öz dini təlimlərinə riayət edərək dövlət orqanlarından təcrid olunmağa çalışır, ölkədə başlayan vətəndaş müharibəsində neytral mövqedə durmağı üstün tuturdular. 1918–1920-ci illərdə hakimiyyətin tez-tez əldən-ələ keçdiyi bir dövrdə alman əhalisi hakimiyyət orqanlarına qarşı itaətsizlik göstərməmiş, mübarizə aparan tərəflərin heç birinin silahlı dəstələrində hərbi əməliyyatlarda iştirak etməmişlər. Arxiv mənbələrində yalnız bəzi koloniya sakinlərinin (Karras, Olginskaya, Morgentau, Karlsfeld və s.) Ağ ordunun və yaxud Qırmızı ordunun tərkibində döyüşdüyü barədə fraqmentar məlumatlar var[66].

Sovet hakimiyyətinin ilk tədbirləri Qafqaz almanları tərəfindən birmənalı qarşılanmadı. Əgər "Torpaq haqqında" dekretin elan olunması kolonistlərin narahatlığına səbəb oldusa, "Rusiyada yaşayan xalqların hüquqları haqqında bəyannamə" almanların özünüidarə sisteminin yaradılmasına müəyyən ümidlər doğurdu. Bu özünüidarə sistemi əvvəlki, yəni çarizm və Müvəqqəti hökumət dövrlərinə nisbətən daha radikal formaya, hətta milli-ərazi muxtariyyəti formasında belə təsəvvür olunurdu. Belə bir şəraitdə Rusiya almanları arasında sosial-siyasi parçalanma daha da gücləndi, sosialist qrupların, əsasən də bolşevik platformasında dayanan qrupların mövqeyi və təsiri gücləndi. İdeoloji əsaslarda alman əhalisi arasında parçalanma

Cənubi Qafqaza nisbətən Şimali Qafqazda daha qabarıq nəzərə çarpırdı və bu Şimali Qafqazla qonşu Volqaboyu regionunda bolşevizm platformasında dayanan "Volqaboyu alman sosialist ittifaqı"nın fəaliyyətinin aktivləşməsi ilə izah edilirdi[67].

1917-ci il Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda da siyasi mübarizə yeni mərhələyə qədəm qoydu. 1917-ci il 27 oktyabr tarixdə Bakıda Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi və bolşeviklərin etirazına baxmayaraq menşevik-eser-daşnak bloku səs çoxluğu ilə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaranması haqqında qərar qəbul etdilər. Komitə Petroqradda hakimiyyətin zor metodlarla ələ keçirilməsinə qarşı çıxdı və ölkədə bütün hakimiyyətin Müəssislər Məclisinə verilməsini, məclisin çağırılmasına qədər bütün hakimiyyətin demokratiya daxilində koalisiyaya verilməsi təklifini irəli sürdü[68].

İTK-nın yaradılması ilə barışmayan bolşeviklər 2 noyabr 1917-ci il tarixli iclasında Bakı Sovetinin Bakı şəhərində yeganə ali hakimiyyət orqanı elan etdilər. Bakı Sovetinin yeni İcraiyyə Komitəsi seçildi və S.Şaumyan onun sədri oldu.

Beləliklə, regionun ictimai həyatında siyasi münaqişə yarandı: əhalinin bir qismi bolşeviklərin hegemon olduğu Bakı Sovetinə, digərləri isə İctimai Təşkilatların İcraiyyə Komitəsinə rəğbət bəsləyirdilər. Hələ Fevral inqilabından dərhal sonra yaranan İctimai Təşkilatların İcraiyyə Komitəsinin ləğvinə çalışan Bakı Soveti 22 noyabr 1917-ci il tarixdə buna nail oldu. Bolşeviklərin növbəti hədəfi Bakı şəhər Duması idi. 1917-ci ilin dekabrında mövcud seçki qaydalarının bolşeviklərin xeyrinə dəyişdirilməsi şəraitində keçirilən seçkilərdə şəhər Dumasında yerlərin çoxunu bolşeviklər tutdular[69].

Cənubi Qafqazı sovetləşmədən qorumağa çalışan siyasi partiyalar 1917-ci il noyabrın 11-də Tiflisdə müşavirə keçirdilər və Rusiyadakı bolşevik hökumətini tanımaqdan imtina etdiklərini bildirərək "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də Cənubi Qafqaz Komissarlığı yaradıldı[70].

1917-ci il noyabrın 26-da Müəssislər Məclisinə seçkilər keçirildi. Seçkilər nəticəsində Zaqafqaziyada bolşeviklərin əlində olan Bakı şəhəri istisna olmaqla, yerlərdə milli partiyalar qələbə çaldılar

və Cənubi Qafqazın bütün bölgələrində, o cümlədən almanların yığcam yaşadığı qəzalarda da İctimai Təhlükəsizlik Komitələri yaradılırdı. Zaqafqaziya Komissarlığının (26 dekabr 1917-ci il tarixdə) Yelizavetpol İctimai Təşkilatları ilə birgə keçirdiyi müşavirədə Yelizavetpol quberniya İctimai Təhlükəsizlik Komitəsi yaradıldı[71]. Komitənin Rəyasət Heyətinə aşağıdakı şəxslər daxil idi: sədr Ə.Xasməmmədov, onun müavini Xoren Amaspur və Teodor Hummel, katiblər isə İ.F.Ostroqski və K.Mustafayev seçildilər[72].

27 dekabr 1917-ci il tarixdə “Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya ittifaqının Yelizavetpol şöbəsinin yığıncağında Yelizavetpol quberniya İctimai Təhlükəsizlik Komitəsinə “İttifaq”ın nümayəndəsi kimi Teodor Henrixoviç Hummel seçildi. Vilhelm Yakovleviç Qurr onun köməkçisi təyin olundu və zərurət yaranarsa onu əvəz edə bilərdi[73].

Yelizavetpol quberniya İctimai Təhlükəsizlik Komitəsi 30 dekabr 1917-ci il tarixdə “Alman Milli Komitəsi”nə göndərdiyi teleqramda “Alman Milli Komitəsi”ndən xahiş edirdi ki, “quberniyada qayda-qanun və normal həyatın bərqərar edilməsi kimi çətin işdə onlara öz köməyini əsirgəməsin[74].”

İctimai Təhlükəsizlik Komitələrinin əsas vəzifələrindən biri əhalini qarma-qarışıqdan və özbaşınalıqlardan qoruya biləcək milli hərbi hissələrin yaradılması idi. Müəqqəti hökumət dövründə baş verən siyasi hadisələr orduda nizam-intzamın zəifləməsinə, əsgər və zabitlərin mənəvi cəhətdən ruhdan düşməsinə, hərbi xidmətdən yayınma, hərbi hissəni özbaşına tərk etmə və sair kimi pozuntu hallarının sayının artmasına gətirib çıxarmışdı. Hətta alman kolonistlərin sıralarından çıxan, öz dəmir nizam-intizam ilə seçilən alman əsgər və zabitləri arasında da bu cür halların sayı artmışdı. Arxiv sənədlərinin araşdırılması zamanı 1917-ci ilin təkcə sentyabr-noyabr aylarında Qafqaz koloniyalarından orduya çağırılan yüzlərlə əsgərin özbaşına hərbi hissələri tərk etməsi faktlarına rast gəlinir[75].

1917-ci ilin dekabr – 1918-ci ilin əvvəllərində Cənubi Qafqazda ictimai-siyasi vəziyyətin yenidən gərginləşməsi Zaqafqaziya Komissarlığından ordu quruculuğuna diqqətin artırılmasını tələb edirdi. Belə ki, Rusiyanın 1917-ci ilin dekabrın əvvəllərində Almaniya və onun müttəfiqləri ilə apardığı sülh danışıqları boşa çıxdıqdan sonra

alman-türk qoşunları hücuma keçdilər. Belə bir şəraitdə Tiflisdə qərarlaşan "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı" 4 yanvar 1918-ci il tarixdə alman koloniyalarının icraiyyə komitələrinə göndərdiyi sərəncamda 18-50 yaşlı şəxslərin "Alman atıcı alayının ehtiyat taqımına çağırılmasını" tələb edirdi[76].

Alman atıcı alayının yaradılmasında əsas məqsəd Qafqaz almanlarının maraqlarının müdafiə olunması idi və bu hərbi hissə Cənubi Qafqazda gedən millətlərarası münaqişələrə qarışmaq niyyətində deyildi. Qeyd etdiyimiz kimi, Zaqafqaziya Komisarlığının ən ümdə vəzifələrində biri milli – gürcü, erməni və azərbaycanlılardan ibarət hərbi birləşmələrin yaradılması idi. Əgər 1917-ci ilin sonuna erməni və gürcü milli hərbi hissələri yaradılsa da, azərbaycanlılar bunu həyata keçirə bilməmişdilər və bu işdə ən birinci problem silah, sursat çatışmamazlığı idi.

"Dördlər ittifaqı" ilə atəşkəs bağlandıqdan sonra Rusiya hərbi hissələri 1918-ci ilin yanvarında cəbhəni tərk etməyə başladılar və onların əksəriyyəti Cənubi Qafqazda yerləşdirilirdi. Bu həm imperiya tərəfdarlarının maraqlarına cavab verirdi, çünki Rusiya hərbi qüvvələrinin bu regionda strateji, siyasi əhəmiyyət kəsb edirdi. İkinci tərəfdən, rus ordusunda güclü bolşevik təbliğatı vardı və cəbhədən qayıdan hərbi hissələrin Cənubi Qafqazda yerləşdirilməsində həm də bolşeviklər maraqlı idilər. Cənubi Qafqaz Komissarlığının qərarı ilə Şəmkir stansiyasında olan rus alayı tərksilah edilməli, silahları isə Azərbaycan əsgərlərinə verilməli idi. Nəticədə, daşnaklar rus və Azərbaycan əsgərləri arasında toqquşma törətdilər. Hər iki tərəfdən ölən və yaralananlar oldu. Bu hadisələr zamanı alman kolonistlərinin təsərrüfatlarına xeyli ziyan dəydi[77]. Gürcüstan və Azərbaycanda mövcud olan koloniyalarda sosial-iaşə obyektlərinin yüksək səviyyədə təşkil olunması və strateji ərazilərdə yerləşdiyindən bu koloniyalarda hələ XIX əsrin ortalarından başlayaraq müxtəlif hərbi hissələr yerləşdirilirdi. Bu proses 1917-ci ildə də davam etmişdi. Oktyabr çevrilişindən sonra Rusiyanın Birinci Dünya müharibəsindən çıxması nəticəsində koloniyalarda yerləşən bir sıra hərbi hissələr başqa regionlara köçürülsələr də, onların yerinə Zaqafqaziya Komissarlığı öz hərbi hissələrini yerləşdirməyə çalışırdı. Belə ki, 1917-ci ilin oktyabrın sonlarında Yelenendorfda azərbaycanlılardan ibarət Tatar (Azərbaycan) süvari alayı yerləşdirildi[78].

1914-cü ildə Qafqaz Hərbi Dairəsinin Baş komandanı qraf Vorontsov-Daşkovun təşəbbüsü ilə yaradılan bu alay Qafqaz yadelli atlı diviziyasının ("Vəhşi diviziya") tərkibinə daxil idi və alaya general P.Polovtsev komandanlıq edirdi.

Qeyd edək ki, Tatar (Azərbaycan) süvari alayı Cənubi Qafqaz alman koloniyalarının təhlükəsizliyinin qorunmasında mühüm rol oynamışdı və hətta kolonistlərə göstərdiyi yardıma görə alay Yelenendorf almanları tərəfindən 200 rubl mükafata layiq görülmüşdü[79].

Alman kolonistlərini müxtəlif təxribatlardan qoruyan Tatar (Azərbaycan) süvari alayı 1918-ci ilin yanvarında Qafqaz yadelli atlı diviziyasının buraxılması ilə əlaqədar Yelenenonu tərk etməli oldu. Bunun əvəzinə koloniyada 107-ci Piyada alayının yerləşdirilməsi haqqında Yelizavetpol qubernatoru sərəncam verdi[80]. "Alman millətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı" hərbçilərin koloniyada yerləşdirilməsini etirazla qarşılayırdı. Almanların fikrincə, milli və sosial münasibətlərdə gərginliyin son həddə çatdığı bir dövrdə hərbçilərin koloniyalarda yerləşdirilməsi alman əhalisinə qarşı müəyyən təxribatların yaranması üçün şərait yarada bilərdi[81]. Yalnız Zaqafqaziya Komissarlığının yüksək dövlət orqanlarının işə müdaxiləsindən sonra Yelenendorf koloniyasında 27-ci Qafqaz atıcı alayının yerləşdirilməsi ilə bağlı kolonistlərlə razılıq əldə edildi[82]. Qeyd edək ki, adı çəkilən alay birbaşa cəbhədən qayıdırdı və "əsgərlərin sayı 100-dən artıq deyildi"[83]. Cəbhədən qayıdan və vətəndaş müharibəsinin başladığı Sovet Rusiyasına qayıtmaq istəməyən silahlı qüvvələr bütün region üçün baş ağrısına çevrilmişdi. Bu vacib məsələ ilə bağlı Tiflis və Yelizavetpol İctimai Təhlükəsizlik Komitələrinin nümayəndələri bütün milli təşkilatlarla birgə 13-14 yanvar 1918-ci il tarixdə iclas keçirdilər və bu iclasda məsələ ilə bağlı aşağıdakı qərarlar qəbul edildi:

1. Cəbhədən qayıdan keçmiş çar ordusunun hissələrinin silahsızlaşdırılması hakimiyyət orqanlarının icazəsi və sülh yolu ilə həyata keçirilməlidir;

2. Dəmir yol xətlərinin qorunması, ümumiyyətlə hər quberniyanın öz hüdudlarının qorunması üçün milis yaradılsın və milis dəstələri üçün Tiflisdən silah, əsgəri təchizat, vəsait gətirilsin;

3. Müsəlman Milli Şurasından və Erməni Milli Komitəsindən bütün silahlıların şəhərlərdən çıxarılması xahiş olunsun;

4. Dini yürüşlər və sair tədbirlər yalnız milli komitələrin icazəsi və dini rəhbərin iştirakı ilə keçirilə bilərdi[84].

İctimai Təhkükəsizlik Komitəsi Cənubi Qafqazda ali hakimiyyət orqanı olaraq əsasən rus və erməni mənşəli əsgərlərdən ibarət hərbi hissələrin nizamsız şəkildə regiona qayıtmasını nəzarətə almağa cəhd edirdi. Qeyd edək ki, ermənilərdən ibarət belə hərbi alaylardan biri Yelizavetpol qəza komissarının köməkçisi Ter-Asaturovun sərəncamı ilə Yeleneno koloniyasında yerləşdirilmişdi. Kolonistlərin narazılığına baxmayaraq erməni hərbi birləşməsinin tam təminatı yerli almanların hesabına ödənilirdi[85]. Erməni hərbi dəstəsinin koloniyada yerləşdirilməsi 1918-ci ilin fevralında koloniyada yaşayan və bura başqa yerlərdən gələn ermənilərin kolonistlərə silahlı hücumları, kolonistlərin qarət olunması üçün münbit şərait yaratdı. Erməni əsilli hərbçilərin və mülki şəxslərin azğınlığı haqqında Alman Milli Komitəsi dəfələrlə Erməni Mülki Komitəsinə öz narazılığını bildirmişdi[86].

1918-ci ilin yanvarında Sovet Rusiyası ilə Almaniya və onun müttəfiqləri arasında Brest-Litovsk sülh danışıqları davam etdirildi. Danışıqlarda sovet nümayəndə heyətinin başçısı L.D.Trotski tərəfindən rəsmən tanınan Ukrayna nümayəndələri də iştirak edirdilər[87]. 14 yanvar 1918-ci il tarixdə Türkiyə Zaqafqaziya Komissarlığından Zaqafqaziya dövlətinin elan olunmasını və bərabərhüquqlu tərəf kimi sülh danışıqlarına qoşulmağı təklif etdi[88].

Sovet Rusiya nümayəndələrinin qeyri-müəyyən mövqeyi nəticəsində Brest-Litovsk sülh danışıqlarının növbəti mərhələsi də 10 fevral 1918-ci ildə uğursuzluqla başa çatdı və həm Almaniya, həm də Türkiyə cəbhə boyu əks-hücuma hazırlaşmağa başladılar. Hələ 6 fevral 1918-ci il tarixdə Zaqafqaziya Komissarlığı Türkiyə ilə danışıqlar aparmaq arzusunda olduğunu bildirsə də hüquqi cəhətdən danışıqların əsası hazırlanmamışdı. 12 fevral 1918-ci il tarixdə Türkiyə, 18 fevralda isə Almaniya bütün cəbhə boyu hücuma keçdilər. Eyni zamanda Zaqafqaziya Komissarlığı hərbi mükəlləfiyyət haqqında Dekret imzaladı[89]. Sənədə əsasən 1899-cu ildə doğulmuş bütün gənclər ordu sıralarına hərbi xidmətə çağırılırdılar. Bütün dövlət orqanlarından, "milli hərbi təşkilatlardan Zaqafqaziya Komissarlığının tələblərinin dəqiq yerinə yetirilməsi" tələb olunurdu. Dekretdə

“qısamüddətli ezamiyyətə buraxılan 25 yaşlı və ondan gənc əsgərlərin 15 fevral 1918-ci il tarixədək təcili olaraq öz milli hərbi hissələrinə qayıtması” tələb edilirdi. “Üzürsüz səbəbə görə çağırışdan yayınanları 1 il müddətinə həbs cəzası gözləyirdi[90].”

Tiflisdə qərarlaşan “Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı” 24 fevral 1918-ci il tarixdə eyni məzmunlu sərəncamla Gürcüstan və Azərbaycandakı alman koloniyalarına müraciət etdi. Sənəddə “1899, 1898, 1897-ci illərdə anadan olmuş gəncləri Rusiya alman atıcı alayının qərargahına göndərmək” tələb olunurdu.Valideynlərin yeganə oğlu olanlar bu haqda koloniya komissarlığından aldıqları müvafiq vəsiqəni təqdim etməli idilər[91].

Koloniya komissarları Tiflisə, Rusiya alman atıcı alayının komandirinə raportlar yazmalı və bu raportda alayın sərəncamına göndərilənlərin, həmçinin ailənin yeganə oğlu olanların siyahısı təqdim edilməli idi.

Koloniya rəhbərliyi çağırışçılardan yazılı zəmanət alırdı ki, onlar göstərilən müddətdə Tiflisə, alman atıcı alayının qərargahına özlərini çatdırsınlar[92].

Arxiv sənədlərindən görünür ki, alman gəncləri həvəslə alman atıcı alayında xidmətə yollanırdılar. Rusiya alman atıcı alayının komandirinin Yeleneno koloniyasının komissarına 17 fevral 1918-ci il tarixdə verdiyi vəsiqədən məlum olur ki, adı çəkilən koloniyanın 18-26 yaşlı gəncləri hələ həmin ilin 1 fevral tarixdən könüllü olaraq adı çəkilən alaya xidmətə yazılmışlar[93].

1918-ci ilin əvvəllərindən keçmiş Rusiya qoşunları Qafqaz cəbhəsini tərk edərək geri qayıdırdılar, onları əvəz edən erməni və gürcü milli hərbi birləşmələri türklərin qarşısında dayana bilmirdilər. Türk qoşunları fevralın ortalarına Şərqi Anadolunun bir sıra vacib qalalarını ələ keçirdilər. Heç bir nüfuza malik olmayan Zaqafqaziya Komissarlığı özünün buraxıldığını bəyan etmək məcburiyyətində qaldı və 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi[94]. Təcili olaraq başda Y.H.Geqeçkori olmaqla Zaqafqaziya hökuməti təşkil edildi. İstər Seymin, istərsə də hökumətin fəaliyyətində əsas məsələlər Qafqaz cəbhəsində vəziyyət

və Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi idi. Bu məsələlərin həlli istiqamətində Seymin müsəlman deputatları daha çox fəalliq göstərirdilər. Bu vacib məsələlərin müsbət həlli M.Ə.Rəsulzadənin o vaxt yazdığı kimi"... təkcə Qafqaz müsəlmanlarının deyil, həm də Rusiyanın daimi təhlükəsi qarşısında qalan digər müsəlman ölkələrinin də mənafeyinə uyğun idi[95]." Seymin qarşısında duran əsas məsələlərdən biri Türkiyə ilə yaxınlaşan danışıqlar – sülh danışıqları üçün hüquqi baza yaratmaq idi. Lakin Zaqafqaziya Seymi bu məsələ ilə bağlı ziddiyyətli qərarlar qəbul edirdi. Bir tərəfdən, Zaqafqaziyanı müstəqil dövlət elan etməkdən imtina edən Seym, digər tərəfdən xarici ölkələrlə, o cümlədən "Üçlər İttifaqı"nın üzvləri ilə sülh bağlamaq səlahiyyətli olduğunu bildirirdi və Türkiyə ilə sülh danışıqları aparmaq üçün yaradılan siyasətçilər qrupu 1918-ci il martın 12-də Trabzona gəlmişdi[96].

Trabzonda başlayan sülh konfransında Türkiyə ilə Zaqafqaziya Seymi nümayəndələri arasında razılıq əldə olunmadı. Seymin erməni və gürcü nümayəndələri Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür, 03 mart 1918-ci il Brest sülhünün şərtlərini tanımaqdan boyun qaçırır, Türkiyəyə qarşı hərbi əməliyyatlara hazırlaşırdı. 1918-ci ilin martında Cənubi Qafqazda siyasi gərginlik son həddinə çatmışdı. Belə bir mürəkkəb şəraitdə Qafqaz almanları qarşısında duran problemlərə aydınlıq gətirmək üçün "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı"nın növbəti nümayəndələr qurultayının keçirilməsinə zərurət yarandı və bu məqsədlə alman koloniyalarının icraiyyə komitələrinə dəvətnamələr göndərildi[97]. Mərkəzi Alman komitəsinin fövqəladə nümayəndələr qurultayı 18 mart 1918-ci il tarixdə Tiflisdə keçirildi. Qurultayda Zaqafqaziya alman icraiyyə komitələrinin Alman Milli Şurası adlandırılması haqqında qərar qəbul etdi. Bundan savayı, Şimali Qafqazda gedən hərbi əməliyyatlara, o cümlədən general Vrangelin komandanlıq etdiyi ordunun fəaliyyətinə münasibət bildirildi və Qafqazın alman əhalisinin bu orduya yardım məqsədi ilə alman milliyyətindən olan vətəndaşlardan ibarət alayının yaradılması, bu alayın Vranqel ordusuna daxil olması haqqında qərar qəbul edildi[98]. Qurultayda alman gənclərinin hərbi xidmətə çağırışı qaydaları da müzakirə edildi. Orduda təlim-tərbiyə, nizam-intizamı sərtləşdirmək üçün

24 mart 1918-ci il tarixdə "Hərbi xidmət haqqında" qanun qəbul edildi[99]. Trabzonda danışıqların kritik bir nöqtəyə çatdığı məqamda Qafqaz cəbhəsi qoşunlarının baş komandanı "Zaqafqaziyada hərbi mükəlləfiyyətlilərin qoşunlara çağırılması haqqında" qanuna əsasən bütün hərbi mükəlləfiyyətlilərin orduya səfərbər edilməsi haqqında sərəncam verdi[100]. Sərəncama əsasən 1 yanvar 1869-cu ildən 1 yanvar 1899-cu ilədək anadan olan vətəndaşlar 6 ay müddətinə hərbi xidmətə çağırılırdılar. Çağırışdan yalnız "vergi müfəttişləri, radio ixtisasçıları, torpaqölçənlər, aqrar işlər üçün lazımi kadrlar, milis işçiləri, texniki nəzarət və poçt işçiləri azad olunurdular"[101]. Yeleneno İcraiyyə Komitəsinin sədri Y.Braytmeyer 31 mart 1918-ci il tarixdə Zaqafqaziya alman atıcı alayının komandirinə müraciətində xahiş edirdi ki, "Yelenendorf sakinlərinin hərbi xidmətinin bu alayda keçirilməsinə icazə versin". Müraciət etmək haqqında qərar 29 mart 1918-ci il yığıncağında qəbul edilib[102].

Zaqafqaziya Seyminin erməni və gürcü mənşəli nümayəndələri Trabzonda Brest sülhünün şərtlərini tanımadıqlarını, Qarsdan, Ərdəhandan və Batumdan türk qoşunlarının çıxarılmasını tələb etdilər. Zaqafqaziya nümayəndələrinin uzun və nəticəsiz danışıqları türk ordusunu öz hücumlarını davam etdirməyə məcbur etdi.

Türk qoşunlarının Bakıya qədər irəliləməsi ehtimalından və bunun fonunda Bakıda türk-müsəlman əhalisinin, "Müsavat" partiyasının siyasi fəallığının artacağından təşvişə düşən Bakı Soveti, "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası artıq 1918-ci ilin martın ortalarından Azərbaycan Milli Hərəkatına divan tutmaq, şəhərdə milli qırğın törətmək və Bakını türk-müsəlman əhalidən təmizləmək planları qururdu. "Əksinqilaba qarşı mübarizə" şüarı altında erməni daşnakları Bakı və ətraf qəzalarda yaşayan rus, alman, aysor və sair qeyri-müsəlman əhalini də bu qırğına cəlb etmək niyyəti ilə onlar arasında təxribat xarakterli təbliğat aparırdılar. 1918-ci ilin martın 30-da ermənilər tərəfindən azərbaycanlılara qarşı başlayan soyqırım qəzalarda aprel-may aylarında da davam etmişdir. Arxiv sənədlərindən görünür ki, Cənubi Qafqaz almanları regionda 1918-ci il yaz aylarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım aktlarında neytral mövqe tutmuş, bəzi hallarda isə azərbaycanlı sakinləri ermənilərdən müdafiə etmişlər.

Məsələn, 26 mart 1918-ci il tarixdə Yelenendorf komissarı Tabias Vakenqutun Erməni Milli Komitəsinə ünvanladığı raportda deyilirdi ki, silahlanmış bir qrup erməni kolonist Andrias Bekin "Ərəbli" adlı sahədəki üzüm bağında muzdur kimi çalışan dörd nəfər İran azərbaycanlısına hücum etmiş, "onları söyərək öldürmək istəmişlər"[103]. Yalnız alman kolonistlərinin işə qarışması ilə İran təbəələrinin həyatını xilas etmək mümkün olmuşdur. Yelenendorf komissarının raportunda Erməni Mülki Komitəsindən tələb olunur ki, "onlar (ermənilər – *İ.A.*) Yelenendorfda yaşayan azərbaycanlı fəhlələrə toxunmasınlar, belə ki, onların hamısı fəhləlik edirlər və başqa bir fikirləri, niyyətləri yoxdur"[104].

Hələ 1918-ci il mart ayının əvvəllərində alman kolonistləri ermənilərlə azərbaycanlılar arasında münasibətlərin gərginləşdiyini müşahidə edərək Yelizavetpol quberniyasının qərb ərazilərindəki bağ sahiblərini birləşdirən "Bağçılıq ittifaqı"nın yaradılması təşəbbüsü ilə çıxış etdilər. Tabeçilikdə olan əmlakın qorunması üçün "Bağçılıq ittifaqı" öz silahlı milis dəstəsini ("tarla milisini") və cuvarlarını təyin etdi[105].

"Bağçılıq ittifaq"ının sədri L.Stepanyans, katibi isə S.Petrosov idi. Rəhbərliyində ermənilər oturan bu "İttifaq"əslində Erməni Mülki Komitəsindən tam asılı vəziyyətdə idi və axırıncının göstərişlərini yerinə yetirirdi. Arxiv sənədlərindən göründüyü kimi, "Bağçılıq ittifaqı"na daxil olan erməni və alman əhalisinin məqsədləri tamamilə fərqli idi[106].

Almanlar "İttifaq"a daxil olmaqla yaranan təsərrüfat məsələlərini, ən əsası isə təsərrüfat zəminində qonşu xalqlarla yaranan milli münaqişələrdən sığortalanmaq ümidində idilər. Onların fikrincə, "İttifaq" "ümumi təsərrüfat həyatı bir-biri ilə bağlı xalqlar arasında patsifikator rolunu oynamalı idi". Ancaq hadisələrin gedişatı göstərir ki, regionda yaşayan xalqların təsərrüfat məsələlərində birləşməsi cəhdi əməli bir nəticə vermədi. 1917-ci ilin baharında erməni əhalisinin alman kolonistlərinə qarşı təxribat xarakterli hərəkətləri davam edirdi. Bəzən alman kolonistlərinin mühafizə dəstəsi erməni qudurlarına qarşı güc tətbiq etməli olurdular.

1918-ci ilin aprelin əvvəllərindən Murut, Azat və Çaykənddə məskunlaşan ermənilər "şüurlu şəkildə və sistematik olaraq" al-

man kolonist təsərrüfatlarına ziyan vurmaqda davam edirdilər[107]. Erməni Mülki Komitəsi millətçi-daşnak dəstələrinin cinayətkar fəaliyyətini dəstəkləyir, koloniya rəhbərlərindən erməni silahlılarından "müsadirə olunmuş silahların və sair əşyaların Erməni Mülki Komitəsinə təhvil verilməsini tələb edirdi"[108].

1918-ci ilin aprelində Qərbi Zaqafqaziyada Andronikin, Şərqi Zaqafqaziyada isə S. Şaumyanın rəhbərliyi ilə Bakı Sovetinin qoşunları dinc Azərbaycanlı əhalisinə qarşı terror həyata keçirir, minlərlə türk-müsəlman əhalisi öldürülür, öz yerlərindən qovulurdu. Formal olaraq bir-birinə sinfi düşmən sayılan Andronikin və S.Şaumyanın əsas məqsədləri Cənubi Qafqazı azəri türklərindən təmizləmək, onların yaşadığı ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaqdan ibarət idi. Bu səbəbdən Zaqafqaziya Seyminin erməni mənşəli üzvləri 03 mart 1918-ci il Brest sülhünün şərtləri əsasında müstəqil Zaqafqaziya dövlətinin elan olunmasına qarşı çıxır, gələcək "Böyük Ermənistan"ın Sovet Rusiyasından dəstək alması üçün zəmin yaratmağa çalışırdılar.

Erməni və gürcü deputatların təzyiqi ilə 14 aprel 1918-ci il tarixdə Zaqafqaziya Seymi Türkiyə ilə aparılan sülh danışıqlarını kəsdi və ona qarşı müharibəyə başladı. Zaqafqaziya ərazisində hərbi vəziyyət elan edildi, ümumi səfərbərlik başladı.

Qısa bir müddətdə Batumi, Potiətrafı əraziləri ələ keçirən türk qoşunları Tiflis istiqamətində hərəkətə başladılar. 22 aprel 1918-ci il tarixdə yaranmış vəziyyətlə əlaqədar olaraq Zaqafqaziya Seymi Zaqafqaziya Federativ Respublikasını elan etməyə və Brest-Litovsk sülhünün şərtlərini qəbul etməyə məcbur oldu. Türkiyənin müttəfiqi sayılan Almaniya İstanbuldan hərbi əməliyyatları dayandırmağı və Zaqafqaziya Respublikası hökuməti ilə danışıqlara başlamağı tələb etdi[109]. Almaniya Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirməyi planlaşdırır və Türkiyənin bu regionda fəallığının qarşısını almağa çalışırdı. Gələcəkdə iki müttəfiq dövlət arasında anlaşılmazlıqların yaranmaması üçün 27 aprel 1918-ci il tarixdə Almaniya ilə Türkiyə gizli İstanbul müqaviləsi bağladılar. Bu müqaviləyə əsasən Cənubi Qafqaz bu iki ölkə arasında təsir dairəsinə bölünürdü: türk qoşunlarının ələ keçirdikləri Qars-Aleksandropol-Qarakilsə dəmir yolu ətrafı ərazilər Türkiyənin, yerdə qalan Gürcüs-

tan və Azərbaycan Almaniyanın maraq dairəsi kimi təyin olundu[110]. Türkiyə Cənubi Azərbaycanda ingilislərə qarşı əməliyyatlar aparmaq məqsədi ilə Zaqafqaziya dəmir yolundan qoşunlarının hərəkəti üçün istifadə etmək hüququnu da qazandı.

Tezliklə Zaqafqaziya Federasiyası ilə Türkiyə arasında Batumda danışıqlar başladı və bu danışıqlara Almaniya nümayəndələri də dəvət olundular. Danışıqlar zamanı Zaqafqaziya nümayəndələri arasında fikir ayrılığı daha da dərinləşdi. Əgər azərbaycanlı nümayəndələr Türkiyə ilə sülh bağlamaq iqtidarında idisə, gürcülər "vəhşi Türkiyə" köləliyinə düşməmək üçün "sivil Almaniya"nın qoşunlarını Gürcüstana dəvət etmək niyyətindəydilər[111]. Erməni Milli Şurası ümumiyyətlə "Antanta" ölkələri ilə əlaqələrin qurulmasına üstünlük verirdi.

Hadisələrin gedişatı göstərirdi ki, Zaqafqaziya Federasiyasında dağılma prosesi gedir. Zaqafqaziya Respublikasının dağılması ərəfəsində Cənubi Qafqazda milli münasibətlərdə yenidən gərginlik yarandı. Borçalıda, Axalkalakidə, Yelizavetpol quberniyasında yaşayan erməni əhalisi öz mövqelərini möhkəmlətmək üçün, adı çəkilən regionda yaşayan azərbaycanlılara, yunanlara, almanlara qarşı basqınları gücləndirdilər.

Yelizavetpol şəhər sakinləri Vano Akopov, Qamayak Ter-Qukasov, Ruben Ovanesyan, Artyom Ohanov 6 may 1918-ci il tarixdə müxtəlif çaplı silahlarla Yelenendorf koloniyasına basqın etmişdilər[112]. Bu hadisədən iki gün sonra erməni əsilli Zurnabad sakinləri Yelenendorf koloniyasının milis dəstəsinə hücum etmiş, nəticədə "basqınçılardan biri yaralanmış, onlara məxsus silahlar və sair əşyalar müsadirə edilmişdir[113].

1918-ci ilin may-iyun aylarında da silahlı erməni dəstələrinin alman kolonistlərinə basqınları davam etmişdir[114]. Ermənilərin məqsədi almanları öz yaşadıqları yerlərdən qovmaq, onların torpaqlarını, evlərini və sair əmlaklarını ələ keçirməkdən ibarət idi. Qeyd edək ki, Yelizavetpol quberniyasının qərb qəzalarında Türkiyədən və İrandan gəlmiş minlərlə erməni qaçqını məskunlaşmışdı və onlar alman koloniyalarına basqınlarda fəal iştirak edirdilər.

Erməni Mülki Komitəsi erməni silahlılarının qanunsuz hərəkətlərinə bəraət qazandırmağa çalışır, baş verən silahlı toqquşmalarda

"ermənilərə qarşı həmişə qətiyyətli mövqe tutan alman milis taborunun komandiri Ruşits təqsirləndirirdi[115]. Erməni tərəfi, həmçinin kolonistlərdən erməni əhalisi qarşısında üzr istəməyi, ermənilərin koloniyaları tərk etməsindən təəssüfləndikləri barədə müraciət etməyi tələb edir, baş verə biləcək münaqişələrdə Erməni Mülki Komitəsinin icazəsi olmadan "heç bir separat hərəkətlərə əl atmamağı" tövsiyə edirdi[116].

Bütün Cənubi Qafqaz miqyasında müzakirələrə səbəb olan erməni-alman qarşıdurması Yelenendorfda fəaliyyət göstərən lazaret ətrafında baş verdi. 1914-cü ildə alman kolonistlərinin vəsaiti hesabına yaradılan bu lazaret I Dünya müharibəsində yaralanan hərbçilər üçün nəzərdə tutulmuşdur. Sonralar "Ümumrusiya şəhərlər ittifaqı"nın balansına keçən lazaret 1917–1918-ci ilin əvvəllərində tamamilə ermənilərin əlinə keçmişdi. 1918-ci ilin may ayında lazaretə müdirliyi erməni əsilli doktor A.Əmirxanov həyata keçirirdi[117]. Tədricən ermənilər lazaretə aid əmlakı – mebel, dərman ləvazımatı, tibbi alətləri, sarğı materiallarını qonşu Çaykənd və Çardaxlıdakı erməni lazaretlərinə daşıyırdılar. 10 may 1918-ci il tarixdə Yelenendorf kolonistlərinin lazareti koloniyaya qaytarmaq haqqında qərarı erməni-alman qarşıdurmasına səbəb oldu[118]. Hətta iş o qədər mürəkkəbləşdi ki, Qafqaz atıcı alman alayının poruçiki Meybam və əsgərlər münaqişəyə müdaxilə etməli oldular ki, lazaretin talan edilməsinin qarşısını alsınlar[119]. Qeyd edək ki, lazaret ətrafında yaranan vəziyyət Tiflisdə "Zaqafqaziya alman ittifaqı"nın idarə heyətində də müzakirə edilmiş və almanların hərəkətinin qanunauyğun olduğu barədə qərar qəbul edilmişdir[120].

İctimai-siyasi vəziyyətin böhranlı olmasına baxmayaraq Cənubi Qafqaz alman koloniyalarında müsbət dəyişikliklərə böyük ümidlər bəslənilirdi. Belə ki, 8 may 1918-ci il tarixdə Zaqafqaziya Federasiyasının hökuməti çar Rusiyası dövründə adları ruslaşdırılmış koloniyalara öz tarixi adlarının qaytarılması haqqında qərar verdi. Koloniyalarda yenə kargüzarlıq işlərinin həm rus, həm də alman dilində aparılmasına icazə verildi.

Beynəlxalq aləmdə baş verən hadisələr də alman kolonistlərinə gələcəyə ümidlə baxmağa əsas verirdi. Batumda sülh danışıqları zamanı Almaniya nümayəndələri Zaqafqaziya nümayəndəli-

yinin gürcü üzvləri ilə separat danışıqlar apararaq onlara bildirdilər ki, Federasiya tezliklə dağılacaq və gürcülər kömək üçün Almaniyaya müraciət etməlidirlər. 14 may 1918-ci il tarixdə Gürcü Milli Şurası Almaniyanın himayədarlığını qəbul etmək haqqında qərar qəbul etdi[121].

Almaniya nümayəndə heyətinin rəhbəri general fon Lossov Gürcüstan Milli Şurasının xahişnaməsini aldıqdan dərhal sonra gizli şəkildə "gələcək müstəqil Gürcüstanla" Almaniya arasında bağlanacaq müqavilənin maddələrinin hazırlanması prosesi başladı. Eyni zamanda, Batuma, Potiyə, Oçamçirə Ukraynada yerləşən Almaniya hərbi hissələrindən 3 minlik hərbi kontingent göndərildi. Beləliklə, Almaniya üçün Cənubi Qafqaza yol açıldı. Bu dövrdən başlayaraq həm Gürcüstanda, həm də Azərbaycanda məskunlaşan alman kolonistlərinin tarixində məzmunca yeni səhifə açıldı.

Oktyabr çevrilişindən Cənubi Qafqaz müstəqil dövlətlərinin yaranmasına qədərki dövrdə Qafqaz almanlarının sosial-siyasi həyatını nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gələ bilərik ki, Rusiyada yaşayan bütün xalqlar kimi, almanlar da Fevral inqilabını, Romanovlar monarxiyasının devrilməsini böyük sevinclə və gələcəyə böyük ümidlə qarşıladılar. Rusiya almanları ölkədə demokratik respublikanın qurulmasına, onlara qarşı çar hökuməti tərəfindən törədilən ayrı-seçkilik xarakterli siyasətə son qoyulacağına ümid bəsləyirdilər. Qafqazda fəaliyyət göstərən müxtəlif siyasi cərəyanlarla, partiyalarla, sosial təbəqələrlə "bütün demokratiyanın vəhdəti" şüarı altında birləşən alman əhalisi, eyni zamanda öz milli maraqları, milli hüquqları uğrunda siyasi fəaliyyətə qoşulmuşdu. Bu fəaliyyətin nəticələrinə Rusiya almanları, müxtəlif regionlarda yaşayan alman əhalisinin maraqlarının müxtəlifliyi əhəmiyyətli təsir göstərirdi. Nəinki Cənubi Ukraynada, Volqaboyunda, Sibirdə, hətta Şimali və Cənubi Qafqazda yaşayan alman əhalisinin sosial-iqtisadi, mədəni, siyasi, dini maraqları bəzi məqamlarda bir-birinə ziddiyyət təşkil edirdi. Rusiyanın gələcək siyasi quruluşu, milli muxtariyyətin hansı formada qəbul edilməsi, alman əhalisinin ölkənin siyasi həyatında iştirakı və sair məsələlərdə Rusiya almanlarının platforması üst-üstə düşmürdü və bu işdə onların müxtəlif konfessiyalara mənsubluğu da az rol oynamamışdır.

Tarixən, ənənəvi olaraq, monarxiya tərəfdarları kimi tanınan almanlar Rusiyanın siyasi quruluşunu respublika kimi görürdülər. 1917-ci ilin I yarısında ümumi demokratikləşmə dövründə Qafqaz almanları bir sıra siyasi forumlar keçirdilər. Bu forumlarda kolonistlərin ictimai-siyasi, mədəni həyatına aid çox vacib qərarlar qəbul edildi. Lakin Müvəqqəti hökumət dövründə davam edən siyasi, sosial-iqtisadi böhran şəraitində bu qərarların böyük əksəriyyətini həyata keçirmək mümkün olmadı. Alman kolonistlərinin öz təşəbbüsləri ilə həyata keçirmək istədikləri tədbirlər Müvəqqəti hökumət tərəfindən dəstəklənmədi. Coğrafi xüsusiyyətləri və konfessional mənsubiyyətinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən Şimali və Cənubi Qafqaz alman əhalisinin siyasi platformasında müəyyən fərqlər nəzərə çarpırdı. Cənubi Qafqaz almanları monolit kütlə kimi çıxış etsə də, Şimali Qafqaz, alman əhalisi parçalanmış coğrafi məskunlaşma səbəbindən, ən əsası isə bir-birinə zidd dini icmalardan ibarət olduğuna görə parçalanmaya daha çox məruz qalırdı. Bu fərqlilik 1917-ci il oktyabr çevrilişindən və Rusiya imperiyasının böyük bir hissəsində Sovet hakimiyyətinin elan olunmasından sonra daha da artdı. Cənubi Qafqazda, yalnız Bakıda Sovet hakimiyyəti elan olunsa da, Şimali Qafqazda 1917-ci ilin oktyabrından 1918-ci ilin mayınadək siyasi hakimiyyət dəfələrlə əldən-ələ keçmişdir. Ağqvardiyaçılarla bolşeviklər arasında gedən sinfi mübarizədə Şimali Qafqaz almanları neytral mövqe tutmağa çalışırdılar, baxmayaraq ki, onların böyük əksəriyyəti bolşeviklərin milliləşdirmə siyasətini bəyənmirdilər. Bu səbəbdən ayrı-ayrı kolonistlərin fərdi şəkildə ağqvardiyaçı hərbi dəstələrində iştirakı faktına rast gəlinir. 1918-ci ilin martında Sovet Rusiyası ilə Almaniya və onun müttəfiqləri arasında bağlanan Brest-Litovsk sülh müqaviləsi Şimali Qafqaz almanlarının bolşevik hökumətinə münasibətinin dəyişməsinə böyük təsir göstərdi. Şimali Qafqazda cəmləşmiş on minlərlə hərbi əsirlər və çoxsaylı kolonist kütlələrinin gələcək perspektivlərinə müəyyən aydınlıq gətirildi.

Şimali Qafqazdakı soydaşlarından fərqli olaraq Cənubi Qafqaz almanları kəskin sinfi mübarizə şəraitində deyil, milli münaqişələrin son həddə çatdığı bir şəraitdə yaşayırdılar. Regionun ictimai-siyasi həyatını mürəkkəbləşdirən erməni millətçi partiyalarının, onların si-

yasi dəstələrinin təcavüzündən azərbaycanlılar, gürcülər və sair yerli xalqlarla yanaşı, alman kolonistləri də əziyyət çəkirdilər.

1918-ci ilin aprel-may aylarında Almaniya Cənubi Qafqazda həm siyasi, həm də hərbi mövcudluğunu təmin etmək üçün əlverişli imkan qazanmışdı. 1918-ci ilin yazında Cənubi Qafqazda müstəqil respublikaların yaranması və Şimali Qafqazda Sovet hakimiyyətinin devrilməsi və ağqvardiyaçı qüvvələrin birləşməsi, Qafqaz regionunda Almaniya amilinin real bir qüvvə kimi ortaya çıxması bütün Qafqaz almanlarının siyasi fəallığını artırdı, onların ictimai-siyasi həyatında təntənə dövrü başladı.

# IV FƏSİL
# ŞİMALİ QAFQAZ VƏ GÜRCÜSTAN ALMANİYANIN PLANLARINDA, SOVET RUSİYASI VƏ GÜRCÜSTANIN "ALMAN" SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ

Qırmızı Ordu hissələri tərəfindən Şimali Qafqazın işğal edilməsindən sonra burada saxlanılan alman hərbi əsirlərində, kolonistlərdə kütləvi və təşkil olunmuş şəkildə Almaniyaya qayıtmaq ümidləri yarandı. Belə ki, 03 mart 1918-ci il tarixdə Brestdə bağlanan əlavə müqavilənin 17-ci maddəsinin şərtlərinə görə Rusiyada yaşayan bütün alman kolonistlərinə sülh müqaviləsi bağlanandan 10 il ərzində öz əmlakı ilə birlikdə Rusiyanı tərk etmək hüququ verilmişdi[1]. Qeyd edək ki, Birinci Dünya müharibəsi illərində Almaniya və onun müttəfiqlərinin 2 mln. 322 min 378 zabit və əsgəri Rusiyaya əsir düşmüşdü[2].

Alman kəşfiyyatının Berlinə verdiyi məlumata görə 1918-ci ilin yayında təkcə Şimali Qafqaz regionunda 27000 alman mənşəli hərbi əsir saxlanılırdı[3]. Hələ müharibə illərindən başlayaraq hərbi əsirlərdən Şimali Qafqazın istər kənd təsərrüfatında, istərsə də sənaye və iaşə obyeklərində işçi qüvvəsi kimi istifadə olunurdu və bu səbəbdən yerli hakimiyyət orqanları yüksək ixtisasa malik, intizamlı işçi qüvvəsinin itirilməsindən narahat olur, hərbi əsirlərin və kolonistlərin evakuasiya olunmasına qarşı çıxırdılar[4].

Kolonistlər Moskvada yaradılmış mühacirlər üzrə komissiyalardan, regionlarda isə yerli, köməkçi komissiyalardan əmlaklarının toxunulmazlığı haqqında müvafiq sənəd əldə etdikdən sonra Rusiyanı tərk edə bilərdilər. Qafqazda fəaliyyət göstərən alman komitələri Almaniyaya qayıtmaq istəyən kolonistlərin siyahısının tərtib olunması və onların əmlakının qeydə alınmasında rəsmi orqanlara yardım edirdilər.

Çarizmin 1914–1917-ci illərdə almanlara qarşı apardığı ayrı-seçkilik, həm də 1918-ci ilin yazından Sovet hakimiyyətinin həyata keçirdiyi milliləşdirmə siyasətinin nəticəsi kimi Terek vilayətində mövcud olan Emmaus, Dzanxotov, Reymer, Şarf, Rempel və s. koloniya, o cümlədən xutorların əhalisi 1918–1919-cu illərdə başqa regionlara, əsasən də Rusiyadan xaricə köçməyə məcbur ol-

dular[5]. Donda, Kubanda və Şimali Qafqazın başqa regionlarında bolşeviklər hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra (1918-ci ilin yayı) kolonistlərə verilən əmlak haqqında sənədlərin verilməsi dayandırıldı və əvvəllər əldə edilən bu tipli sənədlər öz əhəmiyyətini itirdi[6].

Almaniyaya köçə bilməyən alman kolonistlərindən və əsasən də hərbi əsirlərdən bolşevizmə qarşı mübarizədə istifadə etmək cəhdləri də olmuşdur. Ağqvardiyaçılar arasında almanlardan ibarət hərbi dəstələr yaradılmışdı və qeyd edək ki, təkcə P.Vrangelin komandanlıq etdiyi orduda 3 minə qədər alman kolonisti və alman mənşəli hərbi əsirlər vuruşurdular[7]. Kolonistlərdən və əsirlərdən hərbi dəstələr yaratmaqla Almaniya onlardan Qafqaza dair planlarının həyata keçirilməsində istifadə edirdi. 1918-ci ilin may-iyun aylarında bütün Gürcüstanı tam nəzarətə alan Şimali Qafqaz regionuna yaymaq niyyətində idi. 1918-ci ilin 19 iyul tarixində Almaniya Hərbi Nazirliyinin İmperiya iqtisadiyyat idarəsinə verdiyi məlumatda Qroznı və Maykopun, buradakı neft yataqlarının ələ keçirilməsinin əhəmiyyəti vurğulanır, Qara dəniz sahilində yetişdirilən tütün ehtiyatları, delfin ovu, balıq yağının alınmasının Almaniya üçün vacibliyi göstərilirdi[8]. Almanlar Qafqaza dair uzunmüddətli planlar qururdular və bu onların regiona dair niyyətlərinin müvəqqəti xarakter daşımadığını göstərirdi. Məsələn, Almaniya Qafqazın xammal bazasına nəzarəti gücləndirmək məqsədilə Tiflis-Vladiqafqaz dəmiryol xəttinin çəkilməsini planlaşdırmışdı. Alman mütəxəssislərin fikrincə, bu xətt Bakıdan Vladiqafqaza uzanan köhnə yola nisbətən 1300 km qısa olmaqla, cəmisi 220 km olmalı idi.

Həmçinin, Araqva və Terek çaylarında su elektrik stansiyasının tikilməsi nəzərdə tutulurdu. Bu stansiyalar Qafqazın elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, qonşu əyalətlərə də enerji satışını təmin etməli idi[9].

Bolşeviklərlə Brest-Litovsk sülh müqaviləsi bağlanmasına baxmayaraq Almaniya ikili siyasət aparır, gizli yollarla həm Vrangelin, həm də Denikinin "Könüllü ordusu"nu dəstəkləyirdi. Almaniya Quru qoşunlarının Baş qərargah rəisinin 1918-ci ilin yayında Berlinə göndərdiyi məlumatda "Suxuma qədər ərazilərin gürcülərin, ondan şimaldakı ərazilərin isə bolşeviklərin" nəzarətində olduğu göstərilir

və Şimali Qafqazda almanların mövqelərini gücləndirmək üçün oraya 42 saylı sualtı gəminin göndərildiyi söylənilir[10]. 1918-ci ilin avqustunda general A.İ.Denikinin komandanlığı ilə "Könüllü ordu" hissələri bütün Şimali Qafqazı ələ keçirdilər. Denikinçilərin Şimali Qafqazda müvəqqəti nailiyyətləri nəticəsində region bolşeviklərdən azad edildi və eyni zamanda Cənubi Qafqazın siyasi həyatı üçün müəyyən dərəcədə stabillik yarandı; belə ki, ağqvardiyaçıların nəzarətində olan Şimali Qafqaz Cənubi Qafqazın müstəqil respublikaları ilə Sovet Rusiyası arasında bufer rolunu oynayırdı.

1918-ci il 14 may tarixdə Batumda Cənubi Qafqaz və "Üçlər İttifaqı" nümayəndələri arasında danışıqlar zamanı alman nümayəndələri Cənubi Qafqaz Seyminin gürcü nümayəndələri ilə separat danışıqlara gedərək, onlara tezliklə Zaqafqaziya Federasiyasının dağılacağını başa saldılar və bu səbəbdən Gürcüstanın yardım üçün Almaniyaya müraciət etməsinin zəruriliyini vurğuladılar. Almaniya ilə separat sövdələşmədə iştirak etmiş gürcü nümayəndələrindən Z.Avalişvili sonralar bu haqda öz memuarlarında belə yazırdı: "Almanların nümayəndə üzvləri ilə aparılan açıq danışıqda Gürcüstanın gələcək mövqeyi formalaşırdı. Biz əvvəlcədən hiss etmişdik ki, Zaqafqaziya koalisiyası mütləq dağılacaq. Bu işdən yalnız bir neçə nəfər xəbərdar idi."[11]

Almanlar Gürcüstan nümayəndələrini konkret qərar qəbul etməyə tələsdirirdilər və onların təkidi ilə 1918-ci il may ayının 14-də Gürcü Milli Şurası Almaniya hökumətinə müraciət edərək ondan himayədarlıq istədi. Milli Şüranın qərarında deyilirdi: "Gürcüstan Milli Şurası öz istəyini ifadə edir və xahiş edir ki, Almaniya beynəlxalq və siyasi hüquqi məsələlərdə Gürcüstana mümkün qədər dəstək olsun". Gürcüstan Milli Şurasının qərarında, həmçinin arzu olunurdu ki: "Şimali Qafqazdakı alman hərbi hissələri Gürcüstan sərhədlərinə doğru hərəkət etsin ki, Gürcüstanın təhlükəsizliyini təmin etmək üçün onlarla əlaqə yaratmaq mümkün olsun". Qərarda həmçinin "Gürcüstandakı alman mənşəli hərbi əsirlərdən hərbi hissələrin təşkil olunması və zərurət yarandıqda gürcü hökumətinin bu qoşunlardan ölkədaxili qayda-qanunun bərqərar olmasında və anarxiyaya qarşı mübarizədə istifadə etmək" niyyətləri əks olunmuşdu[12].

Gürcüstan Milli Şurasının xahişnaməsi bir neçə gündən sonra Almaniya nümayəndə heyətinin rəhbəri general fon Lossova təqdim edildikdən dərhal sonra gizli şəkildə "gələcək müstəqil Gürcüstanla" Almaniya arasında bağlanacaq müqavilənin maddələrinin hazırlanması prosesi başladı. Eyni zamanda Batuma, Potiyə, Oşamçirə Ukraynada yerləşən Almaniya hərbi hissələrindən 3 minlik hərbi kontingent göndərildi.

1918-ci il 28 may tarixdə, Poti şəhəri sahillərində yerləşən "Minna Xorn" alman gəmisində Almaniya ilə Gürcüstan arasında Batumda razılaşdırılmış müqavilə mətnlərinin imzalanması baş tutdu[13].

Almaniya və Gürcüstan arasında bağlanan 6 müqavilədən 4-ü əsas, 2-si isə əlavə xarakteri daşıyırdı. Birinci əsas müqavilənin ikinci bəndinə görə Almaniya Gürcüstanın dəmir yollarının tam sahibinə çevrilirdi, baxmayaraq ki, müqavilədə Almaniyanın müttəfiqlərinin də bu dəmir yollarından istifadə etmək hüququ əks olunmuşdu. Gürcüstan dəmir yollarını heç bir dövlətlə bölüşməyəcəyini alman rəsmiləri dəfələrlə bəyan etmişdilər və bu mövqe dəmir yollarına nəzarət məqsədi ilə yaradılmış alman hərbi komissiyasının Gürcüstanın hərbi nazirinə 5 iyun 1918-ci il tarixdə göndərdiyi məktubdan da görünür. Məktubda gürcü tərəfdən "Gürcüstan və Almaniya arasında əldə edilmiş razılaşmanın maddələrinə, həmçinin şifahi razılaşmaya əsasən ... dəmiryol nəqliyyatının hərbi və texniki məsələləri barədə türk zabitlərinə və onların agentlərinə heç bir məlumatın verilməməsi" tələb olunurdu[14].

Tezliklə, Batum, Poti və Oçamçirdən savayı, Tiflisdə, Kutaisdə, Qoridə, Siqnaxidə, Borçalıda, Samtrediada, Yeni Senakidə və sair yerlərdə alman qarnizonları yerləşdirildi. Gürcüstanın bütün dəmir yol stansiyalarına alman qoşunlarının nazarət etməsini və ölkənin bütün strateji əhəmiyyətli yaşayış məntəqələrindən dəmir yolunun keçməsini nəzərə alaraq deyə bilərik ki, bu müqavilə əslində bütün Gürcüstan ərazisində Almaniyanın hegemonluğunun bərqərar olması üçün şərait yaratdı.

Almaniya hökuməti Cənubi Qafqazda yaşayan alman kolonistlərinə və Birinci Dünya müharibəsində əsir düşmüş alman mənşəli əsgər və zabitlərdən ibarət hərbi birləşmələrin yaradılmasına böyük ümid bəsləyirdi. Çünki Avropa cəbhələrində Almaniyanın hərbi

vəziyyətinin pisləşməsi Gürcüstana çoxsaylı hərbi kontingentin göndərilməsini mümkünsüz etmişdi.

Almanların 1918-ci ildə Gürcüstanda fəaliyyətinə dair sənədlərdən görünür ki, Alman Baş Qərargahı Cənubi Qafqazda yaşayan kolonistlərin fəaliyyətinə böyük önəm verirdi.

Almaniya Baş Qərargahının əsas planlarına daxil olan məsələlərdən biri Cənubi Qafqazdakı alman kolonistlərindən silahlı qüvvə kimi istifadə etmək idi. Almaniya Baş qərargahının rəisi, məşhur alman hərbçisi Lüdendorf öz xatirələrində yazırdı: "Şərqdəki alman əhalisindən çağırış-çıların qəbul edilməsinə böyük ümid bəsləyirdim"[15].

1918-ci ilin mayında alman ordu hissələrinin Gürcüstana daxil olması Cənubi Qafqazın alman kolonistləri arasında nəzərəçarpacaq canlanmaya səbəb oldu və koloniyalarda yaşayan alman gənclərinin Qafqaz alman atıcı alayına kütləvi axını başladı.

Qeyd etmək yerinə düşər ki, Gürcüstanla Almaniya arsında bağlanan 2-ci müqaviləyə əsasən "Almaniyaya Gürcüstandakı alman əsirlərindən ibarət hərbi hissələr təşkil etmək, onlardan Gürcüstan ərazisində və onlarla qonşu rayonlarda istifadə etmək" hüququ verilmişdi[16].1918-ci ilin mayında Almaniya Baş Qərargahına daxil olan gizli raportda "almanların Cənubi Qafqazda yerli əhali arasında ordu yaratması və bu ordunun əsasının alman kolonistlərindən ibarət olması" qeyd olunur. Həmçinin, ərzaq ehtiyatlarının toplanmasında da kolonistlərə böyük ümid bəsləndiyi, "toplanmış malın və ərzağın əsas hissəsinin alman ordusuna göndərilməsi, qalan hissəsinin isə yerli əhaliyə saxlanılması" kimi göstərişlər bu raportda öz əksini tapmışdı[17].

1918-ci ildə Tiflisdə konsul Şülenberqin rəhbərlik etdiyi diplomatik nümayəndəlikdən savayı, Gürcüstanda almanların bir sıra başqa idarələri də fəaliyyət göstərirdi. Yuxarıda adını çəkdiyimiz dəmir yolu nəqliyyatına nəzarət üzrə hərbi komissiyadan savayı, Almaniya Hərbi Nazirliyinin, iqtisadiyyat, hərbi təchizat və sair idarələrin xəttilə çoxsaylı komissiyalar, o cümlədən ordu komandanlığı artıq 1918-ci ilin mayın sonlarından Gürcüstanda fəaliyyət göstərirdilər. Bütün bu adı çəkilən komissiyalar, nümayəndəliklər hamısı birlikdə "alman nümayəndəliyi" adlanırdı və nümayəndəliyin rəhbəri polkovnik Kress fon Kressenşteyn təyin edilmişdi.

Alman qoşunlarının Tiflisə daxil olmasından dərhal sonra Gürcüstan hökuməti əhaliyə qürurla bəyan etdi ki, "Almaniya silahlı qüvvələri Tiflisə hökumətin dəvəti ilə daxil olmuşdur və onların vəzifəsi ölkənin sərhədlərini qorumaq, anarxiyaya qarşı mübarizə aparmaqdır"[18].

11 iyun 1918-ci il tarixdə Tiflisin Qolovin (indiki Ş.Rustaveli) prospektində Gürcüstan-Almaniya qoşunlarının birgə paradı keçirildi. Parad keçidinə baxanlar arasında Gürcüstan Nazirlər Şurasının sədri N.Ramişvili, Hərb naziri Georqadze, genaral-leytenant Qabayev və Almaniya tərəfdən Almaniyanın Gürcüstandakı səfiri qraf Şülenberq, ober-leytenant Kayzer və başqa rəsmilər vardı[19].

Həmin günlərdə alman əsirləri və yerli kolonistlərdən ibarət silahlı dəstələrin yaradılması haqqında menşevik yönümlü "Borba" ("Mübarizə") qəzeti yazırdı: "Tiflisdə Almaniya təbəəliyi olan sakinlərin səfərbərliyi elan olunmuşdur. Onlardan 17 yaşdan 45 yaşa qədər kişi əhalisi mütləq qeydiyyatdan keçməlidir. Qısaca desək, onlar (almanlar – *İ.A.*) özlərini Cənubi Qafqazda ağa kimi hiss edirlər, sanki işğal etdikləri ölkədədirlər"[20].

Hərbi əsirlərin və yerli alman kolonistlərinin orduya cəlb edilməsi nəticəsində onların ümumi sayı 20 minə çatmışdı. Hərbi kontingentin böyük əksəriyyəti strateyi əhəmiyyətə malik Poti və Tiflis şəhərlərində yerləşdirilmişdi. Hər bir alman qarnizonunun ixtiyarında artilleriya topları, pulemyotlar, tüfənglər, bəzi yerlərdə isə hətta hərbi təyyarələr var idi. Gürcüstanla Almaniya arasında bağlanan 3-cü müqaviləyə əsasən Almaniyaya lazım olan halda, Gürcüstana məxsus gəmilərdən istifadə hüququ verilmişdi. Bu müqavilənin 3-cü bəndinə əsasən gəmi kapitanlarına Almaniyanın hərbi xidmətinə keçmək haqqında şəhadətnamələr verilmişdi[21]. Almaniya və Gürcüstan arasında bağlanan 4-cü əsas müqaviləyə əsasən Gürcüstanda alman markası dövriyyəyə buraxıldı və gürcü pulu ilə bərabər statusa malik idi.

Dəmir yollarını, dəniz limanlarını ələ keçirən almanlar Gürcüstanın poçt-teleqraf şəbəkəsi üzərində də nəzarət qoydular, tez-tez dövlət orqanlarının, müəssisələrin işlərinə qarışmağa başladılar. Alman hərbi komandanlığını maraqlandıran və Gürcüstana aid hər hansı bir məlumatı əldə etməkdə onlara yerli alman kolonistləri yaxından köməklik edirdilər[22].

Alman nümayəndəliyinin fəaliyyətə başlaması və alman qoşunlarının Gürcüstana daxil olması ilə Gürcüstana sərmayə qoymaq istəyən alman iri torpaq sahiblərindən təkliflər daxil olmağa başladı. Onlar Gürcüstanda mövcud olan alman koloniyalarında, həmçinin başqa bölgələrdə ət-süd, konserv, araq-çaxır istehsal edən zavodların, çay və tütün fabriklərinin tikilməsi haqqında müxtəlif layihələr hazırladılar. Şübhəsiz Gürcüstanın kənd təsərrüfatının xüsusiyyətləri haqqında məlumatların toplanmasında onlara yerli alman kolonistləri yaxından köməklik göstərirdilər.

Gürcüstanda alman qoşunlarının yerləşdirilməsi ilə burada yaşayan alman kolonistlərinin yerli əhaliyə – azərbaycanlılara, gürcülərə qarşı münasibəti pisləşdi. Kolonistlərin təhriki ilə işğalçılar kəndlərə daxil olur, kimsəyə məhəl qoymadan əhalini tərk-silah edir, mal-dövlətini əlindən alır, müqavimət göstərənləri yerindəcə güllələyirdilər. Məsələn, 10 iyul 1918-ci il tarixdə alman əsgərləri yerli kolonistlərdən ibarət silahlı dəstələrlə birləşərək Koda kəndinin camaatını qarət etdilər. Bundan öncə almanların tələbi ilə kənd sakinləri könüllü olaraq 150 tüfəngi təhvil vermişdilər. Alman əsgərləri evlərə soxulur, axtarış aparır və əllərinə keçən qiymətli hər şeyi – keçmişdən yadigar qalmış gümüş xəncərləri, bıçaqları, mətbəx-məişət əşyalarını mənimsəyirdilər. Müqavimət göstərən qadınlar, uşaqlar döyülür, təhqirə məruz qalırdılar[23]. Öz əməllərinə bəraət qazandırmağa çalışan almanlar bütün bu aksiyaların Gürcüstan hökumətinin razılığı ilə həyata keçirildiyini bəyan edirdilər. Nəticədə, Xatişteleti, Muxranteleti, Tsalaskxuri, Soğanlıq və sair kəndlərin əhalisi talana məruz qaldılar[24].

Azərbaycanla mübahisəli ərazi sayılan və əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən Borçalı qəzasında vəziyyət daha dözülməz idi. Bu bölgəyə nəzarət hüququnu Gürcüstan alman hərbçilərinin tam ixtiyarına vermişdi. Almanlar Borçalı qəzasının azərbaycanlılar yaşayan kəndlərini amansızcasına qarət edirdilər. 11 avqust 1918-ci il tarixdə Qasımlı kəndindən alman əsgərləri silahlı kolonistlərlə birlikdə 65 pud buğda qopartdılar. Eyni zamanda, adı çəkilən kəndin əhalisindən əlavə 9 min lari ödənilməsi tələb olunurdu. Kolonistlər Sərvan kənd əhalisindən 3 saat ərzində 150 min lari toplamağı tələb etdilər, əks halda bütün kəndi yandıracaqları ilə hədələdilər[25].

21 sentyabr 1918-ci il tarixdə gecə yarısı Sanayın dəmiryol stansiyasında xidmət edən bir qrup alman əsgəri sərxoş halda gözləmə zalına daxil olaraq gənc qızları tələb etdilər. "Qadınlar diz çökərək ağlaya-ağlaya onlara toxunmamağı" yalvarırdılar[26].

Alman əsgərləri, kolonist silahlı dəstələri Borçalı kəndlərinə daxil olur, buğdanı, arpanı və sair ərzağı müsadirə edir, yaxşı halda özləri qiymət qoyaraq məhsulu kəndlilərin əlindən alırdılar. Almanların buğdaya, arpaya qoyduqları qiymət bazar qiymətlərindən dəfələrlə aşağı olurdu. Kəndlərdən qarət olunan ərzaq Borçalı-Soğanlıq yolu ilə (Gümüş gölünün şimal-şərqi) alman hərbi hissələrinə daşınırdı. Ərzaq arabaları silahlı əsgərlərlə mühafizə edilirdi və Gürcüstan dövlət orqanlarının bu arabalara baxış keçirmək tələblərinə almanlar atəşlə cavab verirdilər[27]. Alman hərbçilərinin özbaşınalığı o həddə çatmışdı ki, onlar yerli əhali üzərində məhkəmə prosesləri qurur, özbaşına onlara vergi qoyur, sonra isə bu vergilərin ödənilməsini tələb edirdilər[28]. Bəzən hətta alman əsgərlərinin gürcü xalq qvardiyasının əsgərlərinə hücumçəkmə halları da baş verirdi.[29]

Alman hərbçilərinin və kolonistlərinin özbaşınalığı gürcü cəmiyyətində narazılığın artmasına gətirib çıxardı. Həm Qərbi, həm də Şərqi Gürcüstanda bir çox kəndli nümayəndəlikləri "şərəf və vətəndaş qeyrətini" özləri əldə silahla müdafiə edəcəklərini bəyan etdilər[30].Gürcüstanın bir sıra regionlarında alman hərbçilərinin qarətlərinə cavab olaraq xalq çıxışları başladı.

Xalq narazılığı bəzi bölgələrdə silahlı üsyana çevrilmişdi. Xüsusən də, Zuqdidi, Şorapan, Duşet, Borçalı, Axalsenaki, Leçxumi və sair qəzalarda alman qoşunlarına qarşı müqavimət daha güclü idi. Menşevik hökuməti üsyançılara qarşı ciddi mübarizə aparırdı və bu işdə onlara alman hərbi hissələri yaxından köməklik edirdilər[31]. Baxmayaraq ki, 1918-ci ilin mayında Gürcüstan əhalisi alman qoşunlarını mehribancasına qarşılamışdı, onların törətdiyi özbaşınalıqlar əhali arasında antialman əhval ruhiyyəsinin yaranmasına gətirdi. Almanlar bu xalq üsyanlarının mahiyyətini səhv qiymətləndirərək, onlarda hansısa düşmən qüvvələrin əli olduğunu sübut etməyə çalışırdılar. Alman missiyasının üzvü, doktor Veller 1918-ci ilin avqustunda Berlinə yazırdı ki, "bu yerli qəzetlərdə aparılan "antialman kampaniyası"nın təsirinin nəticəsi oldu"[32].

Antialman əhval-ruhiyyəsinin artdığını missiyanı təmsil edənlər də görürdülər. General fon Kress Noy Jordaniya ilə söhbət zamanı etiraf etdi ki, onun "anladığına görə gürcü xalqı almanların Gürcüstanda qalmasına mənfi qiymət verir, ancaq Almaniyanın ordusu buraya yalnız və yalnız ölkə hökumətinin xahişi ilə gəlmişdi". Noy Jordaniya birbaşa cavabdan çəkinərək diplomatik tərzdə: "Gürcüstanda almanların olmasına qarşı gürcü xalqının narazılığı başa düşülməzdir" – deyə cavab vermişdir[33].

Almaniyanın Qafqazdakı siyasəti haqqında Gürcüstan menşeviklərinin orqanı "Borba" qəzeti hökumətin nöqteyi-nəzərini ifadə edərək yazırdı: "Almaniya hökuməti Gürcüstana qoşun göndərməklə öz məqsədlərini güdür, öz dövlət maraqlarının müdafiəsini təmin etməyə çalışır. Gələcəkdə də Almaniyanın Gürcüstandakı siyasətini gürcü hökumətinin düşüncələri deyil, Gürcüstan ərazisindəki alman maraqlarından irəli gələn tələblər təyin edəcəkdir"[34].

Gürcüstanda sosial-iqtisadi vəziyyət gündən-günə ağırlaşırdı. Respublikanın bir çox rayonlarında aclıq hökm sürürdü. İqtisadiyyat tam iflic vəziyyətinə düşmüşdü. Nəqliyyat fasilələrlə işləyirdi, dövlət büdcəsi boşalmışdı. Tiflisə xüsusi tapşırıqla göndərilən bir alman diplomatı o vaxt qeydlərində yazırdı: "Gürcü hökuməti o qədər kasıbdır ki, hətta milli bayraqlar buraxmağa vəsaiti yoxdur"[35].

1918-ci ilin yayından başlayaraq gürcü hökuməti Gürcüstandakı Almaniya nümayəndəliyinin rəhbəri general fon Kress, Almaniya imperiyası iqtisadiyyat idarəsinə, Ukraynadakı Almaniya nümayəndəliyinə müraciətlər edərək Gürcüstana ərzaq yardımının ayrılmasını xahiş etmişdir[36].

Qeyd edək ki, gürcü hökuməti təmənnasız yardım diləmir, göndərilən ərzaq əvəzinə əks tərəfə filiz, yun, tütün və başqa xammal göndərəcəyini bildirirdi.

1918-ci ilin yayında Gürcüstanın bir çox rayonlarında azərbaycanlı əhalinin qiyamları başlaya bilərdi. Belə bir şəraitdə Almaniya nümayəndəliyinin rəhbəri general fon Kress Almaniya hökumətinə müraciət edərək "Gürcüstanda vəziyyətin son həddə çatdığını" bildirirdi, Almaniyanın maraqları naminə "gürcü hökumətini heç olmasa bir aylıq ərzaqla dəstəkləməyi", "təcili olaraq Potiyə unla yüklənmiş kiçik bir paroxodun göndərilməsini" xahiş edirdi. Alman

nümayəndəliyi ərzaq cəhətdən əziyyət çəkən Gürcüstan əhalisinin ərzaqla təminatı məsələsində menşevik hökumətinin müraciətlərini cavabsız qoyurdu[37].

Berlindən gələn sərt cavab bir daha Almaniyanın Gürcüstanda apardığı siyasətin mahiyyətini açdı. Fon Kressə ünvanlanan teleqramda deyilirdi ki, "Almaniya Gürcüstana onu çörəklə təmin etmək üçün deyil, əksinə, oradan imperiyaya lazım olan hər şeyi aparmaq üçün gəlmişdir".[38]

Almaniyanın İqtisadiyyat idarəsi Gürcüstandakı ağır vəziyyəti nəzərə almayaraq, 22 iyul 1918-ci il tarixdə Xarici İşlər Nazirliyinə ünvanladığı məktubda tələb edirdi ki, "Gürcüstan nümayəndələri ilə danışıqlar zamanı onlara təzyiqlər göstərilməlidir ki, Gürcüstandan ərzaq məhsulları, toxum, dəri, buğda və paxla çıxarılması təmin olunsun"[39].

Qeyd etdiyimiz kimi yerli əhalidən ərzaq məhsullarının və sair qiymətli əşyaların toplanmasında Gürcüstanın alman kolonistləri fəal iştirak edirdilər. Alman hərbi hissələrinə arxalanan yerli kolonistlər "əhaliyə qarşı amiranə davranır, özlərini sanki işğal edilmiş ərazidə hiss edirdilər"[40].

1918-ci ilin iyulunda Tetri-Tsxaro ("Ağ bulaq") rayonunun Aşureti kəndində məskunlaşan 25 alman kolonisti 15 alman əsgəri və zabiti ilə birlikdə bir neçə gürcü kəndlərinin sakinlərini tərksilah etdilər. Silahların yığılması zamanı almanlar dinc əhaliyə qarşı zor tətbiq edir, qadın və kişiləri dəyənəklə vurur, ev heyvanlarını güllələyir, evlərə kobudcasına girir, burada axtarışlar aparırdılar. Gizlədilmiş silah aşkar edilərsə silah sahibini dəhşətli dərəcədə döyürdülər, hətta bəziləri həyatını itirirdi[41]. 1 avqust 1918-ci il tarixdə Aşureti kəndində yaşayan alman kolonistləri gürcülərin yaşadığı Borqvi kəndinə girərək 60 pud buğda müsadirə etdilər və buğdanın Aşuretiyə daşınmasını əmr etdilər. Kolonistlərdən ibarət silahlı dəstə Muxran kəndinə girərək əhalidən 35 min rubl ödəməyi tələb etdilər.

Gürcü hökuməti öz vətəndaşlarını müdafiə etməkdə aciz idi və əhalinin müdafiəsinə qalxan məmurları ciddi cəza gözləyirdi. Məsələn, almanların özbaşınalığına qarşı etiraz edən Mtsxeta rayon komissarının xidməti silahı əlindən alındı və özü həbs olundu[42].

Menşevik hökuməti getdikcə inanmağa başlayırdı ki, Türkiyənin təsirinə düşməkdən ehtiyatlanaraq Almaniya ilə yaxınlaşma siyasəti Gürcüstanda demokratiyanın, xalq hakimiyyətinin, respublikanın müstəqilliyinin möhkəmlənməsinə heç bir töhfə verməyəcəkdir. Bununla bağlı menşevik qəzeti "Borba" 1918-ci ilin yayında yazırdı: "Almaniya məqsədsiz olaraq gürcü sosial-demokratiyasının tərəfini tutmaq niyyətində deyil, bunu düşünmək belə sadəlövhlükdür... Bütün məsələlər Almaniyanın Gürcüstandakı maraqlarına dayanır. Almanlar Gürcüstana nə sosial-demokratlara, nə də nasional-demokratlara görə gəlməmişlər, onların gəlişi real maraqlardan doğulur və məqsəd marqanes, mis, ağac materialı və s. təbii sərvətlər əldə etməkdir"[43]. Həqiqətən, Gürcüstan əhalisi çox ağır durumda olduğu zaman, həmin fon Kressin etirafına görə, almanlar ölkədən 31min ton marqanes, 66,7 ton mis, 360 ton yun, 45 ton manufaktur parça, 40.350 qoyun dərisi, 340 ədəd rezin qurşağı (texniki, avtoşin ləvazımatı), 1201 ədəd avtomobil çadırı və sair aparmışlar. Əvəzində almanlar fon Kressin söylədiyinə görə "Gürcüstana alman istehsalı olan mallar gətirəcəklər, ancaq hələlik bu baş tutmur... çünki Almaniyanın iqtisadi durumu ağırdır, xammal ehtiyatı yoxdur"[44].

Gürcü hökumətinin Almaniya və onun tərəfdarlarından ərzaq almaq cəhdləri almanların Cənubi Qafqazı tərk etməsinə qədər heç bir nəticə vermədi.

Yalnız 1918-ci ilin oktyabrında reklam və ictimaiyyəti aldatmaq məqsədilə Almaniyadan Gürcüstana müəyyən istehlak malları gətirildi və bununla əlaqədar general fon Kressin köməkçisi, professor Suqmayer "Borba" qəzetinə müsahibəsində demişdi: "Çoxlu miqdarda geniş istehlak malları gətirilmişdir, baxmayaraq ki, Almaniyanın özünün bu mallara böyük ehtiyacı var"[45].

Əslində isə Almaniyanın məqsədləri aydın idi: o, öz maraqlarını güdərək Qafqazdan xammal bazası kimi istifadə etmək, burada yaşayan alman kolonistlərinin siyasi, iqtisadi, mədəni dayaqlarını möhkəmlətmək, onların muxtar mövcudluğuna nail olmaqdan ibarət idi. Ancaq Almaniyanın "Qafqaza dair planlarının həyata keçirilməsində iki əsas maneə vardı: "Üçlər İttifaqı" üzrə onun müttəfiqi olan Osmanlı dövləti və 1917-ci il Oktyabr çevrilişindən sonra yaranan Sovet Rusiyası. Gürcü-menşevik hökumətinin istə-

nilən yolla, hətta xarici silahlı qüvvələrin köməyi ilə öz hakimiyyətini möhkəmlətmək istəyi Almaniyaya Gürcüstanda hegemon mövqelər tutmaq, qonşu gənc respublikaların daxili işlərinə qarışmaq üçün siyasi və strateji şərait yaratdı.

Gürcüstan üçün Almaniya ilə əməkdaşlığın əsas məqsədi Almaniya və başqa Avropa ölkələri tərəfindən Gürcüstanın müstəqilliyinin tanınmasına nail olmaq, Almaniya hökuməti ilə siyasi müqavilələr bağlamaq, Gürcüstanı "vəhşi Türkiyənin" caynağından xilas etməkdən ibarət idi[46]. Hətta müstəqilliyin ilk günlərində – 3 iyun 1918-ci il tarixdə Berlinə, başda Z.Avalişvili olmaqla nümayəndə heyəti yollanmışdı. Almaniyanın siyasi və hərbi rəsmiləri ilə görüşlərdə gürcü hökumət nümayəndələri iki ölkə arasında siyasi müqavilələrin bağlanmasını, Almaniya tərəfindən Gürcüstanın müstəqilliyinin dərhal tanınmasını arzulayırdılar[47].

Almaniya hökuməti başa düşürdü ki, Gürcüstanın müstəqilliyinin tanınması və onunla siyasi danışıqların aparılması Sovet Rusiyasının ədalətli narazılığına səbəb olacaqdır, çünki "Brest-Litovsk müqaviləsinə görə, Gürcüstan, ümumiyyətlə bütün Qafqaz Rusiyanın tərkib hissəsi sayılırdı" və Almaniya bu müqavilənin şərtlərini pozmaq niyyətində deyildi[48].

Almaniya Xarici İşlər naziri fon Külman da 22 iyun 1919-ci il tarixdə Reyxstaqda keçmiş Rusiya imperiyasının ucqar milli rayonları ilə bağlı məsələnin müzakirəsi zamanı bəyan etmişdi ki, "Rusiyadan ayrılan bir sıra dövlətlərin, o cümlədən Gürcüstanın diplomatik tanınması Sovet hökuməti ilə danışıqların nəticələrindən asılıdır"[49]. Sovet Rusiyası ilə bağlanan Brest-Litovsk sülhünün şərtləri ilə yanaşı, Gürcüstan Demokratik Respublikasının Almaniya tərəfindən tanınmasına əngəl olan başqa bir siyasi səbəb də vardı ki, bu da Almaniyanın Gürcüstana aid qurduğu planlar idi.

İlk öncə, Almaniya Gürcüstanı özündən həm iqtisadi, həm də hərbi-siyasi cəhətdən asılı vəziyyətə salaraq onu özünün Cənubi Qafqazda forpostuna çevirməklə yanaşı, Gürcüstanın siyasi quruluşunu Almaniyaya uyğunlaşdırmaq niyyətində idi. Bir qrup hərbçinin narazılığına baxmayaraq kayzer II Vilhelm və alman monarxistlərini Gürcüstanda monarxiya rejiminin bərqərar olması prinsipləri daha çox düşündürürdü.

Gürcüstanda monarxiyanın bərpasının tərəfdarları az deyildi. Bu məsələdə Kartlinin iri torpaq sahibləri daha çox canfəşanlıq edirdilər. Ümumiyyətlə, götürdükdə Gürcüstanın bütün bölgələrində monarxiyaya rəğbət bəsləyənlər var idi. Qeyd edək ki, gürcü taxtına Baqrationilər sülaləsinin nümayəndəsinin və yaxud hansısa alman şahzadəsinin çıxarılması müzakirə edilirdi. Təbii ki, Gürcüstanda yaşayan alman kolonistlərinin böyük əksəriyyəti tarixi ənənəyə sadiq qalaraq monarxiyanın bərpasına rəğbətlə yanaşırdılar. Almaniyanın Gürcüstanda monarxiyanı bərpa etmək niyyətləri dolayı yollarla menşevik hökumətinə çatdırılmışdı. Almanların bu planlarından təşvişə düşən gürcü respublikaçıları Almaniya ilə əlaqələrin pozulmasından çəkinərək açıqcasına öz etirazlarını bildirmirdilər. Hətta, alman qoşunları Gürcüstana daxil olduqdan sonra, alman qoşunlarının baş komandanı general fon Kressin Gürcüstan monarxistləri ilə gizli danışıqlar aparması, Qori qəzasında monarxistlərin dövlət çevrilişinə cəhdi zamanı kömək üçün fon Kressə müraciət etməsi faktları da süni şəkildə menşevik hökumətinin diqqətindən kənarda qalmışdı.

Noy Jordaniyanın memuarlarında monarxiyanın bərpasının respublika quruluşu üçün, ümumiyyətlə Gürcüstan dövləti üçün nə dərəcədə təhlükəli olduğu belə əks olunmuşdur: "Əgər Almaniya monarxistlərə yardım etsəydi, qələbə onlarda qalsaydı, böyük fəlakət baş verəcəkdi, vətəndaş müharibəsi, gürcü-alman toqquşması və kəndlərdə üsyanlar başlayacaqdı. Azad Gürcüstan altı ay içində məhv olacaq, sonra bir daha dirçələ bilməyəcəkdi. Üfüqlərdə isə bu zaman bizə qarşı düşmən kəsilən ingilis görünürdü"[50].

Alman nümayəndəliyinin hazırladığı məruzələrin birində göstərilirdi ki, "əldə edilən məlumatlara görə alman dili Zaqafqaziyada çox yayılmış dillərdəndir, belə ki, xüsusi bir əmək sərf etmədən onu daha da yaymaq olar"[51]. Məlumdur ki, almanların məqsədi təkcə Gürcüstanda monarxiyanı bərpa etmək deyil, həm də gürcü taxt-tacına alman şahzadələrindən birini otuzdurmaq idi. Bu məsələ ilə bağlı Almaniyanın Gürcüstan təmsilçisi qraf Şülenberqlə Moskvadakı alman səfiri qraf Mirbax arasında intensiv məsləhətləşmələr aparılırdı[52].

Beləliklə, almanlar Gürcüstana öz müstəmləkəsi kimi baxır, gürcülərin və başqa Cənubi Qafqaz xalqlarının almanlaşdırılmasını

planlaşdırırdılar. Başda fon Lossov olmaqla bir qrup alman hərbçiləri II Vilhelmi Qafqazda daha fəal olmağa, Gürcüstanla əlaqələrin daha da sıxlaşmasına çağırırdılar. Hərbçilərin fikrincə, Gürcüstana qarşı siyasətin intensivləşməsi Cənubi Qafqazda Almaniyadan asılı bir dövlətin yaranmasına gətirib çıxarardı. Bu baxımdan Gürcüstanda məskunlaşan alman kolonistlərinin rolu böyük önəm daşıyırdı və Gürcüstandakı alman nümayəndəliyinin rəhbəri fon Kress Cənubi Qafqazda yaşayan alman əhalisinin hüquqi statusu məsələsini diqqət mərkəzində saxlayırdı. 1918-ci ilin yayında Gürcüstanda yaşayan alman kolonistlərinin hüquqlarının müdafiəsinə yönələn müqavilə layihəsi hazırlandı və müzakirə üçün Gürcüstan hökumətinə təqdim edildi.

Müqavilənin I maddəsində Gürcüstanda mövcud olan alman koloniyalarının maraqlarının müdafiəsinə böyük önəm verilir və göstərilirdi ki, Cənubi Qafqazdakı Almaniyanın diplomatik nümayəndəlikləri və gələcəkdə Tiflisdə xüsusi müqavilə əsasında yarana biləcək başqa diplomatik konsulluğun işçilərinə vətəndaşlığından asılı olmayaraq Gürcüstanda yaşayan alman mənşəli kolonistlərin hüquqlarını müdafiə etmək səlahiyyəti verilir[53]. Müqavilənin 2-ci maddəsinə görə “alman kolonistlərinə hərbi mükəlləfiyyəylərdən ibarət yeli milis dəstəsi yaratmaq” hüququ verilirdi və sənəddə qeyd olunduğu kimi kolonistlərdən ibarət “yerli milis dəstələrinin yaradılmasında əsas məqsəd Gürcüstan polisinin agentlərinə yardım etməkdən” ibarət idi. Sənəddə Gürcüstan hökumətinin alman milis dəstələrinin yaradılmasına müsbət yanaşdığı və bu işin həyata keçirilməsini Almaniya imperatorluq nümayəndələrinə həvalə etdiyi göstərilir. Razılaşmaya görə, Almaniya nümayəndəliyinə Gürcüstan alman koloniyalarına öz zabit və əsgərlərini göndərmək hüququ verilmişdi[54].

Müqavilənin 3-cü və 6-cı bəndlərində Gürcüstanda yaşa- yan almanların mülkiyyət hüququndan danışılırdı. Gürcüstan hökuməti boynuna götürürdü ki, çar Rusiyası dövründə alman əhalisinə qarşı qəbul edilmiş bütün ayrı-seçkilik xarakterli qanunlar Gürcüstan almanlarına şamil edilməyəcək, Rusiya imperiyası tərəfindən vaxtilə almanlara verilən güzəşt və imtiyazlar bərpa olunacaq, kolonistlərin “azad özünüidarəetmə və imtiyazlarına toxunulmayacaq, hər hansı

bir mədəni tədbirlərin həyata keçirilməsinə maneə olmayacaqdır"[55]. 8-ci maddədə alman milisinin və almanlara məxsus mədəni-maarif təşkilatlarının, mədəni-texniki müəssisələrin (məktəb, kilsə, yollar, koloniya əhəmiyyətli kanalizasiya sistemi və sairə) maddi-texniki təminatı məsələsi kolonistlərin öz ixtiyarına verilirdi. Bundan savayı, kolonist icmasının dövlətə ödəyəcəyi rüsumların bir hissəsinin də kolonistlərdə qalacağı nəzərdə tutulmuşdu[56]. Müqavilə imzalandıqdan sonra qüvvəyə minməli idi. Almaniya nümayəndəliyinin Gürcüstan hökumətinə belə bir məzmunda müqavilə layihəsini təqdim etməsi almanların Gürcüstanın müstəqilliyinə hörmətsiz münasibətinin təzahürü idi. Bu münasibət alman kolonistlərinin vətəndaşlığı məsələsində daha qabarıq şəkildə özünü büruzə verdi – müqavilə layihəsinin 4-cü maddəsində göstərilirdi ki, "alman kolonistləri Almaniya vətəndaşlığını qəbul etməkdə sərbəst idilər və istənilən halda Gürcüstan belə şəxsləri öz təbəəliyindən azad etməyə məcbur edilirdi"[57].

Gürcüstandakı Almaniya hərbi kontingentinə arxalanan millətçi ruhlu kolonistlər alman koloniyalarının simasında "dövlət içində dövlət" yaratmaq niyyətləri güdürdülər və kolonistlərin hər təşəbbüsü Almaniya nümayəndəliyi tərəfindən dəstəklənirdi. Adı çəkilən layihənin reallaşması o demək idi ki, alman kolonistlərinə qarşı çar Rusiyası dövründən də güzəştli davranış tələb olunurdu. Belə çıxırdı ki, sonradan məskunlaşmış azsaylı gəlmə əhali yerli əhali ilə müqayisədə daha geniş güzəşt və imtiyazlara malik olmalı idi.

1918-ci ilin payızına doğru alman kolonistlərinin möv-cud durumu Almaniya nümayəndəliyini qane etmirdi və almanlar Gürcüstan hökumətindən alman kolonistlərinə daha çox qayğı göstərilməsini tələb edirdilər. Məsələn 19 sentyabr 1918-ci il tarixdə fon Kress Gürcüstan Respublikasının Xarici İşlər nazirinə məktubla müraciət edərək "hökumət kolonistlərə gələcəkdə milli və mədəni vəzifələri yerinə yetirmək üçün daha geniş imkanlar yaratmalıdır" tələbini irəli sürdü. Dolayısı ilə fon Kress Gürcüstan-Almaniya müqaviləsinə yenidən baxmaq, "Kolonistlərin maraqlarına uyğun əlavələr" etməyi tələb edirdi[58]. Almaniya rəsmilərinin kolonistlərin mənafeyini canfəşanlıqla müdafiə etməsi bir daha göstərirdi ki, Almaniya hökuməti xaricdə, o cümlədən Qafqazda yaşayan alman əhalisinə öz planlarının həyata keçirilməsində böyük önəm verirdi.

Gürcü hökuməti müqavilə layihəsi ilə bağlı XİN-nin çıxışını dinlədi və 6 oktyabr 1918-ci il tarixdə qərara aldı: "Alman kolonistlərinin hüquqlarına dair Almaniya nümayəndəliyi tərəfindən təqdim edilmiş müqavilə layihəsi baxılmaq üçün Xarici İşlər Nazirliyi, Hüquq və Torpaq İşləri üzrə Nazirliklərin nümayəndələrindən təşkil edilmiş komissiyaya verilsin"[59].

Ağır vəziyyətə düşmüş gürcü menşevik hökuməti alman nümayəndəliyinin tələblərinə rədd cavabı verə bilmədi. Əksinə, hökumət Almaniyadan yeni kolonist kütlələrinin Gürcüstanda yerləşdirilməsinə razılıq verdi[60].

1918-ci ilin mayında Gürcüstana daxil olmuş alman qoşunları burada uzun müddət qala bilmədilər – 1918-ci ilin noyabrında Almaniya Birinci Dünya müharibəsində məğlub oldu və 9 noyabr inqilabı nəticəsində kayzer II Vilhelm taxtdan salındı. Antanta ilə bağlanan sülhün şərtlərinə görə, Almaniya öz qoşunlarını Gürcüstandan çıxarmalı idi. 1918-ci ilin noyabrından başlayaraq alman hərbi hissələri Gürcüstanı tərk etməyə başladı. Sonuncu alman hərbi hissəsi Poti limanını 26 dekabr 1918-ci il tarixdə tərk etdi.

Təbii ki, yerlərdə qalmış Almaniyanın dəstəyindən məhrum olan alman kolonistləri həm yerli əhaliyə, həm də gürcü hökumətinə qarşı davranış taktikasını dəyişməyə, daha çox yaranmış siyasi durumla barışmağa məcbur oldular.

Alman qoşunlarının Gürcüstanı tərk etməsinə baxmayaraq alman kolonistləri gələcəkdə Almaniyanın mövqelərinin bu regionda yenə də möhkəmlənəcəyinə ümid bəsləyirdilər. Gələcəkdə Gürcüstan-Almaniya münasibətlərini Cənubi Qafqaz alman kolonistlərinin necə gördüyü "Kaukazische Post" qəzetinin 13 may 1920-ci il tarixdə çap olunan nömrəsində dərc olunan "Qara dənizin əhəmiyyətinə dair" adlı məqalədə açıq şəkildə ifadə olunmuşdur. Məqalədə qeyd olunur ki, Gürcüstan hökuməti üçün bu gün ən başlıca məsələ – Qara dəniz vasitəsilə yükdaşımaların həcminin artırılmasıdır. Gürcüstan almanları bu məsələni həll etmək üçün, Gürcüstanın Avropa ilə əlaqələrinin yaxşılaşdırılmasında Batum və Poti limanlarının dəniz yolu ilə Dunaya birləşdirmək, oradan isə Avstriyaya və Almaniyaya çıxmaq kimi plan təklif edirdilər. Bu gürcü gəmilərinə ingilis-fransız sahillərinə yaxınlaşmadan Almaniya üçün xammal daşımağa imkan

verər, qarşılıqlı mədəni əlaqələri intensivləşdirər, "ağıllı və kamallı gürcü gəncləri Almaniyanın ali məktəblərində təhsil almaq imkanı əldə edərdilər[61].

Cürcüstanla müqayisədə Azərbaycan-Almaniya münasibətləri müəyyən xüsusiyyətlərə malik idi və bu xüsusiyyətlər ilk növbədə Azərbaycanın daha çox Türkiyə ilə əməkdaşlığa can atması ilə bağlı idi. Hələ 1918-ci il mayından Cənubi Qafqaz Seyminin gürcü fraksiyasının Almaniya ilə separat danışıqlar aparması və Gürcüstanın Cənubi Qafqaz Federasiyasının dağılmasına yönələn fəaliyyəti Seymin müsəlman fraksiyasının ədalətli narazılığına səbəb oldu. 1918-ci ilin mayın 26-da Cənubi Qafqaz Seyminin son iclasında almanlarla gizli danışıqlar aparan gürcü fraksiyasının nümayəndələri əsassız olaraq Cənubi Qafqaz Federativ Respublikasının dağılmasında Seymin müsəlman fraksiyasını günahlandırdılar. Onların fikrincə, "müsəlman fraksiyası türkpərəst mövqe tutmuşdur, bu gürcü xalqının maraqlarına cavab vermir və gürcü fraksiyası artıq onlarla əməkdaşlıq edə bilməz"[62]. Beləliklə, Seymdə gürcü fraksiyasının apardığı dağıdıcı fəaliyyət, fraksiyalararası ziddiyyətlər Cənubi Qafqaz Respublikasının parçalanmasına səbəb oldu. 28 may 1918-ci il tarixdə Tiflis şəhərində Azərbaycan Milli Şurası Azərbaycanın istiqlaliyyəti haqqında Akt qəbul etdi və Azərbaycan Xalq Cümhuriyyəti yarandı[63].

Gürcüstandan platsdarm kimi istifadə edən Almaniya üçün Bakının ələ keçirilməsi çox vacib idi, çünki artıq 1918-ci ilin əvvəllərindən Almaniyada neft və yanacaq məhsulları çatışmamazlığı yaranmışdı[64]. Bu vəzifəni yerinə yetirmək üçün Almaniya hökuməti 27 aprel 1918-ci il tarixdə Türkiyə ilə bağladığı müqaviləyə əsaslanmaqla yanaşı, həm də 100 ildən artıq Azərbaycanda yaşayan "alman əhalisi" amilindən də istifadə etmək niyyətindəydi. Gürcütandakı alman nümayəndəliyinin başçısı general fon Kress və səfir qraf fon Şülenberq qarşısında Azərbaycanın hərtərəfli öyrənilməsi və almanların ADR-na girməsi üçün şərait yaratmaq kimi mühüm vəzifələr qoyulmuşdu.

1918-ci ilin iyunun əvvəllərində Azərbaycanda ən böyük koloniya – Yelenendorfda olmuş Almaniyanın Hərbi Dəniz Qərargahı rəisinin Berlinə göndərdiyi gizli raportda Yelenendorfda 2500 nəfər alman

əhalisinin yaşadığı göstərilir[65]. Azərbaycan Xalq Cümhuriyyəti elan edilən ərəfələrdə Azərbaycanda ümumilikdə 15 minə yaxın alman əhalisi yaşayırdı və onların 6 mini 8 koloniyada cəmləşmişdilər[66].

Respublikanın mürəkkəb beynəlxalq vəziyyəti, o cümlə-dən Cənubi Qafqaz regionunda baş verən siyasi hadisələr AXC hökumətindən təxirəsalınmaz daxili və xarici siyasət konsepsiyasının formalaşdırılmasını diktə edirdi. Əhalinin böyük bir hissəsinin azəri türklərindən ibarət olmasına baxmayaraq statistik nöqteyi-nəzərdən Azərbaycan regionun ən polietnik dövləti idi və buna görə dövlət müstəqilliyinin möhkəmlənməsində düzgün milli siyasətin aparılması çox böyük əhəmiyyət kəsb edirdi. Milli siyasət sahəsində Azərbaycanda yaşayan milli azlıqların hüquq və azadlıqlarının qorunmasına xüsusi diqqət yetirilirdi. Milli azlıqların dini etiqad azadlığının, onların öz mədəni və milli xüsusiyyətlərinin inkişaf etdirilməsinin təmin edilməsi gənc respublikanın siyasi kursunun üstün istiqamətlərindən biri idi.Hələ 1918-ci il 28 may tarixdə qəbul edilmiş, 6 maddədən ibarət Azərbaycanın istiqlaliyyəti haqqında Aktın 4-cü maddəsində deyilirdi: ”Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər”.[67] Həmin sənədin 5-ci maddəsində “Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan” verildiyi vurğulanırdı[68].

1918-ci ildə Almaniyanın Cənubi Qafqaz siyasətinə aid mənbələrin təhlili göstərir ki, siyasi dilemma* qarşısında qalan Almaniyanın AXC-nə münasibəti ikili xarakter daşıyırdı. Bir tərəfdən Almaniya Azərbaycanın Türkiyə ilə yaxınlaşma siyasətini dəstəkləyir, digər tərəfdən Türkiyənin Qafqazda möhkəmlənməsinin gələcəkdə Almaniyanın “Qafqaz siyasəti”nin həyata keçirilməsinə maneçilik törədəcəyindən, alman-türk ziddiyyətlərinin yaranacağından narahat olurdu. Almaniya, həmçinin Brest-Litovsk sülh müqaviləsinin şərtlərinə görə Bakıda Sovet hakimiyyətinin mövcudluğunu da nəzərə almaya bilməzdi. Almaniya Türkiyənin Cənubi Qafqazda fəallığını, Qafqaz İslam Ordusunun Bakı Sovetinə qarşı hərbi əməliyyatlarını

* İki mümkün qərar və ya nəticədən birini qəbul etmə məcburiyyəti

çox da büruzə verməyəcək şəkildə dəstəkləyirdi və bu mövqenin arxasında gələcək siyasi oyunlarda qazanılacaq dividentlər dururdu. Almanlar hesab edirdilər ki, türklərin Bakını ələ keçirməsindən sonra Bakı neftinin bölüşdürülməsində "böyük tərəfdaş" kimi Almaniya da iştirak etmək hüququna malik olacaqdır. Almaniyanın məqsədi AXC hökuməti daxilində "almanpərəst" qrup yaratmaq, Almaniyanın maraqlarının Azərbaycan hökuməti daxilində təmsil olunmasını təmin etmək, Bakı Sovetinin süqutundan sonra onların köməyi ilə neft sənayesində alman kapitalının mövqelərinin möhkəmlənməsinə nail olmaqdan ibarət idi. Təsadüfi deyil ki, hələ F.Xoyski hökuməti Tiflisdə fəaliyyət göstərdiyi dövrdə Almaniya hərbçilərindən ibarət missiya artıq Azərbaycandakı alman koloniyalarına baş çəkmiş, buradakı siyasi, iqtisadi, mədəni-intellektual potensialın öyrənilməsi məqsədi ilə araşdırmalar aparmışlar.

Azərbaycan hökuməti iyunun 16-da Gəncəyə köçmüşdü və onun fəaliyyəti hələlik başlanğıc mərhələsində idi. Hökumət ölkədə situasiyaya tam nəzarət edə bilmirdi. Belə bir mürəkkəb şəraitdə bir qrup alman kolonisti 1918-ci ilin iyunun əvvəllərində Yelizavetpolda olmuş alman generalı ilə görüşmüş, öz ağır vəziyyətləri barədə ona şikayətlənmişdilər. Bu hadisə ilə bağlı artıq 18 iyun 1918-ci il tarixdə ən yüksək səviyyədə şikayətçilər Gəncə qubernatoru tərəfindən qəbul edilmiş, Azərbaycan Cümhuriyyətinin alman əhalisinin problemlərinə biganə qalmadığı, mövcud problemlərin gələcəkdə həll ediləcəyi kolonistlərin nəzərinə çatdırılmışdır[69].

1918-ci ilin iyunu Azərbaycanda siyasi vəziyyət ikihakimiyyətliliklə səciyyələnirdi: iyunun 16-da Gəncədə qərarlaşan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın şərq hissəsini işğal etmiş və 20 minlik orduya malik Bakı Sovetinə qarşı mübarizə aparırdı. Bakının və ətraf ərazilərin erməni bolşevik-daşnak işğalından azad etmək kimi müqəddəs bir vəzifənin həyata keçirilməsi gənc Azərbaycan Respublikası üçün çox mürəkkəb görünürdü. Almaniya, Sovet Rusiyası, İngiltərə, Türkiyə kimi dövlətlərin "Bakı məsələsi" ətrafında gərgin diplomatik mübarizə apardığı bir şəraitdə Bakı üzərində qanuni hüquqlarının təsbit edilməsi Azərbaycan hökuməti üçün olduqca çətin görünürdü. Bu mübarizədə AXC-nin yeganə ümid yeri 04 iyun 1918-ci il Batum müqviləsindən

sonra Azərbaycanın köməyinə yetişmiş Qafqaz İslam Ordusu idi. Baxmayaraq ki, Türkiyənin müttəfiqi sayılan Almaniya gizli şəkildə Sovet Rusiyası ilə sövdələşmə aparır, Bakının taleyinin bolşeviklərin xeyrinə həll etməyə çalışırdı, Qafqaz İslam Ordusu 1918-ci ilin yayında çətin maddi şəraitdə Bakı Sovetinin qoşunlarına zərbələr endirməkdə davam edirdi.

Ölkənin daxilndə də vəziyyət qeyri-sabit idi. Hər an milli zəmində münaqişə yaranmaq təhlükəsi vardı və əsasən də bu istiqamətdə Azərbaycana düşmən xarici qüvvələrin fəallığı göz qabağındaydı: faktiki olaraq Gürcüstanı bütövlükdə öz təsirinə salan Almaniya Azərbaycanda möhkəmlənmək üçün "alman amili"ndən istifadə etməyə çalışırdı. Ölkədə siyasi sabitliyə nail olmaq üçün qanunsuz silahlı dəstələrin özbaşınalığına son qoymaq lazım idi. 1918-ci ilin yazından Erməni Mülki Komitəsinin rəhbərliyi ilə silahlı daşnak dəstələri Azərbaycanın müxtəlif bölgələrində yerli əhaliyə – azərbaycanlılara, tatlara, ləzgilərə, talışlara, almanlara hücumlar edir, onları öldürür, təsərrüfatlarını viran qoyurdular. Xüsusən də, almanların yığcam yaşadığı qərb rayonlarında – Xanlarda (indiki Göygöl – *İ.A.*), Gəncədə, Şəmkirdə və sair yerlərdə erməni quldur dəstələri daha çox fəallıq göstərirdilər.

1918-ci ilin yazından başlayan erməni quldur dəstələrinin alman koloniyalarına basqınları mayın sonu – iyunun əvvəllərində daha da intensivləşmişdi. Yelizavetpolda fəaliyyət göstərən Erməni Mülki Komitəsinin himayədarlığı ilə erməni silahlıları Yelenendorfun alman sakinlərinə və orada çalışan azərbaycanlılara hücumlar edir, onları girov götürür, öldürürdülər. 31 may 1918-ci il tarixdə erməni silahlıları "Çolek" adlı sahədə almanlara məxsus üzüm bağlarını mühafizə edən keşikçilərə atəş açmışlar. Sənədlərdən göründüyü kimi, ermənilər almanlara atəş açmalarını onunla izah etmişlər ki, "guya onları (keşikçiləri – *İ.A.*) tatarlara (azərbaycanlılara) bənzətmişlər". Bu hadisə ilə bağlı Yelenendorf İcraiyyə Komitəsi Yelizavetpol Erməni Mülki Komitəsinə müraciət etmiş və "ermənilər tərəfdən "Çolek"dəki bağlara atəş açılması və əkin sahələrinə ziyan vurulmasının qarşısını almaq üçün ölçü götürülməsini xahiş edirdi." Bununla bağlı 7 iyun 1918-ci il tarixdə Yelenendorf komissarı Erməni Mülki Komitəsinə müraciət edərək koloniya sakinlərinə

qarşı “bu cür hücumların qarşısının alınması üçün tədbirlər görməyi” tələb edirdi[70].

Erməni silahlı dəstələrinin cinayətkar fəaliyyəti Gəncəyə köçmüş Azərbaycan hökumətinin də normal fəaliyyəti üçün təhlükə yaradırdı və buna görə hökumət ilk tədbirlərindən biri kimi Gəncə və onun ətraf rayonlarında azğınlıq edən erməni quldur dəstələrinin tərksilah edilməsinə başladı. Qafqaz İslam Ordusunun hərbi birləşmələri Yelenendorfda yaradılmış könüllü alman taboru ilə birlikdə 1918-ci ilin iyununda bölgədə mövcud olan erməni silahlı dəstələrini zərərsizləşdirdilər və alman kolonistləri uzun müddət onlara basqın edən quldur dəstələrindən xilas oldular[71].

AXC hökumətinin milli azlıqların hüquqlarının qorunmasına zəmanət verərək təcili qərarında “milli düşmənçilik və yaxud bir sinfi başqasına qarşı qoyan yalançı məlumatların yayılmasını” qəti qadağan edir, “bu qaydanı pozanları ciddi cəza tədbirləri gözlədiyini” vurğulanırdı[72]. Milli zəmində baş verə biləcək hər hansı bir toqquşmaya yol verməmək, ölkədə əmin-amanlığı qorumaq məqsədi ilə hökumət 1918-ci il iyunun 23-də bütün ölkə ərazisində hərbi vəziyyət elan etdi.Azərbaycan ərazisində hərbi vəziyyətlə yanaşı, 12 iyul 1918-ci il tarixdə vacib qərar qəbul olundu. Bu qərara görə “adam öldürmə, basqın, hökumətə silahlı müqavimət göstərmə, qadınların oğurlanması və zorlanması, yaşayış tikililərini və buğda sahələrini yandırma, dəmiryol, teleqraf, telefon xətlərini və qurğularını sıradan çıxarma kimi cinayətlərdə ifşa olunanlar Hərbi İstintaq Komissiyası qarşısında məsuliyyət daşıyırdılar” və onların işi istintaq başa çatdıqdan sonra Hərbi Məhkəməyə göndərilirdi[73]. Hərbi Məhkəmənin hökmü Qafqaz İslam Ordusunun komandanlığı tərəfindən 24 saat ərzində yerinə yetirilirdi.

Bəzən tarixi ədəbiyyatda Qafqaz İslam Ordusu sırf Türkiyə qoşunu kimi xarakterizə olunur. Türkiyə hərbi kontingenti kimi Azərbaycana daxil olan Qafqaz İslam Ordusunun tərkibinə, həmçinin Azərbaycan qoşunları da daxil oldular və 1918-ci ilin yayında Azərbaycan əhalisinin hərbi səfərbərliyi nəticəsində azərbaycanlı əsgərlərin sayı 5900 nəfərə çatdı. Buna görə Qafqaz İslam Ordusunun təchizatının Azərbaycan hökumətinin hesabına təmin olunmasında qeyri-təbii heç nə yoxdur və bu müqəddəs işdə bütün Azərbaycan

əhalisi, o cümlədən alman kolonistləri fəal iştirak edirdilər. Qafqaz İslam Ordusu yerli Azərbaycan əhalisindən, o cümlədən almanlardan müəyyən maddi və mənəvi yardım almışdır. Göyçay ətrafında erməni-daşnak dəstələri ilə ölüm-dirim savaşının qızğın çağında – 23 iyun 1918-ci il tarixdə Yelizavetpol quberniya Komissarı Ziyadxanovun imzaladığı sərəncamda qəzalarda "toplanan və gələcəkdə toplanacaq buğdanı, arpanı Yelizavetpol şəhərinə türk ordusunun sərəncamına çatdırmaq" təklif olunurdu[74].

Sərəncamın surəti, həmçinin Yelenendorf cəmiyyətinə də göndərilmişdi və bildirilirdi ki, "almanların türk qoşunları üçün topladığı satlıq buğdanın dəyəri ödəniləcəkdir". Yelenendorf komissarından "məhsulun başqa qəzalara aparılmasının qarşısını almaq" tələb olunur[75].

4 avqust 1918-ci il tarixdə Qafqaz İslam Ordusunun atlarla, arabalarla təhçizatına yardım məqsədi ilə Yelenendorfda 2 komissiya yaradıldı. Birinci komissiyaya 5 nəfər – Xristian Sayzer, Fridrix III Reytenbax, Georq III Fotteler, Yohannes Breytmeyer və Xristian Hummel daxil idi və bu komissiya atların, onların qiymətinin təyin edilməsi ilə məşğul olurdu.İkinci komissiya da 5 nəfərdən ibarət idi (Teodor Reytenbax, Henrix Fotteler, Yohannes IV Hummel, Henrix Kox və Yakov Şefer) və bu komissiya arabaların, furqonların qəbulu və qiymətləndirilməsi ilə məşğul olurdu[76].

Qeyd etmək lazımdır ki, Yelenendorf cəmiyyətindən 10 nəfər – Q.Frik, T.Kun, F.Leqler, V.Leqler, E.Andris, V.Kremer, M.Pol, S.Fliqrel, V.Neverin və Q.Borisov Qafqaz İslam Ordusunda arabaçı vəzifəsini yerinə yetirmişlər. Ordu rəhbərliyi alman əhalisindən alınan atların, arabaların, faytonların, ərzaq məhsullarının dəyərini ödəyirdi. Hətta, yuxarıda adı çəkilən alman mənşəli arabaçılara gündəlik 30 manat ödənilirdi[77].

1918-ci ilin avqustundan Almaniyanın Azərbaycana və Türkiyəyə qarşı siyasəti müəyyən dəyişikliyə uğradı. Bu dəyişikliklər Bakıda Sovet hakimiyyətinin devrilməsi, hakimiyyətin eser-menşevik-daşnak qüvvələrinin əlinə keçməsi və yaranan "Mərkəzi Xəzər" diktaturasının ingilis qoşunlarını Bakıya dəvət etməsi ilə bağlı idi. İngilis qoşunlarının 1918-ci ilin avqustun 4-də Bakını tutması ilə həm türklər, həm də almanlar üçün Azərbaycanda fəaliyyət azaldı-

ğına zəmin yarandı, çünki Brest-Litovsk müqaviləsinə əsasən bu halda Sovet Rusiyası etiraz edə bilməzdi. Almaniya Baş Qərargahı Bakıya hücumlarda türklərə dəstək üçün Cənubi Qafqaza Balkan cəbhəsindən 2 diviziya və 7 alay göndərdi.

Gürcüstandakı alman hərbi qüvvələri döyüş vəziyyətinə gətirildi və Gürcüstan-Azərbaycan sərhəddində qərarlaşdı. Məqsəd türklərə arxa cəbhədə yardım adı altında Tiflis-Bakı dəmiryol xəttini nəzarətə almaq, Azərbaycanda iqtisadi və siyasi mövqelər ələ keçirməkdən ibarət idi. Almanların niyyətlərini başa düşən türklər onların hərbi yardımından imtina etdilər[78].

Türk qoşunlarının Bakıya hücumlarının gücləndiyi bir şəraitdə Sovet Rusiyası Almaniyadan Brest-Litovsk müqaviləsinin şərtlərinə əməl olunmasını, Bakıya türk qoşunlarının irəliləməsinin qarşısını almağı tələb edirdi[79]. Almaniya rəsmi dairələrində belə bir qənaətə gəldilər ki, türklər Bakını ələ keçirsələr belə, onlar orada çox qala bilməyəcəklər, çünki Sovet Rusiyası buna imkan verməyəcəkdir. Bununla bağlı Almaniyanın yuxarı dairələrində türklərin Bakıya hücumunu dəstəkləməklə yanaşı, həm də Bakı neftinin bölüşdürülməsi haqqında Sovet Rusiyası ilə müqavilə bağlanması məsələsi gündəmə gəldi. Cənubi Qafqazda yaranan hərbi-siyasi vəziyyətlə bağlı Almaniya öz Qafqaz siyasətinə yenidən baxmağa məcbur oldu və hətta bu məsələnin geniş müzakirəsi üçün 21 avqust 1918-ci ildə Berlində xüsusi konfrans çağırıldı[80]. Konfransda Almaniyanın Cənubi Qafqaza aid siyasətilə bağlı bir sıra məsələlər, o cümlədən Almaniyanin Qafqazda mövqelərinin möhkələndirilməsində bu regionda yaşayan alman əhalisinin rolu, onlara aid firmaların, müəssisələrin, ictimai təşkilatların Almaniyaya lazım olan məhsulların – pambığın, yunun, ipəyin, misin, dərinin, tütünün, şərabın, meyvə və bitki yağlarının alınıb Almaniyaya çatdırılmasında iştirakı məsələsi müzakirə olundu[81]. Konfransda bir daha Almaniya-Azərbaycan əlaqələrinin gələcək perspektivlərinə toxunuldu və türklərin Bakıya hücumunu dəstəkləyən qərar qəbul edildi. Konfransda qeyd olundu ki, "Bakı tutulduqdan sonra neft sahələrinin istismarının Nobel qardaşları firması ilə sıx əməkdaşlıqda aparılması nəzərdə tutulur". Nobel zavodlarının sahiblərindən birinin Bakı yaxınlığında əsirlikdə saxlanıldığı və onun məhz almanlar tərəfindən azad olunmasının vacibliyi vurğulandı[82].

Bakının türklər tərəfindən azad olunmasından sonra alman siyasətçilərinin hesablamalarına görə türklər 27 aprel 1918-ci il müqaviləsinə görə Azərbaycanı tərk etməli, Azərbaycan Xalq Cümhuriyyəti üzərində Almaniyanın protektoratı qurulmalı, "neft məsələsi" AXC ilə Sovet Rusiyası arasında aparılan danışıqlar zamanı həll edilməli idi. Almanlar Sovet Rusiyasını Bakıdan əl çəkməyə məcbur etməyi, Bakı neftini bütünlüklə öz əllərinə almağı planlaşdırırdılar.

Tarix almanların qurduğu planların reallıqdan nə qədər uzaq olduğunu göstərdi.

Bu cür antiazərbaycan planlar qurmaqla yanaşı, Almaniya, həmçinin özünü sığortalamaq üçün Sovet Rusiyası ilə də gizli danışıqlar aparırdı və danışıqların nəticəsi kimi 27 avqust 1918-ci il tarixdə rus-alman əlavə müqaviləsi bağlandı. Bu müqavilə Rusiyanın Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə ilə bağladığı sülh müqaviləsinə əlavə olunurdu[83]. Bu müqavilənin şərtlərinə görə Sovet Rusiyası Bakı neftinin 25%-ni Almaniyaya verirdi və Almaniya öz növbəsində Sovet Rusiyasının keçmiş Rusiya İmperiyası ərazisində yaranan respublikalarla münasibətlərinə qarışmamağı və bu ərazilərdə yeni müstəqil dövlət "orqanizmləri"nin yaranmasına şərait yaratmayacağını boynuna alırdı.

1918-ci ilin avqustunda Almaniyanın Azərbaycana və türk qoşunlarına münasibətindəki dəyişikliklər sadə kolonist kütlələrinin əhval-ruhiyyəsinə təsir etməyə bilməzdi. Kolonistlər hökumət tərəfindən Qafqaz İslam Ordusu üçün tez-tez ərzaq, furaj, qoşqu gücü və sair inventarın yığılmasına narazılıqlarını bildirməyə başladılar.

Gəncə qəza rəisinin 23 avqust 1918-ci il tarixli sərən- camına görə əhalidən yığılan məhsulun 10%-nin Qafqaz İslam Ordusuna ayrılması tələb olunurdu[84]. Yelenendorf cəmiyyətinin müvəkkili X.X.Forerin 04 sentyabr 1918-ci il tarixdə Azərbaycan Respulikası Daxili İşlər nazirinə ünvanladığı arayışdan görünür ki, alman əhalisi "Bakı cəbhəsinin türk qoşunları üçün at, araba, ərzaq məhsulları göndərmişlər". Arayışda "almanların çətin maddi durumda yaşaması və cəbhəyə yardım göstərilməsinin getdikcə çətinləşməsi" vurğulanır[85].

Həqiqət naminə qeyd etməliyik ki, 1918-ci ilin yaz-yay dövründə Azərbaycandakı alman koloniyalarının iqtisadi həyatı böhran

içindəydi. Bu haqda hələ 1918-ci ilin 24 iyun tarixində Azərbaycanın alman koloniyalarına baş çəkmiş Almaniya baş konsulu məlumat verirdi[86].

Bunun əsas səbəblərindən biri I Dünya müharibəsi illərində Rusiya İmperiyasında yaşayan alman əhalisinə qarşı tətbiq edilən ayrı-seçkilik xarakterli tədbirlər olmuşdur. 02 fevral və 13 dekabr 1915-ci il tarixli çar fərmanları alman koloniyalarında təsərrüfat həyatının pozulmasına səbəb oldu[87]. Bundan savayı, I Dünya müharibəsi illərində ölkə iqtisadiyyatında baş verən mənfi proseslər alman təsərrüfatlarına da öz təsirini göstərmişdi. Maddi vəziyyətlərinin ağır olmasına baxmayaraq alman kolonistləri orduya yardımı davam etdirirdilər.

Almaniya hökuməti Azərbaycanda yaşayan alman kolonistlərindən öz siyasi məqsədlərinə nail olmaqda vasitə kimi istifadə etməyə çalışırdı və "alman amılı"nə AXC-yə təzyiqetmə mexanizmi kimi baxırdı. Qeyd etdiyimiz kimi, Gürcüstanda tam hegemonluğa nail olan Almaniya 27 avqust 1918-ci il tarixdə Sovet Rusiyası ilə bağladığı separat müqavilə ilə müttəfiqi Türkiyənin maraqları ilə hesablaşmadığını, müəyyən maddi qazanclar müqabilində Azərbaycan dövlətinin müstəqilliyinə yönələn siyasət apardığını nümayiş etdirdi. Tiflisdə təsis edilən Almaniya konsulluğunun əsas vəzifələrindən biri Azərbaycandakı koloniyaların daxili həyatını daim nəzarətdə saxlamaq, onların siyasi meyillərini Tiflisə, Gürcüstana yönəltmək vəzifəsi qoyulmuşdu. Bunun nəticəsidir ki, Azərbaycan almanları Gürcüstandakı alman cəmiyyətləri və sair qurumlarla sıx əlaqələrə can atır, bəzən hətta ən xırda təsərrüfat məsələlərinin həllində Gürcüstan rəsmilərinə müraciət etməyi üstün tuturdular[88]. Bütün bunlara baxmayaraq AXC hökuməti, həmçinin Qafqaz İslam Ordusu alman əhalisinə qarşı hər hansı bir qanunsuz hərəkətlərin qaşısını sərt səkildə alırdı.

Alman əhalisi Qafqaz İslam Ordusunun simasında stabillik gətirən qüvvə görürdü. Qafqaz İslam Ordusunun qərargahı Yelizavetpolda yerləşirdi və hərbi rəhbərlik qonşuluqda yerləşən alman koloniyasına qarşı qeyri-qanuni hərəkət edən hər bir hərbçini ciddi cəzalandırırdı. 24 avqust 1918-ci il tarixdə yelenendorflulara qarət məqsədi ilə hücum etmiş iki Azərbaycan əsilli əsgər qanuni məsuliyyətə cəlb edildilər. Və yaxud kolonistlərə məxsus üzüm bağ-

larına özbaşına girmiş türk əsgərləri də hərbi komissarlıq tərəfindən cəzalandırılmışdılar[89].

20 sentyabr 1918-ci il tarixdə Sovet Rusiyasının alman konsuluna göndərdiyi notada, türk və Azərbaycan qoşun- larının Bakını azad etməsi ilə həm Brest-Litovsk, həm də 27 avqust 1918-ci il əlavə müqavilənin şərtlərinin pozulduğu bildirilirdi[90].

Sovet Rusiyasının ədalətsiz etirazlarına həm Türkiyə, həm də Almaniya heç bir əhəmiyyət vermədilər. Bakı azad olduqdan sonra Azərbaycana Gürcüstndakı alman hərbi hissələrinin Baş komandanı polkovnik Fridrix fon der Qoltsun rəhbərliyi ilə çoxsaylı alman hərbi missiyası gəldi. Hərbi missiyanın ardınca Bakıya alman ekspert qrupu da gəldi və onların əsas vəzifəsi Bakı neft rayonunda Almaniyanın payına düşəcək mədənlərin və müəssisələrin sayının təyin olunması idi. Türk qoşunlarının Bakını azad etməsi Türkiyə-Almaniya ziddiyyətlərini son dərəcə gərginləşdirdi. Almaniya Bakının alınmasında Türkiyə ilə birlikdə çıxış etmək istəyirdi və türklərin almanlarsız Bakını azad etməsi və burada onların Müsavat hökumətinə nəzarəti Almaniyada narazılığa səbəb oldu. Belə ki, türk generallarının göstərişi ilə Azərbaycan hökuməti Azərbaycandan taxıl, pambıq, yun, ipək, həmçinin onlardan hazırlanan məhsulların, ət və ət məhsullarının ixracını qadağan edən dekret imzaladı[91].Gürcüstanda olduğu kimi Almaniya Azərbaycan hökumətinə təzyiqi artırmaq məqsədilə onunla alman kolonistlərinin hüquqi statusuna aid hökumətlərarası müqavilə bağlamaq niyyətində idi və 9 maddədən ibarət olan bu layihənin mətni 1918-ci ilin yayında Azərbaycan hökumətinə çatdırılmışdı[92].

1918-ci ilin yayında Almaniya hökuməti alman kolo- nistlərinin maraqlarının müdafiəsi pərdəsi altında Azərbaycanla qeyri-bərabər müqavilə bağlamaq niyyətilə layihə hazırlamışdı. Bu layihəyə görə Azərbaycanda yaşayan alman kolonistlərinə “özünüidarə” hüququ verilməli idi. Bundan savayı, koloniyalarda “mühafizə dəstələri” – yerli milisin yaradılması, kolonistlərə daşınmaz əmlak və torpaq almaqda geniş səlahiyyətlərin verilməsi, çar Rusiyası zamanı almanlara verilən güzəşt və imtiyazların bərpa edilməsi, çarizmin ayrı-seçkilik xarakterli qanunlarının nəticələrinin ləğv edilməsi, kolonistlərin arzusu ilə onların Almaniya vətəndaşlığı qəbul etməsinə imkanların

yaradılması, onların sərbəst şəkildə mədəni və dini tələbatlarının ödənilməsi üçün şəraitin yaradılması və sairə məsələlər bu layihədə əks olunmuşdu[93]. Əslində, bu müqavilənin bağlanması Azərbaycan almanlarına "dövlət içində dövlət" yaratmağa imkan verərdi və bu yolla Almaniya Azərbaycana təzyiqetmə vasitəsi əldə edərdi. Ancaq 1918-ci ilin noyabrında Birinci Dünya müharibəsinin Almaniya və onun müttəfiqlərinin məğlubiyyəti ilə başa çatması, alman qoşunlarının Qafqazı tərk etməsi nəticəsində Azərbaycan üçün bu qeyri-bərabər müqavilənin bağlanması baş tutmadı.

Almaniyada 1918-ci ilin 30 sentyabrda baş verən hökumət böhranı nəticəsində reyxkansler Hertling istefaya getdi. Şahzadə Badenskinin rəhbərliyi ilə yeni koalision hökumət yaradıldı və yeni hökumət Almaniyanın ağır sosial-iqtisadi, siyasi vəziyyətindən irəli gələrək ABŞ-nın prezidenti Vilsona barışıq haqqında müqavilə bağlamaq təklifi ilə müraciət etdi. 20 oktyabr 1918-ci il tarixdə Almaniya barışıqla bağlı ABŞ tərəfinin bütün şərtlərini qəbul etdiyini və danışıqlara hazır olduğunu bildirdi. Bir gün sonra 21 oktyabr tarixdə Almaniya Baş komandanı Gürcüstandan alman qoşun hissələrinin çıxarılması haqqında əmr verdi[94].

1918-ci ildə Almaniyanın Cənubi Qafqazdakı fəaliy-yətinə Cənubi Qafqaz alman kolonistlərinin münasibəti Yelenendorf koloniyasının 100 illik yubileyində məruzə edən Robert Kunun çıxışında tam aydınlığı ilə ifadə olunmuşdur. "Rusiya döyüşən dövlətlər sırasından çıxdıqdan sonra Qafqaz hüdudlarına gəlişi ilə sülh və qayda-qanun gətirən germanlar ayaq basanda məzlum şvabların qəlbi daha bərk və sevinclə döyünməyə başladı. Ancaq bu an səmada işıldayan meteor kimi özündən sonra yalnız xoş xatirələr qoyaraq tez ötüb keçdi" – deyə təəssüflənən natiq alman kolonistlərinin gələcəyinin qeyri-müəyyən olduğunu, yalnız bütün ümidlərin "alman əməksevərliyi və qabiliyyəti, alman ruhu və mədəniyyəti ilə bağlılığını söyləmişdi[95].

Baxmayaraq ki, Almaniya Azərbaycanın maraqlarına zidd siyasət aparırdı, Azərbaycan hökuməti bütün vətəndaşlarının, o cümlədən alman kolonistlərinin azad inkişafı üçün şərait yaradırdı.

AXC hökuməti Bakıya köçdükdən dərhal sonra "Azərbaycan Respublikası hüdudlarında, eləcə də bütün Zaqafqaziyada müsəlman

əhalisinə və ayrı-ayrı şəxslərə qarşı kütləvi şəkildə törədilən zorakılıq hallarını, onları yaradan səbəbləri araşdırmaq məqsədilə Azərbaycan Respublikasının hökumətinin qərarı ilə Fövqəladə Tədqiqat komissiyası" yaradıldı. Gəncə quberniyasının qəza rəislərinə və Gəncə polismeysterinə ünvanlanan məktubda göstərilir ki, qarşıya qoyulan vəzifənin yerinə yetirilməsi üçün "Komissiyaya" baxışlar keçirmək, axtarış aparmaq, şəkillər çəkmək, əşyayi dəlillər toplamaq, izahat almaq və sair səlahiyyətlər verilmişdir. Bu komissiyanın işinə kömək edilməsi tələb olunur və qeyd olunur ki, "komissiyanın" tədqiqatının nəticələri türk (Azərbaycan), rus, fransız, o cümlədən alman dilində çap edilib əhaliyə çatdırılacaqdır. 29 sentyabr 1918-ci il tarixdə bu məktubun surəti Yelenendorf koloniyasına çatdırılmışdı[97].

FTK-sı təkcə azərbaycanlılara qarşı deyil, o cümlədən bütün əhaliyə qarşı törədilən zorakılıq aktlarını araşdırmağı qarşıya məqsəd qoymuşdu. Almanlar üçün bu çox aktual idi. Çünki, artıq XX əsrin əvvəllərindən ermənilər onlara qarşı bir çox terror aktları keçirmişdilər. Azərbaycanlı əhali ilə də onların müəyyən məişət və təsərrüfat həyatı zəminində münaqişələri olurdu. Bunların da tədqiq olunmasında almanlar maraqlı idi. Onların yaşadıqları ərazidə ermənilər müsəlmanlara qarşı çox zorakılıqlar törətmişdilər və almanlar bütün bu hadisələrin canlı şahidi olmuşdular.

Respublikanın siyasi həyatında Azərbaycan alman-larının təmsil olunması 20 noyabr 1918-ci il tarixdə qəbul olunmuş "Azərbaycan parlamentinin yaranması haqqında" qanunda öz əksini tapdı[98]. Qanunla parlamentə 120 deputatın seçilməsi nəzərdə tutulmuşdu. Ondan 80 yer azərbaycanlılar üçün, qalan yerlər isə ölkədə yaşayan milli azlıqlar arasında onların sayına mütənasib bölünmüşdü. Qanuna əsasən, alman əhalisi parlamentdə 1 deputatla təmsil olunmalı idi[99]. 7 dekabr 1918-ci il tarixdə fəaliyyətə başlayan Azərbaycan parlamentində alman kolonistlərini Yelenendorf cəmiyyətində yüksək vəzifələrdə çalışmış, kolonistlərin arasında nüfuza malik L.Y.Kun təmsil edirdi. O, parlamentdə fəaliyyət göstərən 3 qrupdan birinə "Milli azlıqlar" qrupuna daxil idi və burada ondan savayı polyak, gürcü və yəhudi əhalisini təmsil edən deputatlar da fəaliyyət göstərirdilər[100]. Qeyd edək ki, L.Y.Kun Parlamentin ən fəal deputat-

larından biri idi və kolonistlərin iqtisadi, siyasi, mədəni həyatına aid məsələlərin həllinə çalışırdı.

Azərbaycan Parlamentinin fəaliyyətə başlaması ölkənin inkişafı üçün vacib qanunların qəbul edilməsi ilə mövcud hüquqi boşluqlar aradan qaldırılır, bütün respublika əhalisi kimi almanların da həyatı yeni axara düşürdü. Hələ 1918-ci il 2 avqust tarixdə "Azərbaycan Respublikasının təbəələri haqqında" qaydalar qəbul edilmişdi[101]. Mürəkkəb siyasi şəraitdə qəbul edilən bu sənəd yetkin deyildi. 1919-cu il 11 avqust tarixdə "Azərbaycan vətəndaşlığı haqqında qanun" qəbul edildi. Bu qanunun 1-ci maddəsində deyilirdi ki, "milli və dini mənsubiyyətindən asılı olmayaraq özü və yaxud valideynləri Azərbaycan Respublikasında doğulan keçmiş Rusiya imperiyasının bütün təbəələri "Azərbaycan vətəndaşı sayılır"[102]. Qanunun 2-ci maddəsi "Azərbaycan vətəndaşı sayılmaq istəməyənlərə 3 ay ərzində bu haqda yerli qubernatora ərizə ilə müraciət etmək imkanı verirdi[103]. Tədqiqat zamanı almanların Azərbaycan vətəndaşlığından imtina etməsi faktına rast gəlinməmişdir.

Azərbaycan hökumətinin alman əhalisinə diqqəti Yelenendorf koloniyasının yaranmasının 100 illik yubileyinin keçirilməsi zamanı bir daha nümayiş olundu. Gəncə qubernatoru X.Rəfibəyovun icazəsi ilə keçiriləcək bu tədbirin 9 iyun 1919-cu il tarixdə başlanması planlaşdırılmışdı[104]. Yelenendorf koloniyasının 2 iyun 1918-ci il tarixdə keçirdiyi ümumi yığıncaqda 100 illik yubileylə bağlı bayram tədbirinin proqramı, bayrama dəvət olunacaq fəxri qonaqların siyahısı və sair təşkilati məsələlər müzakirə olundu. Dəvət olunanlar arasında Gəncə qubernatoru, vitse-qubernator, "Müsavat" partiyasının sədri, prokuror, Rus Milli Şurasının sədri, qonşu kəndlərin icma başçıları və sair təşkilat nümayəndələri var idi[105]. Alman kolonistləri ilə uzun illər torpaq məsələsində mübahisələr aparan Topal-Həsənli və Molla Hacılı kəndlərinin nümayəndələrinin də yubileyə dəvət olunması faktı yelenendorfluların adı çəkilən kəndlərin azərbaycanlı sakinləri ilə uzun müddət davam edən qarşıdurmasına etnik don geydirmək istəyənlərə tutarlı cavabdır və bu fakt onu göstərir ki, almanlarla azərbaycanlılar arasında başverən münaqişələrin səbəbləri hələ çar dövrü yaranmışdı. AXC hökumətinin apardığı aqrar islahatlar nəticəsində bu tip münaqişələrin yaranmasının hüquqi bazası

ləğv edildi. Yüksək səviyyədə təşkil olunan yubiley tədbirlərində yerli kolonistlərlə yanaşı, qonşu kəndlərin və koloniyaların nümayəndələri də fəal iştirak etdilər. Yelenendorf rəhbərliyinin adına Bakıdan, Gəncədən, Tiflisdən çoxsaylı teleqramlar daxil olmuşdu. Almanlar üçün ən şərəflisi 9 iyun 1919-cu il tarixdə Azərbaycan parlamentinin sədri Həsən bəy Ağayevdən aldıqları təbrik teleqramı idi. Azərbaycan parlamentinin Rəyasət Heyəti adından yelenendorfluları təbrik edən dövlət rəsmisi "bu balaca mədəniyyət ocağına" daha da çiçəklənmə, inkişaf, rifah arzulayırdı[106].

Azərbaycan parlamentinin deputatı, Yelenendorf kənd cəmiyyətinin şultsu L.Y.Kun 100-illik yubileydə etdiyi məruzədə almanların AXC dövrü həyatını xarakterizə edərək demişdir: "İkinci ildir ki, Yelenendorf Azərbaycan hökumətinin hakimiyyəti altında yaşayır. Gənc respublika var gücü ilə çalışır ki, öz vətəndaşlarının rifah halını yüksəltsin və onları keyfiyyətcə daha yaxşı inkişaf dərəcəsinə qaldırsın. Yelenendorf koloniyası bu vaxtacan bu hökumətin himayədarlığını və xeyirxah münasibətini hiss etmişdir. Buna görə kolonistlər öz səmimi təşəkkürlərini bildirir və xahiş edirlər ki, gələcəkdə də Yelenendorfa və Respublikanın başqa alman koloniyalarına da belə himayədarlıq və xeyirxah münasibət göstərilsin"[107].

Demək olmaz ki, 1918–1920-ci illərdə Azərbaycanda yaşayan almanların həyatı problemlərsiz ötüşmüşdür. Arxiv fondlarında bu dövrdə kolonistlərdən müxtəlif dövlət orqanlarına ünvanlanan şikayətlər, müraciətlər, xahişnamələr qalmışdır.

Azərbaycanda yaşayan alman kolonistlərinin hökumət orqanlarına şikayətləri siyasi motivlərlə bağlı deyildi. Bu şikayətlərin əksəriyyəti qonşu Topal-Həsənli və Molla Hacılı kəndləri ilə mövcud torpaq mübahisələrindən, bəzən isə yerli məmurların özbaşınalığından doğurdu. Məsələn, 21 dekabr 1918-ci il tarixdə Yelenendorf koloniyasının müvəkkili Q.İ.Hummel Gəncə qubernatoruna ünvanladığı şikayətnamədə 2-ci polis sahəsinin pristavının qeyri-qanuni fəaliyyətindən şikayətlənirdi. Sənəddən görünür ki, adı çəkilən sahə pristavı xidməti səlahiyyətlərini aşaraq "şultsdan bir çəllək çaxır alaraq pulunu ödəməkdən imtina etmişdir." Bundan savayı, pristav kolonistlərin at, araba və faytonlarından öz şəxsi məqsədləri üçün istifadə etmiş, göstərilən xidmətlərin də haqqını ödəməkdən imtina

etmişdir. Şikayətnamədə xahiş olunur ki, quberniya rəhbərliyi pristavın fəaliyyətinə nəzarət etsin ki, "onun kənd idarəsinə tələbləri xidməti xarakter daşısın və ona verilən hakimiyyət səlahiyyətlərini aşmasın"[108].

Qeyd etdiyimiz kimi alman kolonistlərinin yuxarı instansiyalara şikayətlərinin böyük hissəsi qonşu Topal-Həsənli və Molla Hacılı kəndlərinin sakinləri ilə uzun illər davam edən münaqişə ilə bağlı idi. Münaqişənin əsas səbəbi Yelenendorf koloniyası ətrafındakı torpaq sahələrinin Topal-Həsənli və Molla Hacılı kənd sakinləri tərəfindən özbaşına zəbt etməsi idi. Qeyd etmək yerinə düşərdi ki, alman kolonistləri ilə Topal-Həsənli və Molla Hacılı kəndləri arasında münaqişələr hələ XIX əsrin sonlarında, yəni bu kəndlərə məxsus icarə torpaqlarının çar hökuməti tərəfindən Yelenendorf almanlarına verilməsindən sonra başlamışdı[109]. XX əsrin əvvəllərində Yelenendorf koloniyasının üzüm bağları, akasiya plantasiyaları o qədər genişlənmişdi ki, Topal-Həsənli camaatı öz mal-qarasını yaylağa aparmaq üçün yol tapmırdı. Bunun nəticəsidir ki, onlar sənəddə göstərildiyi kimi "kolonistlərin daş hasarlarını dağıdaraq özlərinə yol açmağa məcbur olurdular."[110]

AXC dövründə də aqrar məsələnin həll olunmaması ucbatından alman kolonistləri ilə adı çəkilən azərbaycanlı kəndləri arasında torpaq mübahisəsi qeyri-qanuni metodlarla davam edirdi. Yelenendorf kolonistləri 1918-ci ilin dekabrında, 1919-cu ilin 20 fevral, 30 may, 7 iyul tarixlərdə Gəncə qubernatoruna, 04 aprel 1919-cu ildə Azərbaycan Respublikasının Əkinçilik nazirinə, 11 iyul 1919-cu ildə Azərbaycan parlamentinin üzvü Lorent Yakovleviç Kuna müraciətlər etmişdilər. Bu müraciətlərdə Topal-Həsənli və Molla Hacılı kənd sakinlərinin özbaşına kolonistlərə aid torpaq sahələrini ələ keçirməsindən, kolonistlərə məxsus "ictimai" meşəni və akasiya ağaclarını qırmasından, onlara aid torpaqlarda yaşayış binaları tikməsindən, kolonistlərin üzüm bağlarında mal-qara otarmasından və sair hərəkətlərdən şikayətlənirdilər[111].

Arxiv sənədlərindən görünür ki, Topal-Həsənli və Molla Hacılı kəndlərini bu cür qəti tədbirlərə məcbur edən hal mübahisə obyekti olmuş sahələrin azərbaycanlılara məxsus olması və 1905-ci ildə bu ərazilərin alman kolonistlərinə verilməsi ilə,[112] həmçinin dağətəyi

yüksəkliklərdə yaşayan və əsasən heyvandarlıqla məşğul olan yerli əhalinin mal-qara otarmağa, hətta heyvan sürülərini su ilə təmin etmək üçün Gəncə çayına çıxışlarının olmaması, bu ərazilərə alman kolonistlərinin ciddi nəzarətinin qoyulması idi[113]. Kolonistlərin adı çəkilən instansiyalara şikayətləri cavabsız qaldı. Bu səbəbdən onlarda belə bir fikir formalaşmamışdı ki, hökumət dairələrində "mövcud qara qüvvələr" topal-həsənlilərin əli ilə almanları bu torpaqlardan sıxışdırmağa çalışırlar[114]. Hətta kolonistlər bu məsələ ilə yerində məşğul olan Gəncə Dövlət Əmlak İdarəsinin əməkdaşlarını münaqişənin "səbəbləri və tarixi barədə yanlış məlumatlar" toplamaqda günahlandırırdılar[115]. Kolonistlərin şikayətlərində əks olunan bir fikirlə razılaşmaq olar ki, "torpaq quruluşu ilə bağlı məsələlər yalnız qanunlar çərçivəsində həll edilməlidir" və "torpaq məsələsinin həllinə qədər kiminsə qanuni istifadəsində olan torpaqların özbaşına ələ keçirilməsi anarxiya deməkdir, yəni hökumətə düşmənçilikdir və amansızcasına cinayət qanunları ilə cəzalandırılmalıdır"[116].

Azərbaycan parlamenti aqrar məsələ ətrafında bir neçə müzakirələr aparsa da, bu çətin məsələnin həllində hələlik konkret qərarların qəbul edilməsi mümkün olmamışdır. Bu sahədə mövcud qanun boşluğu ucbatından alman kolonistləri ilə Topal-Həsənli, Molla Hacılı kəndləri arasında mübahisələr 1919–1920-ci illər ərzində davam edərək silahlı qarşıdurmaya çevrildi. 1919-cu ilin iyulun 5-də əvvəllərində kolonistlərlə atışma zamanı "kolonist Yohannes Ongemax 1 nəfər Topal-Həsənli sakinini qətlə yetirdi. Kənd sakinləri bunun əvəzində 5 kolonisti öldürəcəklərini söylədilər"[117].

13 avqust 1919-cu il tarixdə azərbaycanlı əhalinin alman-ların nəzarətində olan su kanalından istifadə etmək cəhdləri və 2 alman nəzarətçisinin buna mane olması sonuncuların həyatı bahasına başa gəldi. Öldürülmüş kolonistlərin cəsədlərini götürmək üçün gələn kolonist qrupu da yerli əhali tərəfindən atəşlə qarşılandı və nəticədə pastor Vuxrer və onu müşayiət edənlər həlak oldular. Hökumət orqanlarının səyi nəticəsində almanlara qarşı silah işlədən dəstə müəyyənləşdirildi və onların bir neçəsi ölüm cəzasına məhkum edildilər[118].

1920-ci ilin yanvar-fevral aylarında kolonistlər yenə pristavların və strajniklərin qanunsuz hərəkətləri, Topal-Həsənli sakinlərinin

kolonistlərə atəş açması, onların atlarını və sair mal-qarasını əllərindən aldıqları haqqında yuxarı instansiyalara şikayətnamələrlə müraciətlər etmişlər[119]. 15 mart 1920-ci il tarixdə AXC-nin Əkinçilik Nazirliyindən alman kolonistlərinə rəsmi cavab gəldi və bu cavabda deyilirdi: "Hal-hazırda hökumətə baxılması üçün torpaq haqqında qanun təqdim olunmuşdur, hansı ki, respublikanın bütün əkinçi əhalisini lazım olan miqdarda torpaqla təmin edəcəkdir. Qanunun qəbul olunması ilə hamı müəyyən normada torpaqla təmin olunacaqdır, ancaq özgə torpaqlarının, xüsusən də pay torpaqlarının zorakılıqla zəbt edilməsi yol verilməzdir"[120].

Alman kolonistlərinin vəziyyəini yüngülləşdirmək, koloniyada uzun müddət yaşanan gərginliyi azaltmaq məqsədi ilə 5 aprel 1920-ci il tarixdə AXC hökuməti Yelenendorfda məskunlaşdırılmış 735 aysor mənşəli qaçqının başqa bir əraziyə köçürülməsi haqqında qərar qəbul etdi. Kolonistlərin Gəncə quberniyasının qubernatoru və Xalq Nəzarəti Nazirliyinin səlahiyyətli nümayəndəsinə ünvanladığı xahişnamədə "aysor-qaçqınların heç olmasa yay-tarla işləri sona yetənəcən Yelenendorfda saxlanılması xahiş olunurdu"[121].

1918–1920-ci illərdə alman kolonistləri dağılmış təsərrüfat sisteminin bərpası istiqamətində müəyyən addımlar atsalar da, ümumi siyasi və iqtisadi vəziyyət, həmçinin yaranmış beynəlxalq şərait görülən tədbirlərin səmərəliliyini aşağı salırdı. Kolonistlərin əsas gəlir mənbəyi üzümçülük və şərabçılıq olduğundan, məhsullarının Azərbaycandan kənarda, əsasən də Rusiyada realizə edildiyindən AXC dövründə bu sahədə atılan addımlar əməli nəticə vermədi. AXC-nin Sovet Rusiyası ilə ticarət əlaqələri yox dərəcəsində idi.

Beləliklə, nəticəyə gələ bilərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycanda yaşayan digər azsaylı xalqların da tarixində yeni səhifə açdı. AXC-nin qəbul etdiyi demokratik ruhlu qanunlar alman əhalisinə əsil bərabərlik, azadlıq gətirdi, onun milli-mədəni dəyərlərinin qorunması, inkişaf etdirilməsinə yeni qüvvə verdi. 1918–1920-ci illərdə Azərbaycanda gedən mürəkkəb, çox ziddiyyətli prosesləri almanlar da azərbaycanlılarla bərabər yaşadılar.

Almaniya "alman kolonistləri" amilindən istifadə edərək Azərbaycanın təbii sərvətlərini qarət edə, onu özünün xammal bazasına çevirə bilmədi. Burada, təbii ki, birinci növbədə Türkiyə, Qafqaz

İslam Ordusu amillərinin müsbət rolunu nəzərə almaq lazımdır. Türkiyə Azərbaycanın Almaniyanın müstəmləkəsinə çevrilməsinə imkan vermədi. Gürcüstandan fərqli olaraq AXC hökuməti daha çox müvazinətli siyasət aparmağa cəhd edir, gənc respublikanın xarici qüvvələrdən asılılığını artıra biləcək addımlardan çəkinirdi. Ölkə daxilində milli siyasəti elə qurulmuşdu ki, heç bir etnos başqası üzərində hegemonluğa malik olmasın, Azərbaycandakı xalqlar, etnoslar bərabər hüquqa və imkanlara malik olsunlar.

23 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Cümhuriyyəti Azərbaycan almanlarının da yaddaşına əbədi həkk olundu. AXC-nın süqutundan sonra alman əhalisi böyük məhrumiyyətlərə məruz qaldı, 1918–1920-ci illərdə bir çox almanların düşdüyü çətin iqtisadi, siyasi, psixoloji vəziyyət bütün Cənubi Qafqaza xas idi. Xüsusən də, 1920-ci ildən AXC-nin daxili vəziyyəti xeyli pisləşmişdi. Müəssisələrdə fəhlələrin tətilləri ara vermirdi, kənd ərazilərində mülkədarlara qarşı sosial çıxışların sayı artmışdı. Azərbaycan Kommunist Partiyası bolşevik təbliğatını gücləndirmişdi.

Anarxiya, iqtisadi böhran, aclıq, möhtəkirlik – bütün bunlar əhali arasında bolşevizm ideyalarının yayılmasına münbit şərait yaradırdı. Alman koloniyalarında da, başda Kimerli olmaqla bolşevik qrupu fəaliyyət göstərirdi. Qrupun özəyi Gürcüstanda – Yekaterinenfeld koloniyasında yerləşsə də, onlar bütün alman koloniyalarında, o cümlədən Yelenendorfda da təbliğat aparırdılar.

1920-ci ilin aprelində bolşevik Rusiyasının Azərbaycana təzyiqləri artdı. Rusiyanın Azərbaycan daxilində yaratdığı AKP-sı "beşinci kolonna" rolunu oynayır, Azərbaycanın müstəqilliyinə qarşı təxribat apararaq Sovet Rusiyasının syasətinin daşıyıcısına çevrilmişdi.

Sovet Rusiyası Azərbaycan milli hökumətini devirmək üçün diplomatik təzyiqlərlə yanaşı, yerli bolşeviklərdən, ermənilərdən və Türkiyə amilindən istifadə edirdi. 1920-ci il aprelin 26-da XI Qırmızı Ordu Azərbaycanın dövlət sərhəddini keçdi və 27 aprel tarixdə Azərbaycan Parlamenti son iclasını keçirdi. Parlament nahaq qan tökülməsinə qarşı çıxdı və səs çoxluğu ilə hakimiyyətin Azərbaycan bolşeviklərinə verilməsi haqqında qərar qəbul etdi. AXC süquta uğradı və bütün Azərbaycan xalqının, o cümlədən alman əhalisinin tarixində yeni dövr – sovet dövrü başladı.

1920-ci ilin əvvəllərindən başlayan XI Qızıl Ordunun general Denikinə qarşı hərbi əməliyyatları ağqvardiyaçıların darmadağın edilməsi və Şimali Qafqazda Sovet hakimiyyətinin bərpası ilə nəticələndi.

Sovet hakimiyyətinə loyal münasibət bəsləyən alman kolonistlərini ən çox narahat edən məsələ bolşeviklərin apardığı "milliləşdirmə" siyasəti idi.

1920-ci ilin yazında Şimali Qafqazda Sovet hakimiyyəti bərpa olunduqdan sonra alman koloniyalarında kooperativlər yaranmağa başladı. Qeyd etməliyik ki, kooperativ hərəkatı yuxarıdan heç bir göstəriş olmadan, "Alman milliyyətindən olan vətəndaşlar və Cənubi Rusiya kolonistləri ittifaqı"nın köməyi ilə yaradılırdı: alman əhalisi hesab edirdi ki, kooperativlərin yaradılması Sovet hakimiyyətinin milliləşdirmə siyasəti şəraitində xüsusi mülkiyyətin qorunmasının ən optimal üsuludur. Rusiya Kommunist Partiyasının Taqanroq qəza komitəsi Mərkəzi Komitəyə göndərdiyi raportunda "Alman milliyyətindən olan vətəndaşlar və Cənubi Rusiya kolonistlər İttifaqı"nın, o cümlədən onun himayədarlığı ilə yaradılan kooperativlərin fəaliyyəti haqqında mənfi rəy bildirirdi. Qəza bolşeviklərinin fkrincə, qəzada yaşayan 8,7 min almanın əksəriyyəti Almaniya ilə əlaqələr saxlayırlar və "İttifaq"ın fəaliyyəti onun Nizamnaməsində göstərilən vəzifələrə qətiyyən uyğun gəlmir, yalnız alman mənşəli kənd və şəhər burjuaziyasının şəxsi maraqlarının ödənilməsinə xidmət edir. Beləliklə, Taqanroq bolşeviklərinin fikrincə, adı çəkilən "İttifaq" qəzada iqtisadi hegemonluğa nail olmağa can atır və bu səbəbdən də"İttifaq"dan bilavasitə yardım ala bilməyən yoxsul və ortabab kolonistlər ona düşməncəsinə yanaşırdılar[122].

1920-ci il 19 may tarixdən Milli məsələlər üzrə Xalq Komissarlığında təşkilatı dəyişikliklər baş verdi, əvvəlki xalq komissarlıqları ləğv edilib əvəzinə 18 milli şöbə yaradıldı və tezliklə alman milli şöbəsi fəaliyyətə başladı[123]. Milli şöbələr Rusiyanın 30 quberniyasında, o cümlədən Şimali Qafqazda fəaliyyət göstərirdilər. Donda mövcud olan koloniyaların da daxil olduğu Donetsk Milli Azlıqlar şöbəsi "Alman milliyyətindən olan vətəndaşlar və Cənubi Rusiya kolonistlər ittifaqı"na düşməncəsinə yanaşır, onun fəaliyyətinin məzmununun sovet quruculuğu ruhuna uyğun gəlmədiyini vur-

ğulayırdı. Raportun sonunda milli azlıqlara aid birliklər üzərində nəzarətin qoyulması, onların ləğv edilərək yenidən, müvafiq dövrə uyğun formada yaradılması kimi tövsiyələr verilirdi. Terek quberniya komitəsinin alman əhalisi haqqında məlumatı tamamilə fərqli xarakter daşıyırdı. Sənəddə kolonistlərin yaratdığı kooperativlərin kənd təsərrüfatı xarakteri daşıdığı, onların sovet orqanları ilə yaxşı münasibətdə olduğu, vergiləri 100% ödədikləri və Almaniya ilə heç bir əlaqədə olmadıqları haqqında məlumat verilirdi[124].

Kubanda Sovet hakimiyyəti elan olunduqdan sonra reformator-kommunistlər kolonistlərin illərlə formalaşan həyat tərzini yenidən qurmağa başladılar. Onların eksperimentinin ilk qurbanı Velikoknyajeskaya koloniyası oldu. Qeyd edək ki, koloniyada bolşevik təbliğatı aparanlar keçmiş alman hərbi əsirləri sıralarından çıxmış kommunistlər idi. Koloniyada Kommunist Partiyasına keçmək istəyən tapılmadığından hərbi əsir alman kommunist-beynəlmiləlçilər özləri Velikoknyajeskaya ilk partiya özəyini yaratdılar. Bolşeviklərin Rusiya Kommunist partiyası nəzdində yaradılan alman seksiyasının Mərkəzi bürosu ilə əlaqə yaradan özək alman koloniyalarına rəğmən hərəkət planı haqqında Moskvadan direktivlər alırdı. Bu planların məzmunu Velikoknyajeskaya partiya özəyinin Moskvaya cavab məktublarında açıq-aydın ifadə olunmuşdur. Məktubda alman koloniyalarının iqtisadi durumu məsələsinə də toxunulur və qeyd olunurdu ki, "Kolonistlərin mədəni-təsərrüfat vəziyyəti yüksək səviyyədədir. İnqilab onların təsərrüfatına az təsir etmişdir, bolluqda yaşayırlar, bu səbəbdən onlarda Şimalda aclıq çəkənlərə mərhəmət yoxdur. Düzdür, Rojdestvenskaya koloniyası yarımproletarlar koloniyasıdır. Məktəblərdə işlər yaxşı təşkil olunmuşdur, ancaq inqilab ruhunda yox, millət və din ruhunda. Yalnız Velikoknyajeskaya və Rojdestvenskaya koloniyalarında Partiya işi aparılır."[125]

Kuban-Qara dəniz vilayət partiya komitəsinin raportunda "Alman milliyyətindən olan vətəndaşlar və Cənubi Rusiya kolonistləri ittifaqı", öz sıralarında 8 min alman əhalisini birləşdirdiyi və onun bütün vilayətdə şöbələrinin fəaliyyət göstərdiyi vurğulanır. "İttifaq"ın rəhbərliyi əsasən zəngin kolonistlərdən, iri torpaq sahiblərindən, din xadimlərindən və ziyalılardan ibarət idi. Kuban–Qara dəniz almanlarının "İttifaq"ı əsasən iqtisadi funksiya yerinə yetirirdi – xaricdən

lazımı tələbat malları gətirən "İttifaq" onu kolonistlərlə buğdaya və sair kənd təsərrüfatı məhsuluna dəyişirdi. Bolşevik partiya komitəsinin məlumatına görə "İttifaq" Kuban–Qara dəniz regionunda yaşayan kolonistlər arasında böyük nüfuza malik idi. Elə bu cür "İttifaq" həmçinin Rostov-Don şəhərində də fəaliyyət göstərirdi və əsasən kənd təsərrüfatı və mədəniyyət məzmunlu fəaliyyətlə məşğul olurdu. Almaniya ilə əlaqələr yaradılmamışdır[126].

Alman kommunist-beynəlmiləlçilər Şimali Qafqazın almanlara məxsus sənaye obyektlərində də vəziyyəti öyrəndikdən sonra qeyd edirlər ki, "çuquntökmə və mexaniki zavodların fəhlələri yerli imkanlı kolonistlərin nümayəndələridir və heç bir inqilabi işdə iştirak etmirlər. Onların Moskvaya və yaxud Şimala köçürülməsi və onların əvəzinə "zülm çəkmiş və əldən düşmüşlərin göndərilməsi təklif olunurdu. Alman əhalisi arasında proletar inqilabının ideologiyasını yaymaq üçün mədəni-maarif işlərinə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə koloniyalarda oxu-komaları təşkil olunurdu. Ancaq əhali, əsasən də alman gənclərinin mədəni-maarif tədbirlərinə cəlb edilməsi heç bir nəticə vermirdi və bunun səbəbi kimi – "millətçilik, din və sakinlərin zənginliyi" göstərilirdi. Şimali Qafqaz kommunist – beynəlmiləlçi qrupları ruhdan düşmür, Mərkəzi Komitəyə "tez bir zamanda alman gənclərini sovetləşdirməyə və inqilablaşdırmağa söz verirdilər[127].

Beləliklə, 1920-ci ilin yazından Şimali Qafqazda bolşeviklər möhkəm və uzunmüddətli hakimiyyətin əsasını qoydular. Bolşevik Rusiyası Sovet Azərbaycanından istifadə edərək Gürcüstanın da müstəqilliyinə son qoymağa çalışırdı. 1921-ci ilin fevralında Sovet Rusiyası Gürcüstan Demokratik Respublikasını işğal etdi. Cənubi Qafqazın bütün alman koloniyalarında da sovetləşmə prosesi başladı.

# NƏTİCƏ

XIX əsrin ikinci yarısından başlayaraq Qafqaz almanlarının həyatında bir sıra mühüm dəyişikliklər baş verdi. İlk növbədə Şimali Qafqazın Kuban, Don, Stavropol, Terek ərazilərində alman məskunlaşmasının intensivləşməsini qeyd etmək lazımdır. Bu, Krım və Qafqaz müharibələrinin başa çatmasından sonrakı dövrdə Şimali Qafqazda gedən demoqrafik proseslərin nəticəsi idi: minlərlə yerli Qafqaz xalqları çarizmin işğalçılıq siyasəti ilə barışmayaraq öz torpaqlarını tərk edərək Türkiyəyə və sair ölkələrə köçməyə məcbur oldular. Onların boş qalmış torpaqlarına, əsasən slavyan mənşəli xalqlar köçürülsə də, bu məskunlaşma prosesində almanlar da fəal iştirak etdilər.

XIX əsrin ikinci yarısında Qafqazda alman məskunlaşmasının ən xarakterik cəhəti – onun ölkədaxili xarakter daşıması idi. Şimali Qafqazda yaranan koloniyaların böyük əksəriyyətini Saratov, Samara, Yekaterinoslav, Tavriya, Bessarabiya və sair quberniyalarda yaşayan, torpaq çatışmazlığı və başqa sosial problemlərlə üzləşən kolonistlər təşkil edirdilər. Bu dövrdə Cənubi Qafqazda yaranan yeni koloniyalar mövcud koloniyaların daxili resursları hesabına yaranmışdılar və "törəmə" koloniya adlanırdılar.

XIX əsrin ikinci yarısında Rusiyada kapitalist münasibətlərinin inkişafı almanların kənd təsərrüfatı rayonlarında məskunlaşmasını intensivləşdirən əsas amillərdən biri idi. Baxdığımız dövrdə təkcə Şimali Qafqazın boş qalmış ərazilərində 220 alman koloniyası yaranmışdı. Şimali Qafqazdan fərqli olaraq Cənubi Qafqazda əkinəyararlı boş torpaq sahələri az olduğundan burada yeni alman koloniyaları yerli azərbaycanlı və gürcü kəndlilərinin torpaqları hesabına yaradılırdı.

Şimali Qafqazda alman məskunlaşmasının başqa bir xüsusiyyəti – bu prosesin bəzi yerlərdə kortəbii xarakter daşıması idi. Rusiyanın başqa regionlarında yaşayan kolonistlər bəzən köhnə yaşayış yerlərində qeydiyyatda qalaraq Şimali Qafqaza köçür, burada da özlərinə təsərrüfatlar yaradırdılar. Hökumət dairələrinin kortəbii məskunlaşma ilə mübarizəsi on illərlə davam etsə də, bu prosesi yalnız XX əsrin əvvəllərində tənzimləmək mümkün olmuşdu. Cənubi Qafqazdan fərqli olaraq, Şimali Qafqazda və əsasən də Don ərazisində yaranan koloniyalar nəsli xarakter daşıyırdı: hər koloniya yalnız bir nəslin nümayəndələri tərəfindən salınmışdı.

Qafqazın alman koloniyaları təsərrüfat sahəsində mühüm nailiyyətlər əldə etmişdilər ki, bu da həm torpaqların münbitliyi, almanların yeni təsərrüfat metodlarını və əmək alətlərini, kənd təsərrüfatı maşınlarını tətbiq etməsi və əməksevərliyi ilə izah oluna bilər. Çar hökumətinin almanlara kreditlərlə yardım etməsi, onların sosial-iqtisadi fəaliyyətini daim nəzarətdə saxlaması da almanların iqtisadi yüksəlişini təmin edən amillərdəndir. Hələ XIX əsrin ortalarından Qafqaz alman koloniyalarında tətbiq edilən fermer təsərrüfat forması regionun iqtisadiyyatında müsbət hal idi və kapitalist istehsal üsulunun inkişafına, kənd təsərrüfatının bazar iqtisadiyyatına inteqrasiya olunmasına müsbət təsir göstərmişdi. XX əsrin əvvəllərində də ənənəvi olaraq Şimali Qafqaz almanları əsasən əkinçilik və maldarlıqla, Cənubi Qafqaz kolonistləri isə üzümçülük, bəzi yerlərdə əkinçilik və maldarlıqla məşğul olurdular.

Çar hökuməti almanların köməyilə Qafqazda yerli əhaliyə yeni təsərrüfat vərdişlərinin aşılanması, regionda xristian xalqlarının sayının artırılması kimi niyyətlərinə müəyyən dərəcədə nail olsa da, kütləvi alman məskunlaşması XIX əsrin 70-ci illərindən başlayaraq Rusiya dövləti üçün təhlükə mənbəyinə çevrildi.

Rusiya hökumətinin alman məskunlaşması ilə bağlı narahatçılığının obyektiv əsasları vardı. 1871-ci ildə Almaniyanın birləşməsi prosesinin başa çatması, Rusiya ilə Almaniya arasında münasibətlərin kəskinləşməsi, Almaniyanın Rusiyaya qarşı açıq-aşkar təcavüzə hazırlaşması Rusiya ictimaiyyətində "əməksevər alman" haqqında müsbət stereotiplərin dəyişməsinə səbəb oldu. Çar hökumətinin 1884, 1887, 1888, 1892, 1895-ci illərdə qəbul etdiyi qərarlar Rusiyanın sərhəd zonalarında, o cümlədən Qafqazda "alman elementi"nin məhdudlaşdırılmasına yönəlmişdi. Çarizmin "antialman" siyasətinə pangermanist dairələrin bəyanatları da təsir göstərirdi. Belə ki, alman militaristləri Rusiyanın bölüşdürülməsi planlarını cızır, bu planların həyata keçirilməsində Rusiyada yaşayan 2 mln. almanın aparıcı rol oynayacağını vurğulayırdılar. Şantaj xarakterli bu cür açıqlamalar çar hökumətinin alman kolonistlərinə qarşı mövqeyinin daha da sərtləşməsinə səbəb olurdu.

Ancaq çar hökumətinin XIX əsrin sonu – XX əsrin əvvəllərində apardığı "almanları məhdudlaşdırma" siyasəti heç bir əməli nəticə vermədi. "Alman elementi" Rusiyanın iqtisadi həyatına o qədər sıx in-

teqrasiya olmuşdu ki, yaranmış iqtisadi sistemdə istənilən dəyişiklik iqtisadi xaosa gətirib çıxara bilərdi: XX əsrin əvvəllərində almanlar sənaye və kənd təsərrüfatına görə Rusiya iqtisadiyyatında nəzərəçarpacaq çəkiyə malik idilər. Bir faktı qeyd etmək kifayətdir ki, XX əsrin əvvəllərində Rusiya almanlarının şəxsi mülkiyyətində 2 mln. desyatin torpaq sahəsi vardı.

Alman əhalisinin iqtisadi sahədə fəaliyyətinin genişlənməsi müxtəlif alman torpaqlarından – Baden-Vürtemberq, Şvabiya, Prussiya, Hessen, Bavariya və sair ərazilərdən gəlmiş mühacirlər arasında coğrafi, etimoloji, psixoloji fərqlərin silinməsinə, vahid "Rusiya almanları" anlayışının formalaşması üçün şərait yaratdı, alman əhalisinin Qafqazın yerli əhalisi ilə əlaqələrinin genişlənməsinə müsbət təsir etdi. Yeri gəlmişkən qeyd edək ki, alman kolonistlərinin Qafqazın müxtəlif xalqları ilə qarşılıqlı münasibətləri heç də eyni xarakterli olmamışdır. Aparılan tədqiqatlar almanlarla – çeçenlər, kabardinlər, balkarlar, gürcülər, azərbaycanlılar, ruslar arasında münasibətlərdə müəyyən problemlərin mövcudluğunu göstərir. Ancaq qeyd edək ki, bütün bu adı çəkilən xalqlarla almanlar arasında baş verən münaqişələr çar hökumətinin torpaq, əmlak haqqında qanunvericiliyində mövcud olan boşluqlar ucbatından yaranırdı. Əsasən məişət xarakterli bu cür münaqişələr adı çəkilən Qafqaz xalqları ilə alman kolonistləri arasında birgəyaşayış münasibətlərin formalaşmasına xələl gətirə bilmədi. Erməni-alman münasibətləri üzərində xüsusi olaraq dayanmaq lazımdır. Belə ki, almanlarla ermənilər arasında münasibətlər, əksər hallarda, məişət çərçivəsindən çıxaraq siyasi rəng alırdı və bu tip münasibətlərin əsas günahkarı ermənilər, onların XIX əsrin sonlarından fəaliyyətə başlayan millətçi partiyaları idi. Qondarma "erməni məsələsi"ndə Almaniyanın ədalətli olaraq erməni millətçilərini qınaması, alman kolonistlərinin Qafqazda terror fəaliyyəti ilə məşğul olan erməni quldur dəstələrinə müqavimət göstərməsi – bütün bunların nəticəsi kimi ermənilər almanlara qarşı düşmənçilik münasibəti bəsləyir, tez-tez onların koloniyalarına basqınlar edirdilər.

Erməni quldur dəstələrinin alman kolonistlərinə qarşı terrorçu fəaliyyəti çar hökumətinin "antialman" siyasəti fonunda baş verirdi. 1870-ci illərdən başlayan "alman məsələsi"nə Birinci Dünya müharibəsi illərində son qoyuldu. Almaniya və Rusiya arasında hərbi

əməliyyatların başlanması çar hökumətinin alman kolonistlərinə qarşı açıq ayrı-seçkilik siyasəti aparması üçün rəvac verdi. 1915–1916-cı illər ərzində almanların fəaliyyətinin məhdudlaşdırılmasına yönələn 10-dan çox qanun qəbul edildi. 1915-ci il 02 fevral və 13 dekabr qanunlarına görə sərhədyanı quberniyalarda yaşayan alman əhalisi, şərait tələb edərsə, öz yaşadıqları ərazilərdən Sibirə və Orta Asiyaya deportasiya edilməli idilər. Birinci Dünya müharibəsi illərində Rusiyanın qərb quberniyalarında, o cümlədən Şimali Qafqazda yaşayan alman kolonistlərinin bir qismi adı çəkilən qanunlara uyğun olaraq öz yaşayış yerlərindən sürgün edildilər. Qafqaz almanlarını bütünlüklə deportasiyadan 1917-ci ilin Fevral inqilabı xilas etdi.

Çarizmin devrilməsindən sonra Rusiyanın bütün xalqları kimi almanlar da demokratik dəyişikliklərdən istifadə edərək öz hüquqları uğrunda mübarizəyə başladılar. Almanların əsas məqsədi Rusiyada respublika quruluşunu dəstəkləmək, dövlətin bütövlüyünü saxlamaqla milli-mədəni muxtariyyət əldə etməkdən ibarət idi. 1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişi Rusiyanın demokratik yolla inkişafının üstündən xətt çəkdi və keçmiş Rusiya imperiyası ideoloji əsaslarda parçalanmaya məruz qaldı. Qafqaz almanları Rusiyada gedən vətəndaş müharibəsində neytral mövqe nümayiş etdirsələr də, praktikada daha çox menşeviklərin mövqeyini bəyənirdilər.

Oktyabr çevrilişindən sonra Qafqazda sürən siyasi qeyri-müəyyənlik 1918-ci ilin yazında sona yetdi: Cənubi Qafqaz əvvəlcə Zaqafqaziya Federativ Respublikasında birləşdi, bir qədər sonra – 1918-ci ilin mayında 3 müstəqil dövlətə parçalandı. Beləliklə, Qafqaz almanları Sovet Rusiyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və Gürcüstan Demokratik Respublikasının tərkibində öz həyatını yenidən qurmağa başladılar. 1918-ci ildə Almaniya hərbi kontingentinin Cənubi Qafqazda, əsasən də Gürcüstanda mövqelərini gücləndirməsi alman kolonistlərinin də əhval-ruhiyyəsinin dəyişməsinə, Gürcüstan almanlarının Almaniyanın "Qafqaz" siyasətində "əhəmiyyətli amilə" çevrilməsinə gətirdi: kolonistlər Almaniyanın Gürcüstanda mövqelərinin güclənməsində öz praktiki köməyini əsirgəmirdilər.

Almaniya hökuməti Azərbaycandakı alman kolonistləri amilindən istifadə edərək AXC-nin daxili işlərinə qarışmağa cəhd etsə də, Azərbaycan hökumətinin və birinci növbədə Türkiyənin sərt mövqeyi

buna imkan vermədi. Almaniya qoşunları Qafqazı tərk etdikdən sonra alman kolonistlərinin fəaliyyəti öz təbii axarına düşdü: onlar Gürcüstan və Azərbaycan dövlətlərinin bütün vətəndaşları kimi öz yeni vətənlərinin taleyini yaşamağa başladılar.

Şimali Qafqaz almanları 1918–1920-ci illərin vətəndaş müharibəsi nəticəsində təqiblərə, itkilərə məruz qaldılar və sovet hakimiyyətinin 1920-ci ilin yazında qəti qələbəsi ilə onların həyatında yeni – bolşevizm dövrü başladı. Tezliklə bolşevizm kölgəsi Cənubi Qafqazın da üstünü aldı və bütün Qafqaz almanları sovet hakimiyyətinin bayrağı altında birləşdirildilər. Gələcəkdə onları "yeni iqtisadi siyasət", stalinizm dövrünün repressiyaları, yeni siyasi böhranlar və 1941-ci ildə ucdantutma deportasiya gözləyirdi. Beləcə, Qafqaz almanlarının tarixi faciəli şəkildə qırılmış oldu.

XXI əsrin əvvəllərində keçmişin yenidən nəzərdən keçirilməsinə, yenidən təhlilinə cəmiyyət ehtiyac hiss edir. Çünki, müasir dövrdə miqrasiya prosesləri, milli diasporların fəaliyyəti ilə bağlı məsələlər beynəlxalq münasibətlərin vacib məsələlərindəndir. Mürəkkəb iqtisadi, sosial, etno-siyasi amillərdən yaranan bu problemlər, öz növbəsində etnoslararası, dövlərlərarası münasibətlərə təsir edir. Bu səbəbdən həm dövlət, həm də cəmiyyət adı çəkilən prosesləri nəzarətdə saxlamaqda, onların axarını dəqiq çərçivəyə salmaqda maraqlıdır və miqrasiya ilə, milli diasporlarla bağlı məsələlər Azərbaycan dövləti üçün də olduqca aktualdır. Bu gün soydaşlarımız dünyanın 120 ölkəsində təmsil olunduğu kimi, respublikamızın iqtisadi inkişafı fonunda ölkəmizə gələn miqrantların sayı da artır.

Bəşər tarixi, əslində, miqrasiyalar tarixidir. Miqrasiya siyasətinin düzgün qurulmasında, milli diasporla işin planlaşdırılmasında tarixi təcrübənin öyrənilməsi və onun əsasında konkret təkliflərin irəli sürülməsi dövlətin bu sahədə siyasətinin daha da effektli olmasına xidmət edir. Bu nöqteyi-nəzərdən miqrasiyalar tarixinin, o cümlədən Qafqazda məskunlaşan alman əhalisinin tarixinin öyrənilməsi həmişə öz aktuallığını saxlayacaqdır.

# РЕЗЮМЕ

В монографии “**Общественно – политическая жизнь немецкого населения Кавказа (1860-1920 гг.)**” освещены малоизученные страницы истории немецкого населения.

В введении автор отмечает, что проблемы общественно – политической жизни немецкого населения Кавказа изучены недостаточно. В период с 1860-го по 1920-ые гг. в жизни немецкого населения произошли значительные изменения, которые оказывали влияние на их дальнейшую судьбу.

Первая глава монографии **“Немецкий вопрос” во внутренней и внешней политике России во второй половине XIX – начале XX вв.”** посвящена актуальным проблемам взаимоотношений Германии и России во второй половине XIX начале XX вв. и влияния фактора ”российских немцев” на характер этих взаимоотношений. Автор подчеркивает, что до возникновения Единой Германии в 1871 году, царское правительство положительно относилось к немецкому населению, при чем возлагало на них большие надежды в осуществлении планов государственной важности. Но с образованием Германии, в политике царизма по отношению к немецкой колонизации произошли заметные изменения, что было связано как с агрессивной политикой Германии по отношению к России, а также стремительным ростом численности немецкого населения в западных губерниях, на Северном Причерноморье, на Кавказе и других стратегически важных регионах. Таким образом, возник кризис во взаимоотношениях царского правительства с немецким населением страны, что в историографии получил название как “немецкий вопрос”.

Интенсивность обсуждения “немецкого вопроса” напрямую была связана с характером российско-германских отношений, которые в рассматриваемый период были переменчивыми. В 1860–1870-х годах “немецкий вопрос” обсуждался на уровне общественности, и отдельные официальные лица пытались поднять обсуждение этого вопроса на правительственный уровень. После создания антироссийского “Тройственного Союза” “немецкий вопрос” стал одним из актуальных во внутренней политике правительства. Сущность данной проблемы

уже была знакома правительственным кругам, и поэтому обсуждение шло о подходящих мерах по ограничению немецкой колонизации в стратегических губерниях.

В 1885 году была создана правительственная комиссия во главе с В.К.Плеве, которая должна была выработать законодательную основу для осуществ- ления ограничительных мер против российских немцев.Законом от 14 марта 1887 года немецкая колонизация в приграничных губерниях была ограничена. Закон от 15 июня 1888 года был направлен на ограничения самоуправления немцев, которое было даровано им ещё манифестами Екатерины II. Как ответная мера, правительство Германии приняло ряд экономических решений, которые привели к снижению российского импорта в Германии и девальвации российских ценных бумаг. В немецкой националистической прессе участились публикации антироссийского характера.

С приходом к власти царя Николая II отношение к немецкому населению стало более либеральным. Но после вступления России в "Антанту" российско- германские отношения вновь обострились и обсуждение "немецкого вопроса" было перенесено на Государственную Думу. В 1910 году премьер-министр П.А.Столыпин разработал новый законопроект об ограничении немецкого элемента, но с убийством Столыпина и этот проект остался на бумаге. Отношения между Германией и Россией год за годом осложнялись и летом 1914 года переросли в кровопролитную войну, которая дала возможность царизму вырешить "немецкий вопрос" военно-карательными методами.

Во второй главе **"Первая Мировая война и репрессивные меры царизма против кавказских немцев"** рассматриваются вопросы взаимоотношений царских властей с немецкими колонистами в годы I Мировой войны. Следует отметит, что эта проблема является одной из спорных в историографии истории немецких колоний, существовавщих в прошлом на территории постсоветских республик. Предметом острых дебатов является вопрос о том, как относились этнические немцы к России, которая вела военные действия против Германии – исторической родины российских немцев?

Автор на основе архивных документов показывает, что российские немцы в годы I Мировой войны были на стороне России – страны, которая их принимала и стала для них второй родиной.

Немецкое население оказывало русской армии материальную помощь как наличными деньгами, так и сельскохозяйственными продуктами. Около 1500 кавказских немцев воевали в составе русской

армии. Кроме того, немецкое население принимало активное участие в разных благотворительных акциях и собранные в них средства шли на нужды беженцев, инвалидов войны и других категорий населения.

В конце главы автор отмечает, что вся благотворительная деятельность немецких колонистов осуществялась тогда, когда со стороны царских властей по отнашнию к немцам велась дискриминационная политика.

В третей главе **“Движение за автономию немцев Северного Кавказа и Грузии, и её результаты (с марта 1917-го по май 1918-го гг.)”** рассматриваются ещё неизученные страницы истории кавказских немцев в период после свержения царизма в России до провозглашения независимых республик Южного Кавказа. Автор на базе широких архивных документов освещает основные проблемы немецкого населения на пути получения национально-культурной автономии.В течение 1917 года немцы Кавказа провели несколько съездов, где были приняты важные решения относительно их экономической, политической и культурной жизни. Как отмечает автор, решения немецких колонистов не были одобрены Временным правительством и только провозглашенными в мае 1918 года независимыми республиками Азербайджана и Грузии немецкое население связывало свои надежды на культурную автономию.

В этой главе также освещаются вопросы межнациональных отношений в период после Февральской революции 1917 года. Революция наряду с демократией принесла также экономический и политический хаос, нагнетание национализма и экстремизма.Основной мишенью армянских националистов являлось тюрко-мусульманское население, однако как свидетельствуют архивные документы жертвой армянского терроризма стало также немецкое население, проживающее в губернии.В работе приводятся документальные факты о грабежах и насилиях,творимые армянскими бандформированиями против немецких колонистов в 1917-1918 гг.Эти бесчинства прекратились только после создания Азербайджанской Демократической Республики, которая обеспечила мирное развитие немецких колоний.

В четвёртой главе “**Северный Кавказ и Грузия в планах Германии, особенности “немецкой” политики Советской России и Грузии**” отмечается, что в конце мая 1918 года в Южном Кавказе возникли азербайджанские и грузинские национальные государства. Поскольку страны “Антанты” не признавали никаких государственных образований на территории бывшей царской России, молодые

Азербайджанская и Грузинская Республики сближались со странами бывщего “Тройственного союза”. Если союз Азербайджана с Турцией имел естественный характер и отвечал национальным интересам Азербайджанского народа, то отношения Грузии с Германией больше напоминали взаимоотношения колонии с метрополией. Германия пользовалась Грузией в качестве плацдарма и планировала распространять своё влияние на весь Южный и Северный Кавказ. В осуществлении намеченного Германия возлагала большие надежды на немецкое население Южного Кавказа, которое проживало тут уже больше 100 лет. В работе показано отношение немецких колонистов к проводимой на Кавказе германской политике. В июне 1918 года Германия взяла под контроль всю Грузию.В этом деле им активно помогали колонисты, которые проживали в этом регионе еще с начала XIX века. Положение населения Грузии было очень тяжелое.Жизь азербайджанского населения, компактно проживавшего в Борчалинском уезде, была невынасима.Так как и со стороны германских военных, и со стороны армянского и грузинского населения против них совершались насильственные акты. Азербайджанцы видели выход из положения в присоединении к соседней Азербайджанской Республике.

В конце монографии показаны основные выводы исследования.

# SUMMARY


In the monograph **"The social-political life of German Colonies in Caucasus (1860-1920)"** have been investigated unknown facts of the German population. In the introduce- tion of the monograph author notes that the social, political life of the Caucasian Germans problems have not deeply been investigated. In 1860-1920 during in the history of the Caucasian Germans happened very important events that these events have great influenced to future life of the Germans.

The first part of the monograph **" German problem in the inside and foreign policy of Russia in the second half of the XIX century and at the beginning of the XX century"** is dedicated to the actual problems of interrelations between Germany and Russia in the second half of XIX century- beginning of XX century and impact of "Russian Germans" factor to the character of these interrelations. The author underlines that tsar government treated the German population positively and relied on them in realization of plans of state importance till the creation of United Germany in 1871. But with the formation of Germany tsarist policy in connection with German colonization underwent notable changes after the formation of Germany. This was connected not only with the aggressive policy of Germany against Russia, but also with the growth of German population in the western provinces, North Black Sea area, Caucasus and other strategically regions. So crisis appeared in the relationship of tsar government with the German population of the country, as the result it went down as "German problem" to the historiography.

The intensity of discussion of "German problem" was directly connected with the Russian - German relationship that was changeable during this period. In 1860-1870s "German problem" was discussed in the level of society and separate officials made an attempt to raise the problem on the governmental level. After the foundation of ant Russian "Triple Unity" "the German problem" became one of the actual one in the domestic policy of government. Governmental centre were familiar with the essence of the given problem and that's why the problem of restriction of German colonization in the strategic provinces was being discussed.

In 1885 state commission headed by V.K. Pleve was founded, which was to work out legislative basis to realize the process of restriction against

Russian Germans. According to the law passed on the 14th of March, 1887 German colonization on borderline areas was restricted. Law launched on the 15th of June, 1888 contained the restriction of German self-government, which was donated by the manifests of Ekaterina II.As a feedback, German government adopted several economic decrees that lead to the decrease of Russian import in Germany and devaluation of Russian securities. Ant Russian articles in German press became more frequent.

The attitude towards German population became more liberal after Nikolai II came to power. But soon after the entrance of Russia to "Antanta", Russian - German relations became strained and the discussion of "German problem" was transferred to parliament. In 1910 Prime Minister P.A. Stolipin worked out the draft law on restriction of German element. But with his murder this project remained on paper. Relation between Russia and Germany became aggravated within years and this resulted in bloody war in summer of 1914 that gave opportunity to tsarist to solve "German problem" by military-punitive methods.

In second part of the monograph **"The First World War and the repression measure against Caucasian German of the tsarism"** were scrutinized the questions about the corelation between Royal authority and Geman colonists during I World War. We have to mention that this problem about the history of Geman colonists existed at the territory of post-Soviet Republic is too disputable. The main object of debates is the question about how was the attitude of ethnic Gemans to Russia-the country that had military activities against Gemany, the historical motherland of Russian Gemans?

In this part the anthor on the basis of archive documents shows that Russian Gemans were on the side of Russia-the country that hosted them and became the second motherland for them during I World War.

Geman population were helping to Russian army both in financial and in provisions, and food-stuffs. About 1500 Caucasus Gemans were fightin on the side of Russia.

Besides that the Gemans population took an active part in different benneficents and the received sources were used to the needs of refuges, disabled people of war and other categories of population.

At the end of the article the anthor mention that all the charities of Geman colonist's emplemented at the time when Royal authority had got the politics of discrimination in attitude to Gemans.Tsar made a decision on 22 September 1914. According to this law getting property was prohibited for German people. Germans living in Russia were under the control of the

police. The process of changing of the names of the German places existing in Russia began according to the tsar's decree on 15 October 1914.

The decision was made about disaffirmation of the decision of the disaffirmation of the German properties on 2 February 1915. The properties belonging to Germans in all regions of the Caucasus were entered in the list. Only Germans accepting Russian citizenship till 1880 were compromised. The law passed on 13 December 1915 meant the disaffirmation of the properties of all Germans not depending on citizenship.

The condition of Germans having foreign citizenship was worse. According the law passed on 7 May 1916 the Germans would be exiled to Siberia and Middle Asia. The discrimination against Germans by tsar didn't include only economy. The German lessons were prohibited in German schools; teachers in origin German were sacked. The activities of the religious organizations belonging to Germans were under surveillance. Though all of it the Russian and Caucasus Germans served government faithfully, thousands of Germans served in the Russian armies and fighted against enemies. The deportation of the Germans to Siberia was planned in spring of 1917. The bourgeois and democratic revolution on 27 February 1917 saved them.

The third part "**The Autonomy movement of the North Caucasus and Georgia Germans and its result (the March of 1917 the May of 1918)"**deals with undisclosed problems of the social-political life of the Caucasion Germans after the fall of tsarism. There was a revolution in Russia in February of 1917. As the result some democratic changes took place in the country. However the revolution brought economic and political chaos alongside with innovations. Armenian nationalists in Caucasus commenced the agression against Azerbaijanis and other peoples.Germans become the target of this agression too. During the years 1917-1918 Armenians attacked German dwelling locations for several times.Some Germans died and some got injured, and their economy suffered a great loss. Establishment of the Azerbaijan Democratic Republic on May 28, 1918 rescued the German population from Armenian attacks.

The author has investigated the struggle of germans for the cultural autonomy on the basis of archives.Provisional government disapproved the decisions of the Germans. Caucasion Germans cherished for the newly established Azerbaijan and Georian Republics to gain national-cultural autonomy.

In fourth part of the monograph **"North Caucasus and Georgia in the plans of the Germany, the features of the "german" politics of the Soviet Russia and Georgia"**autor accents that in May of 1918 the Azerbaijan

and Georgian republics were established. Antanta countries didn't want to know the states established in the territory former Tsar Russia. For this reason the new republics began to set up close relations with Germany and its allies. Azerbaijan concluded a military agreement with Turkey and it met national interests of Azerbaijan. Georgia-Germany close relations resulted in actual occupation of Georgia. Germany wanted to extend his influence to the whole Caucasus using Georgia. Germany cherished great hopes to german population living in Southern Caucasus.The attitude of Caucasian german population to the policy of Germany is reflected in the article by concrete documents.

The German forces took whole control of Georgia in 1918, June. The German colonizers inhabited in Georgia from the XIX century helped them actively. The Georgian people lived under hard conditions. The condition of the azerbaijanians living in Borcali was unbearable. So, they were used acts of violence by both of the German forces and colonizers and neighbor Armenian and Georgian people. The Georgian azerbaijanians wanted to unite to Azerbaijan for way out of this situation.

Basic results of the investigation have been shown at the end of the monograph.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT

## Giriş


1. Плохотнюк Т.Н. К вопросу о немецкой миграции в Северо-кавказском регионе. //Вестник СГУ, №15,1998, с.6-15.

2. Резолюция Российско-Германской научной конференции "Российские немцы на Дону, Кавказе и Волге". // Российские немцы на Дону, Кавказе и Волге. Материалы Российско-Германской научной конференции. М., 1995, 355 с.

3. Велицын А.А. Немцы в России. Очерки исторического развития и настоящего положения немецких колоний на Юге и Востоке России. СПб., 1893.

4. Ренников А. (Селетренников А.М.) Золото Рейна. Петроград, 1915, 390 с.; Веретьев Р. Ю. Анна Ивановна: её личность, интимная жизнь и правление. Берлин, 1912, 342 с.

5. Линдеман К.Е. Законы 2-го февраля и 13 декабря 1915 г. (об ограничении немецкого землевладения в России) и их влияние на экономическое состояние Южной России. М., 1916.

6. Шелухин С.П. Немецкая колонизация на юге России. – Одесса, 1913; Штах Я. Очерки из истории и современной жизни южнороссийских колонистов. М., 1916.

7. Покровский М.Н. Русская история в самом сжатом очерке. М., "Партиздат", 1933, 544 стр.

8. Никитинский И.И., Софинов П.Г. Немецкий шпионаж в России во время войны в 1914-1918 гг. М., "ОГИЗ", 1942, 46 с.; Никитинский И.И., Софинов П.Г. Немецкий шпионаж в царской России. Саратов: Сароблиздат, 1942, 69 с.

9. Манджгаладзе Г.Х. Немецкие колонисты в Закавказье. Автореф. дисс. канд. ист. наук. Тбилиси, 1970, 35 с.

10. Yenə orada, s.19,27.

11. Пипия Г.В. Политика Германии в Закавказье в 1918 год. Сборник документов. Тбилиси, 1971.

12. Пипия Г.В Германский империализм в Закавказье в 1910-1918 гг. М., Наука, 1978.

13. Чекменев. С.А.Иностранные поселения на Ставрополье в конце XVIII и в первой половине XIX в.// Материалы по изучению Ставропольского края. Ставрополь, 1971, вып.12-13, с. 243-253.

14. Алиев К. Немцы на Южном Кавказе или моя жизнь в Анненфельде Б.: 2000; Алиев К. Швабы в Азербайджане. Б., 2003.

15. Ахундова Т. Немецы-колонисты Азербайджана XIX – нач. XX в. Б., Шуша, 1999.

16. Джафарли М. Политический террор и судьбы азербайджанских немцев. Б., 1998.

17. Зейналова С.М. Немецкие колонии в Азербайджане (1819-1941гг.) Баку., Араз, 2002.

18. Зейналова С.М. Немцы на Кавказе. Баку, 2008.

19. Гумбатова Т.Ф. Духовная жизнь немцев в Баку / Российские немцы. Проблемы истории, языка и современного положения. Материалы международной научной конференции. М., Готика, 1996; Гумбатова Т.Ф. Жизнь немцев-колонистов за Кавказом., Баку, 2005.

20. Вердиева Х.Ю. Переселенеческая политика Российской империи в Северном Азербайджане в первой трети XIX века. Б.: Алтай, 1999.

21. Berzeneşvili N. Bu köhnə, köhnə Tbilisi, ”Tbilisi” qəzeti, 2003, 17-18 noyabr; Çoğarqava Z. Ana vətəndən ana vətənə. //”İmic” jurnalı, 2003, №8, s.19-20; Noradze M. Qriqori Noradzenin həyatından bir səhnə. Tbilisi, 1989, 235 s.; Kvirkelia T., Kurtisvili V. Tiflisdə almanların məskunlaşması. // “Literatura” журналы, №1-6, 1995, s.14-34; Sonqulaşvili A.V. Almanlar Gürcüstanda. Tbilisi: Metsniereba, 1995, 52 s.

22. Плохотнюк Т.Н. Российские немцы на Северном Кавказе. М., 2001.

23. Виноградов В.Б. Средняя Кувань: земляки и соседи (формирование традиционного состава населения). Армавир, 1995., с.96; Белозеров В.С. Этническая карта Северного Кавказа. М.: ОГИ, 2005; Цуциев А. Атлас этнополитической истории Кавказа (1774-2004). Москва:, “Европа”, 2006, 129 с.

